Muhəmmədrza Muşfiqipur

FİQH TƏLİMİ

Ayətullahil-uzma Seyyid Əli Xamneinin fətvaları əsasında

Tərcümə edən:
Mətanət Hüseynova

بسم الله الرحمن الرحيم

I fəsil

TƏQLİD

BİRİNCİ DƏRS

TƏQLİD (١)

– *Müqəddimə*

– *Şəriət hökmlərini əldə etməyin yolları*

– *Təqlidin növləri*

– *Təqlidsiz yerinə yetirilən əməllər*

١. MÜQƏDDIMƏ

Mükəlləf[١] namaz, oruc, təharət, bəzi alqı-satqılar və s. bu kimi gündəlik qarşıya çıxan şəri vəzifələrinin hökmünü öyrənməlidir. Əgər bu şəri məsələləri öyrənməmək vacib bir əmənin tərk olunmasına, yaxud haram bir işin yerinə yetirilməsinə səbəb olarsa, mükəlləf günahkardır[٢].

Diqqət:

Aşağıdakı şərtlərə malik olan şəxsə mükəlləf deyilir.

Mükəlləfin şərtləri
- ١. Həddi buluğ
- ٢. Əql
- ٣. Qadir olmaq

---

[١] Şəri vəzifəsi olan şəxs

[٢] Əcvəbətul-istiftaat, ٦-cı sual. Rəhbərdən soruşulan suallar, Təqlid bölümü, ٦-cı məsələ

Həddi-buluğun əlamətləri bu üç əlamətdən biridir[١]

- ١.İnbat, yəni, qarının altında cinsiyyətin üstündə qalın tüklərin çıxması
- ٢.İhtilam, yəni, spermanın xaric olması
- ٣. Oğlanlarda hicri-qəməri tarixi ilə ١٥ yaşın və qızlarda ٩ yaşın tamam olması

Cinsi əlaqə, həddi-buluğun əlaməti hesab olunmur. Lakin cənabətə səbəb olur və qüsül verilmədiyi halda həddi-büluğa çatdıqdan sonra qüsul vermək vacibdir[٢].

- Bir nəfərdə həddi-büluğun əlamətlərindən heç biri görünməsə, şəri baxımdan həddi-büluğ sayılmır və şəri vəzifə daşımır[٣].
- Təklif yaşından (həddi-büluğun əlamətlərindən üçüncüsü) qabaq inbat və ya ihtilamın (həddi-büluğun birinci və ikinci əlamətləri) baş verməsi sadəcə ehtimal verilərsə, həddi-büluğ hökmünün verilməsi üçün kifayət etmir[٤].
- Doqquz yaşından öncə qızın gördüyü qan, həddi-büluğun şəri əlaməti sayılmır[٥].

Qeyd etdiyimiz kimi həddi-büluğ yaşının meyarı, “qəməri” ilidir. Doğum tarixi şəmsi ili ilə məlum olduğu halda qəməri ili ilə şəmsi ili

---

[١] Əcvəbətül-istiftiaat, ٧٣٢, ١٨٨٧ və ١٨٨٩-cu suallar
[٢] Əcvəbətül-istiftiaat, ١٨٩١-ci sual.
[٣] Əcvəbətül-istiftaat, ١٨٩١-ci sual.
[٤] Əcvəbətül-istiftaat, ١٨٩٠-cı sual.
[٥] Əcvəbətül-istiftaat, ١٨٩٤-cü sual.

arasındakı fərqi hesablamaqla həddi-büluğ yaşını qəməri ili əsasında bilmək olar. (Bir qəməri ili ١٠ gün, ٢١ saat və ١٧ saniyə şəmsi ilindən azdır.[١])

٢. ŞƏRİƏT HÖKMLƏRİNİ ƏLDƏ ETMƏYİN YOLLARI

• Şəriət hökmlərini əldə edıb onlara əməl etmək üçün mükəlləfin qarşısında üç yol var[٢]
- ١. İctihada çatmaq
- ٢. Ehtiyat etmək
- ٣. Təqlid etmək

١.İctihada çatmaq: İctihad, şəriət hökmlərini və ilahi qanunları İslam fəqihlərinin nəzərində etibarlı sayılan sənədlər və qaynaqlardan əldə etmək deməkdir.

٢.Ehtiyata əməl etmək o deməkdir ki, mükəlləf öz şəri vəzifəsini yerinə yetirdiyinə tam arxayındır. Məsələn, bəzi müctəhidlərin haram bildiyi və bəzilərinin haram bilmədiyi bir işi yerinə yetirmir. Başqa tərəfdən də bəzi müctəhidlərin vacib bilmədiyi və bəzilərinin vacib bilmədiyi bir işi, yerinə yetirir[٣].

٣.Təqlid, şəriət hökmlərində xüsusi sifətlərə malik olan bir müctəhidə müraciət etmək deməkdir. Başqa sözlə desək, onun göstərişinə və fətvasına uyğun olaraq şəri vəzifələri yerinə yetirməkdir[٤].

---

[١] Əcvəbətül-istiftaat, ١٨٨٧ və ١٨٨٨-ci suallar.

[٢] Rəhbərdən soruşulan suallar, Təqlid bölümü, ١-ci məsələ.

[٣] Əcvəbətül-istiftaat, ١ və ٣-cü suallar. Rəhbərdən soruşulan suallar, Təqlid bölümü ١-ci məsələ

[٤] Əcvəbətül-istiftaat, ١ və ٣-cü suallar. Rəhbərdən sorşulan suallar, Təqlid bölümü, ١-ci məsələ.

Diqqət:

- Təqlid barəsində mövcud nəqli dəlillərdən əlavə, şəriət hökmlərini bilməyən bir şəxsin xüsusi sifətlərə malik olan bir müctəhidə müraciət etməsi əqlin hökmünə tam uyğun bir əməldir.[١]
- Müctəhid olmayan bir mükəlləf, müctəhidə təqlid etməli və ya ehtiyata əməl etməlidir[٢].
- Ehtiyata əməl etmək böyük diqqət və daha çox vaxt tələb etdiyi üçün, yaxşısı budur ki, mükəlləf, şəriət hökmlərində xüsusi sifətlərə malik olan müctəhidə təqlid etsin[٣].

• Bu üç sifətə malik olan şəxs üçün təqlid etmək vacibdir[٤]:

١. Mükəlləfdir
٢. Müctəhid deyil
٣. Möhtat deyil

٣. TƏQLİDİN NÖVLƏRİ

Dünyadan getmiş bir müctehidə təqlid ٢ növdür:

İbtidai[٥] təqlid: Yəni, mükəlləf, dünyadan getmiş bir müctəhidə təqlid edir ki, həmin müctəhid həyatda ikən ona təqlid etməmişdir. Bu növ təqlid ehtiyati-vacibə görə düzgün deyil.

Bəqayi[١] təqlid: Yəni, mükəlləf, dünyadan getmiş bir müctəhidə təqlid təqlid edir ki, həmin müctəhid həyatda ikən ona təqlid etmişdir. Bu

---

[١] Əcvəbətül-istiftaat, ١-ci sual
[٢] Rəhbərdən soruşulan suallar, Təqlid bölümü, ١-ci məsələ
[٣] Əcvəbətül-istiftaat, ٢-ci sual
[٤] Rəhbərdən soruşulan suallar, Təqlid bölümü ١-ci məsələ
[٥] İlk dəfə təqlid etmək.

növ təqlid düzgündür. Hətta əgər mükəlləf, təqlid etdiyi müctəhidin sağlığında qarşılaşmadığı bəzi məsələlərlə o müctəhid dünyadan getdikdən sonra qarşılaşarsa, bu məsələlərdə də onun göstərişlərinə əməl edə bilər[٢].

Diqqət:

Bəqayi təqliddə dünyadan getmiş müctəhidin ələm olub-olmamasının fərqi yoxdur və istər ələm[٣] olsun, istər olmasın, təqlid düzgündür. Lakin ehtiyata görə mükəlləf, dünyadan getmiş ələm müctəhidin təqlidində qalsa yaxşıdır[٤].

Dünyadan getmiş müctəhidə ibtidai və ya bəqayi tədlid, diri və ehtiyati-vacibə görə ələm müctehidə təqlid əsasında olmalıdır. Əlbəttə əgər zəmanənin fəqihləri dünyadan getmiş müctəhidin təqlidində qalmağın düzgün olduğu barədə eyni fikirdədirlərsə, ələm müctəhid-dən icazə almaq vacib deyil[٥].

- Mərcəyi-təqlidin sağlığında həddi-büluğa çatmayan şəxslər, əgər düzgün şəkildə ona təqlid ediblərsə, həmin müctəhid dünyadan getdikdən sonra onun təqlidində qala bilərlər[٦].
- Bir nəfər bir müctəhidə təqlid edir və bu müctəhid dünyadan getdikdən sonra bəzi məsələlərdə başqa bir müctəhidə təqlid edir.

---

[١] Təqliddə qalmaq

[٢] Şəri suallara cavab, ٢٢ və ٤١-ci suallar. Rəhbərdən soruşulan suallar, Təqlid bölümü, ٤-cü məsələ

[٣] Fiqhi termindir: elmdə hamıdan üstün olan müctəhid.

[٤] Əcvəbətül-istiftaat, ٣٥-ci sual.

[٥] Əcvəbətül-istiftaat, ٢٣ ٣٦ və ٤٠-cı suallar. Rəhbərdən soruşulan suallar, Təqlid bölümü, ٤-cü məsələ

[٦] Şəri suallara cavab, ٤٢-ci sual

Əgər ikinci müctəhid də vəfat etsə, bu şəxs, ikinci müctəhidə təqlid etdiyi məsələlərdən qeyri məsələlərdə birinci müctəhidin təqlidində qala bilər. Həmçinin ikinci müctəhidə təqlid etdiyi məsələlərdə də onun təqlidində qala bilər, yaxud təqlidini diri müctəhidə dəyişə bilər[١].

٤. TƏQLIDSIZ YERINƏ YETIRILƏN ƏMƏLLƏR

Təqlid etməyən və ya düzgün təqlid etməyən şəxslərin əmelləri aşağıdakı hallarda düzgün sayılır:

١. Ya ehtiyata uyğundur.

٢. Ya şəri vəzifəsi ilə üst-üstə düşür.

٣. Ya da o müctehidin nəzəri ilə uyğundur ki, ona təqlid etmək həmin şəxsin vəzifəsi idi[٢].

Suallar:

١. ***Əgər mükəlləf adətən ona lazım olan şəriət hökmlərini öyrənməkdə səhlənkarlıq göstərsə günahkardırmı?***

٢. ***Həddi-büluğun əlamətləri hansılardır?***

٣. ***Şəriət hökmlərini əldə etməyin yolları hansılardır?***

٤. ***Ehtiyata əməl etmək tövsiyə olunur, yoxsa təqlid etmək? Nə üçün?***

٥. ***Təqlidin növlərini izah edin.***

٦. ***Təqlidsiz yerinə yetirilən əməllərin hökmü nədir?***

---

١ Şəri suallara cavab, ٣٧-ci sual

٢ Şəri suallara cavab, ٧-ci sual.

İKİNCİ DƏRS

TƏQLİD (٢)

– *Mərceyi-təqlidin şərtləri*
– *Təqlidi bölmək*

٥. MƏRCEYİ-TƏQLİDİN ŞƏRTLƏRİ

Diqqət:

- Mərcəyi-təqlid şərtlərinə malik olan müctehidə təqlid etmək olar.

Mərcəyi-təqlidin şərtləri[١]

١. Kişi olsun
٢. Həddi-büluğa
٣. Ağıllı olsun
٤. On iki imam şiəsi olsun
٥. Halalzadə olsun
٦. Ehtiyata (vacib) görə diri olsun
٧. Ədalətli olsun
٨. Şəri fətvaları vermək vəzifəsini daşıyan Mərceyi-təqlid mənsəbinin həssas və əhəmiyyətli bir mənsəb olduğunu nəzərə alaraq mərceyi-təqlid olan müctehid, öz üsyankar nəfsini ələ almaq qüdrətinə malik olsun və dünyaya tamah salmasın.
٩. Müctəhid olsun.
١٠. Ehtiyati-vacibə görə "ələm" - yəni, elmdə daha üstün olsun.

---

[١] Şəri suallara cavab, ١٢, ١٥, ١٦, ٢١ və ٢٢-ci suallar. Rəhbərdən soruşulan suallar, Təqlid bölümü ٢-ci məsələ.

VII şərt: Ədalətli olmaq

١. Ədalət, elə bir mənəvi cəhətdir ki, insanın vacib əməlləri tərk etmək və haram olan əməlləri yerinə yetirməkdən çəkinməsinə bais olur[١].

٢. Ədalətli, bilərəkdən günah etməyən şəxsə deyilir (vacib əməlləri tərk etmir və haram əməlləri yerinə yetirmir).[٢]

٣. Bir şəxsi ədalətli adlandırmaq üçün zahirdə əməllərinin yaxşı olması kifayətdir.[٣]

IX şərt: Müctəhid olmaq

İctihad, bir cəhətdən iki qismə bölünür:

I. Mütləq ictihad: Fiqh bölümlərinin hamısında fətva vermək və nəzər söyləmək qüdrətinə malik olan müctehidin ictihadına deyilir. Bu müctehid də «mütləq müctehid» adlanır.

II. Mütəcəzzi ictihad: Namaz, oruc və s. bu kimi fiqh bölümlərinin bəzisində fətva vermək və nəzər söyləmək qüdrətinə malik olan müctehidin ictihadına deyilir. Bu müctehid isə «mütəcəzzi müctehid» adlanır[٤].

X şərt: Ehtiyati-vacibə görə ələm, yəni elmdə daha üstün olmaq.

١. Ələm müctehid, şəri hökmləri əldə etmək bacarığı digərlərindən daha çox olan müctehidə deyilir. Başqa sözlə desək, onun digər

---

[١] Şəri suallara cavab, ٥٦٢-ci məsələ.
[٢] Şəri suallara cavab, ١٣-cü sual.
[٣] Şəri suallara cavab, ٥٦٢-ci sual.
[٤] Şəri suallara cavab ١٠-cu sual

mərceyi-təqlidlərə nisbətən ilahi hökmləri tanımaq və bu hökmləri mövcud qaynaqlardan əldə etmək bacarığı daha çoxdur. Həmçinin öz dövrünün bir sıra fiqhi mövzularını tanımaq və onlar barəsində fətva vermək bacarığı vardir.[١]

٢. Ələm müctehidə təqlid etməyin vacibliyi aqil insanların nəzərinə və əqlin hökmünə əsaslanır[٢].

٣. Ələm müctehidin fətvası ilə qeyri-ələm müctehidin fətvası bir-birinə zidd olan məsələlərdə ehtiyati vacibə görə ələm müctehidə təqlid etmək vacibdir. [٣]

٤.Əgər ələm müctehiddə zəruri şərtlərin (mərcəyi-təqlidin şərtləri) yoxluğu sadəcə ehtimal verilsə, ehtiyati-vacibə görə ziddiyyətli məsələlərdə qeyri-ələmə təqlid etməyə icazə verilmir[٤].

Mərceyi-təqlidin şərtləri barədə bir neçə məsələ

- Bir müctehidə təqlid etmək üçün onun mərcəyi-təqlid kimi tanınması və ya şəri hökmlər risaləsinə sahib olması şərt deyildir. Odur ki, əgər mərceyi-təqlid kimi tanınmayan və ya şəri hökmlər risaləsinə sahib olmayan bir müctehidin mərceyi-təqlidin şərtlərinə malik olduğu mükəlləf üçün sabit olsa, o, həmin müctehidə təqlid edə bilər[٥].

---

[١] Şəri suallara cavab, ١٦-cı sual. Rəhbərdən soruşulan suallar, Təqlid bölümü, ٢-ci məsələ.

[٢] Şəri suallara cavab, ٢٠-ci sual.

[٣] Şəri suallara cavab, ١٦-ci sual.

[٤] Şəri-suallara cavab, ١٧-ci sual.

[٥] Şəri suallara cavab, ٩-cu sual.

- Mərceyi-təqlidin şərtlərinə malik olan müctehidə təqlid etmək üçün həmin müctehidin mükəlləfin yaşadığı ölkənin əhalisindən olması və ya onun yaşadığı məntəqədə yaşaması şərt deyil[١].

Ata və ananın vəzifəsidir ki, yenicə təklif yaşına çatan və təqlid məsələsi barədəki şəri vəzifəsini müəyyənləşdirməkdə çətinlik çəkən övladlarına yol göstərsinlər və onları məlumatlandırsınlar[٢].

٦. TƏQLIDI BÖLMƏK

١. Təqlidi bölmək, fiqhin hər bir bölümündə o bölümün müctehidinə (mütəcəzzi müctehid) təqlid etmək deməkdir.

٢. Mükəlləf şəriət hökmlərinin, yəni, fiqhin hər bir bölümündə o bolümdə elmi və məharəti daha çox olan müctehidə təqlid edə bilər. Məsələn, ibadət məsələlərində bir müctehidə, alış-veriş məsələlərində digər müctehidə təqlid edə bilər. Yaxud, fərdi şəri məsələlərdə bir müctehidə, ictimai, siyasi və iqtisadi məsələlərdə digər bir müctehidə təqlid edə bilər. Bəlkə əgər mükəlləf, fiqhin müxtəlif bölümlərində o bölümdə ələm olan müctehidlərə təqlid etməyi qərara alsa və mükəlləfin gündəlik qarşılaşdığı məsələlərdə bu müctehidlərin fətvaları müxtəlif olsa, ehtiyati-vacibə görə təqlidi bölmək vacibdir.[١]

SUALLAR:

١. ***Mərcəyi-təqlidin şərtləri hansılardır?***

٢. ***Ədalət nədir və ədalətli, hansı şəxsdir?***

---

[١] Şəri suallara cavab, ١١-ci sual.

[٢] Şəri suallara cavab, ٤-cü sual.

٣. ***Mütəcəzzi müctehidin fətvası özü və başqaları üçün etibarlıdırmı?***

٤. ***Nə üçün ələm müctehidə təqlid etməliyik?***

٥. ***Şəriət hökmləri risaləsi olmayan müctehidə təqlid etmək olarmı?***

٦. ***Təqlidi bölmək nə deməkdir?***

---

١ Şəri suallara cavab, ١٨-ci sual. Rəhbərdən soruşulan suallar, Təqlid bölümü, ٥-ci məsələ

ÜÇÜNCÜ DƏRS

TƏQLİD (٣)

- *Mərceyi-təqlidin şərtlərinə malik olan müctehidi tanımağın yolları*
- *Müctehidin fətvasını əldə etməyin yolları*
- *Təqlidi dəyişmək*
- *Təqlidin müxtəlif məsələləri*

٧. MƏRCEYI-TƏQLIDIN ŞƏRTLƏRINƏ MALIK OLAN MÜCTEHIDI TANIMAĞIN YOLLARI.

Mərceyi-təqlidin şərtlərinə malik olan müctehidi iki yolla tanımaq olar[١]

١. Yəqinlik; istər müctehidin camaat arasındakı böyük şöhrəti, istər şəxsi məlumatı, istərsə də digər məntiqi yollarla hasil olsun

٢. İki ədalətli alimin şəhadəti

Diqqət:

• Əgər bir müctehidin mərceyi-təqlidin şərtlərinə malik olması yuxarıda qeyd olunan şəri dəlillərdən biri ilə (məsələn, iki ədalətli alimin şəhadəti) sübuta yetirilsə, bu dəlili təkzib edən digər şəri bir dəlil ortaya çıxmayana qədər həmin şəri dəlil etibarlıdır və yəqinliyin hasil olması şərt deyildir. Həmçinin təkzibedici dəlilin mövcud olub-olmadığını araşdırmaq lazım deyildir.[٢]

---

[١] Şəri suallara cavab, ٢٥-ci sual.

[٢] Şəri suallara cavab, ٢٤ və ٢٧-ci suallar

٨. Müctehidin fətvasını əldə etməyin yolları[١]

Müctehidin fətvasını əldə etməyin yolları

١. Müctehidin özündən eşitmək

٢. İki və ya bir ədalətli şəxsdən eşitmək

٣. Bir nəfər etibarlı şəxsdən eşitmək

٤. Müctehidin risaləsində görmək; bir şərtlə ki, onun risaləsində səhvə yol verilməyibdir

Diqqət:

- Müctehidin fətvasını nəql etmək və şəri hökmləri bəyan etmək üçün müctehiddən icazə almaq şərt deyil. Lakin şəri hökmlərin bəyanında adətən səhvə yol verən şəxs bu işi görə bilməz. Əgər o, səhvə yol versə, sonra səhvini başa düşsə, onu dinləyən şəxsi o səhvdən agah etməlidir. Hər bir halda, dinləyənə də icazə verilmir ki, şəri hökmləri bəyan edən şəxsin dediklərinin doğruluğuna yəqinliyi olmayana qədər onun dediyinə əməl etsin[٢].

---

[١] Şəri suallara cavab, ٢٥-ci sual.

[٢] Şəri suallara cavab, ٢٨-ci sual.

٩. Təqlidi dəyişmək[١]

١. Bu hallarda təqlidin qeyri-ələm müctehidə dəyişilməsinə icazə verilir

١. Ələm müctehidin fətva vermədiyi bir məsələdə qeyri-ələm müctehid ehtiyat deyil, birbaşa fətva veribsə (Əlbəttə, ehtiyat-vacibə görə «ələm fəl-ələm» ardıcıllığına riayət etmək şərti ilə)

٢. Qeyri-ələm müctehidin fətvası ələm müctehidin fətvasına zidd olmayan məsələlərdə

٣. Ələm müctehidin fətvası ehtiyata zidd, qeyri-ələm müctehidin fətvası isə ehtiyata uyğun olan məsələlərdə

٢. Bu hallarda təqlidi dəyişməyə icazə verilmir[٢]

١. Ehtiyati-vacibə görə təqlidi diri müctehiddən digər bir müctehidə dəyişmək olmaz. O vaxt icazə verilir ki, o müctehiddə mərceyi-təqlidin şərtlərindən biri olmasın. Məsələn, ikinci mərceyi-təqlid birincidən ələm olsun və müəyyən bir məsələdə onun fətvası birinci mərceyi-təqlidin fətvasına zidd olsun

٢. Hansı məsələlərdə ki, təqlid ölü müctehiddən diri müctehidə dəyişilibsə, həmin məsələlərdə yenidən ölü müctehidə qayıtmaq olmaz

---

١ Şəri suallara cavab, ٨, ١٩, ٢٠-ci suallar

٢ Şəri suallara cavab, ٣١, ٣٨, ٣٩ və ٤٥-ci suallar. Rəhbərdən soruşulan suallar, Təqlid bölümü, ٥-ci məsələ.

Diqqət:

- Mərceyi-təqlidin fətvalarının dövrün tələbləri ilə uyğunlaşmadığı ehtimalı və ya onun fətvalarına əməl etməyin çətinliyi, təqlidi, ələm müctehiddən digər müctehidə dəyişmək üçün əsas sayılmır[١].

١٠. TƏQLİDİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ

١. Əgər mükəlləf namaz əsnasında hökmünü bilmədiyi bir məsələ ilə qarşılaşsa, verdiyi iki ehtimaldan birinə əməl edib namazını tamamlaya bilər. Lakin namazdan sonra bu məsələnin hökmünü öyrənməli və əgər namazı batil edən bir işi yerinə yetiribsə, namazını yenidən qılmalıdır.[٢]

٢. Cahil insan iki qismdir:

١) Qasir cahil: Öz cəhalətindən əsla xəbərdar olmayan və ya cəhalətini aradan qaldırmaq imkanı olmayan kəsdir.

٢) Müqəssir cahil: Öz cəhalətindən xəbərdar olan və cəhalətini aradan qaldırmaq imkanı olan, lakin şəri hökmləri öyrənməyə səhlənkarlıq göstərən kəsdir.[٣]

٣. Ehtiyati-vacib o deməkdir ki, ehtiyata görə müəyyən bir əməli yerinə yetirmək və ya tərk etmək vacibdir. Hökmü ehtiyati-vacib olan məsələlərdə təqlid edən şəxs, ehtiyat deyil, birbaşa fətva verən müctehidə - əlbəttə, ələm fəl-ələm tərtibinə riayət etməklə - müraciət edə bilər[٤].

---

[١] Şəri suallarra cavab, ٤٥-ci sual.

[٢] Rəhbərdən soruşulan suallar, Təqlid bölümü, ٦-cı məsələ

[٣] Şərə suallara cavab, ٢٦-٢٧-ci suallar

[٤] Şəri suallara cavab, ٨ və ٤٨-ci suallar

٤.Fiqh kitablarında “fihi işkalun”, “muşkil”, “la yəxlu min işkal” ifadələri “ehtiyata” dəlalət edir. Təkcə “la işkalə fihi” ifadəsi fətva deməkdir[١].

٥. Əməl məqamında “caiz deyil” və “haramdır” ifadələri arasında fərq yoxdur[٢].

SUALLAR:

١. Müctehidin fətvalarını hansı yolla əldə etmək olar?

٢. Müctehidin icazəsi olmadan onun fətvalarını və şəriət hökmlərini bəyan etmək olar?

٣. Hansı hallarda təqlidin qeyri-ələm müctehidə dəyişilməsinə icazə verilir?

٤. Hansı hallarda təqlidi dəyişmək vacibdir?

٥. Cahil neçə qismdir?

---

١ Şəri suallara cavab, ٥٠-ci sual

٢ Şəri suallara cavab, ٥١-ci sual.

DÖRDÜNCÜ DƏRS

VƏLIYYİ-FƏQİH VƏ RƏHBƏRLİK

- *Vəliyyi-fəqihin mənası*
- *Vəliyyi-fəqihin zəruriliyi*
- *Vəliyyi-fəqihin iqtidarı*
- *Vəliyyi-fəqihin nəzəri mərceyi-təqlidin nəzəri ilə üst-üstə düşmə-dikdə müsəlmanların vəzifəsi*

١. Vəliyyi-fəqihin mənası

Vəliyyi-fəqih, ədalətli din aliminin hakimiyyəti deməkdir[١].

Diqqət:

- İslam ümmətinə Vəliyyi-fəqihin ictimai-siyasi rəhbərliyi haqq olan şiə məzhəbinin üsullarından biri olan "İmamət"dən qaynaqlanır[٢].
- İmam Zamanın (ə.f.) qeybi dövründə Vəliyyi-fəqih mövzusuna etiqad bəsləməmək -istər insanın özü bu qənaətə gəlsin, istərsə də digərinə təqlid etsin- mürtəd olma və dindən xaric olma ittihamına əsas vermir. Hər kim dəlil və sübut əsasında Vəliyyi-fəqihə etiqad bəsləməyin zəruri olmadığı barədə qənaətə gəlsə, üzürlü sayılır. Lakin o, müsəlmanlar arasında təfriqə və iki tirəlik yarada bilməz[٣].

---

[١] Şəri suallara cavab, ٥٦-cı sual.
[٢] Şəri suallara cavab, ٦١-ci sual.
[٣] Şəri suallara cavab, ٥٩ və ٦١-ci suallar.

٢. Vəliyyi-fəqihin zəruriliyi

Müqəddəs İslam dini qiyamətədək davam edəcək sonuncu səmavi din, habelə ictimai bir din olduğu üçün İslam ümmətinə din və müsəlmanları düşmənlərdən qoruyan, İslam hökümətinin keşiyində duran, ədaləti bərqərar edən, zorakılığın qarşısını alan, mədəni, siyasi və ictimai tərəqqini təmin edən ədalətli bir din aliminin rəhbərliyi zəruridir[١].

Diqqət:

- Vəliyyi-fəqihi qəbul etmək təəbbudi[٢] şəri hökm olmaqla yanaşı əql də onu təsdiqləyir və bu mənsəbə layiq fərdi müəyyən etməyin yolları vardır[٣].

٣. Vəliyyi fəqihin iqtidarı

١. Vəliyyi-fəqihin çıxardığı qərarlar

Bütün müsəlmanlar Vəliyyi-fəqihin əmrlərinə tabe olmalı, onun göstəriş və qadağalarına əməl etməlidirlər. Bu hökm, həm böyük dini alimlərə, həm də onlara təqlid edənlərə aiddir.[٤]

Diqqət:

- Heç kim Vəliyyi-fəqih mənsəbinə daha layiq olduğunu bəhanə edib qanuni yolla seçilən Vəliyyi-fəqihlə müxalifətçilik edə bilməz.

٢. Əgər müəyyən fərdlərin müəyyən vəzifələrə təyin olunması barədə Vəliyyi-fəqihin qərarı müvəqqəti deyildisə, yeni Vəliyyi-fəqih məslə-

---

١ Şəri suallara cavab, ٦٣-cü sual.

٢ Şərtsiz tabe olma

٣ Şəri suallara cavab, ٥٦-cı sual

٤ Şəri suallara cavab, ٦٢ və ٦٥-ci suallar

hətə görə onları bu mənsəbdən kənarlaşdırmayanadək əvvəlki Vəliyyi-fəqihin qərarı öz qüvvəsində qalır.[١]

٣. **Cəzaların icrası.** Cəzaların icrası (məsələn, zina və oğurluq üçün təyin olunan cəzalar) İmam Zamanın (ə.f.) qeybi dövründə də vacibdir və buna müsəlmanların Vəliyyi-fəqihi hökm verir.[٢]

٤. **Vəliyyi-fəqihin çıxadığı qərar ümmətin qərarından önəmlidir.** Əgər İslam və müsəlmanların ümumi mənafeyi yönündə Vəliyyi-fəqihin çıxardığı qərarlar ümumi xalq kütləsinin istəyi ilə zidd olsa, onun istəyi ümmətin istəyindən öndə dayanır.[٣]

٥. **Kütləvi informasiya vasitələrinə nəzarət.**

Kütləvi informasiya vasitələri müsəlmanların Vəliyyi-fəqihinin nəzarəti altında olmalı və İslam və müsəlmanlara xidmət, dəyərli dini maarifi yaymaq üçün fəaliyyət göstərməlidir. Həmçinin İslam cəmiyyətinin dünya görüşünün artması və onların çətinliklərinin həlli, müsəlmanların vəhdəti və onlar arasında qardaşlıq bağlarının yaranması və s. bu kimi istiqamətlərdə xidmət göstərməlidir.

Vəliyyi-fəqihin iqtidarı barədə ٣ məsələ

- **Vəliyyi-fəqihin nümayəndəsinin göstərişlərinə tabe olmaq**

Əgər Vəliyyi-fəqihin nümayəndəsinin verdiyi göstərişlər Vəliyyi-fəqih tərəfindən ona verilən səlahiyyətlər çərçivəsi daxilindədirsə, onunla müxalifətçilik etmək olmaz.[٤]

---

[١] Şəri suallara cavab, ٦٤-cü sual
[٢] Şəri suallara cavab, ٦٦-cı sual
[٣] Şəri suallara cavablar, ٥٣-cü sual
[٤] Şəri suallara cavab, ٦٩-cu sual

- Fiqhdə özündən yuxarı vəzifədə olanlara şərtsiz tabe olma hökmü yoxdur. Lakin idarənin rəsmi qayda-qanunlarına qarşı çıxmaq olmaz.
- Vəliyyi-fəqihin təkvini-vilayəti[١] yoxdur və bu, yalnız məsum İmamlara (ə.s.) məxsusdur.[٢]

٤. Vəliyyi-fəqih ilə mərceyi-təqlidin fikirayrılığı.

Əgər Vəliyyi-fəqih ilə mərceyi-təqlidin hegemon dövlətlər və ya kafirlər qarşısında İslam və müsəlmanların müdafiəsi kimi İslam dövlətinin və bütün müsəlmanların mənafeyinə aid məsələlərdə fikirayrılığı olsa, bu halda Vəliyyi-fəqihin nəzərinə itaət olunmalıdır. Amma əgər bu fikirayrılığı fərdi şəri məsələlərdə olsa, hər bir mükəlləf öz mərceyi-təqlidinin fətvasına əməl etməlidir[٣].

SUALLAR:

١.Vəliyyi-fəqih nə deməkdir və nə üçün zəruridir?

٢.Vəliyyi-fəqihin çıxardığı qərarlar qarşısında müsəlmanların vəzifəsi nədir?

٣. Sabiq Vəliyyi-fəqihin çıxardığı hökmlərin qüvvədə qalması yeni Vəliyi-fəqihin icazəsinə bağlıdırmı?

---

[١] Vilayət (qəyyumluq) iki novdür:

١) Vilayəti-təşrii: Yəni Allah şəriətin təyin etdiyi qəyyumluq. Məsələn, atanın və ya ata babasının həddi-büluğa çatmayan uşaq üzərindəki qəyyumluğu.

٢) Vilayəti-təkvini: Yəni, yaradılış aləminə və ona hakim qanunlara Allahın göstəriş və izni ilə dəxalət etmə və qeyri-təbii səbəblərdən meydana çıxan qeyri-adi hadisələri yaratmaq qüdrətinə malik olmaq. Məsələn, əlacsız xəstələrə şəfa vermək, ölüləri diriltmək.

[٢] Şəri suallara cavab, ٦٠-cı sual

[٣] Şəri suallara cavab, ٥٢ və ٥٤-cü suallar.

٤. Mərcəyi-təqlid İmam Zamanın (ə.f.) qeybi dpvründə şəri cəzaların icrasına hökm verə bilərmi?

٥. Vəliyyi-fəqihin nümayəndəsinin ona verilən səlahiyyətlər çərçivəsində çıxardığı qərarlara itaət etmək vacibdirmi?

٦. Əgər müəyyən bir məsələdə Vəliyyi-fəqihlə mərcəyi-təqlidin fikir-ayrılığı olsa, mükəlləf nə etməlidir?

II fəsil

TƏHARƏT

İslam dini təharət və paklığa böyük əhəmiyyət verir. Bəzi ibadətlər və əməllər təharətlə yerinə yetirildiyi halda düzgündür. Müqəddəs İslam şəriəti baxımından bir sıra şeylər napak sayılır. İslam fiqhində ümumi paklıq və təmizlikdən qeyri, təharət adlanan xüsusi bir yuyunmaq tərzi (dəstəmaz və qüsül) də mövcuddur. Təharətin hökmləri, paklayıcılar, bədən, paltar və digər əşyaları pak etməyin qaydaları, napak olan şeylər, ümumiyyətlə bu mövzuya aid bütün məsələlərə "Təharət" adlı fəsildə aydınlıq gətiriləcəkdir.

BEŞİNCİ DƏRS

SULAR

– *Suların növləri*

– *Muzaf su*

– *Mütləq su*

– *Mütləq suların hökmləri*

– *Suyun paklığı barədə şəkk*

١. Suların növləri

- Sular
  - Muzaf
  - Mütləq
    - Yağış suyu
    - Axar su
    - Axar olmayan su
      - Kürr su
      - Qəlil su

٢. Muzaf su (qarışıq su və ya meyvə şirəsi)

١.Muzaf suyun mənası.

Muzaf su elə bir sudur ki, onu "su" deyə adlandırmaq düzgün deyil. Məsələn, meyvələrdən (qarpız, armud və s.) sıxılıb çıxarılan su -belə bir su qarpız şirəsi, armud şirəsi adlanır- və ya bir məhlul (məsələn, duzun və ya şəkərin su ilə qarışığı) su adlanmır.[١]

٢. Muzaf suyun hökmləri.

١) Muzaf su, napak bir şeyi pak etmir (paklayici deyil).

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١-ci məsələ.

٢) Muzaf su, nəcasətlə (zatən napak olan şey) təmasda olsa, napak olar (hətta o nəcasət az olsa və muzaf suyun iyi, rəngi və dadı dəyiş-məsə, yaxud muzaf su kürr miqdarında olsa belə yenə də muzaf su napak olacaq).

٣) Muzaf su ilə alınan dəstəmaz və qüsul batildir[١].

Diqqət:

• Bəzən suya elə bir maddə qatılır ki, onun rəngini süd rənginə çevirir. Bu su, muzaf su hökmündə deyil. (Odur ki, bu su ilə napak şeyləri paklamaq, dəstəmaz almaq və qüsül etmək olar[٢])

<u>٣. Mütləq su (xalis su)</u>

١. Mütləq suyun mənası.

Mütləq su elə bir sudur ki, onu sadəcə su adlandırmaq (heç bir söz birləşməsi olmadan) düzgün sayılsın. Məsələn, bulaqdan qaynayan su, yağışın suyu və bu kimi təbiətdə mövcud olan sular.

٢. Mütləq suyun növləri

- Mütləq su
  - Ya göydən yağır (yağış suyu)
  - Ya yerdən qaynayır (axar su)
  - Ya da nə göydən yağır, nə də yerdən qaynayır
    - Kürr su: təxminən ٣٨٤ litrdir
    - Qəlil su: ٣٨٤ litrdən azdır

---

[١] Şəri suallara cavab, ٧٤-cü sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١-ci məsələ.

[٢] Şəri suallara cavab, ٧٧-ci sual.

Diqqət:

- Su, ya göydən yağır, ya da yerdən qaynayır (yeraltı su mənbələri), ya da nə göydən yağır, nə də ki, yerdən qaynayır. Göydən yağan suya "Yağış suyu", yerdən qaynayan suya "axar su" deyilir. Nə göydən yağan, nə də yerdən qaynayan su "axarı olmayan su"dur. Belə bir suyun həcmi əgər ٤٢, ٧/٨ qarış (təxminən ٣٨٤ litr) olsa, "kürr su", əgər bu həcmdən az olsa "qəlil su" adlanır.[١]

٣.Mütləq suyun hökmləri

١) Mütləq su napak bir şeyi paklayır (paklayıcıdır).

٢) Qəlil sudan başqa mütləq suyun digər növləri əgər nəcasət ilə təmasda olsa və rəngi, iyi və dadı dəyişməsə, pakdır.

٣) Mütləq su ilə alınan dəstəmaz və qüsül düzgündür.[٢]

Diqqət:

- Bir suyun "mütləq su" sayılması üçün şəri meyar, camaatın nəzərində (ürfdə) onun "su" deyə adlanmasıdır. Odur ki, bəzən sırf duzun çoxluğu bir suyun "mütləq su" sayılması üçün maneə yaratmır. Beləliklə, Urmiyyə gölü kimi suyu həddən artıq şor olan göllərdə və ya dənizlərdə napak bir şeyi yumaq, dəstəmaz almaq və qüsl etmək olar[٣].

<u>٤.Mütləq suyun növlərinin hökmləri</u>

١. Yağış suyu: Napak (nəcasətə bulaşmış) bir şeyin üzərinə yağış yağsa, onu pak edər[١].

٢. Kürr və axar su.

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٢-ci məsələ

[٢] Şəri suallara cavab, ٧٤-cü sual

[٣] Şəri suallara cavab, ٧٤-cü sual.

١)Əgər napak bir şeyi kürr və ya axar suya salsalar, bu su o şeyi paklayar və suyun özü də napak olmaz.[٢]

٢)Əgər kürr və axar suya nəcasət töküldükdə ya iyi, ya rəngi, ya da dadı dəyişərsə, napak olur və bu su, napak şeyləri də pak etməz[٣].

Diqqət:

- Paklayıcılıq baxımından kürr su ilə axar su arasında heç bir fərq yoxdur[٤].

٣. Qəlil su

١) Əgər napak bir şeyi qəlil suya salsalar, bu su napak olar və bu su, artıq napak bir şeyi pak etməz. (onunla napak bir şeyi suya çəkmək olmaz)[٥].

٢) Əgər qəlil suyu napak bir şeyin üzərinə töksələr, o şeyi pak edər. Lakin napak şeyin üzərindən tökülüb axan suyun özü napakdır[٦].

٣) Əgər yuxarıdan təzyiqsiz şəkildə tökülən qəlil suyun aşağı hissəsi nəcasətlə təmasda olsa, belə ki, ona "su, yuxarıdan aşağıya doğru cərəyan edir" deyilsə, onun yuxarı hissəsi pakdır[٧].

٤) Əgər qəlil su, kürr və ya axar suya qovuşsa, kürr və axar su hökmündədir[٨].

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٢-ci məsələ
[٢]Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٢-ci məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٤-cü məsələ
[٤] Şəri suallara cavab, ٧٨-ci sual
[٥] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٢-ci məsələ
[٦] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٣-cü məsələ
[٧] Şəri suallara cavab, ٧٠-ci sual
[٨] Rəhbərdən soruşulan suallar, Təhrət bölümü, ٦-cı məsələ

٥. Suyun paklığı barədə şəkk

١. Əgər bir suyun pak, yoxsa napak olduğunu bilmiriksə, şəri baxımdan bu su pak sayılır. Amma əgər bir su napak idisə (napak olduğunu bilirdiksə), sonradan onun pak olub-olmadığını bilmiriksə, bu su, napak sayılır[١].

٢. Əgər insan əvvəlcə kürr miqdarında olan bir suyun bu miqdardan azalıb-azalmadığı barədə şəkk etsə, bu su, kürr su hökmündədir[٢].

Diqqət:

• Əvvəlcə kürr miqdarında olan bir suyun indi də kürr olub-olmadığını araşdırmaq vacib deyildir. Əgər bir suyun əvvəlcə kürr olduğu məlumdursa, onu kürr hesab etmək olar. Məsələn, əgər qatarın ayaq yolundakı suyun əvvəlcə kürr və hətta bu miqdardan artıq olduğunu bilsək, sonra şəkk etsək ki, kürr miqdarından azalıb, yoxsa yox, onu kürr su hesab edə bilərik[٣].

٣. İnsan kürr miqdarından az olan suyun kürr miqdarına yetişdiyinə əmin olmayanadək, bu su, qəlil su hökmündədir.

SUALLAR:

١. Suların növlərini sadalayın.

٢. Muzaf və mütləq su nədir?

٣. Müləq suyun hökmlərini deyin.

٤. Şorluğu çox olan dəniz suyu ilə dəstəmaz almaq və qüsl vermək olarmı?

٥. Pak, yoxsa napak olduğunu bilmədiyimiz suyun hökmü nədir?

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٧-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٥-ci məsələ

[٣] Şəri suallara cavab, ٧٥-ci sual

ALTINCI DƏRS

TƏXƏLLI[١]

- Təxəllinin hökmləri

- İstibra

- İstinca

١. <u>Təxəllinin hökmləri</u>

١. Qibləyə tərəf dayanmamaq.

Təxəlli vaxtı insan üzü və ya arxası qibləyə tərəf dayanmamalıdır.[٢]

٢. Övrəti (ayıb yerləri) örtmək.

Təxəlli halında, həmçinin digər vaxtlarda insan öz övrətini həyat yoldaşından başqa hamıdan -istər qadın olsun, istərsə də kişi, istər məhrəm olsun, istərsə də naməhrəm- hətta yaxşı ilə pisi ayırd edə bilən uşaqdan örtməlidir. Amma ər-arvada övrətlərini bir-birindən örtmək vacib deyil.[١]

٣. Təxəlli zamanı məkruh olan işlər:

Təxəlli zamanı məkruh olan işlər
- ١. Ayaq üstə bövl etmək
- ٢. Bərk torpağa və heyvanların yuvasına bövl etmək
- ٣. Suya, xüsusilə də axarı olmayan suya bövl etmək
- ٤. Bövl və ğaiti saxlamaq
- ٥. Camaatın gediş-gəliş yollarına və meyvə ağaclarının altında təxəlli etmək

---

[١] Ayaqyoluna getmə

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٣٣-cü məsələ

٢. İstibra

١. Əgər kişilər bövl etdikdən sonra "istibra" adlanan əməli yerinə yetirsələr və bu əməldən sonra bövl məxrəcindən xaric olan rütubətin bövl, yoxsa başqa bir rütubət olduğunu bilməsələr, bu rütubət pak rütubət hökmündədir və araşdırma lazım deyil.[٢]

٢. İstibra vacib deyildir, hətta əgər zərəri olsa haramdır. Məsələn, bövl məxrəcində yara olduğu üçün istibra zamanı qanasa və yaranın sağalmasını təxirə salsa, istibra etmək haramdır. Əlbəttə, əgər hər kim istibra etməsə və bövl etdikdən sonra ondan xaric olan rütubətin bövl olub-olmadığını ayırd edə bilməsə, bu rütubət bövl hökmündədir.[٣]

٣. Ən yaxşı istibra üsulu belədir: bövl edib qurtardıqdan sonra əgər ğaitin məxrəci (xaric olduğu yer) napakdırsa, əvvəlcə ora paklanır. Sonra sol əlin orta barmağı ğaitin məxrəcindən cinsiyyətin dibinə qədər üç dəfə çəkilir. Daha sonra baş barmağı cinsiyyətin üstünə və baş barmağın yanındakı barmağı onun altına qoyub üç dəfə cinsiyyətin ucuna qədər çəkilir. Axırda üç dəfə cinsiyyətin baş hissəsi sıxılır.[٤]

٤. Ğaitin məxrəcini pakladıqdan əvvəl və ya sonra edilən istibranın qaydası arasında heç bir fərq yoxdur.[٥]

٥. Əgər bir şəxs bövl edib qurtardıqdan sonra istibra etsə və dəstəmaz alandan sonra ondan bövl, yoxsa məni olduğuna şübhə etdiyi bir rütu-

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٣٤-cü məsələ

[٢] Şəri suallara cavab, ٩٢-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٣٨-cü məsələ

[٣] Şəri suallara cavab, ٩١-ci sual

[٤] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٣٨-ci məsələ

[٥] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٣٨-ci məsələ

bət xaric olsa, bu şəxsə vacibdir ki, hədəsdən[١] paklandığına əmin olması üçün həm qüsl etsin (cənabət qüslü), həm də dəstəmaz alsın.[٢]

Diqqət:

İnsandan xaric olan rütubətlərin növləri

- ١.Vəzy, məni xaric olduqdan sonra insandan xaric olan rütubətdir.
- ٢. Vədy, bövl xaric olduqdan sonra insandan xaric olan rütubətdir.
- ٣. Məzy, ər-arvad mazaqlaşandan sonra xaric olan rütubətdir.

• Qeyd olunan bu rütubətlərin hamısı pakdır və təharətin pozulmasına bais olmur.

<u>٣. İstinca (bövl və ğaitin məxrəcinin paklanması)</u>

١. Bövlün məxrəcini paklamağın qaydası.

١) Bövlün məxrəci sudan başqa şeylə paklanmaz.[٣]

٢) Bövlün məxrəci ehtiyati-vacibə görə iki dəfə yuyulmaqla paklanır.[٤]

٢. Ğaitin məxrəcini paklamağın qaydası.

١) Ğaitin məxrəcini iki cür paklamaq olar:

I. Nəcasət aradan gedənədək su ilə yuyulur. Nəcasət aradan getdikdən sonra yenidən yumaq lazım deyil.

---

[١] Hədəs, dəstəmazı və ya qüslü pozan əməllərə deyilir

[٢] Şəri suallara cavab, ١٤٥-ci sual

[٣] Şəri suallara cavab, ٨٩-cu sual

[٤] Şəri suallara cavab, ٩٠ və ٩٨-ci suallar. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٣٥-ci məsələ.

II. Üç tikə daş, ya üç tikə pak parça və ya s. bu kimi şeylərlə nəcasət təmizlənir. Əgər üç tikə ilə nəcasət təmizlənməzsə, tamamilə pak olanadək əlavə tikələrlə təmizlənir. Üç tikə əvəzinə bir tikə daş və ya parçanın üç yerindən istifadə etmək olar.[١]

٢) Ğaitin məxrəci üç halda yalnız su ilə paklanır və daş və s. şeylərlə paklamaq olmaz:

I. Ğaitlə birgə qan kimi digər bir nəcasət xaric olduqda

II. Ğaitin məxrəci kənardan başqa bir nəcasətə bulaşdıqda

III. Ğaitin məxrəci adi haldan artıq olaraq nəcasətə bulaşdıqda (Başqa sözlə desək, ğaitin məxrəcindən əlavə digər yerlər də nəcasətə bulaşdıqda)[٢]

SUALLAR:

١. Həddi-büluğa çatmayan uşaqdan övrəti gizlətmək vacibdirmi?

٢. Təxəlli zamanı məkruh olan işlər hansılardır?

٣. İstibradan sonra xaric olan suyun hökmü nədir?

٤. İstibranın faydası nədir?

٥. İnsandan xaric olan rütubətlər hansılardır?

٦. Bövl və ğaitin məxrəci necə paklanır?

---

[١]Şəri suallara cavab, ٩٠ və ٩٩-cu suallar. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٣٦-cı məsələ.

[٢]Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٣٧-ci məsələ

YEDDİNCİ DƏRS

NƏCASƏTLƏR (١)

١. Nəcasətlər[١]

Nəcasətlər bunlardır:
- ١. Bovl (sidik)
- ٢. Ğait (nəcis)
- ٣. İnsanın mənisi (sperma)
- ٤. Murdar (cəsəd)
- ٥. Qan
- ٦. İt
- ٧. Donuz
- ٨. Məstedici içkilər ehtiyati-vacibə görə
- ٩. Səmavi dinlərə etiqadı olmayan kafirlər

Diqqət:

- Şəriətin nəcasət hesab etdiyi şeylərdən başqa hər şey pak hökmündədir.[٢]

١-٢) Bövl və ğait

Bövl və ğait:
- napak:
  - ١. İnsanın bövl və ğaiti
  - ٢. Əti haram və qanı sıçrayıcı olan hər bir heyvanın; məsələn, siçan və pişik kimi. Quşlar isə bu hökmdən istisnadır.
- pak:
  - ١. Əti halal olan heyvanların bövl və ğaiti, istər quş olsun (sərçə və göyərçin kimi), istərsə də quşdan başqa heyvanlar (inək və qoyun kimi)
  - ٢. Əti haram olan, lakin qanı sıçrayıcı olmayan heyvanların; ilan və pulsuz balıq kimi
  - ٣. Əti haram olan quşların; qarğa və tutuquşu kimi

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩-cu məsələ

[٢] Şəri suallara cavab, ٣١١-ci sual

١) İnsanın, həmçinin əti haram və qanı sıçrayıcı olan heyvanların bövl və ğaiti napakdır. Lakin əti haram olan quşların nəcisi pakdır.[١]

٢) Əti halal olan quşların və heyvanların bövl və ğaiti pakdır.[٢]

٣) Məni

١) İnsanın mənisi napakdır.[٣]

٢) Hər kim bövldən sonra istibra etsə və istibra zamanı ondan məni olub-olmadığını ayırd edə bilmədiyi bir rütubət xaric olsa, bu halda əgər onun məni olmasına əmin olmasa, həmçinin onun xaric olması məninin xaric olmasının şəri əlamətlərinə malik olmasa, bu rütubət məni hökmündə deyil və pakdır.[٤]

Diqqət:[٥]

- Məninin əlamətləri
  - Kişilərdə
    - ١. Ehtiras
    - ٢. Difq (sıçrayışlı olması)
    - ٣. Futur (bədənin süstləşməsi)
  - Qadınlarda: yalnız ehtirasdır.

---

[١] Şəri suallara cavab, ٢٧٩ və ٢٨٠-cı suallar. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩-cu məsələ.

[٢] Şəri suallara cavab, ٢٧٩ və ٢٨٠-cı suallar. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩-cu məsələ.

[٣] Şəri suallara cavab, ٢٧٧-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩-cu məsələ.

[٤] Şəri suallara cavab, ٢٧٨-ci sual

[٥] Şəri suallara cavab, ١٧١, ١٧٧, ١٨٠ və ١٨٦-cı suallar

٤) Murdar (cəsəd)

- Cəsəd
  - İnsan
    - Müsəlmandır: cəsədi napakdır, bunlar istisna olmaqla
      - Ruhsuz üzvləri: dırnaq, saç və diş kimi
      - Döyüş meydanında şəhid olsa
      - Meyyit qüslü verilibsə
    - kafirdir
      - Kitab əhlidir: ruhsuz üzvlərindən başqa cəsədi napakdır.
      - Kitab əhli deyil: bütün üzvləri napakdır
  - Heyvan
    - İt və donuz: bütün üzvləri napakdır.
    - İt və donuzdan qeyri
      - Qanı sıçrayıcıdır
        - Ruhu olan üzvləri, məsələn əti və dərisi napakdır. Lakin əgər şəriətin qoyduğu qaydada kəsilsə pakdır.
        - Ruhsuz üzvləri, məsələn, tükü və buynuzu pakdır.
      - Qanı sıçrayıcı deyildir: bütün üzvləri pakdır.

١) İnsanın və sıçrayıcı qanı olan heyvanın -istər əti haram olsun, istərsə də halal- cəsədi napakdır.[١]

٢) Şəriətin qoyduğu qaydada kəsilən heyvan, həmçinin meyyit qüslü verildikdən sonra insanın cəsədi "murdar" hökmündə deyil və pakdır.[٢]

Diqqət:

▪ Meyyit qüslü dedikdə üç qüslün üçü də nəzərdə tutulur. Beləliklə, meyyit, üçüncü qüsl verilib qurtarmayanadək napak hökmündədir.[٣]

٣) İt və donuzdan başqa heyvanların, həmçinin kitab-əhli olmayan kafirdən qeyri insanların cəsədinin ruhsuz üzvləri (tük, diş, buynuz və s.) pakdır.[٤]

"Murdar" barəsində iki şəri məsələ:

▪ Əl, dodaq, ayaq və bədənin digər üzvlərindən öz-özünə qopan dərinin nazik qabığı pak hökmündədir.[٥]

▪ İslami ərazilərdə satılan heyvanın əti, dəirisi və bu kimi digər hissələri pakdır. Həmçinin əgər bunlar müsəlmanınkı olsa pakdır. Lakin qeyri-müsəlman ölkələrindən gətirilən ət, dəri və heyvanın digər hissələri, əgər onun şəri qaydada kəsilmədiyinə yəqinlik olmasa, pakdır. Başqa sözlə desək, əgər heyvanın şəri qaydada kəsilmədiyinə

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩-cu məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩-cu məsələ

[٣] Şəri suallara cavab, ٢٧٧-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩-cu məsələ.

[٤] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩-cu məsələ

[٥] Şəri suallara cavab, ٢٧٢-ci sual

əmin olsaq, napakdır. Deməli, əgər heyvanın İslam şəriətinin qoyduğu qaydada kəsildiyini bilsək, yaxud ehtimal versək, pakdır.[١]

٥) Qan

١. İnsanın və sıçrayıcı qanı olan hər bir heyvanın qanı, istər bu heyvanın əti halal olsun, istər haram, napakdır.[٢]

٢. Kəsildikdən sonra heyvanın bədənində qalan qan pakdır.[٣]

٣. Yumurtada görünən qan pakdır, lakin onu yemək haramdır.[٤]

٦-٧) İt və donuz.

İt və donuz napakdır və bu baxımdan onların ruhu olan üzvləri ilə ruhsuz üzvləri arasında heç bir fərq yoxdur.

İt və donuz barədə şəri məsələ:

- Paklığın şərt olduğu yerlərdə (qüsl və dəstəmaz suyunun qabı kimi) donuz və itin tükündən istifadə etmək olmaz. Lakin rəsm fırçası kimi paklığın şərt olmadığı yerlərdə onlardan istifadə etməyin eybi yoxdur.[٥]

SUALLAR:

١. Nəcasətlər hansılardır?

٢. Qarğa, qartal, tutuquşu kimi əti haram olan quşların nəcisi napakdırmı?

---

[١] Şəri suallara cavab, ٢٧٥ və ٢٧٦-cı suallar. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٢-ci məsələ.

[٢] Şəri suallara cavab, ٢٦٦- ٢٦٧-ci suallar. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٤-c məsələ.

[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٤-cü məsələ

[٤] Şəri suallara cavab, ٢٦٩-cu sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٤-c məsələ.

[٥] Şəri suallara cavab, ٢٧٤-cü sual

٣. Məninin şəri əlamətləri hansılardır?

٤. Meyyit hansı halda pakdır?

٥. Qeyri-islami ölkələrdən gətirilən ət və dəri kimi məhsullar hansı halda pakdır?

٦. Yumurtada görünən qan pakdırmı?

SƏKKİZİNCİ DƏRS

NƏCASƏTLƏR (٢)

٨) Məstedici içkilər

Məstedici içkilər, ehtiyati-vacibə görə napakdır.[١]

Diqqət:

- Spirtlər, növündən asılı olmayaraq əgər məstedici və maye halında olsa, ehtiyati-vacibə görə napakdır.[٢]
- Əgər həşiş kimi maye halında olmayan məstedici bir maddə suya və ya başqa bir mayeyə qarışıb, maye halına düşsə, napak deyildir.[٣]
- Əgər od üstündə qaynayan üzüm suyunun üçdə ikisi azalmasa, eyni halda məstedici olmasa, napak deyildir. Lakin onu içmək haramdır.[٤]
- Əgər qora dənələrinə üzüm dənələri qarışsa və suyu birgə çəkilsə, belə ki, üzüm dənələri çox az olsa və üzümün suyu abqorada bilinmə-sə, başqa sözlə desək üzüm suyu deyil, sadəcə abqora adlandırılsa, qaynadıldığı vaxt haram olmur. Lakin üzüm dənələri od üstündə qaynadılsa, onu yemək haramdır.[٥]

١Şəri suallara cavab, ٣٠١-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩-cu məsələ.

٢ Şəri suallara cavab, ٣٠٧-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩-cu məsələ.

٣Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٥-ci məsələ

٤ Şəri suallara cavab, ٣٠٢-ci sual

٥Şəri suallara cavab, ٣٠٣-cü sual

٩) Kafir

١) Tovhidi, nübüvvəti və ya namaz, oruc kimi İslam dininin əsaslarından birini inkar edən, həmçinin Həzrət Muhəmmədin (s) peyğəmbərliyində nöqsan olduğuna etiqad bəsləyən şəxs kafirdir.[١]

Diqqət:

- Əgər dinin əsaslarından birinin inkarı nübuvvətin və Peyğəmbəri-Əkrəmin (s) inkarı, şəriətin təkzib edilməsi ilə nəticələnsə, küfrə bais olur.[٢]

٢) Kitab-əhlindən olan kafir, pak hökmündədir.

Diqqət:

- Kitab-əhli dedikdə yəhudilər, məsihilər, zərdüştlər və sabiinlər[٣] kimi ilahi (səmavi) dinlərdən birinə etiqad bəsləyən, özünü ilahi peyğəmbərlərdən birinin ardıcılı bilib onlara nazil olan müqəddəs kitaba tapınan şəxslərə deyilir.[٤]

٣) Peyğəmbərlərin sonuncusu Həzrət Muhəmmədin (s) peyğəmbər olduğunu qəbul etmək, islamı qəbul etmək demək deyildir, yəni, həmin şəxsin müsəlman olduğuna hökm vermək üçün kifayət etmir. Beləliklə, əqidə baxımından Həzrət Muhəmmədin (s) peyğəmbərliyini qəbul edən, lakin öz əcdadlarının yolunu davam etdirən kitab-əhli,

---

[١] Şəri suallara cavab, ٣١٣, ٣١٦ və ٣٣٦-cı suallar

[٢] Şəri suallara cavab, ٣٣٦-cı sual

[٣] Sabiinlər, Həzrət Yəhya peyğəmbərin (ə.s.) ümməti olduqlarına və ona nazil olan kitabın onlar arasında mövcud olduğunu iddia edirlər

[٤] Şəri suallara cavab, ٣١٦ və ٣٢٢-ci suallar

müsəlman sayılmırlar. Əlbəttə əgər kitab-əhlidirlərsə, pak hökmündədirlər.[١]

٤) Mürtəd (yəni dindən çıxan) müsəlman, kafirdir və kitab-əhli sayılmadığı halda (yəni, islamdan çıxıb digər səmavi dinlərin birini qəbul etməsə) napak hökmündədir. Lakin təkcə namaz, oruc və s. bu kimi şəriətdə vacib buyurulan digər əməlləri tərk etmək müsəlmanın mürtəd, kafir və napak olmasına bais olmur və onun mürtəd olması sübut olunmayana qədər müsəlman hökmündədir.[٢]

٥) Əgər "Əliallahı" firqəsi əmirəl-möminin Əli ibn Əbu Talibin Allah olduğuna (Allah bu nisbətlərdən çox-çox ucadır), yaxud Allahın şəriki olduğuna etiqad bəsləyirlərsə kafir və napakdırlar.[٣]

٦) Məsum imamlardan birinin ünvanına nalayiq söz deyən və ona hörmətsizlik edən şəxs kafir və napakdır.[٤]

٧) Azğın "Bəhai" firqəsinin ardıcıllarının hamısı napakdırlar.[٥]

Nəcasətlər barədə bir neçə məsələ:

- Haram yolla cünub olan şəxsin təri pakdır. Lakin ehtiyati-vacibə görə bu tər ilə namaz qılmasın.[٦]
- Haram və napak əti (məsələn donuz əti) yeyən şəxsin təri və ağzının suyu pakdır.[٧]

---

[١] Şəri suallara cavab, ٣١٤-cü sual
[٢] Şəri suallara cavab, ٣١٥-ci sual
[٣] Şəri suallara cavab, ٣١٧ və ٣١٨-ci suallar
[٤] Şəri suallara cavab, ٣٢٠-ci sual
[٥] Şəri suallara cavab, ٣٢٨-ci sual
[٦] Şəri suallara cavab, ٢٧٠-ci sual
[٧] Şəri suallara cavab, ٢٧٣-cü sual

- Yuyulduqdan sonra paltarda qalan qanın solğun ləkəsi – belə ki, qanın özü deyil, ləkəsi olub yumaqla aradan getmir – pakdır.[١]
- İnsanın qusmağı, istər südyeyən uşağın olsun, istər həm süd yeyən, həm də yemək yeyən uşağınkı, istərsə də böyük insanın, pakdır.

SUALLAR:

١. Spirtin napaklığının meyarı nədir?

٢. Dinin zərurətlərinin inkarı hansı halda küfrə bais olur?

٣. Kitab-əhli kimlərdir?

٤. Paklıq-napaklıq baxımından bəhailərin hökmü nədir?

٥. Haram yolla cünub olan şəxsin hökmü nədir?

٦. Yuyulduqdan sonra paltarda qalan qan ləkəsinin hökmü nədir?

---

[١] Şəri suallara cavab, ٢٩٨-ci sual

DOQQUZUNCU DƏRS
NƏCASƏTLƏR (٣)

-Bir şeyin napak olmasının sübuta yetirilməsi yolları

-Pak şeylərin napak olması şərtləri

-Nəcasətlərin hökmləri

-Vasvasalıq və onun müalicə üsulları

٢. Bir şeyin napak olmasının sübuta yetirilməsi yolları.[١]

Bir şeyin napak olması ٣ yolla sübuta yetirilir

- ١. İnsanın özü bir şeyin napak olduğuna əmin olsun
- ٢. Bir şəxs, ixtiyarında olan şeyin napak olduğunu bildirsin (məsələn, ev sahibi, satıcı və xidmətkar)
- ٣. İki adil şəxs bir şeyin napak olduğuna şahidlik versin.

Diqqət:

- Büluğ çağına yaxınlaşan uşaq, ixtiyarında olan bir şeyin napak olduğunu desə, onun sözünü qəbul etmək lazımdır. Başqa sözlə desək, bu barədə onun sözünə etibar etmək lazımdır.[٢]

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١١-ci məsələ

[٢] Şəri suallara cavab, ٧٦-cı sual

٤. Pak şeylərin napak olması şərtləri[١]

Pak bir şeyin napak olmasının ٤ şərti var

- ١. Pak bir şey nəcasətə və ya napak bir şeyə dəysin
- ٢. Hər ikisi, ya onlardan biri rütubətli olsun
- ٣. Rütubəti birindən digərinə keçsin
- ٤. Bədənin daxilində biri digərinə dəyməsin

Diqqət:

- Rütubətin keçməsində meyar budur ki, iki şey bir-birinə toxunduğu zaman rütubət, rütubətli əşyadan o biri əşyaya sirayət etsin.[٢]
- Əgər yaş parçanın və s. bu kimi əşyaların müəyyən bir yeri napak şeyə dəysə, yalnız həmin yer napak olur və onun digər yerləri pakdır.[٣]
- Əgər ağıza alınan su, damağda quruyub qalmış qan hissəciklərinə dəysə, sonra ağızdan xaric edilsə, pak hökmündədir. Hərçənd ki, ehtiyati-müstəhəbə görə ondan çəkinmək lazımdır. Həmçinin bu qan hissəciklərinə dəyən yemək napak deyil və bu yeməyi udmağın maneəsi yoxdur. Bu halda ağız boşluğu da pakdır.[٤]
- Nəcasətin özünə toxunaraq napak olan şey (fiqhdə "birinci napak şey" adlanır) əgər pak bir şeyə dəysə, onlardan biri rütubətli olduğu

---

[١] Şəri suallara cavab, ٢٧٧, ٢٨٦ və ٢٨٧-ci suallar. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٠-cu məsələ.

[٢] Şəri suallara cavab, ٢٩٠-cı sual

[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٦-cı məsələ

[٤] Şəri suallara cavab, ٢٨٦ və ٢٨٧-ci suallar

halda o pak şeyi napak edir. İkinci napak şey əgər pak bir şeyə dəysə ehtiyati-vacibə görə o pak şeyi napak edir. Lakin üçüncü napak şey bir şeyə dəyməklə onu napak etmir.[١]

٤. Nəcasətlərin hökmləri

١) Nəcasəti və ya napak bir şeyi yemək və içmək haramdır. Həmçinin nəcasət və ya napak olduğu bilinməyən bir şeyi başqasına yedizdirmək və içizdirmək olmaz. Lakin əgər insan bir nəfərin napak bir yemək yediyini və ya napak bir paltarda namaz qıldığını görsə, onun napak olduğunu o şəxsə demək lazım deyildir.[٢]

٢) Paltarın napak olduğunu paltar yuyan şəxsə demək lazım deyil. Lakin paltarın sahibi, onun paklandığına əmin olmayana qədər, ondan pak bir paltar kimi istifadə edə bilməz.[٣]

٣) Əgər qonaq gedən şəxs, ev sahibinin qida məhsullarından və işərisində yemək yeyilən qab-qacaqından qeyri bir əşyanı napak etsə, bunu ev sahibinə bildirməsi lazım deyildir.[٤]

٥. Vasvasalıq və onun müalicə üsulları.

Napaklığa qarşı çox həssas olan vasvas insanlar, bu ruhi xəstəlikdən xilas olmaq üçün aşağıdakı tövsiyələrə əməl etməlidirlər:

١) Pak və napaklıq arasında tərəddüddə qaldıqda müqəddəs şəriətimiz əşyaların paklığına hökm verir. Yəni, əgər müəyyən bir şeyin napak

---

[١] Şəri suallara cavab, ٢٨٣-cü sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٩-cu məsələ.

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٨-ci məsələ

[٣] Şəri suallara cavab, ٢٧٧-ci sual

[٤] Şəri suallara cavab, ٢٨٢-ci sual

olması barədə kiçik bir şübhə yaransa onun napak olmadığına hökm vermək vacibdir.

٢) Əgər vasvas insan bir şeyin napak olduğuna yəqinliyi olsa belə, bəzən o şeyin napak olmadığına hökm versin. Yəni, yalnız bir şeyin (nəcasətə dəyib) napak olmasını öz gözləri ilə gördüyü və onunla birgə başqa bir nəfərin də bunu gördüyü halda, o şeyin napaklığına hökm verə bilər. Bu hökm, vasvas şəxslərin həssaslığı tamamilə aradan gedənədək onlar barəsində qüvvədə qalır.

٣) Napak olan hər bir əşya və ya bədən üzvini paklamaq üçün nəcasət təmizləndikdən sonra su borularından axan su ilə bir dəfə yumaq kifayətdir. Təkrar olaraq yumaq və ya yenidən suya salmaq lazım deyildir. Əgər napak olan şey parça və bu kimi əşyalardırsa, ehtiyata görə adi qaydada sıxmaq və ya (suda) hərəkət etdirmək lazımdır.

٤) İslam dininin hökmləri asan və bəşər fitrətinə uyğundur. Odur ki, insan bu hökmləri özü üçün çətinləşdirməməli və öz cisim və ruhunu əziyyətə salmamalıdırlar. Bu kimi məsələlərdə (paklıq və napaklıq) iztirab və təşviş, həyatı onlara (vasvası insanları) acı edir və Allah-Təala onların və onlarla ünsiyyətdə olan insanların əzab-əziyyət çəkməsinə razı deyildir. Onlar asan bir dinləri olduğu üçün şükr etməlidirlər və bu nemətin şükrü, Allah-Təalanın hökmlərinə buyurduğu kimi əməl etməkdir.

٥) Bu hal, ötüb keçə və müalicə oluna bilər. Ondan xilas olmaq üçün möcüzəyə ehtiyac yoxdur. İnsan öz şəxsi qayda-qanunlarını kənara qoymalı və müqəddəs şəriət hökmlərinə tam şəkildə tabe olmalıdır. Saysız insanlar bu xəstəliyə tutulduqdan sonra yuxarıda qeyd olunan

üsulla ondan xilas olublar. Allaha təvəkkül edin və nəfsinizi uca himmət və güclü iradə ilə sakitləşdirin.[١]

SUALLAR:

١. Büluğ həddinə yaxınlaşan uşağın bir şeyin napak olduğu barədə dediyi sözə inanmaq lazımdırmı?

٢. Pak bir şeyin napak olmasının neçə şərti var?

٣. Rütubətin sirayət etməsini izah edin.

٤. Napak olan şeyin özü neçə dəfə napakedicidir?

٥. Əgər qonaq, ev sahibinin bir əşyasını napak etsə, ona deməlidirmi?

٦. Vasvas insanlar bir şeyin napak olasına əmin olsalar belə nə etməlidirlər?

---

[١] Şəri suallara cavab, ٣١١ və ٣١٢-ci suallar. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٢٠-ci məsələ.

ONUNCU DƏRS

MUTƏHHIRAT[١] (١)

١. Mutəhhirat

Mutəhhirat
- ١. Su
- ٢. Yer
- ٣. Günəş
- ٤. İstihalə
- ٥. İntiqal
- ٦. İslam
- ٧. Təbəiyyət
- ٨. Nəcasətin təmizlənməsi
- ٩. Nəcasət yeyən heyvanın istibrası
- ١٠. Müsəlmanın qaib olması

Diqqət:

- Napaklığı pak edənlərə “mutəhhirat” (paklayıcı) deyilir.

١. Su

١. Qabları paklamağın yolu:

١) Napak qabı qəlil su ilə üç dəfə yumaq lazımdır. Lakin kürr və axar suda bir dəfə yumaq kifayətdir.[٢]

٢) Əgər it, bir qabdan su və ya başqa maye içibsə, yaxud bir qabı yalayıbsa, əvvəlcə bu qabı torpaqlamaq, sonra yumaq lazımdır. Bu qabı qəlil su ilə yuduqda, torpaqladıqdan sonra iki dəfə yumaq lazımdır.[١]

---

[١] Paklayıcılar

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٢٣-cü məsələ

٣) Əgər donuz, bir qabdan maye halında bir yemək yeyibsə və ya su içibsə, bu qabı yeddi dəfə yumaq lazımdır, lakin onu torpaqlamaq lazım deyildir.[٢]

٢. Qablardan başqa əşyaları paklamağın yolu:

١) Nəcasəti təmizləndikdən sonra napak olan bir şey, əgər bir dəfə kürr və ya axar suya salınsa, yaxud kürr suya birləşən kran suyunun altında napak olan yerlərin hamısı yuyulsa, pak olar. Xalça, paltar və bu kimi əşyaları ehtiyata görə (ehtiyati-vacib) suya saldıqda sıxmaq və hərəkət etdirmək lazımdır. Qeyd etmək lazımdır ki, bu əşyaları suyun daxilində sıxmaq və hərəkət etdirmək kifayət edir və sudan çıxardıq-dan sonra bu işləri yerinə yetirmək lazım deyildir.[٣]

٢) Əgər bövlə dəyib napak olan şeyin nəcasəti təmizləndikdən sonra üstünə iki dəfə qəlil su tökülsə, pak olar. Bövldən başqa nəcasətlərə dəyib napak olan şey, nəcasəti təmizləndikdən sonra əgər bir dəfə yuyulsa, pak olar.[٤]

٣) Müəyyən bir şey qəlil su ilə suya çəkildikdə, bu əşyanın üstünə tökülən su ondan ayrılmalıdır (yəni, axıb getməlidir). Əgər sıxmaq mümkündürsə, məsələn, paltar və xalçada, suyun xaric olması üçün onu sıxmaq lazımdır.[٥]

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٢٤-cü məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٢٥-ci məsələ

[٣] Şəri suallara cavab, ٧١ və ٧٢-ci suallar. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٢٠-ci məsələ.

[٤] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٢١-ci məsələ

[٥] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٢٢-ci məsələ

Diqqət:

- Xalça və bu kimi əşyaları su borularından axan (kürr suya birləşmiş) su ilə pakladıqda, bu əşyaların üstünə axan suyun ondan xaric olması şərt deyildir. Bu halda nəcasət təmizləndikdən sonra napak yerə suyun axması və tökülən suyu töküldüyü yerdən əl ilə hərəkət etdirməklə bu yer pak olar.
- Napak su ilə qarışdırılmış palçıqdan tikilən təndirin divarını yumaqla pak olur və çörək bişirmək üçün təndirin divarının, yəni xəmir yapılan yerin paklığı kifayətdir.[١]
- Paklandığı zaman suya rəngi çıxan (və nəticədə suyu rəngli edən) napak paltarlar, əgər paltarın rənginin çıxması suyun muzaf olmasına bais olmasa, üzərinə suyun tökülməsi nəticəsində pak olurlar.[٢]
- Əgər napak paltarları paklamaq üçün ləyənə qoyub üzərinə su borularından axan suyu axıtsalar və paltarlar tamamilə islansa, bu halda həm paltar, həm ləyən, həm su, həm də paltardan qopub suyun üzərinə yığılan və su ilə birgə axıb gedən xov pakdır. (əlbəttə, əvvəldə deyildiyi kimi paltar və bu kimi əşyaları ehtiyata görə suya saldıqdan sonra, sıxmaq və ya hərəkət etdirmək lazımdır.)[٣]

SUALLAR:

١. ***Mutəhhiratı sadalayın.***

٢. ***Qabları paklamağın qaydasını deyin.***

---

[١] Şəri suallara cavab, ٨٥-ci sual

[٢] Şəri suallara cavab, ٨٣-cü sual

[٣] Şəri suallara cavab, ٢٨٩-cu sual

٣. Kürr və axar su ilə yuyulan paltarları sıxmaq lazımdırmı, yoxsa nəcasəti təmizləndikdən sonra su onun hər tərəfinə dəysə kifayətdir?

٤. Kürr və axar su ilə yuyulan paltarları sudan çıxartdıqdan sonra sixmaq lazimdırmı?

٥. Napak su ilə hazırlanan palçıqdan tikilmiş təndiri paklamaq mümkündürmü?

٦. Paklandığı zaman rəngi suya çıxan paltarlar necə pak olur?

ON BİRİNCİ DƏRS

MUTƏHHIRAT (٢)

٢. Yer.

Yol getmək nəticəsində ayağının və ayaqqabısının altı napak olan şəxs, əgər təxminən ١٠ addım quru və pak yerin üstündə yol getsə, nəcasətin aradan getməsi ilə ayaqqabısının və ayağının altı pak olar.

Diqqət:

- Asfalt döşəmə və ya qırlanmış yer, ayağın və ayaqqabının altını pak etmir.[١]

٣. Günəş.

١) Günəş yeri, evləri və evə aid olan qapı, pəncərə, sütun kimi əşyaları, həmçinin ağac və bitkiləri pak edir.[٢]

٢) Günəş bu şərtlə pak edir

- ١. Napak şey yaş olsun
- ٢. Üzərində nəcasət olmasın (üzərində nəcasət olduğu halda günəş düşməzdən əvvəl onu təmizləmək lazımdır)
- ٣. Günəş napak şeyin üzərinə düşsün (bulud ya pərdə kimi heç bir şey günəşin düşməsinin qarşısını almasın)
- ٤. Günəşin düşməsi nəticəsində qurusun. (əgər nəm qalsa, pak olmaz)

---

[١] Şəri suallara cavab, ٨١-ci sual

[٢] Şəri suallara cavab, ٨٢-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٢٧-ci məsələ.

٤. İstihalə (haldan-hala düşmək)

Əgər nəcasət və ya napak bir şeyin mahiyyəti (tərkibi) dəyişib başqa bir şeyə çevrilsə, məsələn, çubuq yanıb kül olsa, şərab sirkəyə çevrilsə, it duzluğa düşüb duza çevrilsə, pak olar. Amma əgər onun tərkibi deyil, təkcə forması dəyişsə, məsələn buğda una çevrilsə, şəkər suda həll olsa, pak olmaz.[١]

Diqqət:

- Yağ və bu kimi maddələr napak olduğu hlda onların pak edilməsi üçün təkcə kimyəvi reaksiyalar (belə ki, bu reaksiyalar nəticəsində bir maddə yeni xassələrə malik olan digər bir maddəyə çevrilir) kifayət deyildir.[٢]
- Kanalizasiya sularının mikroblardan, (insan orqanizminə zərərli olan bir sıra) minerallardan və s. maddələrdən saflaşdırılması nəticəsində istihalə baş vermir. Amma əgər saflaşdırma, distillə yolu ilə, yəni, əvvəlcə suyun buxarlanması, sonra buxarın yenidən suya çevrilməsi yolu ilə olsa, onda istihalə sayılır.[٣]

٥. İntiqal (yerdəyişmə)

Ağcaqanad və başqa həşəratların insanın bədənindən sorduğu qan, insan qanı sayılanadək napakdır (məsələn, zəlinin insandan sorduğu

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٢٩-cu məsələ
[٢] Şəri suallara cavab, ٨٦-cı sual
[٣] Şəri suallara cavab, ٨٨-ci sual

qan). Amma bir müddətdən sonra bu qan o həşəratın qanı sayıldığı halda pak olur.[١]

٦. Nəcasətin təmizlənməsi.

Əgər heyvanın bədəni nəcasətə bulaşarsa, nəcasət təmizləndiyi vaxt heyvanın bədəni pak olur və suya çəkməyə ehtiyac yoxdur. Nəcasətin kənardan içəriyə daxil olmaması şərtilə ağız və burun daxili də eynilə belədir. Deməli dişdən gələn qan əgər ağız suyuna qarışıb aradan getsə, ağız pak olur.[٢]

٧. Müsəlmanın qaib olması.

Bir nəfərin başqa bir müsəlman fərdin bədəninin, paltarının və ya müəyyən bir əşyasının napak olduğuna yəqinliyi var idi. Əgər bu şəxs bir müddət o müsəlmanı görməsə və görüşdüyü vaxt onun bu napak əşya ilə pak bir əşya kimi davrandığını müşahidə etsə, o şey pak hökmündədir. Bir şərtlə ki, o müsəlman fərd əşyasının napak olduğunu, eləcə də paklıq və napaklıq hökmlərini bilsin.[٣]

SUALLAR:

١. Ayağın və ya ayaqqabının altı asfalt yolun üzərində yol getməklə paklanırmı?

٢. Günəşin pak etmə şərtləri hansılardır?

٣. İstihalə üçün bir neçə nümunə deyin.

٤. Napak yağ kimyəvi reaksiyalar nəticəsində pak olurmu?

٥. Zəlinin insandan sorduğu qan pakdır, yoxsa napak? Nə üçün?

٦. Nəcasətin aradan getməsi ilə hansı şey pak olur?

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٣٠-cu məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٣١-ci məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٣٢-ci məsələ

ON İKİNCİ DƏRS

MUTƏHHIRAT (٣)

-Bir şeyin paklığının sübuta yetirilməsi yolları

- Paklıq qanunu

- Qabların hökmləri

٢. Bir şeyin paklığının sübuta yetirilməsi yolları.[١]

Bir şeyin pak olması üç yolla sübuta yetirlir

١. İnsanın özü napak bir şeyin paklandığına əmin olsun

٢. Bir şəxs, ixtiyarında olan əşyanın paklandığını söyləsin (məsələn, ev sahibi, satıcı və xidmətkar)

٣. İki adil şəxs napak bir şeyin paklandığına şahidlik versin

Diqqət:

- Büluğ çağına yaxınlaşan uşaq, ixtiyarında olan bir şeyin pak olduğunu desə, onun sözünü qəbul etmək lazımdır. Başqa sözlə desək, bu barədə onun sözünə etibar etmək lazımdır.

٣. Paklıq qanunu

١.Paklıq qanunu nə deməkdir?

Ümumiyyətlə paklıq və napaklıq arasında (bir şeyin pak, yaxud napak olması barədə) tərəddüddə qaldıqda, paklığa hökm verilməlidir. Yəni, bir şeyin napak olmasına əmin olmayanadək o şey, müqəddəs

---

[١] Şəri suallara cavab, ٧٦-cı sual

şəriət baxımından pak sayılır və araşdırma aparmaq, ətrafdakılardan soruşmaq lazım deyildir.[١]

٢. Paklıq qanununun istifadə olunduğu yerlər.

١)Özünü çox vaxt napak edən uşağın yaş əlinin, ağzının suyunun və yeməyin qalığının napak olduğuna əmin olmayanadək, onlar pak hökmündədir.[٢]

٢)Xov və ya toz-torpağın pak, yoxsa napak paltardan çıxdığı məlum olmasa, pak hökmündədir. Həmçinin xov və ya toz-torpağın napak paltardan çıxdığını bilsək, lakin paltarın pak, yoxsa napak hissəsindən çıxdığını bilməsək yenə də pak hökmündədir.[٣]

٣)Kimyəvi təmizləməyə və ya camaşırxanalara yuyulmağa verilən paltarlar əgər əvvəlcədən napak olmasalar, pak hökmündədirlər. Baxmayaraq ki, bu yerlərdə paltarları yumaq üçün kimyəvi maddələrdən istifadə edilir.[٤]

٤)Pak, yoxsa napak olduğunu bilmədiyimiz bir yerə tökülən sudan sıçrayan damcılar pakdır.[٥]

٥)Şəhərin zibil daşıyan maşınlarından küçələrə tökülən suyun pak, yoxsa napak olduğunu bilmədiyimiz halda, bu su pak hökmündədir. Həmçinin küçələrdəki çalalarda toplanan suların pak, yoxsa napak olduğu məlum olmadığı halda, bu sular pak hökmündədir.

---

[١] Şəri suallara cavab, ٢٩٦, ٣٠٩ və ٣١٢-ci suallar

[٢]Şəri suallara cavab, ٢٨٥-ci sual

[٣]Şəri suallara cavab, ٢٨٩-cu sual

[٤] Şəri suallara cavab, ٢٩١-ci sual

[٥] Şəri suallara cavab, ٢٩٣-cü sual

٦)Murdardan (cəsəd) hazırlanıb-hazırlanmadığı məlum olmayan dodaq boyası kimi zinət əşyalarının napaklığı şəri yolla məlum olmayanadək pak sayılırlar və onlardan istifadə etmək olar.[١]

٧)Əgər dəri ayaqqabının şəriətin qoyduğu qaydada kəsilməyən heyvan dərisindən tikildiyinə yəqinliyimiz olsa və ayaq da bu ayaqqabının içərisində tərləsə, ayaq napak olar və namaz üçün suya çəkilməlidir. Lakin əgər ayağın tərlədiyinə, yaxud dərisindən ayaqqabı tikilən heyvanın şəri qaydada kəsildiyinə şəkk etsək, ayaq pak hökmündədir.[٢]

٨)Donuz tükündən hazırlanıb-hazırlanmadığı məlum olmayan rəsm fırçası, pakdır və hətta paklığı şərt sayılan işlərdə ondan istifadə etmək olar.[٣]

٩)Müsəlman, yoxsa kafir olduğunu bilmədiyimiz bir şəxs, pak hökmündədir və ondan dinini soruşmaq lazım deyildir.[٤]

١٠) Kitab-əhli olmayan kafirlərin əmlakı olan evlərin və mehmanxanaların divar və qapılarının eləcə də onlarda mövcud olan məişət əşyalarının pak, yoxsa napak olduğunu bilmədiyimiz halda, pak hökmündədirlər. (Əlbəttə, napak olduğuna yəqinliyimiz olduğu halda da onların hamısını suya çəkmək lazım deyildir. Yalnız yemək, içmək və namaz qılmaq üçün istifadə edilən əşyaları paklamaq vacibdir.)[٥]

---

[١] Şəri suallara cavab, ٢٨٨-ci sual
[٢] Şəri suallara cavab, ١٨٤-cü sual
[٣] Şəri suallara cavab, ٢٧٤-cü sual
[٤] Şəri suallara cavab, ٢٩٩-cü sual
[٥] Şəri suallara cavab, ٣٢١-ci sual

١١) Maşın və qatar oturacaqları kimi kafirlərin və müsəlmanların müştərək istifadə etdiyi əşyaların pak, yoxsa napak olduğunu bilmədiyimiz halda, pakdırlar.[١]

١٢) Məstedici maye növündən olub-olmadığı məlum olmayan spirtlər, pak hökmündədirlər.[٢]

٤.Qabların hökmləri

Qızıl və ya gümüş qabdan yemək-içmək üçün istifadə etmək haramdır. Amma bu qabları saxlamaq və ya yemək-içməkdən qeyri işlər üçün onlardan istifadə etmək, haram deyildir.[٣]

Diqqət:

Qızıl və ya gümüş suyuna çəkilən qablar və ya qızıl və gümüş qab adlandırılmayan və tərkibində az miqdarda qızıl və gümüşü olan metaldan hazırlanan qablar, qızıl və gümüş qab hökmündə deyildir.[١]

SUALLAR:

١. Paklığın sübuta yetirilməsi yollarını sadalayın.

٢. Paklıq qanunu nədir?

٣. Çox vaxt özünü napak edən uşağın yaş əlinin, ağzının suyunun və yeməyinin qalığının hökmü nədir?

٤. Quru təmizləməyə və ya camaşırxanalara yuyulmağa verilən paltarların hökmü nədir?

٥. Küçələrdəki çalalarda cəm olan sular pakdır, yoxsa napak?

٦. Qızıl və gümüş qabları evdə saxlamağın hökmü nədir?

---

[١] Şəri suallara cavab, ٣٣٢-ci sual

[٢] Şəri suallara cavab, ٣٠٤-cü sual

[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٤٠-cı məsələ

ON ÜÇÜNCÜ DƏRS

DƏSTƏMAZ (١)

- Dəstəmaz nədir?
- Dəstəmazın qaydası

١. Dəstəmaz nədir?

Dəstəmaz, müəyyən şərtlərə riayət edərək xüsusi tərzdə üz və əlləri yumaq, başın yuxarı hissəsinə və ayaqların üstünə məsh çəkməkdir.

Müqəddəs İslam şəriətində mənəvi paklığa bais olan bu əməl, namaz, təvaf, Quran oxumaq, məscidə daxil olmaq və s. bir çox vacib və müstəhəb əməllər üçün müqəddimə sayılır.[٢]

٢. Dəstəmazın qaydası

- Dəstəmazın qaydası
  - Yuyulur:
    - Üz: alnın tük bitən yerindən çənənin ucunadək
    - Əllər: dirsəkdən barmaqların ucuna qədər
  - Məsh çəkilir:
    - Başın yuxarı hissəsinə
    - Ayağın üstünə: barmaqların ucundan oynağa qədər

Diqqət:

- Dəstəmaz əməllərinin tərtibi bu qaydadadır:

---

١ Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٤١-ci məsələ

٢ Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٤٢-ci məsələ

Əvvəlcə üz, alnın tük bitən yerindən çənənin ucuna qədər yuyulur. Sonra sağ əl dirsəkdən barmaqların ucuna qədər və bundan sonra sol əl dirsəkdən barmaqların ucuna qədər yuyulur. Üz və əllər yuyulduqdan sonra həmin rütubətli əl ilə başın yuxarı hissəsinə, sonra sağ ayağa barmaqların ucundan oynağa qədər və daha sonra sol ayağa barmaqların ucundan oynağa qədər məsh çəkmək lazımdır.[١]

١. Üz və əllərin yuyulması

١) Üz, orta barmaqla baş barmağın arası qədər enlilikdə yuyulmalıdır.[٢]

٢) Əgər üzdə tük çox olsa, tükün üzərini yumaq kifayətdir və dəstəmaz suyunu üzün dərisinə yetişdirmək lazım deyil. Lakin əgər üzün dərisi aydın görünsə, dəstəmaz suyunu üzün dərisinə yetişdirmək lazımdır.[٣]

٣) Yumaq, suyu dəstəmaz üzvünün hər tərəfinə, hətta əl ilə yaymaqla olsa belə, yetişdirməkdir. Lakin rütubətli əli dəstəmaz üzvünün üzərinə təkcə məsh şəklində çəkmək kifayət deyildir.[٤]

٤) Dəstəmaz alarkən üz və əllər yuxarıdan aşağıya doğru yuyulmalıdır. Əgər aşağıdan yuxarıya doğru yuyulsa, dəstəmaz batildir.[٥]

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٤٣-cü məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٤٤-cü məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٤٥-ci məsələ
[٤] Şəri suallara cavab, ١٢٤-cü sual.
[٥] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٤٦-cı məsələ

٥) Üz və əlləri yumaq [١]:

– Birinci dəfə: vacib
– İkinci dəfə: yumaq olar (cayiz)
– Üçüncü dəfə və ya daha çox: haram

Diqqət:

• Dəstəmaz üzvlərinin neçənci dəfə yuyulduğunu təyin etmək üçün meyar, insanın niyyətidir. Deməli, insan, birinci dəfə yumaq niyyətilə dəstəmaz üzvünə bir neçə dəfə su tökə bilər.[٢]

٢. Baş və ayaqlara məsh çəkmək

١) Başın dərisinə məsh çəkmək vacib deyil və başın yuxarı hissəsindəki saçların üzərinə məsh çəkmək kifayətdir. Amma əgər başın digər hissələrindəki saç başın ön hissəsinə yığılsa, yaxud başın yuxarı hissəsindəki saç uzun olub üz və çiyinlərə tökülsə, bu halda təkçə saçın üzərinə məsh çəkmək kifayət deyildir. Gərək ayrıc ayırıb başın dərisinə, yaxud saçların dibinə məsh çəkilsin.[٣]

Diqqət:

• Başının yuxarı hissəsinə süni saç qoyan şəxsin əgər qoyduğu bu saç parik şəklindədirsə, başa məsh çəkmək üçün onu götürmək vacibdir. Lakin əgər saçlar dəriyə əkilibsə və onu götürmək mümkün deyildirsə, yaxud onu götürmək zərərli və məşəqqətli olub əldəki

---

[١] Şəri suallara cavab, ١٠٢-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٤٧-ci məsələ
[٢] Şəri suallara cavab, ١٠٢-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٤٧-ci məsələ
[٣] Şəri suallara cavab, ١٢٥-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٤٩-cu məsələ.

rütubəti (dəstəmaz suyunu) də başın dərisinə çatdırmaq mümkün deyilsə, onda bu saçların üzərinə məsh çəkmək kifayətdir. [١]

٢) Ayağın məsh yeri, ayağın üstü olub barğmaqlarin birinin başından oynağa qədərdir. Ayaq barmaqlarının altından (yəni, yol gedərkən barmaqların yerə dəyən hisssəsi) məsh çəkməyin müıtəhəb olduğu isə sübuta yetirilməyib.[٢]

Diqqət:

• Əgər ayağa məsh çəkərkən barmağın başına məsh çəkilməsə, belə ki, yalnız ayağın üstünə və barmağın bir hissəsinə məsh çəkilsə, dəstəmaz batildir. Əlbəttə əgər insan dəstəmazdan sonra barmağının başına məsh çəkib- çəkmədiyi barədə şəkk etsə, dəstəmazı düzdür.[٣]

٣) Baş və ayağa dəstəmaz suyu ilə, yəni üz və əlləri yuduqdan sonra əldə qalan rütubət ilə məsh çəkmək lazımdır. Əgər əldə rütubət qalmasa, əli kənar bir su ilə islatmaq olmaz. Bu halda əli, saqqal və ya qaşda qalan su ilə rütubətli edib məsh çəkmək lazımdır. Ehtiyati-vacibə görə başa sağ əl ilə məsh çəkilməlidir, lakin yuxarıdan aşağıya doğru məsh çəkmək zəruri deyildir.[٤]

Diqqət:

• Dəstəmaz alan şəxs, dəstəmaz niyyəti ilə üz və əllərini yuduğu vaxt əgər su kranını açıb-bağlasa, eybi yoxdur və bu iş, dəstəmaza xələl gətirmir. Amma əgər sol əli yuduqdan sonra və ayağa məsh çəkmə-

---

[١] Şəri suallara cavab, ١٠١ və ١٢٦-cı suallar.
[٢] Şəri suallara cavab, ١١١-ci sual
[٣] Şəri suallara cavab, ١٠٥-ci sual
[٤] Şəri suallara cavab, ١١٣-sü sual.Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٤٨ və ٥٢-ci məsələ

mişdən qabaq əlini islanmış su kranına vursa və bu su, əldəki dəstəmaz suyuna qarışsa, bu rütubətlə (yəni, dəstəmaz suyu ilə qeyri-dəstəmaz suyunun qarışığı olan bu rütubət) məshin çəkilməsi, dəstəmazın düzgünlüyünə şüğhə doğurur.[١]

• Qeyd olundu ki, ayaqlara, əlin içində qalan dəstəmaz suyu ilə məsh çəkilməlidir. Odur ki, ayağa məsh çəkmək üçün əlin rütubətinin üzün rütubəti ilə qarışmasın deyə başa məsh çəkilən vaxt əl, alnın yuxarısına və üzün rütubətinə dəyməməlidir.[٢]

٤) Məsh zamanı əli başın və ayağın üzərinə çəkmək lazımdır. Deməli, əgər əl, hərəkətsiz saxlanılıb ayaq və ya baş hərəkət etdirilsə, başqa sözlə desək ayaq və baş əlin içərisinə çəkilsə məsh batildir.[٣]

٥) Məsh yeri quru olmalı və yaxud əlin rütubətini üstələyən bir həddə yaş olmamalıdır.[٤]

Diqqət:

• Əgər ayağın üstünə yəni, məsh yerinə bir neçə damla su tökülübsə, əldəki rütubətin ayağa dəyməsi üçün məsh zamanı onları qurulamaq lazımdır. Əks təqdirdə ayaqdakı rütubət ələ dəyəcəkdir.[٥]

٦) Əgər ayağın üstü napak olsa və məsh çəkmək üçün paklamaq mümkün olmasa , təyəmmüm etmək lazımdır.[٦]

---

[١] Şəri suallara cavab, ١١٢-ci sual
[٢] Şəri suallara cavab, ١٤٢-ci sual
[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٥٠-ci məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٥١-ci məsələ
[٥] Şəri suallara cavab, ١٣٣-cü məsələ
[٦] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٥٣-ci məsələ

٧) Iki ayağı iflic olan, tibbi ayaqqabı və əsa ilə yeriyən şəxsə ayaqqabılarını çıxarıb ayağa məsh çəkmək olduqca çətin olduğundan belə şəxsə ayaqqabılarının üstünə məsh çəkməyə icazə verilir və bu məsh kifayətdir (təyəmmümə ehtiyac yoxdur).[١]

Dəstəmazın qaydası barədə iki məsələ:

I. Əgər bir insandan davamlı olaraq mədə yeli xaric olursa və o, namazın sonuna qədər dəstəmazını saxlaya bilmirsə, bu halda əgər namaz əsnasında yenidən dəstəmaz almaq onun üçün çox çətin olsa, bir dəstəmaz ilə yalnız bir namaz qıla bilər. Yəni namaz əsnasında dəstəmazı pozulsa belə, bir namaz üçün bir dəstəmazla kifayətlənə bilər. [٢]

II. Dəstəmazın əmmälləri və qaydası baxımından qadınla kişi arasında fərq yoxdur. Bircə kişilərə qolu çöl tərəfdən, qadınlara isə içəri tərəfdən yumağa başlamaq, müstəhəbdir.[٣]

SUALLAR:

١-Dəstəmazın qaydasını və hansı tərtiblə yerinə yetirildiyini izah edin.

٢-Dəstəmaz alarkən üz və əllərə üç ovuc su tökmək dəstəmazı batil edirmi? Nə üçün?

٣-Dəstəmaz alan şəxs üz və əllərini dəstəmaz niyyəti ilə yuduğu zaman su kranını açıb-bağlaya bilərmi?

---

[١] Şəri suallara cavab, ١٢٠-ci sual
[٢] Şəri suallara savab, ١٢٨-ci sual
[٣] Şəri suallara savab, ١٤٦-cı məsələ

٤-Əgər başın məshinin rütubəti üzün rütubətinə dəysə, dəstəmaz batildirmi?

٥-Məsh çəkilən zaman ayağın üstündə bir neçə damla suyun olması dəstəmaza xələl gətirirmi?

٦-Qadınla kişinin dəstəmazı arasındakı fərqi bəyan edin.

ON DÖRDÜNCÜ DƏRS

DƏSTƏMAZ (٢)

Dəstəmazın şərtləri (١)

٣. Dəstəmazın şərtləri.

I. Dəstəmaz alan şəxsin şərtləri:

- qürbətən iləllah dəstəmaz alsın (niyyət)
- suyun ona zərəri olmasın və ya suyu dəstəmaz almaq üçün istifadə etsə başqa bir çətinliyə düşməsin

II. Dəstəmaz suyunyn şərtləri:

- dəstəmaz suyu mütləq su olmalıdır;
- pak olmalıdır;
- mubah olmalıdır, yəni qəsbi olmamalıdır.

III. Dəstəmaz qabının şərti:

- pak olmalıdır.

IV.Dəstəmaz üzvlərinin şərtləri:

- pak olmalıdırlar;
- dəstəmaz suyunun dəriyə yetişməsi üçün bir maneə olmamalıdır.

V. Dəstəmaz qaydasının şərtləri:

- dəstəmaz işləri göstərilən ardıcıllıqla yerinə yetirilsin (tərtib);
- dəstəmaz işləri fasiləsiz yerinə yetirilsin (muvalat);
- dəstəmaz işlərini insan şəxsən özü və ixtiyari şəkildə yerinə yetirsin (mubaşirət).

VI. Dəstəmaz vaxtının şərti:

-dəstəmaz alıb namaz qılmaq üçün kifayət qədər vaxt olsun.

١. Niyyət

Dəstəmazı «qürbətən iləllah» almaq lazımlır. Yəni, bu əməldə niyyət, Allah-təalanın əmrini yerinə yetirmək olmalıdır. Deməli, əgər insan, özünü göstərmək və ya sərinlənmək niyyətilə dəstəmaz əməllərinin hamısını yerinə yetirsə (dəstəmaz tamamlansa), bu dəstəmaz batildir.[١]

٢. Sudan istifadə etmək dəstəmaz alana zərər olmasın və ya onun üçün çətinlik törətməsin.

Hər kim dəstəmaz alacağı təqdirdə xəstələnəcəyindən və ya suyu dəstəmaz üçün istifadə edərsə susuz qalacağından qorxsa, dəstəmaz almamalıdır.[٢]

٣. Dəstəmaz suyu "mütləq su" olmalıdır.

Dəstəmaz suyu mütləq su olmalıdır. Odur ki, muzaf su ilə alınan dəstəmaz batildir.[٣]

٤. Dəstəmaz suyu pak olmalıdır.

Dəstəmaz suyu pak olmalıdır. Deməli, napak su ilə alınan dəstəmaz batildir.[٤]

Diqqət:

• Əgər bir nəfərin axtarıb tapdığı su çirkli su olsa və o su pak və mütləq olub ondan istifadə etməyin zərəri olmasa, həmçinin zərər qor-

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٦١-ci məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٦٦-ci məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٥٦-ci məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٥٤-cü məsələ

xusu da olmasa həmin şəxs bu su ilə dəstəmaz almalıdır və növbə təyəmmümə çatmamışdır.[١]

٥- Dəstəmaz suyu mübah olmalıdır.

Dəstəmaz suyu mübah olmalıdır. Odur ki, qəsbi su ilə dəstəmaz almaq olmaz.[٢]

Diqqət:

• Bütün namaz qılanların dəstəmaz alması üşün nəzərdə tutulan yerlərin suyundan dəstəmaz almaq üçün istifadə etməyin heç bir maneəsi yoxdur.[٣]

• Əgər su idarəsi sorucu nasosların quraşdırılmasını və istifadəsini qadağan etsə, belə nasosları quraşdırmaq və onlardan istifadə etmək olmaz. Bu halda sorucu nasosla əldə edilən su ilə alınan dəstəmazın düzgünlüyü şübhəlidir. Bu hökm, hətta suyun təzyiqinin aşağı olduğu üçün nasosdan istifadə etmək məcburiyyətində qalan yuxarı mərtəbələrin sakinlərinə belə aiddir.[٤]

• Istər yaşayış, istərsə də qeyri-yaşayış binalarında ümumi xidmətlərdən (isti su, hava təmizləyicilər, qapıçı və s.) istifadə edən sakinlərin hər biri şəri baxımdan bu xidmətlərdən istifadə etdikləri miqdarda onların xərcini ödəməlidirlər. Sakinlərdən hər biri isti su

---

[١] Şəri suallara cavab, ١٢١-ci sual

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٥٧-ci məsələ

[٣] Şəri suallara cavab, ١١٧-ci sual

[٤] Şəri suallara cavab, ١٠٩-ci sual

pulunu ödəməkdən imtina etsə, onun dəstəmazı şübhəlidir, hətta batildir.[١]

SUALLAR:

١- Dəstəmaz alan şəxsin özünə aid olan şərtlər hansılardır?

٢-Dəstəmaz suyunun şərtləri hansılardır?

٣- Əgər elə bir məkana çatsaq ki, oradan bir neçə fərsəx məsafəyədək aralanıb su axtarsaq və nəticədə çirkli su tapsaq, bu halda təyəmmüm etməliyik, yoxsa dəstəmaz almalıyıq?

٤- Əgər su idarəsi su nasoslarından istifadə etməyi qadağan etsə, nasosla sovrulan su ilə alınan dəstəmazın hökmü nədir?

٥-Yaşayış binalarında ümumi xidmətlərdən istifadə edən, lakin onların xərcini ödəməkdən boyun qaçıran şəxslərin dəstəmazı düzdürmü?

---

[١] Şəri suallara cavab, ١٢٩-ci sual

ON BEŞİNCİ DƏRS

DƏSTƏMAZ (٣)

Dəstəmazın şərtləri (٢)

٧. Dəstəmaz üzvləri pak olmalıdır.

Dəstəmaz üzvləri dəstəmaz alarkən pak olmalıdır.

Amma əgər dəstəmaz tamamlanmamışdan qabaq yuyulmuş və ya məsh çəkilmiş yer napak olsa, dəstəmaz düzdür. Əlbəttə namaz üçün onu paklamaq vacibdir.[١]

Diqqət:

• Əgər bir nəfər dəstəmaz aldıqdan sonra şəkk etsə ki, dəstəmazdan öncə napak olan yeri paklayıb dəstəmaz almış, yoxsa paklamadan dəstəmaz almışdır, belə ki, əgər dəstəmaz vaxtı həmın yerin pak olub-olmadığına diqqət etməmişdirsə, dəstəmazı batildir.

Amma əgər əmindirsə və ya ehtimal verirsə ki, o yerin paklığına diqqət yetirib, dəstəmazı düzdür.

Yenə də hər iki halda o yeri paklamalıdır.[٢]

٨. Suyun dəstəmaz üzvlərinə yetişməsi üçün bir maneə olmamalıdır.

Suyun dəstəmaz üzvlərinə yetişməsi üçün bir maneə olmamalıdır, əks təqdirdə dəstəmaz batildir[١]

---

[١] Şəri suallara cavab, ١٣٢-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٥٨-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü,٥٩-ci məsələ

Diqqət:

• Əgər saç və üzdə yaranan təbii yağlılıq suyun üzün dərisinə və saçlara yetişməsinin qarşısını almasa, maneə hesab olunmur.[٢]

• Dırnaq boyası (lak) suyun dırnağa yetişməsinin qarşısını alır və dəstəmazı batil edir.[٣]

• Əgər saç və qaşları boyamaq üçün qadınların istifadə etdikləri süni rənglər saçlarda və qaşda suyun yetişməsinin qarşısını alan bir qat yaratmayıb saçlar boyandıqdan sonra yuyulub gedirsə, boyalı saç və qaş ilə alınan dəstəmaz düzdür.[٤]

• Əgər mürəkkəb, dəstəmaz üzvlərində suyun dəriyə yetişməsinin qarşısını alan bir qat yaratsa, dəstəmazın batil olmasına səbəs olar. Mürəkkəbin maneə olub-olmamasını müəyyənləşdirmək isə mükəlləfin öhdəsindədir.[٥]

• Əgər döymə xal (tatuirovka), dərinin üzərini sadəcə rəngləyibsə, və ya boya dərinin altına nüfuz edib dərinin üzərində suyun yetişməsinin qarşısını alan bir qat yaratmayıbsa, bu halda alınan dəstəmaz düzdür.[٦]

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٦٧-ci məsələ
[٢] Şəri suallara cavab, ١٠٤-cü sual
[٣] Şəri suallara cavab, ١١٤-ci sual
[٤] Şəri suallara cavab, ١٤٠-cı sual
[٥] Şəri suallara cavab, ١٤١-ci sual
[٦] Şəri suallara cavab, ١٤٤-ci sual

• Dəstəmaz üzvləri quruduqdan sonra görünən sabun və ya əhəngin ağlığı əgər dəstəmaz zamanı suyun dəriyə yerləşməsinin qarşısını alan bir qat yaratmayıbsa, dəstəmazın düzgünlüyünə xələl gətirmir.[١]

• Əgər insan dəstəmaz üzvünə bir şeyin yapışdığını bilsə, lakin bu şeyin suyun dəriyə yetişməsinin qarşısını alıb-almadığı barədə şəkk etsə, onu aradan qaldırmalıdır.[٢]

• Əgər insan dəstəmazdan öncə dəstəmaz üzvlərinin bəzisində suyun dəriyə yetişməsinin qarşısını alan bir maneənin mövcud olduğunu bilsə, lakin dəstəmazdan sonra maneənin mövcud olduğu yerlərdə suyun dəriyə yetişib-yetişmədiyi barədə şəkk etsə, belə ki, dəstəmaz vaxtı bu maneəni nəzərə aldığını ehtimal verirsə, dəstəmazı düzdür.[٣]

• Əgər insan dəstəmaz üzvünə suyun yetişməsinin qarşısını alan bir şeyin yapışıb-yapışmadığı barədə şəkk etsə və onun bu ehtimalı camaatın nəzərində əsaslı bir ehtimal olsa, məsələn divara suvaq çəkdikdən sonra əlinə palçıq yapışdığını ehtimal versə, gərək dəstəmaz üzvlərini diqqətlə nəzərdən keçirsin, yaxud əlini o qədər sürtüb təmizləsin ki, əgər palçıq yapışmış olsa da onun aradan getdiyinə və ya suyun dəriyə yetişdiüinə əmin olsun.[٤]

---

[١] Şəri suallara cavab, ١٧٨-ci sual

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٦٨-ci məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٦٩-ci məsələ

[٤] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٦٢-ci məsələ

٩. Tərtib.

Dəstəmaz, bir qədər əvvəl qeyd olunan tərtiblə alınmalıdır və tərtibə riayət olunmadığı halda dəstəmaz batildir.[١]

١٠. Muvalat.

Dəstəmaz işləri fasiləsiz olaraq bir-birinin ardınca yerinə yetirilməlidir. Deməli, əgər dəstəmaz işlərinin arasında o qədər fasilə yaransa ki, bir üzv yuyulduğu və ya bir üzvə məsh çəkildiyi vaxt öncədən yuyulan və ya məsh çəkilən üzvlər qurumuş olsa, bu halda dəstəmaz batildir.[٢]

١١. Mubaşirət.

Dəstəmaz alan şəxs dəstəmaz işlərini (üz və əlləri yumaq, baş və ayaqlara məsh çəkmək) şəxsən özü yerinə yetirməlidir. Əgər başqası bu işləri onun əvəzinə yerinə yetirsə, yaxud bu işlərdə ona köməklik etsə, dəstəmazı batildir.[١]

Diqqət:

- Xəstəlik və s. bu kimi səbəblərə görə özü dəstəmaz ala bilməyən şəxs, başqasının köməkliyi ilə dəstəmaz almalıdır. Sübhəsiz ki, dəstəmaz alan şəxsin özü dəstəmaz niyyəti etməli və bacardığı qədər məshi özü çəkməlidir. Əgər məsh çəkə bilməsə, ona kömək edən şəxs (fiqhdə bu şəxsə «nayib» deyilir) onun əlindən tutub məshini çəkdirməlidir. Əgər dəstəmaz alan şəxs, bunu da etməkdə acizdirsə (səhhəti buna da yol vermirsə), köməkçi şəxs onun əlindən

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٦٢-ci məsələ

[٢] Şəri suallara cavab, ١٢٧-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٦٣-cü məsələ

rütubət götürüb ona məsh çəkməlidir. Əgər dəstəmaz alan şəxsin əli yoxdursa, kömək edən şəxs onun qolundan rütubət götürməli, əgər qolu da yoxdursa, üzündən rütubət götürüb onun başına və ayaqlarına məsh çəkməlidir.[٢]

١٢. Dəstəmaz almaq üçün kifayət qədər vaxt olmalıdır.

Əgər namazın vaxtı qurtarmaq üzrədirsə və namaz qılan şəxs dəstəmaz aldığı surətdə namazını vaxtında qıla bilməyəcəksə - belə ki, namazın bir hissəsi vaxtdan xaric olacaqdır - bu şəxs, dəstəmaz almamalı, təyəmmüm edib namaz qılmalıdır.

Amma əgər təyəmmüm etmək üçün dəstəmaz almaq qədər vaxt tələb olunursa, bu halda dəstəmaz almaq lazımdır.[١]

SUALLAR:

١- Dəstəmaz üzvlərinə aid olan şərtlər hansılardır?

٢- Dəstəmaz alarkən hansı şərtlərə riayət olunmalıdır?

٣- Əgər dəstəmaz tamamlanmamışdan qabaq yuyulmuş dəstəmaz üzvlərindən biri napak olsa, dəstəmazın hökmü nədir?

٤-Saç və üzdə yaranan təbii yağlılıq suyun dəstəmaz üzvünə yetişməsi üçün maneə sayılırmı?

٥- Əgər dəstəmaz alan şəxs dəstəmaz üzvünə bir şeyin yapışdığını bilsə, lakin suyun dəriyə yetişib-yetişmədiyi barədə şəkk etsə nə etməlidir?

٦- Tərtib və muvalat arasındakı fərqi izah edin.

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٦٤-cü məsələ

[٢] Şəri suallara cavab, ١١٦-cı sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٦٥-ci məsələ

ON ALTINCI DƏRS

DƏSTƏMAZ (٤)

- *Irtimasi dəstəmaz*
- *Cəbirə dəstəmaz*
- *Dəstəmazı batil edən işlər*
- *Dəstəmazın hökmləri*

٤. İrtimasi dəstəmaz

١. İrtimasi dəstəmaz nədir?

Dəstəmaz alarkən suyu üz və əllərə tökmək əvəzinə bu üzvləri dəstəmaz niyyəti ilə suya salıb-çıxartmaq da olar. Bu şəkildə alınan dəstəmaz «irtimasi dəstəmaz» adlanır.[٢]

٢. İrtimasi dəstəmazın hökmləri

١) İrtimasi dəstəmazda da dəstəmaz üzvlərinin yuxarıdan aşağıya doğru yuyulması vacibdir.[٣]

٢) İrtimasi dəstəmazda üz və əlləri yalnız iki dəfə suya salıb-çıxartmaq olar: birinci dəfə vacibdir, ikinci dəfə caizdir. İki dəfədən artıq isə olmaz.

Əllərə gəlincə, onları sudan çıxaran vaxt dəstəmaz məqsədilə yuyulduğu niyyət edilməlidir. Ondan ötrü ki, məshi dəstəmaz suyu ilə yerinə yetirmək imkanı yaransın.[١]

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٦٠-ci məsələ)
[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٥٤-cü məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٥٥-ci məsələ

٥.Cəbirə dəstəmaz

١. Cəbirə dəstəmaz nədir?

Əgər dəstəmaz üzvlərində olan yara sarğı ilə sarılıbsa, dəstəmaz alan şəxs yuya bildiyi yerləri yumalı, sarğının üzərinə isə əlindəki rütubəti çəkməlidir.

Bu şəkildə alınan dəstəmaza «cəbirə dəstəmaz» deyilir.[٢]

٢. Cəbirə dəstəmazın hökmləri

١) Əgər dəstəmaz üzvlərində (üz və əllərdə) olan yaranın və ya sınığın üstü açıqdırsa (yəni, sarğı ilə bağlanmayıbsa) və suyun da ona zərəri yoxdursa, o yerləri yumaq lazımdır. Amma əgər yumağın zərəri olsa, yara və ya sınığın ətrafını yumaq və rütubətli əli onun üstünə çəkməyin zərəri olmadığı halda ehtiyatı- vacibə görə yaş əli onun üstünə çəkmək lazımdır.[٣]

٢) Əgər yara məsh yerindədirsə və onun üzərinə məsh çəkmək mümkün deyilsə, bu halda dəstəmaz əvəzinə təyəmmüm etmək lazımdır. Lakin əgər yaranın üzərinə bir parça qoyub onun üzərinə məsh çəkmək mümkündürsə, vacib ehtiyata görə təyəmmümdən əlavə bu qaydada bir dəstəmaz da almaq lazımdır.[٤]

---

١ Şəri suallara cavab, ١٠٣-cü sual

٢ Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٨١-ci məsələ

٣ Şəri suallara cavab, ١٣٥-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٧٩-cu məsələ.

٤ Şəri suallara cavab, ١٣٦-cı sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٨٠-cı məsələ.

٣) Əgər bir şəxsin dəstəmaz üzvlərində olan yarasından arasıkəsilmədən qan gəlirsə, həmin şəxs yarasının üzərini qankeçirməyən bir sarğı ilə (məsələn, neylon və ya neylon tərkibli parçalar) sarımalıdır.[١]

٦. Dəstəmazı batil edən işlər

Dəstəmazı batil edən işlər aşağıdakılardan ibarətdir:

١.Bövlün (sidiyin) xaric olması;

٢.Ğaitin (nəcisin) xaric olması;

٣.Mədə yelinin xaric olması;

٤. Yatmaq;

٥. Əqlin aradan getməsi ilə nəticələnən işlər, məsələn, dəlilik, məstlik, huşdan getmək və s;

٦.Qadınların istihazə olması;

٧.Qüslə bais olan hər bir iş, məsələn, cünub olmaq, heyz olmaq, meyyitə əl vurmaq və s.[٢]

Diqqət:

• Dəstəmazı batil edən işlər həddi–büluğa çatmayan uşağın da aldığı dəstəmazı batil edir.[٣].

٧.Dəstəmazın hökmləri

١. Dəstəmaz aldıqdan sonra onun batil olduğunu bilən şəxs, dəstəmazla yerinə yetirilən əməllər üçün yenidən dəstəmaz almalıdır.

---

[١] Şəri suallara cavab, ١٣٨-ci sual

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٧٨-ci məsələ

[٣] Şəri suallara cavab, ١٣١-ci sual

Həmçinin əgər batil olan həmin dəstəmazla (yəni, dəstəmazsız) namaz qılıbsa, bu namazı yenidən qılması vacibdir.[١]

٢. Dəstəmazın işlərində və ya onun şərtlərində (məsələn, dəstəmaz suyunun pak və ya qəsbi olub-olmaması və s.) çox şəkk edən şəxs (vasvas insan) öz şəkkinə etina etməməlidir.[٢]

٣. Dəstəmazda şəkk etmək:

I. Dəstəmaz alıb, yoxsa almayıb:

-namazdan öncə şəkk etsə, dəstəmaz almalıdır.

-namaz əsnasında şəkk etsə, namaz batildir və dəstəmaz alıb yenidən namaz qılmalıdır.

-namazdan sonra şəkk etsə, qıldığı namaz düzdür. Amma sonrakı namazlar üçün dəstəmaz almalıdır.

II. Aldığı dəstəmaz batil olub, yoxsa yox:

- Əgər bir nəfər dəstəmazının batil olub-olmadığı barədə şəkk etsə, dəstəmazının batil olmadığını qəbul etməlidir.[٣]

SUALLAR:

١. İrtimasi dəstəmazda üz və əlləri neçə dəfə suya salıb-çıxartmaq olar?

٢. Dəstəmaz üzvlərində yara və ya sınıq olan şəxs nə etməlidir?

٣. Dəstəmaz üzvindəki yaradan daim qan gələn şəxs – hətta sarğı ilə sarısa belə - nə etməlidir?

---

[١] Şəri suallara cavab, ١٣٧-ci sual

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٧٠-ci məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٧١, ٧٢ və ٧٣-cü məsələlər

٤. Dəstəmazı batil edən işlər hansılardır?

٥. Həddi-büluğa çatmayan uşağın dəstəmazı batil olurmu?

٦. Dəstəmazının batil olub-olmadığı barədə şəkk edən şəxs nə etməlidir?

ON YEDDİNCİ DƏRS

DƏSTƏMAZ (٥)

٨.Hansı işlər üçün dəstəmaz alınaq lazımdır

١) Dəstəmaz, bəzi əməllərin düzgünlüyünün şərtidir. Yəni, əgər bu əməl, dəstəmazsız yerinə yetirilsə düzgün olmayac. Başqa sözlə desək, batildir:

- meyyit namazından savayı bütün vacib və müstəhəb namazlar;
- səcdə və təşəhhüd kimi namazın unudulmuş əməlləri;
- vacib təvaf;

٢) Bəzi əməlləri dəstəmazsız yerinə yetirmək haramdır:

- quranın xəttinə əl vurmaq;
- Allahın ad və sifətləri yazılmış yazıya əl vurmaq;
- Peyğəmbərlərin və imamların (ə.s.) adları yazılmış yazıya əl vurmaq (vacib ehtiyata görə);

٣) Dəstəmaz, bəzi əməllərin kamilliyi şərtidir. Məsələn, dəstəmaz alıb Quran oxumaq;

٤) Dəstəmazlı olmaq üçün dəstəmaz almaq;

٥) Məkruhluğun aradan qalxması üçün dəstəmaz almaq. Məsələn, cənabətli halda yemək və içmək məkruhdur, lakin dəstəmaz almaq məkruhluğu aradan qaldırır.

Diqqət:

• Dəstəmaz, meyyit namazından savayı bütün vacib və müstəhəb namazların, həmçinin namazın unudulmuş əməllərinin qəzasının düzgünlüyü üçün şərtdir.[١]

• Dəstəmaz, Allahın evinin vacib təvafının düzgünlüyü üçün də vacib şərt sayılır və dəstəmazsız yerinə yetirilən vacib təvaf batildir. Vacib təvaf dedikdə, «həcc» və ya «ümrə»nin – istər bu həcc və ya umrə vacib olsun, istərsə də müstəhəb - təvafı nəzərdə tutulur.

Lakin həcc və umrənin təvafından qeyri, müstəhəb bir təvafda dəstəmazlı olmaq şərt deyildir.[٢]

• Namaz vaxtı yaxınlaşan zaman vacib namazı qılmaq niyyətilə dəstəmaz almaq olar.[٣]

• Dəstəmazlı olmaq niyyətilə dəstəmaz almaq şəri baxımdan bəyənilir, yəni müstəhəbdir və bu dəstəmazla - belə dəstəmaz, müstəhəb dəstəmaz adlanır- namaz qılmaq olar.[٤]

• Ümumiyyətlə dəstəmazlı olmaq müstəhəbdir. Xüsusilə də məscidə və ziyarətgahlara getdikdə, Quran oxuduqda, yatanda və s. vaxtlarda dəstəmazlı olmaq müstəhəbdir.[٥]

• Düzgün qaydada alınan dəstəmaz batil olmayanadək dəstəmazlı yerinə yetirilən hər bir əməli yerinə yetirmək olar. Odur ki, hər

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٧٤-cü məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٧٥-ci məsələ
[٣] Şəri suallara cavab, ١١٠ və ١١٩-cu suallar
[٤] Şəri suallara cavab, ١٢٢-ci sual
[٥] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٧٧-ci məsələ

namaz üçün ayrıca dəstəmaz almaq lazım deyildir və bir dəstəmazla istənilən qədər namaz qılmaq olar.[١]

١.Quranın xəttinə əl vurmaq

Quranın xəttinə dəstəmazsız əl vurmaq haramdır və bu hökm, təkcə Qurani-Kərim adlı kitab üçün xülasələşmir. Yəni, Qurandan olan hər bir söz və ya ayə hansısa bir kitabın, qəzet və ya jurnalın səhifəsində, dekorativ əşyaların üzərində və s. yazılsa, yenə də bu yazıya dəstəmazsız əl vurmaq haramdır.[٢]

Diqqət:

• Bu hökm təkcə əl üçün deyildir. Dodaq, üz və ümumiyyətlə bədənin hər bir üzvünü və ya yerini Quranın xəttinə dəstəmazsız halda toxundurmaq haramdır.[٣]

٢. Allah-təalanın, peyğəmbərlərin və məsum imamların (ə.s.) adları yazılan yazıya əl vurmaq

١) Allahın adlarına və Ona xas olan sifətlərə dəstəmazsız əl vurmaq haramdır. Peyğəmbərlərin və məsum imamların (ə.s.) adlarına əl vurmağın hökmü, vacib ehtiyata görə Allahın adına əl vurmağın hökmü ilə eynidir.[٤]

---

[١] Şəri suallara cavab, ١١٨-ci sual

[٢] Şəri suallara cavab, ١٥٤-cü sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٧٦-cı məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٧٦-cıməsələ

[٤] Şəri suallara cavab, ١٦٤-cü sual

٢) «Allah» sözü mürəkkəb sözün bir hissəsi olsa belə,məsələn, Abdullah, Həbibullah sözləri kimi, yenə də dəstəmazsız ona əl vurmaq olmaz.[١]

٣) Bəzən yazıda «Bismillah» əvəzinə «Onun adı ilə» ifadəsindən istifadə olunur. Bu ifadədəki «o» şəxs əvəzliyi «Allah» sözü hökmündə deyildir.[٢]

٤) Bəzən yazıda «Allah» sözünün təkcə birinci hərfi yazılıb, digər hərflərin yerinə nöqtə qoyulur. Şəri baxımdan bunun heç bir eybi yoxdur və «Allah» sözü hbkmündə deyildir. Odur ki, bu yazıya dəstəmazsız əl vurmaq olar.[٣]

٥) Dəstəmazı olmayan şəxslərin əl vuracağını ehtimal verib yazıda «Allah» sözünü yazmaqdan çəkinməyin eybi yoxdur.[٤]

Quranın xəttinə, Allah-təalanın, peyğəmbərlərin və məsum imamların (ə.s.) müqəddəs adlarına əl vurmaq barədə bir neçə məsələ:

• Üzərində Quran ayələri və ya müqəddəs adlar yazılan boyunbağını taxmağın heç bir maneəsi yoxdur. Amma əgər bunu taxan şəxs dəstəmazsız olsa, bu yazılar bədənə toxunmamalıdır.[٥]

• Xörək yemək üçün üzərində Quran ayələri, o cümlədən Ayətəl-kürsi, yaxud müqəddəs adlar yazılan qabdan istifadə etməyin heç

---

[١] Şəri suallara cavab, ١٥٢-ci sual
[٢] Şəri suallara cavab, ١٤٧-ci sual
[٣] Şəri suallara cavab, ١٤٧ və ١٤٩-cu suallar
[٤] Şəri suallara cavab, ١٥٠-ci sual
[٥] Şəri suallara cavab, ١٥٣-cü sual

bir maneəsi yoxdur. Bir şərtlə ki, bu yazılara dəstəmazsız toxunulmasın.[١]

• Quran ayələrini, Allahın və ya məsumların adlarını yazan vaxt dəstəmazlı olmaq vacib deyildir. Lakin dəstəmazsız bu yazılıra əl vurmaq olmaz.[٢]

• Üzüklərin üzərində həkk olunan Quran ayələrinə və sözlərinə, həmçinin müqəddəs adlara dəstəmazsız əl vurmaq olmaz.[٣]

• Quran ayələrini, Allahın, peyğəmbərlərin və imamların adlarını çap etməyin heç bir maneəsi yoxdur. Amma çap olunan bu yazılara dəstəmazsız əl vurmaq, onları napak etmək və ehtiramsızlıq etmək olmaz.[٤]

• Əgər içərisində Quran ayələri və müqəddəs adlar yazılan qəzetlərə yemək bükmək, süfrə kimi sərmək, yerə sərib üstündə əyləşmək və s. bu kimi işlər üçün istifadə etmək camaatın nəzərində bu yazılara hörmətsizlik sayılırsa, onlardan istifadə etmək olmaz. Amma əgər hörmətsizlik sayılmırsa, bu məqsədlərlə ondan istifadə etməyin heç bir eybi yoxdur.[٥]

• Əgər camaatın nəzərində hörmətsizlik sayılmırsa, üzərində Quran ayələri və müqəddəs adlar yazılan əşyaları çaylara və arxlara atmağın eybi yoxdur.[٦]

---

[١] Şəri suallara cavab, ١٥٥-ci sual
[٢] Şəri suallara cavab, ١٥٦-cı sual
[٣] Şəri suallara cavab, ١٦١-ci sual
[٤] Şəri suallara cavab, ١٥٩-cu sual
[٥] Şəri suallara cavab, ١٦٠-cı sual
[٦] Şəri suallara cavab, ١٦٢-ci sual

• Əgər vərəqdə Quran ayələri, Allahın və məsumların (ə.s.) adları nəzərə çarpmasa, onu yandırmağın və tullamağın eybi yoxdur və axtarışa ehtiyac yoxdur.

Qeyd etmək lazımdır ki, israf ehtimalı olduğu üçün ehtiyati-vacibə görə təkrar emal oluna bilən, yaxud bir üzü yazılı, digər üzündən isə yazı yazmaq üçün istifadə edilməsi mümkün olan kağızları yandırmaq və tullamaqdan çəkinmək lazımdır.[١]

• Üzərində Quran ayələri və müqəddəs adlar yazılan vərəqləri torpağa basdırmaq, yaxud yazıların pozulması üçün onları suyun içərisinə qoymağın eybi yoxdur. Lakin onların yandırılmasına icəzə vermək elə də asan deyildir. Əgər belə vərəqləri yandırmaq hörmətsizlik sayılsa, onları yandırmaq olmaz. Müstəsna hal olaraq, yalnız çıxılmaz vəziyyətdə qaldıqda və Quran ayələrini, müqəddəs adları vərəqdən kəsib götürmək mümkün olmadıqda onların yandırılmasına icazə verilir.[١]

• Üzərində Quran ayələri və müqəddəs adlar yazılan kağızları ehtiramsızlıq sayıldığı təqdirdə xırda-xırda doğramaq (belə ki, hətta iki hərf bir-birinə bitişik şəkildə qalmasın və yazının oxunması əsla mümkün olmasın) olmaz.

Həmçinin Quran ayələrinə və ya müqəddəs adlara bəzi hərflər artıraraq sözləri dəyişdirmək, bu sözlərin öz hərfləri üçün müqəddəs adlara dair şəri hökmün aradan qalxmasına bais olmur. (Yəni, dəstəmazsız onlara əl vurmaq və onları zibilliyə tullamaq olmaz.)

---

[١] Şəri suallara cavab, ١٦٣-cü sual

Əlbəttə, əgər hərflər tamamilə dəyişdirilsə, belə ki, sözün öz hərflərindən heç bir əsər-əlamət qalmasa, bu halda müqəddəs adlara dair şəri hökmün ona aid olmadığını söyləmək mümkündür. Amma ehtiyat-müstəhəbbə görə dəstəmazsız onlara əl vurmaqdan çəkinmək lazımdır.[٢]

SUALLAR:

١- Namaz vaxtı olmamış vacib namazı qılmaq niyyıti ilə dəstəmaz almaq olar?

٢- Sübh namazı üçün alınan dəstəmazla zöhr və əsr namazlarını qılmaq olar?

٣- Hansı adlara dəstamazsız toxunmaq olmaz?

٤- Abdullah və Həbibullah kimi adlara əl vurmağın hökmü nədir?

٥- Üzüklərin üstündə həkk olunan müqəddəs adlara əl vurmaq olarmı?

---

[١] Şəri suallara cavab, ١٦٥-ci sual

[٢] Şəri suallara cavab, ١٦٦-cı sual

ON SƏKKİZİNCİ DƏRS

QÜSL (١)

- *Qüsl nədir?*
- *Qüslün qisimləri*
- *Qüsl etməyin qaydası*
- *Cəbirə qüslü*

١. Qüsl nədir?

Qüsl, başdan ayaqların ucunadək bütün bədəni xüsusi qaydada yumaqdır.

٢. Qüslün qismləri[١]

Qüsl iki qismə ayrılır:

I. Vacib qüsllər.

١) Kişilərlə qadınlar arasında müştərək olan qüsllər:

- cənabət qüslü
-məshi-meyyit qüslü
-meyyit qüslü
- nəzir etmək, and içmək və ya əhd etməklə vacib olan qüsllər

٢) Qadınlara xas olan qüsllər:

- heyz qüslü
- nifas qüslü
- istihazə qüslü

II. Müstəhəb qüsllər.

- məsələn, cümə qüslü.

٣.Qüsl etməyin qaydası

Qüslü iki qaydada yerinə yetirmək olar:

١) Tərtibi: bədən bu tərtiblə yuyulur:

birinci; baş və boyun

ikinci; bədənin tən ortadan sağ tərəfi

üçüncü; bədənin tən ortadan sol tərəfi

٢) Irtimasi: baş və bədən bütünlüklə suya daxil edilir və su, qüsl edənin hər tərəfinə dəyir.[٢]

Diqqət:

- Qüsl edən zaman ehtiyati-vacibə görə uzun saçları və onların dibini yumaq lazımdır. Odur ki, qadınlar, ehtiyati-vacibə görə başın dərisindən əlavə saçlarını da bütünlüklə yumalıdırlar.[٣]
- Qüsl edən zəman üzü qibləyə dayanmaq vacib deyil.[٤]
- Qüsl niyyəti etməzdən və qüslə başlamazdan öncə bədənin istənilən üzvünü yumağın eybi yoxdur.[٥]
- Əgər insan tərtibi qüslü istər qəsdən, istər qüslün qaydasını bilmədiyi üçün, istərsə də unutduğu üçün əvvəldə qeyd olunan tərtiblə yerinə yetirməsə, qüslü batildir.[٦]

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٨٥-ci məsələ

[٢] Şəri suallara cavab, ١٩١ və ١٩٢-ci suallar. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٨٤-cü məsələ

[٣] Şəri suallara cavab, ١٩٣-cü sual

[٤] Şəri suallara cavab, ١٨٣-cü sual

[٥] Şəri suallara cavab, ١٩٢-ci sual

[٦] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩٠-cı məsələ

• Əgər bir nəfər qüsl etdikdən sonra bədəninin bir hissəsinə suyun dəymədiyini görsə:

- Əgər irtimasi qüsl etmişdirsə, yenidən qüsl etməlidir. İstər su dəyməyən hissənin bədənin hansı hissəsi olduğunu bilsin, istərsə də bilməsin.

- Əgər tərtibi qüsl etmişdirsə, burada iki hal yaranır:

I. Su dəyməyən hissəni bilmir və bu halda yenidən qüsl etməlidir.

II. Su dəyməyən hissəni bilir:

- bu hissə bədənin sol tərəfindədirsə, həmin yeri yumaq kifayətdir.

-bədənin sağ tərəfindədirsə, yuyulmayan yeri yumalı və sonra bədənin sol tərəfini də yumalıdır.

-baş və boyundadırsa, həmin yeri yumalı və sonra bədənin sağ tərəfini, daha sonra sol tərəfini yumalıdır.[١]

٤. Cəbirə qüslü

Cəbirə qüslü eynilə cəbirə dəstəmaz kimidir.[٢]

SUALLAR:

١- Vacib qüsllər hansılardır?

٢- Qüslü neçə qaydada etmək olar?

٣- Tərtibi qüsldə baş və sonra bədən yuyulmalıdır, yoxsa baş, sonra bədənin sağ tərəfi və daha sonra bədənin sol tərəfi yuyulmalıdır?

---

[١] Şəri suallara cavab, ١٩١ və ١٩٢-ci suallar. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩١ və ٩٢-ci məsələlər.

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٨٢-ci məsələ

٤- Qüsl etdikdə təkcə bədəni yumaq kifayətdir, yoxsa uzun saçlar da yuyulmalıdır?

٥- Qüsl edilən zaman üzü qibləyə dayanmaq vacibdirmi?

٦- Qüsl etdikdən sonra bədəninin bir hissəsinə suyun dəymədiyini bilən şəxs nə etməlidir?

ON DOQQUZUNCU DƏRS

QÜSL (٢)

- *Qüslün şərtləri*
- *Qüslün hökmləri*

٥.Qüslün şərtləri

Suyun pak və mübah olması və s. dəstəmaz üçün deyilən şərtlər, qüsldə də şərtdir. Lakin qüsldə bədəni yuxarıdan aşağıya doğru yumaq, həmçinin üzvləri fasiləsiz yumaq şərt sayılmır. Yəni, qüsl edərkən qüslü kəsib başqa bir iş görmək və sonra yenidən davam etdirmək olar.[١]

Diqqət:

• Qüslə başlamazdan öncə bədənin hər tərəfinin pak olması vacib deyildir. Bədənin hansı hisssəi napakdırsa, o hissə qüsl niyyətilə yuyulmamışdan öncə pak edilməlidir.

Deməli, əgər insan napak olan hissəni həm paklamaq, həm də qüsl etmək niyyətilə bir dəfə yusa, qüslü batildir.[٢]

• Suyun bədənə dəyməsinə maneə olan hər bir şeyi aradan qaldırmaq lazımdır. Əgər insan, maneənin aradan qalxdığına əmin olmadan qüsl etsə, onun qüslü batildir.[١]

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩٥-ci məsələ

[٢] Şəri suallara cavab, ١٧٩-cu sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٥٣-cü məsələ

٦. Qüslün hökmləri

١. Əgər qüsl əsnasında insanda hədəsi–əsğər[٢] baş versə, onun qüslü düzdür və yenidən qüsl etmək lazım deyildir, qüslü davam etdirməlidir.

Əlbəttə, əgər cənabət qüslü əsnasında insanda «hədəsi-əsğər» baş versə, artıq digər qüsllərdəki kimi namaz və s. dəstəmazlı yerinə yetirilən işlər üçün dəstəmaz almalıdır.[٣]

٢. Boynunda bir neçə vacib və ya müstəhəb qüslü olan şəxs, əgər bütün qüslləri niyyət edib bir qüsl versə, kifayətdir. Əgər boynundakı qüsllər içərisində cənabət qüslü olsa, təkcə cənabət qüslü niyyətilə qüsl etsə, digər qüsllərin hamısını əvəz edir. Hərçənd, ehtiyati-müstəhəbbə görə boynunda olan bütün qüsllər niyyət etməlidir.[٤]

٣. Cənabət qüslündən qeyri qüsllər dəstəmazı əvəz etmir.[٥]

٤. Əgər insan etdiyi qüslün batil olduğuna əmin olsa, bu qüsllə qıldığı bütün namazların qəzasını yerinə yetirməlidir.[٦]

٥. Qüsldə şəkk ٢ qismə ayrılır:

I. İnsan qüsl edib-etmədiyinə şəkk etsin:

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩٤-cü məsələ.

[٢] «Kiчik hədəs» deməkdir, yəni, dəstəmazı batil edən işlər. Məsələn, bövl etmək, mədə yelinin xaric olması və s.

[٣] Şəri suallara cavab, ١٨٥-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩٨-ci məsələ.

[٤] Şəri suallara cavab, ١٨٧-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٠١-ci məsələ.

[٥] Şəri suallara cavab, ١٨٨-ci sual

[٦] Şəri suallara cavab, ١٩٨-ci sual

- bu halda yenidən qüsl etməlidir. Lakin bu şəkkədək qıldığı namazlar düzdür.

II. İnsan etdiyi qüslün düzgünlüyünə şəkk edir:

- bu halda əgər qüslü düzgün yerinə yetirdiyini və qüsl edərkən onun şərtlərinə riayət etdiyini ehtimal verirsə, səkkinə etina etməməlidir.[١]

SUALLAR:

١- Dəstəmazla qüslün şərtləri arasında hansı fərq var?

٢- Qüsldən öncə bədənin tamamilə pak olması şərtdirmi?

٣- Əgər qüsl əsnasında insanda hədəsi-əsğər baş versə yenidən qüsl etməlidir?

٤- Boynunda bir neçə qüslü olan şəxs onları niyyət edib bir qüsl edə bilərmi?

٥- Cənabət qüslündən qeyri qüsllər də dəstəmazı əvəz edirmi?

٦- İnsan şəkk etsə ki, qüsl edib, yoxsa yox, nə etməlidir?

---

[١] Şəri suallara cavab, ١٩٧-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩٦-cı məsələ

İYİRMİNCİ DƏRS

QÜSL (٣)

CƏNABƏT QÜSLÜ

٧. Cənabət qüslü

١. Cənabətin səbəbləri.

Iki səbəbə görə insan cənabətli olur:

١) Cinsi əlaqədə olmaq; istər halal yol ilə olsun, istərsə də haram yol ilə. Istər məni (sperma) xaric olsun, istərsə də olmasın.

٢) Məninin xaric olması; istər yuxuda xaric olsun, istər oyaq vaxtı. Istər ixtiyari xaric olsun, istərsə də qeyri-ixtiyari[١]

Diqqət:

• Ehtiraslı halda kişidən sıçrayışla xaric olan və bədənin süstləşməsinə səbəb olan rütubət, məni sayılır. Əgər bu üç əlamətdən heç biri və ya biri olmasa, yaxud insan bu rütubətin məni olduğuna şəkk etsə, həmin rütubət məni hökmündə deyildir.[٢]

• Ehtirasının ən yüksək həddində qadından xaric olan rütubət, məni hökmündədir və qadın, cənabət qüslü etməlidir. Lakin əgər qadın, ehtirasının yüksək həddinə çatıb-çatmadığına şəkk etsə, yaxud rütubətin xaric olub-olmadığına şəkk etsə, qüsl etmək ona vacib deyil.[٣]

---

[١] Rəhbərdən soruşulan suallar. Təharət bölümü, ٨٦-cı məsələ.

[٢] Şəri suallara cavab, ١٧٧, ١٨٠ və ١٨٦-cı suallar.

[٣] Şəri suallara cavab, ١٧١-ci sual.

• Cinsi əlaqədə olmadan kişinin nütfəsinin (məni) qadının bətninə (uşaqlıq yoluna və ya uşaqlığa) daxil edilməsi, qadının cənabətli olmasına bais olmur.[١]

• Həşəfənin (kişilərin sünnət olunduğu yer) daxil olması ölçüsündə cinsi əlaqədə olmaq, hətta kişidən məni xaric olmasa və qadın da ehtirasının yüksək həddinə çatmasa belə, həm qadına, həm də kişiyə cənabət qüslü etməyi vacib edər.

• Əgər qadın cinsi əlaqədən dərhal sonra bətnində məni qaldığı halda qüsl etsə və qüsl etdikdən sonra bətnindəki məni ondan xaric olsa – hətta, xaric olan məni kişininki olsa belə – qüslü düzdür.

Lakin məninin özü, napakdır.[٢]

• Əgər məni xaric olmasa, tibbi alətlərlə bətnin müayinəsindən sonra qadına qüsl etmək vacib deyildir.[٣]

٢. Cənabətli insana (cünub) haram olan işlər:

- Quranın xəttinə, Allah taalanın ad və sifətlərinə, həmçinin ehtiyat-vacibə görə peygəmbərlərin və məsum imamların (onların hamısına salam olsun) adlarına əl vurmaq və toxunmaq.

- Məscidul-hərama və Məscidun-nəbiyə daxil olmaq. Hətta məscidin bir qapısından daxil olub digər qapısından xaric olmaq belə olmaz.

- Bu iki məsciddən qeyri məscidlərdə dayanmaq. Lakin məscidin bir qapısından daxil olub digər qapısından xaric olmaq olar.

---

[١] Şəri suallara cavab, ١٦٨-ci sual.
[٢] Şəri suallara cavab, ١٧٣-cü sual.
[٣] Şəri suallara cavab, ١٦٩-cü sual.

- Məscidə bir şey qoymaq

- Səcdə surələrindəki səcdə ayələrini oxumaq. Lakin bu surələrin digər ayələrini oxumağın eybi yoxdur.[١]

Diqqət:

• Cənabətli şəxs məsum imamların (ə.s.) hərəminə daxil ola bilməz.[٢]

• Cənabətli şəxs imamzadələrin (ə.s) hərəminə daxil ola bilər.[٣]

• Hüseyniyyə, Məhdiyyə və s. bu kimi adlarla tanınan məkanlar məscid hökmündə deyildirlər.[٤]

• Səcdə ayələri bunlardır:

Səcdə, ayə: ١٥

Fussilət. ayə: ٣٨

Nəcm, ayə: ٦٢

Ələq, ayə: ١٩

Bu ayələri oxuyan və eşidənlərin hamısı səcdə etməlidirlər.[٥]

٣. Cənabət qüslünün hökmləri

١) Şəri vəzifələrin yerinə yetirilməsində utanmağın yeri yoxdur. Utanmaq, vacib bir əməlin (məsələn, cənabət qüslü) tərk olunması üçün şəri üzr hesab olunmur. Lakin əgər cənabət qüslünü etmək üçün

---

١ Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٨٩-cu məsələ

٢ Şəri suallara cavab, ٤٢٤-cü sual.

٣ Şəri suallara cavab, ٢٢٢ və ٤٢٤-cü suallar.

٤ Şəri suallara cavab, ٤٢٧-ci sual

٥ Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٨٩-cu məsələ.

şərait yoxdursa, namaz və oruc üçün qüsl əvəzinə təyəmmüm etmək lazımdır.[١]

٢) Əgər bir şəxs bilsə ki, cinsi əlaqədə olarsa qüsl etmək üçün su tapmayacaq və yaxud qüsl edib namaz qılmaq üçün kifayət qədər vaxt olmayacaq, yenə də cinsi əlaqədə ola bilər. Bir şərtlə ki, təyəmmüm etmək imkanına malik olsun.

Belə şəxsin qüsl etməməkdə şəri üzrü olduğuna görə qüslün şərt olduğu əməllər üçün (məsələn, namaz) cənabət qüslü əvəzinə təyəmmüm etməlidir. Bu təyəmmümlə həmin şəxs, məscidə daxil ola, namaz qıla, Quranın xəttinə əl vura və s. əməlləri yerinə yetirə bilər. Lakin qeyd etmək lazımdır ki, əgər bu şəxsin qüsl etməmək üçün şəri üzrü vaxtın azlığı olmuşdursa, o, bu təyəmmümlə, yalnız hansı iş üçün təyəmmüm etmişdmrsə, o işi yerinə yetirə bilər.[٢]

٣) Əgər bir şəxsdən məni xaric olsa və o, qüsl etsə, qüsl etdikdən sonra ondan bir rütubət xaric olsa ki, onun məni olub-olmadığını ayırd edə bilməsə, bu halda əgər qüsldən qabaq və məni xaric olduqdan sonra bövl etməmişdirsə, o rütubət, məni hökmündədir və yenidən qüsl etməlidir.[٣]

٤) Əgər bir şəxs, paltarındakı ləkənin məni olub-olmadığını ayırd edə bilməsə, bu ləkənin məni olduğuna, eləcə də özününkü olduğuna əmin olmayanadək, cənabət qüslü ona vacib olmur.[٤]

---

[١] Şəri suallara cavab, ١٨١-ci sual.
[٢] Şəri suallara cavab, ١٨٢ və ١٩٠-cı suallar.
[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٨٧-ci məsələ.
[٤] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٨٨-ci məsələ.

٥) Cənabət qüslü edən şəxs namaz qılmaq üçün dəstəmaz almamalıdır və dəstəmazlı yerinə yetirilən digər əməlləri də bu qüsllə yerinə yetirə bilər.[١]

٦) Əgər insan cənabət qüslü etdikdən sonra onun batil olub-olmadığına şəkk etsə, (şəkinə etina etməməli,) namaz üçün dəstəmaz almaq lazım deyildir. Lakin ehtiyat nöqteyi nəzərindən dəstəmaz almağın eybi yoxdur.[٢]

٧) Əgər bir şəxs namaz vaxtının qurtarmasına az qaldığı bir zamanda təkcə həmin namazı qılmaq niyyətilə deyil, ümumiyyətlə cənabətdən paklanmaq niyyətilə qüsl etsə, qüsl etdikdən sonra namaz üçün vaxt qalmadığı ona aydın olsa belə, qüslü düzdür.[٣]

SUALLAR:

١- Cənabətin səbəbləri hansılardır?

٢- Hansı surətdə kişidən xaric olan rütubət məni hökmündədir?

٣- Qadınlar cinsi əlaqədə olmadan necə cənabətli ola bilərlər?

٤- Bətnin tibbi alətlərlə müayinəsindən sonra qadına cənabət qüslü vermək vacibdir?

٥- Cənabətli şəxsə hansı işlər haramdır?

٦- Əgər bir şəxs paltarında bir ləkə görüb onun məni olub-olmadığını bilməsə, nə etməlidir?

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩٨-ci məsələ.

[٢] Şəri suallara cavab. ١٣٠-cu sual.

[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٩٩-cu məsələ.

İYİRMİ BİRİNCİ DƏRS

QÜSL (٤)

QADINLARA XAS OLAN QÜSLLƏR

<u>٨. Qadınlara xas olan qüsllər</u>

١. Heyz

I. Heyz qanı, hər ay bir neçə gün ərzində təbii olaraq qadının bətnindən gələn qandır.

١) Doqqüz yaşı tamam olmamışdan qabaq qızın gördüyü qan, heyz qanının xüsusiyyətlərinə malik olsa belə, heyz sayılmır.[١]

٢) Heyz qanından paklandığına yəqinliyi olan qadının gördüyü ləkələr, əgər qan olmasa, heyz hökmündə deyildir. Amma əgər qan olsa, heyz müddəti on günü ötüb keçməmişdirsə, bu ləkələr, hətta sarı rəngli olsa belə heyz hökmündədir və bunu (ləkənin qan ləkəsi olub-olmamasını) dəqiqləşdirmək qadının öhdəsindədir.[٢]

٣) Hamiləliyə qarşı olan dərmanlardan istifadə edən qadınların istər adət günlərinə təsadüf edən, istərsə də təsadüf etməyən günlərdə gördüyü ləkələr, heyzin şəri xüsusiyyətlərinə malik olmasa, heyz hökmündə deyildir və istihazə sayılır.[٣]

٤) Heyzdə ədədiyyə adəti olan qadın, əgər hamiləliyə qarşı bətnə qoyulan vəsaitdən (spiral) istifadə etdiyi üçün hər ay on gündən artıq

---

[١] Şəri suallara cavab, ١٨٩٤-cü sual
[٢] Şəri suallara cavab, ٢١٨-ci sual
[٣] Şəri suallara cavab, ٢٢٥-ci sual

(məsələn, on iki gün) qan görərsə, adət günlərində gördüyü qan heyz qanı, qalan günlər isə istihazədir.[١]

٥) Hamiləlik dövründə qadının gördüyü qan, əgər heyzin xüsusiyyətlərinə malik olsa və adət günlərində olub üç gün davam etsə - hətta daxildə olsa belə-heyz qanıdır. Əks təqdirdə, istihazə qanıdır.[٢]

II. Heyzin hökmləri.

١) Cənabətli şəxsə haram olan işlər, heyzli qadına da haramdır.[٣]

Diqqət:

• Heyzli qadın Məscidül-həramla Məsa (Səfa və Mərvə arasında «səy» məkanı) arasındakı alçaq divarda əyləşə bilər (Həmin divarın hündürlüyü yarım metr, eni isə bir metrdir.). Bir şərtlə ki, o divarın Məscidül-həramdan olmadığına yəqinlik hasil olmalıdır.[٤]

٢) Əgər qadın heyz müddətində cənabətli olsa, yaxüd cənabətli ikən heyz olsa, heyz qurtardıqdan sonra heyz qüslündən əlavə cənabət qüslü də ona vacib olur. Amma qüsl edən zaman (əməl məqamında) təkcə cənabət qüslü ilə kifayətlənə bilər. Lakin ehtiyati-müstəhəbə görə hər iki qüslü niyyət etməlidir.[٥]

٣) Heyz halında qadının etdiyi cənabət qüslünün düzgünlüyü şüb-hə altındadır.[٦]

---

[١] Şəri suallara cavab, ٢٢١-ci sual
[٢] Şəri suallara cavab, ٢٢٠-ci sual
[٣] Şəri suallara cavab, ١٥٤, ١٦٤, ١٩٩, ٤٢٢, və ٤٢٤-cü suallar
[٤] Şəri suallara cavab, ٣٩٢-ci sual
[٥] Şəri suallara cavab, ١٧٦-cı sual
[٦] Şəri suallara cavab, ١٧٥-ci sual

٤) Ayın müəyyən günlərində oruc tutmağı nəzr edən qadın, nəzr orucunu tutarkən heyz olsa, günün hansı hissəsində olursa olsun, o günün orucu batildir. Heyzdən paklandıqdan sonra isə o günün qəzasının yerinə yetirmək ona vacibdir.[١]

٢. İstihazə[٢]

Qadının yaisəlik yaşlarında gördüyü qan, istihazə qanıdır. Atası seyyid olmayan qadının anası seyyidə olsa belə, əlli yaşından sonra gördüyü qan istihazə sayılır.[٣]

٣. Nifas[٤]

Uşaq saldırdıqdan sonra qadının gördüyü qan hətta döl, laxta qan şəklində olsa belə, nifas hökmündədir.[٥]

SUALLAR:

١-Əgər qadın heyzdən paklandığına əmin olduqdan sonra ləkə görsə və bu ləkə nə qan, nə də su ilə qarışıq qan olsa, bu ləkənin hökmü nədir?

٢- Əgər qadının hamiləlik dövründə cüzi qanaxması olsa, lakin uşaq düşməsə, bu qanın hökmü nədir?

---

[١] Şəri suallara cavab, ٢١٧-ci sual

[٢] Istihazə qanı, heyz və nifas günlərindən qeyri-günlərdə qadının bətnindən xaric olan bir qandır. Həmчinin baкirəliк və yara qanı deyildir..

[٣] Şəri suallara cavab, ٢١٦ və ٢٢٤-cü sual

[٤] Nifas qanı doğuşdan sonra müəyyən müddət ərzində qadından gələn qana qana deyilir.

[٥] Şəri suallara cavab, ٢٢-ci sual

٣- Əgər qadın heyz halında cənabətli olsa və ya cənabətli halda heyz olsa, heyzdən paklandıqdan sonra hər iki qüslü etmək ona vacibdir-mi?

٤- Heyzli halda cənabət qüslü düzdürmü?

٥- Yaisəlik dövründə qadının gördüyü qanın hökmü nədir?

٦- Uşaq saldıran qadın nifas halındadırmı?

İYİRMİ İKİNCİ DƏRS

MEYYITIN HÖKMLƏRI (١)

- *Məssi-meyyit qüslü*
- *Can verən insanın hökmləri*
- *Meyyit üçün görülən işlər*

١. Məssi-meyyit qüslü

Əgər bir nəfər bədəni soyumuş, lakin qüsl verilməmiş insan cəsədinə toxunsa, yəni əli, ayağı, üzü və s. bədəninin hər hansı bir üzvü onun bir üzvünə dəysə, namaz və s. bu kimi ibadətlər üçün məssi-meyyit qüslü etməlidir.[١]

Diqqət:

• Bədəni soyumuş lakin qüsl verilməmiş meyyitdən ayrılan bir üzvə toxunmaq, meyyitə toxunmaq hökmündədir.[٢]

• Diri insanın bədənindən ayrılan üzvə toxunduqda, məssi-meyyit qüslü vacib olmur.[١]

• Meyyitə toxunduqda məssi-meyyit qüslünün vacib olmadığı hallar:

١. Müharibə meydanında şəhid olan insanın cəsədinə toxunduqda.

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٠٢-ci məsələ

[٢] Şəri suallara cavab, ٢٥٢-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٠٣-cü məsələ.

٢. Bədəni soyumamış meyyitə toxunduqda.

٣. Üç qüslü verilən meyyitə toxunduqda.[٢]

• Əgər insan meyyitə qüsl verilib-verilmədiyinə şəkk etsə, ona və ya ondan ayrılan hissələrə (əlbəttə ki, cəsəd soyuduqdan sonra) toxunduqda, məssi-meyyit qüslü etməlidir.

Amma meyyitə qüsl verildiyi məlum olsa, hətta qüslün düzgünlüyünə şəkk etsə belə, ona toxunduqda məssi-meyyit qüslü vacib olmur.[٣]

• Məssi-meyyit qüslü edən şəxs namaz üçün dəstəmaz almalıdır. Yəni, məssi-meyyit qüslü, cənabət qüslü kimi dəstəmazı əvəz etmir.[٤]

٢. Can verən insanın hökmləri

Yaxşı olar ki, can verən müsəlman şəxs, arxası üstə qibləyə tərəf, yəni, ayaqlarının altı qibləyə tərəf yatırdılsın. Müctehidlərin əksəriyyəti bu əməli qadir olduğu təqdirdə can verən şəxsin özünə, əks təqdirdə onun ətrafdakılarına vacib hesab ediblər və ehtiyata (vacib ehtiyat) görə bu əməl, tərk olunmamalıdır.[٥]

٣. Meyyit üçün görülən işlər

Meyyit üçün görülən işlər aşağıdakılardır:

- qüsl;

---

[١] Şəri suallara cavab, ٢٥١-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٠٣-cü məsələ.

[٢] Şəri suallara cavab, ٢٥٢ və ٢٥٥-ci suallar. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٠٢-ci məsələ.

[٣] Şəri suallara cavab, ٢٥٦-cı sual

[٤] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٠٤-cü məsələ.

[٥] Şəri suallara cavab, ٢٥٣-cü sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٠٥-ci məsələ.

- hənut;
- kəfən;
- namaz;
- dəfn.

Diqqət:

• Islam şəriəti baxımından müsəlman şəxsin cənazəsinə ehtiramla yanaşılmalıdır. Yəni, müqəddəs islam şəriətində müsəlman şəxsin cənazəsi üçün vacib buyurulan qüsl, kəfən, dəfn və s. bu kimi əməllər yerinə yetirilməlidir və bütün müsəlmanlar bu göstərişlərin qarşısında məsuliyyət daşıyırlar.[١]

• Müsəlman meyyitə qüsl vermək, onu kəfənləmək, meyyit namazını qılmaq və dəfn etmək "vacibi-kifayi"dir. Yəni, bu əməllər, hər bir mükəlləfə (şəri məsuliyyət daşıyan müsəlman) vacibdir. Lakin əgər müsəlmanlardan bir neçəsi bu əməlləri yerinə yetirsə, bu məsuliyyət digərlərinin üzərindən götürülür. Həmçinin, əgər heç kəs bu əməlləri yerinə yetirməsə, bütün müsəlmanlar günahkardırlar.[٢]

• Əgər bir şəxs meyyitin qüsl, kəfən, namaz və dəfnindən hansısa birinin düzgün yerinə yetirilmədiyini bilsə, həmin şəxs bunu yenidən yerinə yetirməlidir.

Lakin əgər bu əməllərin düzgün olmadığını güman etsə, yaxud düzgünlüyünə şəkk etsə, onları yerinə yetirmək lazım deyildir.[٣]

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٠٥-ci məsələ.
[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٠٦-cı məsələ.
[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٠٧-ci məsələ.

• Meyyitin qüslünü, kəfənlənməsini, namazını və dəfnini yerinə yetirmək üçün onun sahibindən icazə almaq lazımdır. Meyyitin sahibi ata, ana, övladlar və bu tərtiblə onun digər varisləridir. Qadın meyyitin sahibləri sırasında onun həyat yoldaşı başda durur.[١]

SUALLAR:

١. Meyyitin bədənindən ayrılan üzvə toxunduqda məssi-meyyit qüslü vacib olurmu?

٢. Diri insanın bədənindən ayrılan ətlə örtülmüş sümüyə toxunduqda məssi-meyyit qüslü vermək lazımdırmı?

٣. Meyyitə toxunduqda məssi-meyyit qüslünün vacib olmadığı hallar hansılardır?

٤. Can verən müsəlmanı üzü qibləyə uzatmaq vacibdirmi?

٥. Meyyit üçün görülən işlər hansılardır?

٦. Meyyitə qüsl vermək kifayi-vacib əməldir, yoxsa eyni-vacib əməl?

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٠٨-ci məsələ.

İYİRMİ ÜÇÜNCÜ DƏRS

MEYYITIN HÖKMLƏRI (٢)

- *Meyyit qüslü*
- *Hənut*
- *Kəfən*

٤ Meyyit qüslü

١) Meyyitə üç qüsl vermək vacibdir:

I. Sidr qatılmış su ilə, başqa sözlə desək sidrli su ilə.

II . Kafur qatılmış su ilə (kafurlu su.)

III. Xalis su ilə.[١]

٢) Meyyitə qüsl verən şəxsin şərtləri:

- on iki imam şiəsi olsun;
- həddi-büluğa çatmış olsun;
- ağıllı olsun;
- qüslün qaydasını və hökmlərini bilsin;
- əgər meyyit kişidirsə, kişi ona qüsl verməli, qadındırsa, qadın qüsl verməlidir.[٢]

Diqqət:

• Qadın öz ərinə, ər də öz arvadına qüsl verə bilər.[٣]

٣) Meyyit qüslü verdikdə də digər ibadətlərdə olduğu kimi ibadət qəsdi, yəni, Allahın əmrini yerinə yetirmək qəsdi edilməlidir.[١]

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٠٩-cu məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١١٠ və ١١٣-cü məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١١١-ci məsələ.

٤)Meyyit qüslünün verilməsi vacibdir:

- müsəlman qadın və kişiyə;

- müsəlman uşağa;

- ana bətnində dörd ayı tamamlandıqdan sonra düşən müsəlman uşağa. Dörd aydan az olarsa, meyyit qüslü vacib olmur.[٢]

٥) Əgər cənazənin bir yeri napak olsa, meyyit qüslü verilməmişdən qabaq o yeri paklamaq lazımdır. Beləliklə, bədənin müəyyən bir yerində qanaxması olan cənazəni qüsldən öncə imkan daxilində paklamaq lazımdır. Amma əgər qanaxmanın öz-özünə dayanmasını gözləmək və ya onu müəyyən tibbi vəsaitlərlə dayandırmaq mümkündürsə, bu yeri qan kəsildikdən sonra paklamaq vacibdir.[٣]

٦) Meyyitin övrətinə baxmaq haramdır. Meyyitə qüsl verən şəxs, əgər onun cinsiyyətinə baxsa, günah işlətmişdir, lakin qüsl pozulmur.[٤]

٧) Əgər meyyit qüslü vermək üçün su tapılmasa və ya suyun istifadəsi üçün müəyyən maneələr olsa, hər qüslün əvəzinə meyyitə bir təyəmmüm verilməlidir.[٥]

<u>٥. Hənut</u>

١) Meyyit qüslü verildikdən sonra, meyyit, hənut olunmalıdır. Yəni, alnına, iki əlinin ovcuna, dizlərinə və ayaqlarının baş barmağına kafur sürtmək lazımdır və kafur bu üzvlərdə görünməlidir.[١]

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١١-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٠٦ və ١١٢-ci məsələlər

[٣] Şəri-suallar cavab, ٢٢٨-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١١٥-ci məsələ.

[٤] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١١٤-cü məsələ

[٥] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١١٦-cı məsələ

٢) Kafur üyüdülmüş və təzə olmalı, meyyiti ətirləndirməlidir. De-məli, əgər kafur köhnə olduğu üçün ətri qaçsa, hənut üçün yetərli de-yildir.[٢]

٣) Həcc ziyarəti üçün ehram bağlayan şəxsə hənut etmək olmaz və bu məsələ Həcc bölümündə qeyd olunub[٣].

٦. Kəfən

١) Müsəlman şəxsin cənazəsini ٣ tikə parça ilə kəfənləmək lazımdır:

I. Cənazənin belini və ayaqlarını bükmək üçün istifadə olunan parça.

II. Çiynin üstündən başlayaraq dizdən bir qədər aşağıya qədər olan hissəni bümək üçün istifdə olunan parça.

III. Başdan ayağa qədər bütün cənazəni bükmək üçün götürülən parça. Bu parçanın uzunluğu o qədər olmalıdır ki, baş və ayaq hissədən onu bağlamaq mümkün olsun. Eni isə o qədər olmalıdır ki, parçanın iki tərəfini bir-birinin üstünə qoymaq mümkün olsun.

٢) Əgər kəfən, cənazədən xaric olan və yaxud kənardan dəyən bir nəcasət nəticəsində napak olsa, onu paklamaq lazımdır. Və ya əgər kəfən korlanmasa, həmin yeri kəsib götürmək lazımdır. Beləliklə, əgər kəfən, cənazədən xaric olan qan nəticəsində napak olsa və onu paklamaq və ya napak yeri kəsib götürmək, ya da dəyişdirmək mümkün

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١١٩-cu məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü
[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١١٩-cu məsələ

olsa, bu işi yerinə yetirmək lazımdır. Lakin əgər mümkün olmasa, cənazəni həmin kəfənlə dəfn etmək olar.[١]

٣) İnsan özü üçün aldığı kəfənin üstündə vacib və müstəhəb namazlarını qıla, həmçinin Quran oxuya bilər. Ümumiyyətlə, insan özü üçün kəfən ala və onun üstündə Quran ayələri yaza bilər. Belə kəfəndən isə kəfənlənmək üçün istifadə edə bilər.[٢]

٤) İnsan özü üçün aldığı kəfənlə ata-anasını, qohumunu kəfənləyə bilər.[٣]

SUALLAR:

١. ***Meyyitə verilən üç qüsl hansılardır?***

٢. ***Meyyitə qüsl verən şəxsin şərtləri hansılardır?***

٣. ***Ana bətnindən düşən müsəlman uşağa meyyit qüslü vermək vacibdirmi?***

٤. ***Meyyiti hənutlamaq nə deməkdir?***

٥. ***Meyyiti kəfənləmək üçün istifadə olunan üç parça hansılardır?***

٦. ***İnsan özü üçün aldığı kəfənlə ata-anasını və ya qohumlarından birini kəfənləyə bilərmi?***

---

[١] Şəri suallara cavab, ٢٣٧-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١١٨-ci məsələ.

[٢] Şəri suallara cavab, ٢٣٢-ci sual

[٣] Şəri suallara cavab, ٢٣-cu sual

İYİRMİ DÖRDÜNCÜ DƏRS

MEYYITIN HÖKMLƏRI (٣)

- *Meyyit namazı*
- *Dəfn*
- *Qəbrin qazılma qaydası*
- *Şəhidin hökmü*
- *Edam olunan şəxsin hökmü*

<u>٧. Meyyit namazı</u>

١) Müsəlman şəxsin cənazəsinə qüsl verib hənutladıqdan və kəfənlədikdən sonra onun üçün aşağıdakı qaydada meyyit namazı qılmaq vacibdir.[١]

Diqqət:

• Valideynlərindən biri müsəlman olan altı yaşlı uşaq üçün meyyit namazı qılınmalıdır və o, bu cəhətdən həddi-büluğa çatan şəxs hökmündədir.[٢]

٢) Meyyit namazı niyyətdən və beş təkbirdən ibarətdir və hər təkbirdən sonra aşağıda qeyd olunan dualar və salavat deyilir:

I. Birinci təkbirdən sonra deyilir:

«Əşhədu ənla ilahə illəllah və ənnə Muhəmmədən rəsulullah.»

II. Ikinci təkbirdən sonra deyilir:

«Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd.»

III. Üçüncü təkbirdən sonra deyilir:

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٢٠-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٢٠-ci məsələ

«Allahummməğfir lil-muminina vəl-muminat.»

IV. Dördüncü təkbirdən sonra deyilir:

«Allahum-məğfir li hazəl məyyit» (kişi üçün)

«Allahum-məğfir li hazihil məyyit.» (qadın üçün)

V. Beşinci təkbir deyilir və bununla da namaz tamamlanır.[١]

Diqqət:

• Meyyit namazının daha geniş şəkildə qılınma qaydası dua kitablarında və şəriət hökmləri bəyan olunan kitablarda qeyd olunub.[٢]

٣) Meyyit namazını qılan şəxs ayaq üstə üzü qibləyə dayanmalıdır. Cənazəni isə arxası üstə və baş hissəsi namaz qılanın sağ tərəfinə və ayaq hissəsi sol tərəfinə doğru uzatmaq lazımdır.[٣]

٤) Cənazə ilə meyyit namazı qılan şəxs arasında divar və pərdə kimi bir maneə olmamalıdır. Amma cənazənin tabutda olması maneə törətmir.[٤]

٥) Meyyit namazını qılmaq üçün dəstəmazlı olmaq, bədənin və paltarın pak olması, habelə paltarın qəsbi olmaması şərt deyildir.[٥]

٦) Əgər cənazəni bilərəkdən, ya unudaraq, ya da müəyyən bir üzrlü səbəbə görə meyyit namazı qılmadan dəfn etsələr, yaxud dəfndən sonra qılınan namazın düzgün olmadığı məlum olsa, cənazə parçalanmayana qədər qəbrin kənarında meyyit namazı qılmaq lazımdır.[٦]

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٢٥-ci məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٢٥-ci məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٢٢-ci məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٢٣-cü məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٢١-ci məsələ
[٦] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٢٤-cü məsələ

٧) Camaat namazı və pişnamaz üçün lazım olan şərtlər, təkcə meyyit namazı üçün şərt sayılmır. Əlbəttə, ehtiyati-müstəhəbə görə bu şərtləri meyyit namazında riayət etmək tövsiyə olunur.[١]

٨. Dəfn

١) Cənazəyə qüsl verib hənutladıqdan, onu kəfənləyib namazını qıldıqdan sonra torpaqda dəfn etmək lazımdır. Qəbr, elə bir dərinlikdə olmalıdır ki, cənazənin iyi çölə çıxmasın və vəhşi heyvanlar qazıb onu çıxara bilməsin.[٢]

٢) Cənazəni qəbrdə sağ tərəfi üstə, üzü, sinəsi və qarnı qibləyə doğru uzatmaq lazımdır.[٣]

Dəfnə aid bir neçə məsələ:

• Meyyit qüslü verilmiş müsəlmanın sür-sümüyü pakdır, lakin onun sümüklərini yenidən dəfn etmək vacibdir.[٤]

• Müsəlmana aid insan skletini dərhal dəfn etmək vacibdir. (Yəni, baxıb ibrət almaq üçün onu nümayiş etdirmək olmaz).[٥]

• Müsəlman qəbrləri bir neçə mərtəbə şəklində ola bilər. Bir şərtlə ki, bu iş qəbrin açılması və ya ehtiramsızlıq sayılmasın.[٦]

• Əgər bir nəfər quyuya düşüb ölsə və onun cəsədini quyudan çıxarmaq mümkün olmasa, həmin quyunu o şəxsin qəbri qərar vermək lazımdır. Bu halda əgər bu quyu, şəxsi mülk olmasa və ya quyunun

---

[١] Şəri suallara cavab, ٢٤٨-ci sual
[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٢٦-cı məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٢٧-ci məsələ
[٤] Şəri suallara cavab, ٢٢٩-cu sual
[٥] Şəri suallara cavab, ٢٣٣-cü sual
[٦] Şəri suallara cavab, ٢٤٠-cı sual

sahibi onun bağlanmasına razı olsa, quyunun üstünü bağlamaq vacibdir.[١]

• Dəfn günü qəbrin üstünə su səpmək müstəhəbdir. Lakin sonralar yenə savab niyyəti ilə bu işi görməyin eybi yoxdur.[٢]

٩. Qəbrin açılması

١) Şəri qaydada dəfn olunan meyyitin qəbrini açmaq olmaz. Həmçinin möminlərin qəbrini dağıtmaq və açmaq, hətta yolu genişləndirmək məqsədilə olsa belə, olmaz. Beləliklə, əgər qəbr açılsa və müsəlman şəxsin cənazəsi və ya çürüməmiş sümükləri görünsə, onu yenidən dəfn etmək vacibdir.[٣]

٢) Qəbri açmadan xüsusi videokamera vasitəsilə onun daxilini çəkmək və bu yolla bəzi məlumatları əldə etmək, şəri baxımdan qəbrin açılması hökmündə deyildir.[٤]

٣) Əgər meyyitin sümükləri ovulub torpaba qarışsa, orada başqa bir cənazəni dəfn etmək olar.[٥]

٤) Əgər şəriətdə bir qəbrin açılmasına icazə verilmirsə, mərcəyitəqlidin icəzəsinin heç bir əhəmiyyəti yoxdur.[٦]

١٠. Şəhidin hökmü

Şəhidə meyyit qüslü və kəfən düşmür.

---

[١] Şəri suallara cavab, ٢٤١-ci sual
[٢] Şəri suallara cavab, ٢٣٥-ci sual
[٣] Şəri suallara cavab, ٢٥٧ və ٢٥٩-cu suallar
[٤] Şəri suallara cavab, ٢٥٨-ci sual
[٥] Şəri suallara cavab, ٢٦١-ci sual
[٦] Şəri suallara cavab, ٢٦٣-cü sual

Diqqət:

• Yuxarıdakı hökmdə nəzərdə tutulan şəhid, müharibə meydanında həlak olan döyüşcüdür. Beləliklə, əgər sərhəd əraziləri düşmənlə müharibə meydanı sayılsa, bu ərazilərdə həlak olanlar, şəhid hökmündədir. Müharibə meydanında həlak olmayanlar isə şəhid savabını qazansalar da şəhid hökmündə deyildirlər. Məsələn, bir nəfər islamın hökmlərini dirçəltəmək üçün nümayişlərdə və ya qeyri məkanlarda öldürülsə, şəhid savabını qazansa da , şəhid hökmündə deyildir.[١]

١١. Edam olunan şəxsin hökmü

İslam şəriətində qüsl, kəfən, namaz və dəfn kimi meyyit üçün mövcud hökmlər istisnasız olaraq edam olunan müsəlmana da aiddir[٢].

Bir neçə şəri məsələ:

• Təkcə qüsldə meyyitlə qüsl verənin eyni cinsdən olması şərtdir (yəni, meyyit kişidirsə, qüsl verən kişi, qadındırsa, qüsl verən qadın olmalıdır). Deməli, əgər kişi meyyitə kişinin, qadın meyyitə də qadının qüsl verməsinə imkan varsa, kişinin qadın meyyitə və qadının da kişi meyyitə qüsl verməsi düzgün deyil və belə qüsl batildir.
(əvvəldə qeyd olunduğu kimi ər və arvad bu hökmdən istisnadır). Lakin kəfən və dəfn işlərində meyyitlə eyni cinsdən olma şərt deyildir[٣].

• Meyyitin qüslü, kəfəni və dəfni üçün lazımi işlərin görülməsi və zəruri xərclərin çəkilməsində onun azyaşlı və həddi-buluğa çatmayan

---

[١] Şəri suallara cavab, ٢٤٦, ٢٤٧, ٢٤٩ və ٢٥٥-ci suallar

[٢] Şəri suallara cavab, ٢٥٠-ci sual.

[٣] Şəri suallara vavab, ٢٢٦-cı sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü ١١٣-cü məsələ.

varisindən icazə almaq lazım deyil. Yəni, varisin az yaşlı uşaq olması, meyyitə aid işlərin görülməsi üçün maneə törətmir. Deməli, əgər meyyitin bir neçə azyaşlı övladı olsa və qəyyumu da olmasa, ona yaşadığı evində qüsl vermək və kəfənləməyin heç bir maneəsi yoxdur[١].

• Dəfn mərasimində qadınların iştirak etməsinin heç bir eybi yoxdur[٢].

SUALLAR:

١. Meyyit namazının qaydasını izah edin.

٢. Pişnamazının şərtlərinə malik olmayan şəxs bir mömin üçün qılınan meyyit namazına pişnamaz dayana bilərmi?

٣. Qəbrləri iki və ya daha artıq mərtəbəli qazmaq olarmı?

٤. Meyyit qüslü və kəfən hansı şəhid üçün vacib deyil?

٥. Edam olunan müsəlmana meyyit namazı qılınmalıdır?

٦. Qüsl, kəfən və dəfn işlərində meyyitlə bu işləri görən şəxsin eyni cinsdən olması şərtdirmi?

---

[١] Şəri suallara cavab, ٢٢٨-ci sual.

[٢] Şəri suallara cavab, ٢٢٤-cü sual.

İYİRMİ BEŞİNCİ DƏRS

TƏYƏMMÜM (١)

- *Hansı hallarda təyəmmüm edilir*
- *Nəyin üzərində təyəmmüm etmək düzgündür*
-*Təyəmmümün qaydası*
- *Cəbirə təyəmmüm*

١.Hansı hallarda təyəmmüm edilir:

I. Dəstəmaz almaq və ya qüsl etmək üçün su əldə etmək mümkün olmasa. Yaxud ümumiyətlə su olmasa və ya su olsa da, dəstəmaz alan və ya qüsl edən şəxs onu əldə edə bilməsə. Məsələn, suyu quyudan çəkmək üçün bir vasitə olmasa.

II. Suyun istifadəsi insanın səhhəti üçün ziyanlı olsa.

III. Əgər insan qorxuya düşsə ki, suyu dəstəmaz və qüsl üçün istifadə edərsə, özü və ya ondan asılı olan insanlar susuz qalarlar.

IV. İnsan mövcud su ilə namaz qılmaq üçün bədən və ya paltarını paklasa.

V. Sudan və ya suyun qabından istifadə etmək haram olsa; məsələn, su və ya qab qəsbi olsa.

VI. Namaz vaxtı dar olsa (namaz vaxtının qurtarmasına çox az qalsa) və insan dəstəmaz alacağı və ya qüsl verəcəyi təqdirdə namazın hamısı və ya bir hissəsi namazın vaxtından xaric qılınarsa[١].

---

[١]Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٢٨-ciməsələ.

Diqqət:

• Əgər dəstəmaz almaq və ya qüsl verməyin insana zərəri olsa (yəni, suyun istifadəsinin zərəri olsa), yaxud bunları yerinə yetirmək üçün insan məşəqqətə düşsə, dəstəmaz və ya qüsl əvəzinə təyyəmmüm etmək lazımdır. Belə ki, dəstəmaz alsa və ya qüsl versə, düz deyil (yəni, bahildir).[١]

• İnsan dəstəmaz və ya qüslün ona zərəri olduğunu (məsələn, xəstələnəcəyini) bilsə, təyəmmüm edə bilər və bu təyəmmümlə qılınan namaz düzdür.

Əgər bu təyəmmümlə namaz qılmazdan öncə dəstəmaz və ya qüslün ona zərəri olmadığını bilsə, onun təyəmmümü bahildir. Lakin əgər bunu namaz qıldıqdan sonra bilsə, qüsl və ya dəstəmaz alıb vacib ehtiyata görə namazını yenidən qılmalıdır[٢].

• Gəcə yarısı qüsl verməyin çətinliyi qüslü tərk etmək üçün şəri üzr hesab olunmur. Deməli əgər qüsl verməyin zərəri və ya məşəqqəti yoxdursa, hansı şəkildə mümkündürsə qüsl vermək vacibdir. Yalnız zərəri və ya məşəqqəti olduğu təqdirdə namazqılan təyəmmüm etməlidir[٣].

• Əgər cənabətli şəxsin bədənini və paltarını paklamağa, yaxud paltarını dəyişməyə kifayət qədər vaxtı olmasa, həmçinin hava soyuq olduğu üçün paltarsız namaz qıla bilməsə, bu şəxs cənabət qüslü əvəzinə tə-

---

[١] Şəri suallara cavab,٢٠٦,٢٠٧.٢١٣,və ya ٢١٥-ci suallar.

[٢] Şəri suallara, ٢٠٨-ci sual.Rəhbərdən soruşulan Təharət bölümü, ١٢٩-cu məsələ.

[٣] Şəri suallara cavab, ٢١٥-ci sual.

yəmmüm edib həmin napak paltarla namazını qılmalıdır. Bu namazın qəzasını qılmaq vacib deyil[١].

• Əgər namaz vaxtı dar olsa və namaz qılan şəxs nigaran olsa ki, qüsl verəcəyi və ya dəstəmaz alacağı təqdirdə namazının hamısı və ya bir hissəsi namaz vaxtından xaric olacaqdır, təyəmmüm edib namaz qılmalıdır[٢].

• Əgər yuxuda ikən insandan bir rütubət xaric olsa və oyanıb paltarını nəm görsə, lakin heç bir şey xatırlamasa, bu halda əgər həmin şəxs, ondan xaric olan ruhubətin məni olduğunu dəqiqləşdirsə, cənabətlidir və qüsl verməlidir. Əgər namaz üçün vaxt azdırsa, bədənini pakladıqdan sonra təyəmmüm edib namaz qılmalı və sonrakı namazlar üçün qüsl verməlidir.Amma əgər bu şəxs ondan xaric olan rutubətin məni olduğunu dəqiqləşdirə bilməsə, cənabətli deyildir[٣].

Təharətin (dəstəmazlı və ya qüsllü olmaq) şərt olmadığı işlər üçün (məsələn, imamzadələri ziyarət etmək) qüsl əvəzinə təyəmmüm etməyin nə dərəcədə düzgün olması şübhəlidir. Lakin əgər qüsl vermək məşəqqətlidirsə, müstəhəb qüsllərin əvəzinə savaba yetişmək ümidi ilə təyəmmüm etməyin maneəsi yoxdur[٤].

---

[١] Şəri suallara cavab, ١٦٧-ci sual

[٢] Rəhbərlərdən soruşulan suallar, Təharət bölümü, ١٣٠-cu məsələ.

[٣] Şəri suallara cavab, ٢٠٥-ci sual.

[٤] Şəri suallara cavab,٢٠٣-cü sual.

٢. Nəyin üzərinə təyəmmüm etmək düzgündür

Ümumiyytlə "yer" adlanan hər bir şeyin üzərinə təyəmmüm etmək düzgündür. Məsələn, torpaq, qum, kəsək, çınqıl, daşın müxtəlif növləri, o cümlədən əhəng daşı, təbaşir, qara mərmər və s.

Həmçinin bişmiş əhəngin və təbaşirin, kərpicin və s. bu kimi daşların da üzərinə təyəmmüm etmək düzgündür[١].

Diqqət:

• Yer hökmündə olmayan qızıl və gümüş kimi metalların üzərinə təyəmmüm etmək düzgün deyil. Lakin mərmər kimi qiymətli daşların üzərinə təyəmmüm etmək düzgündür[٢].

• Beton və metlax daşların üzərinə təyəmmüm etmək olar, lakin müstəhəb ehtiyata görə onların üzərinə təyəmmüm edilməsin[٣].

٣.Təyəmmümün qaydası

Təyəmmümün qaydası bu tərtiblədir:

I. Təyəmmüm niyyəti etmək.

II. İki əlin içini təyəmmümün düzgün olduğu şeylərə vurmaq

III. Hər iki əlin içini alına və onun iki tərəfinə çəkmək. Yəni, alnın tük bitən yerindən qaşlara və burunun üstünə qədər.

IV. Sol əlin içini sağ əlin üstünə və sonra sağ əlin içini sol əlin üstünə çəkmək.

---

[١] Şəri suallara cavab, ٢٠٠ və ٢١٠-cu suallar.Rəhbərdən soruşulan suallar Təharət bölümü, ١٣١-ci məsələ.

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٣٢-ci məsələ.

[٣] Şəri suallara cavab,٤٨٩-cu sual.

V. Vacib ehtiyata görə yenidən əli yerə vurub, sol əli sağ əlin üstünə və sağ əli sol əlin üstünə çəkmək.[١]

Diqqət:

• Həm dəstəmaz, həm də qüslün əvəzinə olan təyəmmüm eyni qaydadadır.[٢]

• Əgər alnın və ya əlin üstünün hətta kiçik bir hissəsi məsh olunmasa, təyəmmüm batildir. Bu iş, istər qəsdən olsun, istər unutqanlıq üzündən, istərsə də hökmü bilməməkdən irəli gəlsin. Qeyd etmək lazımdır ki, həddən artıq diqqət etmək lazım deyil və əgər "alnın və əlin üstü tamamilə məsh olundu" deyilsə, kifayət edir[٣].

• Əlin üstünün tamamilə məsh olunduğuna əmin olmaq üçün biləkdən bir qədər yuxarıdan məsh etməyə başlamaq lazımdır. Lakin barmaqların arasını məsh etmək lazım deyil.[٤]

٤. Cəbirə təyəmmüm

Şəri vəzifəsi təyəmüm etmək olan şəxsin məsh yeri və ya məsh çəkdiyi əli sınıq, ya və s. səbəblərə görə sarğı ilə sarınıbsa, sarığını açmadan təyəmmüm etməlidir. Yəni sarığını bədənin dərisi kimi qəbul etməlidir[١].

---

[١] Şəri suallara cavab, ٢٠٩-cu sual. Rəhbərdən soruşulan, Təharət bölümü,١٠٦-cı məsələ.

[٢] Şəri suallara cavab, ٢٠٩-cu sual.Rəhbərdən soruşulan suallar, Təharət bölümü,١٣٦-cı məsələ.

[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٣٧-ci məsələ.

[٤] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٣٨-ci məsələ.

SUALLAR:

١. Hansı hallarda təyəmmüm edilir?

٢. Qüsl verəcəyi təqdirdə xəstələnəcəyini bilən şəxs əgər sübh namazı üçün qüsl əvəzinə təyəmmüm etsə, hökmü nədir?

٣. Əgər bir şəxsə qüsl vermək məşəqqətdirsə, müstəhəb qüsl olan cümə qüslü, ziyarət qüslü və s. əvəzinə təyəmmüm edə bilərmi?

٤. Əgər namaz vaxtı dar olsa, cənabətli şəxs təyəmmüm edib napak bədən və paltarla namaz qıla bilərmi, yoxsa namazının qəzasını qılmalıdır?

٥. Təbaşir və əhəng daşına, həmçinin bişmiş təbaşir və əhəngə və kərpicə təyəmmüm etmək olarmı?

٦. Təyəmmümün qaydasını bəyan edin.

---

١ Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ٨٣-cü məsələ.

İYİRMİ ALTINCI DƏRS

TƏYƏMMÜM (٢)

–Təyəmmümün şərtləri

–Təyəmmümün hökmləri

٥. Təyəmmümün şərtləri

- Təyəmmümün şərtləri
  - Üzərinə təyəmmüm edilən şeyin şərtləri:
    - Pak olmalıdır
    - Mübah olmalıdır, yəni qəsbi olmamalıdır
  - Təyəmüm üzvlərinin şərtləri: bir maneə olmamalıdır
  - Təyəmümün qaydasının şərtləri:
    - Alın və əlin üstü yuxarıdan aşağıya doğru məsh edilməlidir.
    - Tərtibə və muvalata riayət olunmalıdır.
    - Mübaşirətə riayət olunmalıdır. Yəni, təyəmümü insan şəxsən özü və öz iradəsi ilə yerinə yetirilməlidir.

١. Üzərinə təyəmmüm edilən şey pak olmalıdır[١]

٢. Üzərinə təyəmmüm edilən şey mübah olmalıdır. Amma əgər insan bu şeyin mübah olduğunu bilməsə və ya qəsbi olduğunu unutsa, etdiyi təyəmmüm düzdür[٢].

٣. Təyəmmüm üzvlərində heç bir maneə olmamalıdır

Odur ki, təyəmmüm edərkən üzüyü barmaqdan çıxartmaq lazımdır. Həmçinin əgər bu üzvlərə bir şey yapışsa və ya dərinin üzərini örtsə, təyəmmümdən öncə onu aradan qaldırmaq lazımdır[٣].

Diqqət:

• Əlin üstündəki və ya alındakı tüklər təyəmmüm üçün maneə sayılmır. Lakin əgər başdakı saç alına tökülsə, təyəmmüm zamanı onu kənara çəkmək lazımdır[٤].

• Əgər yara, sınıq və s. bu kimi səbəblərə görə təyəmmüm üzvü sarğı ilə sarılıbsa və və onu açmağın zərəri və ya məşəqqəti varsa, sarğını açmadan təyəmmüm etmək lazımdır[٥].

٤. Alın və əlin üstü yuxarıdan aşağıya doğru məsh edilməlidir[١]

٥. Tərtib

Təyəmmüm, yuxarıda qeyd olunan qaydada yerinə yetirilməlidir (yəni, təyəmmüm əməllərinin ardıcıllığına riayət edilməlidir). Əks təqdirdə, təyəmmüm düzgün deyildir[٢].

---

[١] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٣٤-cü məsələ.
[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٣٥-ci məsələ.
[٣] Rəhbərdən soruşulan suallar,Təharət bölümü, ١٤١-ci məsələ.
[٤] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٤٣-cü məsələ.
[٥] Rəhbərdən soruşulan suallar,Təharət bölümü, ١٤٢-ci məsələ.

٦. Muvalat

Təyəmmüm əməlləri fasiləsiz yerinə yetirilməlidir.

Deməli, əgər təyəmmüm edən şəxs, təyəmmüm əməllərinin arasında o qədər fasilə etsə ki, kənardan təyəmmüm etdiyi müşahidə olunmasa, onun təyəmmümü düzgün deyildir[٣].

٧. Mübaşirət

Təyəmmüm edən şəxs təyəmmüm əməllərini şəxsən özü və heç kimin köməyi olmadan yerinə yetirməlidir. Amma əgər insan iflic olduğu üçün və ya digər xəstəliklərə görə özü təyəmmüm edə bilməsə, özünə nayib tutmalıdır.

Nayib olan şəxs təyəmmüm edən şəxsin əlindən tutub, onun öz əli ilə təyəmmüm etdirməlidir. Əgər belə etmək mümkün olmasa, nayib olan şəxs öz əlini yerə vurub, həmin şəxsin alnına və əllərinə çəkməlidir[٤].

Diqqət:

Təyəmmüm üzvlərinin (alın və əllərin üstü) pak olması şərt deyildir. Hərçənd pak olması ehtiyata uyğundur[٥].

<u>٦.Təyəmmümün hökmləri</u>

١) Əgər üzərinə təyəmmüm etmək üçün əvvəldə sadalanan şeylər tapılmasa, xalça, paltar və s. bu kimi əşyaların üzərinə yığılan toza təyəmmüm etmək olar. Bu da tapılmasa, palçığa təyəmmüm etmək olar. Əgər bunların heç birini əldə etmək mümkün olmasa (məsələn, insan

---

١ Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٣٩-cu məsələ.

٢ Şəri suallara cavab, ٢٠٩-cu sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٣٦-cı məsələ.

٣ Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٣٩-cu məsələ.

٤ Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٤٠-cı məsələ.

٥ Rəhbərbərdən soruşulan suallar, Təharət bölümü, ١٤٠-cı məsələ.

təyyarədə olsa), vacib ehtiyata görə namazı öz vaxtında dəstəmazsız və təyəmmümsüz qılmaq, sonra dəstəmaz və ya təyəmmümlə qəzasını qılmaq lazımdır[١].

٢) Şəri vəzifəsi təyəmmüm etmək olan şəxs, vacib ehtiyata görə namaz vaxtından öncə namaz üçün təyəmmüm edə bilməz. Lakin əgər bir şəxs, namaz vaxtından öncə vacib və ya müstəhəb bir əməl üçün təyəmmüm etsə və namaz vaxtınadək təyəmmüm etmək üçün olan üzrü aradan qaxlmasa, həmin təyəmmümlə namaz qıla bilər[٢].

٣) Namaz vaxtının axırına qədər təyəmmüm etmək üçün şəri üzrünün aradan qalxacağını bilən şəxs, vaxtın əvvəlində təyəmmüm edib namaz qıla bilməz. Bu şəxs üzrü aradan qalxanadək gözləməli, üzrü aradan qalxdıqdan sonra dəstəmaz alıb və ya qüsl edib namaz qılmalıdır[٣].

٤) Əgər qüsl əvəzinə təyəmmüm edən şəxsdə hədəsi-əğsər baş versə, məsələn, bövl etsə, təyəmmüm etmək üçün şəri üzrü aradan qalxanadək vacib ehtiyata görə, təharətin şərt olduğu əməllər üçün qüsl əvəzinə yenidən təyəmmüm etməli və dəstəmaz almalıdır. Lakin əgər dəstəmaz ala bilmirsə, dəstəmaz əvəzinə də bir təyəmmüm etməlidir[٤].

---

[١] Şəri suallara cavab, ٢١٢-ci sual. Rəhbərdən soruşulan suallar, Təharət bölümü ١٣٣-cü məsələ.

[٢] Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٤٥-ci məsələ.

[٣] Rəhbərdən soruşulan suallar, Təharət bölümü ١٤٦-cı məsələ.

[٤] Şəri suallara cavab, ٢٠١-ci sual.Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٤٧-ci məsələ.

٥) Əgər insan, su olmadığı üçün və ya digər səbəblərə görə təyəmmüm etsə, üzrü aradan qalxdıqdan sonra etdiyi təyəmmüm batildir[١].

٦) Dəstəmazı pozan işlər dəstəmaz əvəzinə olan təyəmmümü də pozur və qüslü pozan işlər qüsl əvəzinə olan təyəmmümü də pozur[٢].

٧) Namaz vaxtının darlığı səbəbi ilə edilən təyəmmümdən başqa digər səbəblərə görə qüsl əvəzinə edilən təyəmmüm, şəri baxımdan qüsl hökmündədir. Deməli, insan, cənabət qüslü əvəzinə edilən təyəmmümlə məscidə daxıl ola, namaz qıla, Quranın yazısına əl vura və bu kimi əməlləri yerinə yetirə bilər[٣].

SUALLAR:

١.Təyəmmümün şərtləri hansılardır?

٢. Təyəmmüm edərkən üzüyü barmaqdan çıxartmaq lazımdırmı?

٣. Əlin üstündə və alında bitən tüklər təyəmmüm üçün maneə sayılırmı?

٤. Təyəmmüm üzvləri pak olmalıdırmı?

٥. Əgər insan namaz qılmaq üçün dəstəmaz ala bilməsə, təyəmmüm etmək imkanı da olmasa, nə etməlidir?

٦. Qüsl əvəzinə təyəmmüm qüsl hökmündədirmi? Məsələn, bu təyəmmümlə məscidə daxil olmaq olarmı?

---

١ Rəhbərdən soruşulan suallar, Təharət bölümü, ١٤٧-ci məsələ.

٢ Rəhbərdən soruşulan suallar, Təharət bölümü ١٤٩-cu məsələ.

٣ Şəri suallara cavab, ١٨٢, ٢٠٢, və ٢٠٤-cü suallar.

III fəsil

NAMAZ

Namaz, ən mühüm ibadətlərdən biridir. Əgər bu ibadət düzgün və diqqətlə yerinə yetirilsə, insanın ruhunu paklaşdırar, qəlbini işiqlandırar və əxlaqi rəzillikləri tərk etməkdə insana güc verər. İnsan tədricən həm özünü, həm də yaşadığı cəmiyyəti saflaşdıra bilər. Namazı vaxtın əvvəlində, hüzuri-qəlblə, riyakarlıqdan uzaq və xalisanə qılmaq bəyənilir. Namaz qılan şəxs Allahla danışdığını və dediyi hər bir sözün mənasına diqqət yetirməyi unutmamalıdır[١].

[١] Rəhbərdən soruşulan suallar, namaz bölümü.

İYİRMİ YEDDİNCİ DƏRS

NAMAZIN QİSMLƏRİ

- *Vacib və müstəhəb namazlar*
- *Yovmiyyə (gündəlik) namazların nafilələri*

١.Vacib və müstəhəb namazlar

Vacib namazlar bunlardır:

- Yovmiyyə (gündəlik) namazlar
- Təvaf namazı: Kəbəni təvaf etdikdən sonra qılınır.
- Ayət namazı: Günəş və ay tutulduqda, zəlzələ və s. bu kimi təbii fəlakətlər zamanı qılınan namazdır.
- Meyyit namazı
- Ata və ananın qəza namazları: böyük oğula vacibdir.
- Nəzir və əhd etmək, and içmək və ya əcir olmaq (başqasının qəza namazlarını öhdəsinə götürmək) səbəbilə vacib olan namazlar.

Müstəhəb namazlar:

Məsələn, yovmiyyə namazların nafiləsi[١].

Diqqət:

Müstəhəb namazlar çoxsaylıdır və nafilə adlanır. Nafilə namazları arasında yovmiyyə namazların nafiləsi daha çox tövsiyə olunmuşdur.

٢.Yovmiyyə namazların nafiləsi

١) Günün beş namazının hər birinin nafiləsi vardır. Bu nafilələri qılmağın çox böyük savabı vardır. Bundan əlavə gecənin axırıncı üçdə

birində qılınan gecə nafiləsi adlı müstəhəb namaz da vardır. Bu namazın ruha çox böyük təsirləri vardır və onu qılmaq təkidlə tövsiyə olunmuşdur[٢].

٢) Yovmiyyə namazların nafilələri.

- Zöhr namazının nafiləsi: Səkkiz rəkətdir və zöhr namazından qabaq qılınır.
- Əsr namazının nafiləsi: Səkkiz rəkətdir və əsr namazından qabaq qılınır.
- Məğrib namazının nafiləsi: dörd rəkətdir və məğrib namazından sonra qılınır.
- İşa namazının nafiləsi: iki rəkətdir və işa namazından sonra oturan halda qılınır.
- Sübh namazının nafiləsi: iki rəkətdir və namazdan qabaq qılınır.
- Gecə nafiləsi: on bir rəkətdir və gecənin yarısından sübh namazına qədər olan vaxtda qılınır. Lakin gecənin axırıncı üçdə birində qılınması tövsiyə olunur[١].

Diqqət:

• İşa namazının iki rəkət nafiləsi, bir rəkət sayıldığı üçün yovmiyyə namazların nafiləsi ٣٤ rəkətdir (yəni, yovmiyyə namazlarından iki dəfə çox).

٣) Əgər zöhr və əsr namazlarının nafilələri namazdan sonra və nafilə vaxtında qılınsa, vacib ehtiyata görə «əda» (namazın vaxtında qılın-

---

[١] Şəri suallara cavab, ٢٤٨,٣٣٨, ٥٤٢ və ١١١-ci məsələ.Rəhbərdən soruşulan suallar, Namaz bölümü,١٥٠-ci məsələ.

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٦٦-cı məsələ.

ması) və «qəza» niyyəti etmədən «qürbətən iləllah» niyyəti ilə qılınmalıdır[٢].

٤) Gecə nafilələri on bir rəkətdir. Onun iki rəkət-iki rəkət şəklində qılınınan səkkiz rəkəti gecə namazı adlanır. Sonrakı iki rəkət «şəf» namazıdır və sübh namazı kimi qılınır. Axırıncı bir rəkət "vətr" namazı adlanır. Bu namazın qunutunda dua kitablarında qeyd olunduğu qaydada bağışlanmaq diləmək, möminlər üçün dua etmək və Allah-Taaladan hacət diləmək müstəhəbdir[٣].

٥) Gecə namazında fatihədən sonra bir surə oxumaq, bağışlanmaq diləmək və dua etmək şərt deyildir. Beləliklə, gecə namazının niyyət və təkbirətul-ehramından sonra hər bir rəkətində təkcə «Fatihə» surəsini oxumaq kifayətdir. Lakin əgər namaz qılan şəxs istəsə, «Fatihə»dən sonra Quran surələrindən birini oxuya bilər. Sonra digər namazlarda olduğu kimi rüku, səcdə, təşəhhüd və salamları deyib namazı tamamlaya bilər[٤].

٦) Gecə namazını qaranlıq və heç kimin olmadığı bir məkanda qılmaq şərt deyildir. Lakin riyakarlıq da etmək olmaz[٥].

---

[١] Rəhbərdən soruşulan, Namaz bölümü, ١٦٦-cı məsələ.
[٢] Şəri suallara cavab, ٢٧٠-ci sual.
[٣] Şəri suallara cavab, ٧٢١-ci sual.
[٤] Şəri suallara cavab, ٧٢٢-ci sual.
[٥] Şəri suallara cavab, ٧١٩-cu məsələ.

Diqqət:

• Vətr namazından başqa nafilələri iki rəkət-iki rəkət qılmaq lazımdır. Odur ki, gecə namazını iki dört rəkətli namaz şəklində qılmaq düzgün deyildir[١]

• Nafilə namazlarını oturan halda qılmaq olar, lakin ayaq üstə qılmaq daha yaxşıdır[٢].

• Səfərdə zöhr, əsr və işa namazlarının nafiləsini qılmaq olmaz[٣].

• Yovmiyyə namazların nafilələrinin özünə xas vaxtı vardır və şəriət hökmləri kitablarında qeyd olunmuşdur[٤].

SUALLAR:

١.Vacib namazlar hansılardır?

٢. Yovmiyyə namazların nafilələri neçə rəkətdir? İzah edin.

٣. Əgər zöhr və əsr namazlarının nafilələri namazdan sonra və nafilə vaxtında qilinsa, hansı niyyətlə qılınmalıdır?

٤. Gecə namazının qaydası necədir?

٥. Gecə namazını xəlvət və qaranlıq bir yerdə qılmaq vacibdirmi?

٦. Səfərdə hansı namazların nafilələrini qılmaq olmaz?

---

١ Şəri suallara cavab, ٧١٨-ci sual. Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٦٧-ci məsələ.

٢ Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٦٧-ci sual.

٣ Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٦٧-ci məsələ.

٤ Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٦٨-ci məsələ.

İYİRMİ SƏKKİZİNCİ DƏRS

NAMAZQILANIN PALTARI (١)

- *Namazda bədənin örtülməsi*
- *Namazqılanın paltarının şərtləri (١)*

١.Namazda bədənin örtülməsi

١. Kişi namaz qılarkən onu heç kim görməsə belə «övrətəyn»i (cinsiyyətini və arxasını) örtməlidir. Daha yaxşı olar ki, göbəkdən dizlərə qədər örtsün[١].

٢. Qadın namaz qılarkən bədəninin hər yerini və başını (saçlarını) örtməlidir. Lakin dəstəmazda yuyulan miqdarda üzü, biləyə qədər əlləri və oynağa qədər ayaqları örtmək lazım deyildir[٢].

Diqqət:

• Çənə, üzün bir hissəsi sayıldığına görə namaz qılarkən onu örtmək lazım deyildir. Lakin çənənin altını örtmək vacibdir[٣].

• Əgər ətrafda naməhrəm olsa, ayağın oynağa qədər olan hissəsini də örtmək vacibdir[٤].

• Əgər qadın, namaz əsnasında saçının göründüyünü bilsə və dərhal örtsə, namazı düzdür. Lakin bilib örtməsə, namazı batildir[٥].

---

١ Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٧٤-cü məsələ.

٢ Şəri suallara cavab,٤٣٧-ci sual. Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٧٤-cü məsələ.

٣ Şəri suallara cavab, ٤٣٧-ci sual.

٤ Şəri suallara cavab, ٤٣٧ və ٤٣٨-ci suallara.

٥ Şəri suallara cavab, ٤٣٢-ci sual.

• Əgər namazqılan şəxs namazdan sonra vacib olan miqdarda örtünmədiyini bilsə, namazı düzdür[١].

<u>٢.Namazqılanın paltarının şərtləri:</u>

١) Pak olmalıdır.

٢) Qəsbi olmamalıdır, yəni mübah olmalıdır.

٣) Ölü və ya şəri qaydada kəsilməyən heyvanın hissələrindən olmamalıdır.

٤) Əti haram olan heyvanın hissələrindən olmamalıdır.

٥) Qızıl sapla toxunmuş parçadan olmamalıdır.

٦) Xalis ipəkdən olmamalıdır[٢].

Diqqət:

• Beşinci və altıncı şərt kişilərin paltarına aiddir[٣].

١) Pak olmalıdır.

١. Namaz qılannın paltarı pak olmalıdır[٤].

٢. Napak bədən və paltarla qılınan namazın batil olduğunu bilən şəxs, əgər napak bədən və paltarla namaz qılsa, namazı batildir[٥].

٣. Bədəninin və ya paltarının napak olduğunu bilməyən şəxs, əgər namazdan sonra onların napak olduğunu bilsə, qıldığı namaz düzdür. Lakin əgər namazdan öncə onların napak olduğunu bilsə və namaz qılarkən bunu unutsa, qıldığı namaz batildir[٦].

---

[١] Rəhbərdən soruşulan suallar. Namaz bölümü, ١٧٥-ci məsələ.
[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü ١٧٦-cı məsələ.
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٧٦-cı məsələ.
[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٧٦-cı məsələ.
[٥] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٧٧-ci məsələ.
[٦] Rəhbərdən soruşulan suallar, Namaz bölümü,١٧٨-ci məsələ.

٤. Əgər namazqılan şəxs namaz əsnasında bilsə ki, bədəni və ya paltarı namazdan öncə və ya namaz qılarkən napak olmuşdur, bu halda əgər namaz vaxtı genişdirsə, bu şəxsin qıldığı namaz batildir. Amma əgər namaz vaxtı dardırsa və namazı pozmayan bir tərzdə bədəni paklamaq və ya napak paltarı çıxartmaq mümkündürsə, bu işi görməli və namazı tamamlamalıdır. Lakin əgər namaz vaxtı genişdirsə və namazı pozmayan tərzdə də bədəni paklamaq və ya napak paltarı çıxarmaq mümkün deyilsə, namazqılan şəxs namazı kəsməli, pak bədən və paltarla namazı yenidən qılmalıdır[١].

٥. Əgər namaz qılan şəxs napak paltarını paklasa və onun pak olduğuna əmin olub namaz qılsa, lakin namazdan sonra paltarının paklanmadığını bilsə qıldığı namaz düzdür. Amma sonrakı namazlar üçün paltarını paklamalıdır[٢].

٦. Hər kim paltarının pak olub-olmadığı barədə şəkk etsə, paltarı pakdır və onunla qıldığı namaz düzdür. Deməli, tərkibində spirt olan ətrin napak olduğu məlum olmasa, bu ətrin dəydiyi paltarla namaz qılmağın heç bir maneəsi yoxdur. Həmçinin əgər bir nəfər çıxılmaz vəziyyətdə qalıb bövl (sidik) xaric olan yeri daş, çubuq və s. əşyalarla paklasa, paltarının bövlün rütubəti ilə napak olduğuna əmin olmayanadək namaz qılmaq üçün onu dəyişmək lazım deyildir[٣].

---

[١] Şəri suallara cavab, ٤٣٠-cu məsələ.

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٨٠-cı məsələ.

[٣] Şəri suallara cavab, ٤٢٨, ٤٣٣ və ٤٣٦-cı suallar.

٢) Qəsbi olmamalıdır.

١. Namaz qılanın paltarı mübah olmalıdır[١].

٢. Əgər namazqılan şəxs paltarının qəsbi olduğunu bilməsə və ya unutsa, həmçinin qəsbi paltar geyməyin ümumiyyətlə haram olduğunu bilməsə, bu paltarla qıldığı namaz düzdür.

Deməli, əgər bir nəfər bir müddət xüms düşən bir paltarla namaz qılsa, lakin bu paltara xüms düşdüyünü və ya belə bir paltardan istifadə etməyin haram olduğunu bilməsə, qıldığı namazlar düzdür[٢].

٣. Xüms və zəkatı verilməyən pul ilə alınan paltarda qılınan namaz batildir[٣].

٣) Namazqılınanın paltarı «murdar»ın (ölü və ya şəri qaydada kəsilməyən heyvanın) hissələrindən olmamalıdır.

١. Namazqılanın paltarı qanı sıçrayıcı olan ölü və ya şəri qaydada kəsilməyən heyvanın hissələrindən olmamamalıdır. Vacib ehtiyata görə hətta qanı sıçrayıcı olmayan heyvanın hissələrindən də olmamalıdır[٤].

٢. Əgər namazqılanın üstündə «murdar»ın müəyyən bir hissəsi olsa, vacib ehtiyata görə namazı batildir. Lakin əti halal olan heyvanın murdarının tükü, yunu, buynuzu və sümüyü kimi ruhsuz hissələri olsa, namazı batil deyildir[٥].

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٧٦-cı məsələ.

[٢] Şəri suallara cavab, ٣٧٣-cü sual. Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٨١-ci məsələ.

[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٨٢-ci məsələ.

[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٨٣-cü məsələ.

[٥] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٨٤-cü məsələ.

٣. Əgər bir heyvanın şəri qaydada kəsildiyi şübhəlidirsə, ətinin yeyilməsi və dərisindən hazırlanmış paltarla namaz qılınması baxımından «murdar» hökmündədir. Lakin paklıq və napaklıq baxımından «murdar» hökmündə deyil və pakdır. Bu hökmü bilməyən şəxsin buna riayət etmədən qıldığı namazlar düzdür. Deməli, şəri qaydada kəsilib-kəsilmədiyi məlum olmayan heyvanın dərisindən hazırlanmış paltar napak olmasa da,onunla qılınan namaz batildir[١].

٤) Namazqılanın paltarı əti haram olan heyvanın hissələrindən olmamalıdır.

١. Namazqılan şəxsın palıtarı əti haram olan heyvanın hissələrindən olmamalıdır. Hətta əgər belə heyvanın tükü namaz qılanın bədənınə və ya paltarına yapışmış olsa, onun qüldığı namaz batildir[٢].

٢. Pişik kimi əti haram olan heyvanın ağız və burnunun suyu əgər namaz qılan şəxsin bədəninə və ya paltarına dəyibsə, namazı batildir. Lakin əgər quruyub və tamamilə aradan gedibsə, namaz batil deyildir. Beləliklə, əgər əti haram olan quşların nəcisi namazqılanın bədənınə və ya paltarına dəyibsə, onun qıldığı namaz batildir. Lakin əgər quruyub bədən və paltardan tökülübsə, onun qıldığı namaz düzdür[٣].

٣. Namazqılanın bədənində və ya paltarında insan tükü, təri və ağız suyunun, həmçinin arı pətəyinin, mirvarinin və sədəfin olmasının heç bir maneəsi yoxdur[٤].

---

[١] Şəri suallara cavab, ٤٢٩ və ٤٣١-ci sual.

[٢] Rəhbərdən soruşulan suallar, Namz bölümü, ١٨٥-ci məsələ.

[٣] Şəri suallara cavab, ٤٤١-ci sual. Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٨٦-cı məsələ.

[٤] Rəhbərdən soruşulan suallar, ١٨٧-ci məsələ.

٤. Əgər insan müəyyən bir paltarın əti halal, yoxsa haram olan heyvanın hissələrindən olduğu barədə şəkk etsə, bu paltarla namaz qılmağın eybi yoxdur[١].

SUALLAR:

١. Qadınlar namaz qılarkın bədənlərinin hansı hissələrini örtməlidirlər? Namazda qolu qısa paltar geyinmək və corab geyinməmək olarmı?

٢. Əgər qadın namaz əsnasında saçının göründüyünü başa düşsə və dərhal örtsə, namazını yenidən qilmalıdır?

٣. Namazqılanın paltarının şərtləri hansılardır?

٤. Əgər namazqılan namaz əsnasında bədəninin və ya paltarının napak olduğunu başa düşsə, nə etməlidir?

٥. Əgər bir nəfər xüms düşən bir paltarda bir müddət namaz qılsa, namazının hökmü nədir?

٦. Əgər namazqılanın üstündə pişiyin tükü və ya ağzının suyu olsa, namazı batildirmi?

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٨٨-ci məsələ.

İYİRMİ DOQQUZUNCU DƏRS

NAMAZQILANIN PALTARI (٢)

- *Namazqılanın paltarının şərtləri (٢)*
- *Namazqılanın paltarının paklığı şərt olunmayan hallar*

٥) Qızıl sapla toxunmuş parçadan olmamalıdır.

١. Kişilərə qızıl sapla toxunmuş parçadan paltar geyinmək haramdır və bu paltarda qıldığı namaz da batildir. Lakin qadınlar üçün qızıl sapla toxunmuş parçadan paltar geyinməyin istər namazda, istərsə də digər hallarda heç bir eybi yoxdur[١].

٢. Kişilərə qızıl boyunbağı, üzük və saat taxmaq haramdır və vacib ehtiyata görə bu zinət əşyaları ilə qüldığı namaz batildir[٢].

Diqqət:

• Kişilərə qızıl sapla toxunmuş parçadan paltar geyinmək və ya qızıl boyunbağı taxmaq təkcə zinət sayıldığı təqdirdə deyil, hər bir halda və hər hansı bir məqsədlə haramdır. Məsələn, camaatın nəzərində zinət deyil, evlilik nişanəsi sayılan qızıl nişan üzüyü, qızıl saat və s. bu kimi əşyaları taxmaq kişiyə haramdır.Yaxud, heç kim görməsə belə, yenə də onlardan istifadə etmək kişiyə haramdır.

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٨٩-cu məsələ.

[٢] Şəri suallara cavab, ٤٤٢ və ٤٤٤-cü suallar.Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٩٠-cı məsələ.

Lakin qızıl diş qoydurmağın və ya cərrahiyyə əməliyyatında çıxarılmış sümüyün yerinə qızıl sümükdən istifadə edilməsinin maneəsi yoxdur[١].

• Qısa bir müddət ərzində belə, məsələn, təkcə toy günü kişilərə qızıldan zinət əşyaları taxmaq haramdır[٢].

• Əgər ağ qızıl adlanan metal elə sarı qızıl olub müəyyən bir kimyəvi maddənın təsiri nəticəsində rəngi dəyişilibsə, sarı qızıl hökmündədir. Lakin əgər bu metalın tərkibində sarı qızıl çox az olduğu üçün ürfdə onu sarı qızıl adlandırmırlarsa, kişilərin ondan istifadə etməyinin eybi yoxdur[٣].

• Platin, qızıl sayılmır və qızıl hökmündə də deyildir. Odur ki, ondan kişilərin istifadə etməsinin maneəsı yoxdur[٤].

٦) Əgər namazqılan kişidirsə, paltarı xalis ipəkdən olmamalıdır.

Ümumiyyətlə kişiyə xalis ipəkdən paltar geyinmək haramdır. Namazda da kişi xalis ipəkdən paltar geyinə bilməz, hətta onun araqçını, corabı, paltarının astarı belə ipəkdən olmamalıdır. Lakin xalis ipəkdən olan cib dəsmalı və s. bu kimi şeylərin onun üstündə olması namazı batil etmir[٥].

---

[١] Şəri suallara cavab, ٤٤٤ və ٤٤٦-cı suallar.
[٢] Şəri suallara cavab, ٤٤٥-ci sual.
[٣] Şəri suallara cavab, ٤٤٣-cü sual.
[٤] Şəri suallara cavab, ٤٤٣-cü sual.
[٥] Rəhbərdən soruşulan suallar,Namaz bölümü ١٩١-ci məsələ.

٣.Bu hallarda namazqılanın bədənin və ya paltarının pak olması şərt deyil:

- Əgər namazqılanın bədəni və ya paltarı yara, çiban və cərrahiyyə nəticəsində qana bulaşarsa;
- Əgər namazqılanın bədənində və ya paltarındakı qan dirhəmin (keçmişdə gümüş pul vahidi) ölçüsündən (barmağın bir bəndi ölçüsündən) kiçik olarsa;
- Əgər namazqılanın corabı və s. bu kimi övrəti örtmək üçün kifayət etməyən geyimləri napak olarsa;
- Napak bədən və ya paltarla namaz qılmaq məcburiyyətində qalarsa;

I. ***Namazqılanın bədəni və ya paltarı yara, çiban və bədənin kəsilməsi nəticəsində qana bulaşıbdır.***

Əgər namazqılanın bədəni və ya paltarı yara, çiban və ya bədənin kəsilməsi nəticəsində qana bulaşıbdırsa və hər dəfə bədəni, yaxud paltarı paklamaq onun üçün çətindirsə, həmin şəxs sağalana qədər qana bulaşmış paltarda namaz qıla bilər. Qanlı irinə bulaşan paltarın və yaranın üzərinə qoyulan və nəticədə napak olan dərmanın da hökmü belədir[١].

II. ***Namazqılanın bədənində və paltarındakı qan dirhəmin ölçüsündən kiçikdir.***

١. Əgər namazqılanın bədəni və ya paltarı birincı bənddə qeyd olunan səbəblərdən qeyri səbəblər nəticəsində qana bulaşarsa və onun ölçüsü

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٩٢-ci məsələ.

şəhadət barmağın bir bəndindən kiçik olsa, namaz üçün maneəsi yoxdur[١].

٢. Dirhəmdən kiçik olan qanın şərtləri aşağdakılardır:

١) Bu qan heyz qanı olmamalıdır:

Heyz qanının zərrəsi belə namazqılanın bədənində və ya paltarında olsa, namazı batildir.

Vacib ehtiyata görə, nifas qanı və istihazə qanı da bu hökmdədir.

٢) İt və donuz kimi zatən napak (nəcisul-eyn) olan heyvanların, əti haram olan heyvanların və şəri qaydada kəsilməyən heyvanın qanı olmamalıdır.

٣) Kənardan bu qana rütubət (su) dəyməməlidir. Lakin əgər ona dəyən rütubət qanla tamamilə qarışsa və barmağın bir bəndindən artıq ölçüdə yayılmasa, belə bədən və paltarla qılınan namaz düzdür. Əks təqdirdə, vacib ehtiyata görə qılınan namaz batildir[٢].

III. ***Namazqılanın corabı və s. bu kimi övrəti örtmək üçün kifayət etməyən geyimləri napakdır.***

١. Əgər namazqılanın corabı, əlcəyi, araqçını və s. bu kimi övrəti örtmək üçün kifayət etməyən kiçik geyimləri, həmçinin üzük, qolbaq və s. bu kimi əşyaları nəcasətə (zatən napak olan şeylərə) dəyib napak olsa, belə halda namaz qılmağın maneəsi yoxdur[٣].

---

[١] Rəhbədən soruşulan suallar, Namaz bölümü, ١٩٣-cü məsələ.

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٩٤ və ١٩٥-ci məsələlər.

[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٩٧-ci məsələ.

٢. Əgər cib dəsmalı, çanta, bıçaq və s. bu kimi insanın üstündə gəzdirdiyi əşyalar napakdırsa və onlardan övrəti örtmək üçün istifadə etmək kifayət etmirsə, onlarla namaz qılmağın eybi yoxdur[١].

IV. ***Namazqılan napak bədən və ya paltarda namaz qılmaq məcburiyyətindədir.***

Əgər insan havanın soyuq olması, suyun olmaması və s. bu kimi səbəblərə görə napak bədən və ya paltarla namaz qılmaq məcburiyyətində qalsa, qıldığı namaz düzdür[٢].

SUALLAR:

١. Kişilər qızıl zinət əşyalarından heç kim görməsə belə istifadə edə bilərlərmi?

٢. Kişilər ağ qızıldan üzük taxa bilərlərmi?

٣. Hansı hallarda namazqılan napak bədən və ya paltarla namaz qıla bilər?

٤. Dirhəmdən kiçik olan qanın şərtləri hansılardır?

٥. Üstündə napak cib dəsmalı olan namazqılanın namazı batildirmi?

٦. ***Əgər namaz vaxtının əvvəlindən axırınadək namazqılanın burnundan və ya ağzından qan gəlsə, qıldığı namazın hökmü nədir?***

---

[١] Şəri suallaracavab, ٤٣٥-ci sual. Rəhbərdən soruşulan suallar Namaz bölümü, ١٩٨-ci məsələ.

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٩٩-cu məsələ.

OTUZUNCU DƏRS

NAMAZQILANIN MƏKANI (١)

- *Namazqılanın məkanının şərtləri (١)*

Namazqılanın məkanının şərtləri:

١- Mübah olmalıdır, yəni qəsbi olmamalıdır.

٢- Hərəkətsiz olmalıdır.

٣- O məkanda dayanmaq haram olmamalıdır.

٤- Peyğəmbərin (s) və məsum imamların (ə) qəbrindən öndə olmamalıdır.

٥- Səcdə yeri pak olmalıdır.

٦- Bu məkan namazqılanın bədəni və ya paltarının napak olmasına bais olmamalıdır.

٧- Vacib ehtiyata görə, namaz qılarkən qadınla kişi arasında bir qarış məsafə olmamalıdır.

٨- Düz yer olmalıdır.

I. Mübah olmalıdır.

١. Namazqılanın məkanı qəsbi olmamalıdır. Əgər qəsbi olmayan xalça və taxt kimi əşyalar qəsbi məkandadırlarsa, onların üstündə qılınan namaz batildir[١].

٢. Əgər insan bir yerin qəsbi olduğunu bilmirsə və ya unudubsa, ya da qəsbi məkandan istifadə etməyin haram olduğunu bilmirsə, orada qıldığı namaz düzdür.

---

[١] Şəri suallara cavab, ٣٨٤-cü sual. Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٠٠-cü məsələ.

Deməli, əgər insan xümsü verilməyən bir səccadənın üstündə namaz qılsa və ona xüms düşdüyünü bilməsə, yaxud xümsü verilməyən əşyadan istifadə etməyin haram olduğunu bilməsə, onun üstündə qıldığı namazlar düzdür[١].

٣. Əgər iki nəfər bir mülkdə şərikdirlərsə və bu mülkdə hər birinin payı bölünməyibsə, heç bir şərik digərinin razılığı olmadan orada namaz qıla bilməz[٢].

٤. Xümsü və zəkatı verilməyən pul ilə alınmış mülkdə qılınan namaz batildir.

Diqqət:

• Əgər dövlət müəssisələri tərəfindən müvəqqəti olaraq verilən evin müqavilə müddəti başa çatsa və evin boşaldılması barədə oranın sakininə xəbər verilsə, bu yaşayış binasının tabe olduğu idarə məsulunun icazəsi olmadan bu evdən istifadə etmək qəsbi məkandan istifadə etmək hökmündədir[٣].

• Keçmişdə qəbristanlıq olan məkanda tikilən idarə binasinda namaz qılmaq və ya oradan digər işlər üçün istifadə etməyin eybi yoxdur. Lakin əgər o məkanın ölüləri dəfn etmək üçün vəqf olunduğu və qeyri-şəri olaraq mənimsənilib orada bina tikildiyi şəri yolla sübuta yetirilsə, həmin binada namaz qılmaq və s. məqsədlər üçün istifadə etmək qəsbi məkandan istifadə etmək hökmündədir[٤].

---

[١] Şəri suallara cavab,٣٧٣-cü sual.Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٠١-ci məsələ.

[٢] Rəhbərdən suruşulan suallar, Namaz bölümü, ٢٠٢-ci məsələ.

[٣] Şəri suallara cavab, ٣٧٦-cı sual.

[٤] Şəri suallara cavab, ٢٧٩-cu sual.

• Ümumi parklarda namaz qılmağın heç bir eybi yoxdur. O məkanların qəsbi və ya park salındığı torpaqların əvvəllər kimin mülkü olması barədə edilən şəkkə etina olunmamalıdır[١].

• Əgər bir şəxs sahibi olduğu torpaq sahəsinin dövlət tərəfindən mənimsənilməsinə razı deyilsə və həmin yerdən namaz qılmaq və ya digər məqsədlər üçün istifadə edilməsinə narazıdırsa, bu halda əgər bu torpaq sahəsi dövlətin mülkiyyət qanunlarına əsasən onun sahibindən alınsa, o məkanda namaz qılmağın və ya s. işlər görməyin maneəsi yoxdur[٢].

• Zalım dövlətin mənimsədiyi məkanların şəri baxımdan qəsbi məkanlar hökmündə olduğu məlum olsa, orada namaz qılmaq və s. işlər görmək olmaz[٣].

SUALLAR:

١. Namazqılanın makanının şərtlərini sadalayın.

٢. Qəsbi məkanda səccadə və ya taxta parçasının üzərində qılınan namaz düzdür, yoxsa batil?

٣. Əgər bir nəfər xüms düşən bir səccadənin üstündə bir neçə müddət namaz qılsa, qıldığı namazların hökmü nədir?

٤. Əgər dövlət müəssisələri tərəfindən müvəqqəti olaraq verilən evin müqavilə müddəti başa çatsa və evin boşaldılması barədə oranın sakininə xəbər verilsə, o evdə qılınan namazların hökmü nədir?

---

[١] Şəri suallara cavab, ٢٨٠-cı sual.

[٢] Şəri suallaras cavab, ٣٨١-ci sual.

[٣] Şəri suallara cacab, ٣٧٠-ci sual.

٥. Əgər bir şəxs sahibi olduğu torpaq sahəsinin dövlət tərəfindən mənimsənilməsinə razı deyilsə və həmin yerdən namaz qılmaq və ya digər məqsədlər üçün istifadə edilməsinə narazıdırsa, orada namaz qılmağın hökmü nədir?

٦. Zalım dövlətin qəsb etdiyi yerlərdə namaz qılmaq olarmı?

OTUZ BİRİNCİ DƏRS

NAMAZQILANIN MƏKANI (٢)

- *Namazqılanın məkanının şərtləri (٢)*

II. Hərəkətsiz olmalıdır.

Namazqılanın məkanı hərəkətsiz olmalıdır. Bu mənada ki, namaz qılan şəxs, hərəkətsiz halda və bədəni tərpənmədən namaz qılmalıdır. Deməli, maşında, yaylı çarpayının üstündə və s. bu kimi məkanlarda insan ixtiyarsız olaraq tərpəndiyi üçün namaz qılmaq düzgün deyil. Əlbəttə, vaxtın darlığı kimi insanın məcburiyyət qarşısında qaldığı və ya digər müstəsna hallarda bu məkanlarda namaz qılmaq olar.[١]

Diqqət:

- Avtobusla uzaq şəhərlərə səfərə çıxan sərnişinlərə vacibdir ki, namazlarının qəza olacağını ehtimal verdikləri halda maşını namaz qılmaq üçün münasib bir yerdə saxlamağı sürücüdən tələb etsinlər. Sürücüyə də vacibdir ki, sərnişinlərin bu istəyini qəbul etsin. Beləliklə, əgər məntiqi üzrə görə ya da heç bir üzrü olmadan sürücü avtobusu saxlamasa, namazın qəza olacağı təqdirdə sərnişinlər maşın hərəkətdə ikən namazlarını qılmalı və imkan daxilində qiblə, rüku, qiyam və səcdəyə riayət etməlidirlər. [٢]
- Əgər qayıqla ezamiyyətə göndərilən şəxslər namaz vaxtı namazlarını qılmasalar qəza olacaqdırsa, qayıqda olsa belə namazı vaxtında qılmalıdırlar.[٣]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٠٤-cü məsələ
[٢] Şəri suallara cavab, ٢٨٨-ci sual
[٣] Şəri suallara cavab, ٣٨٨-ci sual

III. O məkanda dayanmaq haram olmamalıdır.

Namazqılan şəxs, elə məkanda namaz qılmalıdır ki, orada dayanmaq haram olmasın. Məsələn, insanın həyatı təhlükədə olan yerdə; uçmaq üzrə olan bir divarın kənarında. Həmçinin üzərində əyləşmək və dayanmaq haram olan əşyaların üstündə namaz qılmamalıdır, məsələn hər tərəfində Allahın adı, Quran ayələri yazılan bir xalçanın üstündə.[١]

IV. Peyğəmbərin (s) və məsum imamların (ə) qəbrindən öndə olmamalıdır.

Peyğəmbərin (s) və imamların (ə) qəbrindən öndə dayanıb namaz qılmaq olmaz. Lakin qəbrin kənarında namaz qılmağın eybi yoxdur.[٢]

V. Səcdə yeri pak olmalıdır.

Səcdə yeri pak olmalıdır, lakin səcdə yerindən qeyri məkanların napak olması namaz üçün maneə törətmir və belə məkanda qılınan namaz düzdür.[٣]

VI. Namazqılanın məkanı onun bədəninin və ya paltarının napaklığına bais olmamalıdır.

Əgər namazqılanın məkanı napakdırsa, elə olmamalıdır ki, napaklıq onun bədəninə və ya paltarına sirayət etsin.

Beləliklə, əgər namaz qılanın məkanı səcdə yerindən savayı napak olsa, lakin napaklıq sirayət edəcək bir həddə yaş olmasa, o yerdə namaz qılmağın heç bir eybi yoxdur.[٤]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٠٥-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar,Namaz bölümü, ٢٠٦-cı məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٠٧-ci məsələ

[٤] Şəri suallara cavab, ٢٧٨-ci məsələ

VII. Vacib ehtiyata görə, namazda qadınla kişi arasında bir qarış məsafə olmalıdır.

Vacib ehtiyata görə, namaz qılarkən qadınla kişi arasında bir qarış məsafə olmalıdır. Əgər qadınla kişi yanaşı dayansalar, yaxud qadın kişidən öndə dayansa, hər ikisinin namazı düzdür (Lakin ehtiyata riayət olunsa, daha yaxşıdır).[١]

VIII. Namazqılanın məkanı düz yer olmalıdır.

Namaz qılanın səcdə yeri dizlərinin və ayaq barmaqlarının qoyduğu yerdən dörd bağlı barmaqdan hündür və ya alçaq olmamalıdır.[٢]

Namazqılanın məkanı barədə iki məsələ

- Kəbə evinin içərisində vacib namazı qılmaq məkruhdur. Damında isə, vacib ehtiyata görə namaz qılınmasın.[٣]
- Şəkilli səccadənin üstündə və ya şəkilli möhür ilə namaz qılmağın öz-özlüyündə heç bir maneəsi yoxdur. Lakin əgər bu məsələ, şiəliyə irad tutulmasına bais olacaqsa, belə səccadələri və möhürləri istehsal etmək və namazda onlardan istdifadə etmək olmaz. Eləcə də əgər namazqılanın fikrini yayındırsa və hüzuri-qəlbə xələl gətirsə, belə səccadə və möhürlərdən istifadə etmək məkruhdur.[٤]

---

[١] Şəri suallara cavab, ٣٧٤-cü sual Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٠٩-cu məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٠٩-cu məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢١٠-cu məsələ

[٤] Şəri suallara cavab, ٣٧٧-ci sual

SUALLAR:

١. Maşında bədən qeyri-ixtiyari tərpəndiyi üçün namaz qılmağın hökmü nədir?

٢. Əgər namazqılanın makanı pak olmasa və təkcə səcdə yeri pak olsa, namazı düzdürmü?

٣. Hər tərəfində Allahın adı və Quran ayələri yazılan xalçanın üstündə namaz qılmağın hökmü nədir?

٤. Namazda kişilər qadınlardan hökmən öndə dayanmalıdırlarmı?

٥. Vacib namazı Kəbə evinin daxilində qılmağın hökmü nədir?

٦. Şəkilli səccadənin üstündə və ya şəkilli möhür ilə namaz qılmağın hökmü nədir?

OTUZ İKİNCİ DƏRS

MƏSCİDİN HÖKMLƏRİ (١)

Məscidə qarşı haram olan əməllər

١. Məscidə qarşı haram əməllər bunlardır:

- Məscidi napak etmək
- İsraf sayıldığı halda məscidi qızılla zinətləndirmək
- Məsciddə onun şəninə yaraşmayan işlər görmək
- Kafirlərin məscidə daxil olması haramdır
- Məscidi sökmək
- Məscidin vəqfində müəyyən edilən şərtlərə əməl etməmək

١. Məscidi napak etmək haramdır.

Məscidin yerini, tavanını, divarlarını və damını napak etmək haramdır və əgər napak olarsa, dərhal oranı paklamaq vacibdir.[١]

Diqqət:

- Tərk edilmiş, sökülmüş və qəsb edilmiş məscidin yerində başqa bir bina tikilibsə, yaxud tərk edildiyi üçün, məsələn, bir kəndin əhalisi oranı tərk edib, başqa yerdə məskunlaşdığı üçün artıq oradakı məscid xarabalığa çevrilibsə və artıq yenidən bərpa olunacağına ümid yoxdur-sa, o yeri napak etmək haram deyil. Amma müstəhəb ehtiyata görə napak edilməsin.[١]

---

[١] (Şəri suallara cavab, ٤١٦-cü sual Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢١١-cu məsələ)

٢. İsraf sayıldığı halda məscidi qızıl ilə zinətləndirmək haramdır.

İsraf sayılmadığı təqdirdə isə məkruhdur.[٢]

٣. Məsciddə onun şəninə yaraşmayan işlər görmək olmaz.

Odur ki, məsciddə idman və məşq etmək olmaz. Həmçinin əgər məsciddə musiqi səsləndirmək onun şəninə yaraşmırsa, hətta bu musiqi, "mütrib musiqi" (eyş-işrət məclislərinə xas olan musiqilər) olmasa belə, bu işi görmək haramdır.[٣]

٤. Kafirlərin məscidə daxil olması.

Kafirlərə müsəlmanların məscidlərinə tarixi abidələrin müşahidəsi məqsədilə belə daxil olmaq olmaz.

Məscidlər arasında da heç bir fərq yoxdur ki, bu məscid "Məscidülhəram", yaxud da digər məscidlərdən biri olsun.

Həmçinin, kafirlərin məscidə daxil olması məscidə hörmətsizlik sayılsa da, sayılmasa da, yenə də haramdır.[٤]

٥. Məscidi sökmək olmaz.

Məscidin binasını və ya onun bir hissəsini sökmək olmaz. Lakin çox böyük əhəmiyyəti olan bir iş üçün buna icazə verilir.[٥]

Diqqət:

- Məscid sökülsə elə onun yeri məscid hökmündədir və bu yerdə məscidin hökmləri riayət olunmalıdır. Lakin əgər sökülmüş və ya tərk edilmiş bir məscidin yerində başqa bir bina tikilibsə, yaxud tərk olun-

---

١ (Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢١٢-ci məsələ)

٢ (Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢١٣-cü məsələ)

٣ (Şəri suallara cavab, ٣٩٣, ٣٩٧ və ٣٩٩-cu suallar)

٤ (Şəri suallara cavab, ٤١٩-cu sual)

٥ Şəri suallara cavab, ٤٠٣ və ٤١٣-cü sual

duğu üçün həmin məscid xarabalığa çevrilib və artıq onun bərpa olunacağına heç bir ümid yoxdursa, bu yer məscid hökmündə deyildir. Deməli, əgər yol çəkilərkən məscid binasının bir hissəsi məcburiyyətdən irəli gələn zərurətə görə sökülsə və yenidən o hissənin bərpa olunacağına çox zəif ehtimal verilsə, o yer məscid hökmündə deyil. [١]

٦. Məscidin vəqfində müəyyən edilən şərtlərə əməl etməmək.

Məscidin vəqfində müəyyən edilən şərtləri pozmaq, həmçinin onları dəyişdirmək olmaz. Odur ki:

١) Məscidin həyətindən və eyvanından yeniyetmələrin elmi, mədəni və fiziki tərəqqisi istiqamətində istifadə edilməsi, bu yerlərin vəqfindən asılıdır. Bunu bilmək üçün o məscidin pişnamazına və ya dini icmasına müraciət etmək lazımdır. Söz yox ki, cavanların məscidə gəlməsi və pişnamazın, yaxud dini icma tərəfindən təşkil olunan dərslərdə iştirak etməsi bəyənilən və təqdirəlayiq bir işdir.[٢]

٢) Məsciddə mütəmadi olaraq kinofilmlər yayımlamaq olmaz, başqa sözlə desək, məscidi kinoteatra döndərmək olmaz. Lakin müəyyən münasibətlərlə əlaqədar olaraq ehtiyac duyulduğu vaxt və pişnamazın nəzarəti altında dini filmlər kimi faydalı və tərbiyəvi əhəmiyyət daşıyan filmləri yayımlamağın eybi yoxdur.[٣]

٣) Mərhumunun hüzn mərasimini məsciddə keçirən şəxsin oranın işıq, istilik sistemi və s. bu kimi imkanlarından istifadə etməsi məscidin vəqfində müəyyən edilən şərtlərdən, həmçinin əgər bu imkanlar məs-

---

[١] Şəri suallara cavab, ٤١١, ٤١٥ və ٤١٦-cı suallar

[٢] Şəri suallara cavab, ٣٩٤-cü sual

[٣] Şəri suallara cavab, ٣٩٨-ci sual

cidə nəzir olunubsa, bu nəzir üçün müəyyən olunan şərtlərdən asılıdır.[١]

٤) Məscidin yerini emalatxana, sex və s. tikmək üçün – hətta əgər onlardan məscidin xərclərini təmin etmək üçün istifadə olunsa belə - qazmaq olmaz.[٢]

٥) Məscidin həyətinin bir guşəsində muzey və ya kitabxananın tikilməsi əgər məscidin binası və həyətinin vəqfinin şərtlərinə müvafiq deyilsə, yaxud da məscidin binasının (lahiyəsinin) dəyişdirilməsinə səbəb olarsa, olmaz. Yaxşı olar ki, məscidin yaxınlığında bu məqsədlər üçün yer alınsın.[٣]

٦) Əgər məscidin suyunun yalnız namaz qılanların dəstəmaz alması üçün vəqf olunduğu bilinməsə və oradan ötüb keçənlər, həmçinin məscid yerləşən məhəllənin sakinləri adətən oranın suyundan istifadə edirlərsə, bu sudan içmək, çay dəmləmək və s. bu kimi şəxsi istifadələrin eybi yoxdur. Lakin ehtiyata riayət etmək bəyənilir. Həmçinin əgər məscid qəbristanlığın yanında yerləşirsə və məscidin sahəsindən kənarda yerləşən qəbirlərin üstünə su səpmək üçün məscidin suyundan istifadə etməyin o halda eybi yoxdur ki, adətən hamı bu işi görür və heç kim buna etirazını bildirmir. Eləcə də oranın suyunun yalnız dəstəmaz və təharət üçün vəqf olunduğuna dair sübut yoxdur.[١]

٧) Əgər məscidin hökmlərini bilməyənlər məscid binasının daxilində, başqa sözlə desək onun damı altında otaqlar tiksələr, bu otaqları dağı-

---

[١] Şəri suallara cavab, ٤٠٩-cu sual

[٢] Şəri suallara cavab, ٤١٨-ci sual

[٣] Şəri suallara cavab, ٤٢١-ci sual

dıb məscidi əvvəlki vəziyyətinə gətirmək lazımdır. Həmçinin əgər məscid binasının daxilində çay hazırlamaq və s. işlər üçün otaqlar tikilsə, onları söküb məscidi əvvəlki vəziyyətinə gətirmək vacibdir.[٢]

٨) Əgər vəqfin şərtlərinə zidd deyilsə, məscidin həyətindən bir neçə ağacı kəsməyin eybi yoxdur.[٣]

٩) Məsciddə meyyit dəfn etmək olmaz və bu barədə meyyitin vəsiyyəti etibarsızdır (yəni onun bu vəsiyyətinə əməl etmək vacib deyil). Lakin vəqfin şərtlərində məsciddə meyyitin dəfn olunmasına icazə verilibsə, bu halda orada meyyit dəfn etmək olar.[٤]

١٠) Məsciddə namaz qılanlara maneəçilik törətmək olmaz. Odur ki, Quran, şəri hökmlər və İslamı əxlaqın təliminə, həmçinin dini mahnıların məşqinə o halda icazə verilir ki, namazqılanlara maneçilik yaratmasın.[٥]

١١) Məscidin zirzəmisini üç şərtlə kirayə vermək olar:

١. Zirzəmi məscid sayılmasın, məscid hökmündə olmasın.

٢. Məscidin həmin yerə ehtiyacı olmasın.

٣. Oranın vəqfi “intifa vəqfi” deyil, “mənfəət vəqfi” olsun.

---

[١] Şəri suallara cavab, ٤٠٤ və ٤٠٥-ci suallar
[٢] Şəri suallara cavab, ٤٠٢ və ٤١٠-cu suallar
[٣] Şəri suallara cavab, ٤١٤-cü sual
[٤] Şəri suallara cavab, ٢٠٧-ci sual
[٥] Şəri suallara cavab, ٣٩٧ və ٤٠٢-ci suallar

SUALLAR:

١. Məscid üçün haram işlər hansılardır?

٢. Məsciddə idman etmək olarmı?

٣. Məsum imamların (ə) mövludu münasıbətilə məsciddən səsucaldanlar vasitəsilə şən mahnıların yayımlanmasının şəri hökmü nədir?

٤. Kafirlər müsəlmanların məscidlərinə tarixi abidələrin müşahidəsi məqsədilə daxil ola bilərlərmi?

٥. Mərhumunun hüzn mərasimini məsciddə keçirən şəxsin oranın işıq, istilik sistemi və s. bu kimi imkanlarından istifadə etməsinin hökmü nədir?

٦. Məscidin zirzəmisini onun şəninə uyğun bir iş üçün kirayə vermək olarmı?

OTUZ ÜÇÜNCÜ DƏRS

MƏSCİDİN HÖKMLƏRİ (٢)

Məscidin müstəhəb hökmləri

٢. Məscidin müstəhəb hökmləri

Məscidin müstəhəb hökmləri:

١. Məscidi təmizləmək və abadlaşdırmaq

٢. Məscidə gedəndə ətirlənmək, təmiz və gözəl geyim geyinmək

٣. Ayaqqabı və ya ayağı çirklənməkdən və nəcasətə bulaşmaqdan qorumaq

٤. Hamıdan qabaq məscidə gedib hamıdan sonra xaric olmaq

٥. Məscidə zikr deyə-deyə və Allahı yad edərək daxil və xaric olmaq.

Məscidin bir neçə hökmü:

١) Məsciddə yatmaq məkruhdur.[١]

٢) Məsciddə namaz qılmağın müstəhəbliyi təkcə kişilərə aid deyil, qadınlara da aiddir.[٢]

٣) Məhəllə məscidini qoyub başqa bir məsciddə, xüsusilə də came məscidində camaat namazı qılmağın eybi yoxdur.[١]

Diqqət:

- Came məscidi xas bir məntəqəyə aid olmayıb bütün şəhər əhalisinin cəm olması üçün tikilən məsciddir.[٢]

---

[١] Şəri suallara cavab, ٣٩٣-cü sual

[٢] Şəri suallara cavab, ٣٩١-ci sual

٤) Kooperativ yaşayış binaları tikən şirkətdə sərmayə qoyan alıcılar əgər məhəllədə məscid kimi ümumi məkanların tikilməsi barədə razılığa gəlsələr, lakin mənzilini təhvil aldıqdan sonra bəzi alıcılar bu razılaşmanı pozsalar və desələr: "Biz məscidin tikilişinə razı deyilik", bu halda əgər məscid artıq tikilmiş və vəqf olunmuş olsa, bu narazılığın təsiri yoxdur. Lakin əgər şəri vəqfdən öncə bu alıcılar razılığı pozsalar, bütün alıcılara aid olan bu məkanda hamının razılığı olmadan onların sərmayəsi ilə məscid tikmək olmaz. Lakin belə ola bilər ki, şirkətin alıcılarla imzaladığı müqavilədə şərt qoyulsun ki, bina tikilən ərazinin bir hissəsi məscidin inşaatına ayırılacaqdır və alıcılar da bu şərti qəbul etsinlər, bu halda alıcılar şərti poza bilməzlər və onların sonradan etdikləri narazılığın heç bir təsiri yoxdur.[٣]

٥) Əgər təmirə ehtiyac duyulan məscid, könüllü surətdə xeyriyyəçilərin maliyyəsi ilə təmir olunsa, bu halda şəri hakimin icazəsinə ehtiyac yoxdur.[٤]

٦) Kafirlərin tikdiyi məsciddə namaz qılmağın, həmiçinin kafirlərin könüllü surətdə məscidə göstərdikləri maddi yardımları almağın heç bir maneəsi yoxdur.[٥]

٧) Bir məsciddə istifadəsiz qalan bəzi əşayaları istifadə etmək üçün digər bir məscidə aparmaq olar.[٦]

---

[١] Şəri suallara cavab, ٣٨٩-cu sual
[٢] Şəri suallara cavab, ٤٠١-ci sual
[٣] Şəri suallara cavab, ٣٩٦-cı sual
[٤] Şəri suallara cavab, ٤٠٦-cı sual
[٥] Şəri suallara cavab, ٤٢٠-٤٢١-ci suallar
[٦] Şəri suallara cavab, ٤١١-ci sual

٨) Əgər məscidin vəqf siğəsində onun xüsusi bir adla adlanması məlum deyilsə, məscidin adını dəyişməyin, məsələn, İmam Zaman (ə.f) adını daşıyan məscidi Came məscidi adlandırmağın eybi yoxdur.[١]

٩) Hüseyniyyələr, məscid hökmündə deyildirlər.[٢]

١٠) Düzgün şəri qaydada Hüseyniyyə ünvanında vəqf olunan məkanı məscid etmək və ya onun bir hissəsini məscidə əlavə etmək olmaz.[٣]

Diqqət:

- Dini mərasimlərin keçirilməsi üçün vəqf olunan Hüseyniyyəni "şəxsi mülk" kimi qeydiyyatdan keçirmək olmaz. Həmçinin "vəqfi mülk" kimi müəyyən şəxslərin adına qeydiyata alınması da zəruri deyildir. Hər halda "vəqfi mülk" kimi müəyyən fərdlərin adına qeydiyyata alındığı zaman isə bu Hüseyniyyənin tikilməsində iştirak edən fərdlərin razılığı olmalıdır.

١٠) İmamzadələrin ziyarətgahına nəzir olunan xalça, palaz, qab-qacaq və s. bu kimi əşyaları onlara ehtiyac olmadığı halda məhəllənin came məscidində istifadə etmək olar.[١]

SUALLAR:

١. Məscidin müstəhəb hökmlərini bəyan edin.

٢. Məsciddə yatmağın hökmü nədir?

٣. Qadınlar namazlarını evdə qılsalar yaxşıdır, yoxsa məsciddə?

---

[١] Şəri suallara cavab, ٤٠٨-ci sual

[٢] Şəri suallara cavab, ٤٢٧-ci sual

[٣] Şəri suallara cavab, ٤٢٥-ci sual

٤. Came məscid hansı məscidə deyilir?

٥. Təmirə ehtiyacı olan məscidi təmir etmək üçün şəri hakimdən və ya onun vəkilindən icazə almaq lazımdırmı?

---

[١] Şəri suallara cavab, ٤٢٦-cı sual

OTUZ DÖRDÜNCÜ DƏRS

QİBLƏ

Qiblənin hökmləri

Qiblənin hökmləri

١. Müsəlmanlar namazı üzü Kəbə evinə doğru qılamlıdırlar və buna görə də Kəbə evinə doğru olan səmtə "qiblə" deyilir. Təbii ki, Kəbə evindən uzaqda yaşayanlar üçün tam dəqiqliklə ona doğru dayanmaq qeyri-mümkündür. Odur ki, ürfdə "üzü qibləyə namaz qılır" deyilsə, kifayət edir.[١]

Diqqət:

- Üzü qibləyə dayanmaq o deməkdir ki, insan, yer kürəsinin səthindən Kəbə evinə doğru dayansın. Beləliklə, əgər insan, yer kürəsinin elə bir nöqtəsində yerləşsə ki, bu nöqtədən Məkkəyə doğru dörd cəhətə xəyali xətlər çəkilsə və bu xətlərin hamısı eyni ölçüdə olsa, insan bu cəhətlərdən birini seçib o istiqamətdə namaz qıla bilər. Lakin əgər bir istiqamətdə çəkilən xətt digərlərindən qısa olsa və qiblənin hansı cəhət olması barədə fikirayrılığı yaransa, ən qısa xətt istiqamətində namaz qılmaq vacibdir.[٢]
- İnsan müstəhəb namazları yol gedə-gedə və miniyə mindiyi halda qıla bilər və bu namazlarda üzü qibləyə dayanmaq şərt deyildir.[١]

٢. Namazqılan şəxs namaz qıldığı istiqamətin həqiqətən qiblə olduğuna əmin olmalıdır. Onun yəqinliyi istər etibarlı qibləngöstərən vasitəsilə

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٦٩-cu məsələ

[٢] Şəri suallara cavab, ٣٦٧-ci sual

hasil olsun, istər günəş və ulduzlar vasitəsilə, istərsə də digər vasitələrlə. Əgər yəqinlik hasil olmasa, hansı tərəfin qiblə olmasına daha çox ehtimal verirsə, o tərəfə namaz qılmalıdır.[٢]

٣. Əgər qibləni müəyyənləşdirmək üçün heç bir vasitə olmasa və namazqılan şəxs də heç bir tərəfi qiblə güman etməsə, bu halda əgər dörd cəhətə namaz qılmaq üçün kifayət qədər vaxt olmasa, vacib ehtiyata görə qalan vaxt ərzində müəyyən istiqamətlərə namaz qılmalıdır.[٣]

٤. Qibləni müəyyən edə bilməyən şəxs heyvanların kəsilməsi və s. bu kimi üzü qibləyə yerinə yetirilən işləri qiblə güman etdiyi tərəfə etməlidir. Əgər heç bir tərəfi qiblə güman etməsə, hansı istiqamətdə yerinə yetirsə, doğrudur.[٤]

Diqqət:

- Qibləni təyin etmək üçün "şaxis"ə (yerə taxılan çubuq) və ya qibləgöstərənə etimad etmək namazqılan şəxsdə yəqinlik hasil edəcəyi surətdə doğrudur. Yəqinlik hasil olduğu təqdirdə ona uyğun əməl edilməlidir. Əks təqdirdə, qibləni məscidlərin mehrabı və müsəlman qəbirləri ilə təyin etmək lazımdır.[٥]
- Qibləni təyin etməkdə şaxisdən istifadə etməyin qaydası belədir: May ayının iyirmi beşi və İyul ayının on yeddisi Məkkə üfüqü ilə zöhr namazının vaxtı – belə ki, bu anda günəş düz bucaq altında Məkkəyə

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٧٠-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٧١-ci məsələ

[٣] Şəri suallara cavab, ٣٦٦ və ٣٦٧-ci sual, Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٧٢-ci məsələ

[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٧٣-cü məsələ

[٥] Şəri suallara cavab, ٣٦٥-ci sual

düşür – düz bir çubuqu hamar yerdə şaquli şəkildə yerə taxsaq, qiblə, çubuğun kölgəsinin əks istiqamətidir.[١]

SUALLAR:

١. Namazqılanın üzü qibləyə dayandığını təsdiq edən meyar nədir?

٢. Əgər insan müstəhəb namazları yol gedə-gedə və miniyə mindiyi halda qılarsa, üzü qibləyə dayanması şərtdir?

٣. Əgər namazqılan hansı cəhətin qiblə olduğuna əmin ola bilməsə, nə etməlidir?

٤. Əgər qibləni müəyyənləşdirmək üçün heç bir vasitə olmasa və namazqılan şəxs də heç bir tərəfi qiblə güman etməsə, nə etməlidir?

٥. Qiblənümaya hansı surətdə etibar etmək düzgündür?

٦. Qibləni təyin etmək üçün şaxisdən necə istifadə edilir?

---

[١] Şəri suallara cavab, ٣٦٥-ci sual

OTUZ BEŞİNCİ DƏRS

YOVMİYYƏ NAMAZLARI[١] (١)

- *Yovmiyyə namazlarının əhəmiyyəti*
- *Yovmiyyə namazlarının sayı*
- *Yovmiyyə namazlarının vaxtları*

١. Yovmiyyə namazlarının əhəmiyyəti

١. Hər gün beş vaxtda qılınan "yovmiyyə namazları" İslam dinində çox mühüm vacib əməllərindən biridir, hətta dinin sütunudur.

Bu namazları qılmamaq və ya onlara qarşı səhlənkar olmaq şəri baxımdan haramdır və cəzası vardır.[٢]

٢. Heç bir halda hətta müharibə meydanında belə namazı tərk etmək olmaz. Odur ki, əgər müharibə meydanında döyüşən döyüşçü Fatihə surəsini oxumağa və ya səcdə və rükunu yerinə yetirməyə qadir deyilsə, bacardığı şəkildə namazını qılmalıdır. Məsələn, rüku və səcdəni işarə ilə yerinə yetirmək kifayətdir.[٣]

٢. Yovmiyyə namazlarının sayı

Günün vacib namazları:
- ١.Sübh namazı: ٢ rəkət
- ٢. Zöhr namazı: ٤ rəkət
- ٣. Əsr namazı: ٤ rəkət
- ٤. Məğrib namazı: ٣ rəkət
- ٥. İşa namazı: ٤ rəkət[٤]

---

[١] Günün vacib namazları

[٢] Şəri suallara cavab, ٣٣٩-cu sual

[٣] Şəri suallara cavab, ٧٢٥-ci sual

[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٥١-ci məsələ

Diqqət:

- Səfərdə dörd rəkətli namazlar (zöhr, əsr və işa) iki rəkət qılınır.[١]

٣.Yovmiyyə namazlarının vaxtı

١. Sübh namazının vaxtı.

١) Sübh namazının vaxtı şəfəq[٢] doğandan günəş doğana qədərdir.[٣]

٢) Sübh namazının vaxtı (“kazib fəcr”in deyil) “sadiq fəcr”in doğduğu vaxtdır və bunu ayırd etmək mükəlləfin (şəri vəzifələri olan şəxsin) öhdəsindədir.[٤]

٣) Şəfəqin doğması (yəni, sübh namazının vaxtının daxil olması) cəhə-tindən aylı gecələr və ayın görünmədiyi gecələr arasında heç bir fərq yoxdur. Düzdür bu zəmində ehtiyat etmək yaxşıdır.[٥]

٤) Sübh namazının vaxtının daxil olmasına tam əmin olmaq üçün möhtərəm möminlər (Allah onlara kömək olsun) ehtiyat ünvanında informasiya vasitələri ilə yayımlanan sübh azanıdan beş-altı dəqiqə sonra sübh namazını qılsınlar.[٦]

٥) Şəri baxımdan günəşin çıxması (yəni, sübh namazının vaxtının qur-tarması) onun şüalarının yer üzünə düşməsi deyil, namazqılanın məka-nındakı üfüqdə görünməsidir.[١]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٥٢-ci məsələ
[٢] Fiqhdəki termini “fəcr”dir.
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٥٣-cü məsələ
[٤] Şəri suallara cavab, ٣٥١-ci sual
[٥] Şəri suallara cavab, ٣٥٤-cü sual
[٦] Şəri suallara cavab, ٣٦٢-ci sual

٢. Zöhr namazının vaxtı

Zöhr namazının vaxtı zöhrün əvvəlindən (yəni, günəşin ən hündür nöqtəyə və nəticədə hər bir şeyin kölgəsi ən qısa ölçüyə çatdıqdan sonra kölgələrin yenidən şərqə doğru artmağa başladığı anlar) günəşin qürubuna əsr namazını qılmaq qədər vaxt qaldığı ana qədərdir.[٢]

٣. Əsr namazının vaxtı

Əsr namazının vaxtı zöhrün əvvəlindən zöhr namazı qılmaq qədər vaxt ötdükdən sonra qüruba qədərdir.[٣]

٤. Məğrib namazının vaxtı

Günəş qürub etdikdən sonra səmada yaranan qırmızılıq şərq tərəfdən tamamilə çəkildikdə məğrib namazının vaxtı başlanır. Bu vaxtdan etibarən gecə yarısına işa namazını qılmaq qədər vaxt qalanadək məğrib namazının vaxtıdır.[٤]

Diqqət:

- Günəşin qürubu ilə şərq tərəfdən qırmızılığın çəkilməsi arasındakı vaxt, fəsillərə görə dəyişir.[٥]

٥. İşa namazının vaxtı

İşa namazının vaxtı məğrib namazının vaxtı daxil olduqdan sonra məğrib namazını qılmaq qədər vaxt keçdikdən ta gecə yarısına qədərdir.[٦]

---

[١] Şəri suallara cavab, ٣٥٨-ci sual
[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٥٣-cü məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٥٣-cü məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٥٣-cü məsələ
[٥] Şəri suallara cavab, ٣٤٧-ci sual
[٦] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٥٣-cü məsələ

Diqqət:

- Məğrib və işa namazlarında gecə yarısını təyin etmək üçün günəşin qürub etdiyi andan sübh namazına qədər olan vaxtı gecə olaraq nəzərdə tutmaq lazımdır. Bu hesabla zöhr namazından təxminən ١١ saat ١٥ dəqiqə sonra məğrib və işa namazlarının vaxtı qurtarır.[١]

SUALLAR:

١. Bilərəkdən namaz qılmamaq və ya namazı yüngül saymağın aqibəti nədir?

٢. Aylı gecələrdə sübh namazını qılmaq üçün vaxt daxil olduqdan sonra on beş-iyirmi dəqiqə gözləmək lazımdır?

٣. Günəşin şüaları yerə təxminən səkkiz dəqiqəyə çatır. Əgər belədirsə, sübh namazının vaxtı günəş şüalarının yerə çatması ilə başa çatır, yoxsa günəşin doğması ilə?

٤. Əsr namazının vaxtı günəş qürub edənədəkdir, yoxsa məğrib namazınadək?

٥. Günəşin qürubundan məğrib azanınadək neçə dəqiqə vaxtdır?

٦. Şəri gecə yarısı necə hesablanır?

OTUZ ALTINCI DƏRS

YOVMİYYƏ NAMAZLARI (٢)

- *Namaz vaxtlarının əhkamı*
- *Namazların tərtibi*

٤. Namaz vaxtlarının əhkamı

١. Namaz vaxtınının daxil olması ٣ yolla sübuta yetir:

١. İnsanın özü namaz vaxtının daxil olduğuna əmin olsun.

٢. İki ədalətli şəxs namaz vaxtının daxil olduğunu söyləsin.

٣. Etimadlı və namaz vaxtlarını bilən bir azançı azan versin.

Diqqət:

- Qeyd olunan bu üç yoldan biri ilə namaz vaxtının daxil olduğu məlum olmasa, namaza başlamaq olmaz.[٢]
- Əgər namazqılan şəxs namaz vaxtının daxil olduğuna əmin olub namaza başlasa, lakin namazda vaxtın daxil olub-olmaması barədə şəkk etsə, namazı batildir. Amma əgər namaz əsnasında vaxtın daxil olduğuna əmin olub namazdan qıldığı hissənin namaz vaxtında olub-olmaması barədə şəkk etsə, namazı düzdür.[١]

٢. Namaz vaxtının daxil olduğuna namazqılnaın yəqinliyi olmalıdır. Odur ki:

---

[١] Şəri suallara cavab, ٣٦٣-cü sual

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٦١-ci məsələ

١) Əgər kütləvi informasiya vasitələrinin namaz vaxtını bir gün öncədən elan etməsi namazqılan şəxsdə yəqinlik yaradırsa, onlara etimad edə bilər.[٢]

٢) Əgər azan çəkilən kimi namazqılan namaz vaxtının daxil olduğuna əmin olsa, azanın sonuna qədər gözləmək lazım deyil və o, namaza başlaya bilər.[٣]

٣. Hər bir namazqılan yaşadığı məntəqənin şəri vaxt ölçülərinə riayət etməlidir.[٤]

٤. Əgər iki müxtəlif məntəqədə məsələn, zöhr namazının vaxtı arasında ٢٥ dəqiqə fərq varsa, bu o demək deyil ki, sübh və məğrib namazlarının vaxtı arasında da ٢٥ dəqiqə fərq olacaqdır (٢٥ dəqiqədən bir qədər az və ya çox ola bilər). Əlbəttə şəfəqin doğması, zöhrün başlanması və günəşin qürub etməsi kimi şəri vaxtlar adətən müxtəlif məntəqələrdə fərqlidir.[٥]

٥. Əgər namaz vaxtının qurtarmasına bir rəkət namaz qılmaq miqdarında vaxt qalıbsa, namazı "əda" (vaxtında qılmaq) niyyətilə qılmaq lazımdır. Lakin qəsdən namazı bu vaxta qədər yubatmaq olmaz.

Amma əgər insan şəkk etsə ki, bir rəkət namaz qılmaq qədər vaxt qalıb, yoxsa qalmayıb, namazını "ma fiz-zimmə" niyyətilə qılmalıdır.[٦]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٦٢-ci məsələ

[٢] Şəri suallara cavab, ٣٥٩-cu sual

[٣] Şəri suallara cavab, ٣٦٠-cı sual

[٤] Şəri suallara cavab, ٣٥٧-ci sual

[٥] Şəri suallara cavab, ٣٥٥-ci sual

[٦] Şəri suallara cavab, ٣٤٩-cu sual

٦. Zöhr və əsr, yaxud məğrib və işa namazlarının vaxtı daxil olduqdan sonra namazqılan hər iki namazı həm fasiləsiz bir-birinin ardınca, həm də hər bir namazı özünün fəzilətli vaxtında qıla bilər.[١]

٧. Namazı vaxtın əvvəlində qılmaq müstəhəbdir və İslam dinində namazı vaxtın əvvəlində qılmaq təkid olunmuşdur. Əgər namazqılan şəxs namazı vaxtın əvvəlində qıla bilməsə, bacardıqca təxirə salmamalıdır. Bir şərtlə namazı təxirə salmaq olar ki, onun təxirə salınması vaxtında qılınmasından daha yaxşıdır, məsələn, camaat namazı qılmaq üçün namazı təxirə salmaq.[٢]

٨. Əgər borc verən şəxs borcunu istəsə və namaz qılmağa hazırlaşan borclunun borcunu qaytarmağa imkanı olsa, birinci borcunu verməli, sonra namazını qılmalıdır. Yaxud bu kimi digər təcili işlər ortaya çıxdıqda, belə işləri namazdan qabaq yerinə yetirə bilər. Əlbəttə, əgər namaz vaxtı dar olsa, birinci namazı qılmaq lazımdır.[٣]

٥. Namazın tərtibi

١. Zöhr və əsr namazları tərtiblə qılınmalıdır, yəni birinci zöhr namazını, sonra əsr namazını qılmaq lazımdır. Eləcə də məğrib və işa namazlarında tərtibə riayət olunmalıdır: birinci məğrib, sonra işa namazı qılınır. Deməli, əgər bilərəkdən əsr namazı zöhrdən qabaq və işa namazı məğribdən qabaq qılınsa, namaz batildir. [٤]

---

[١] Şəri suallara cavab, ٣٥٣-cü sual

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٦٤-cü məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٦٥-ci məsələ

[٤] Şəri suallara cavab, ٣٦١-ci sual, Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٥٤-cü məsələ

٢. Hər kim səhvən və ya unudaraq namazların tərtibini pozsa, məsələn əsri zöhrdən qabaq qılsa və səhvini namazı qılıb qurtardıqdan sonra başa düşsə, qıldığı namaz düzdür.[١]

٣. Hər kim zöhr namazını niyyət edib namaza başlasa və namaz əsnasında zöhr namazını qıldığı yadına düşsə, namazı kəsməli və sonra əsr namazını qılmağa başlamalıdır. Məğrib və işa namazlarında da qayda belədir.[٢]

٤. Hər kim zöhr namazını qıldığını güman edib əsr namazını qılmağa başlasa və namaz əsnasında zöhr namazını qıldmadığı yadına düşsə, əgər zöhr və əsr namazlarının müştərək vaxtıdırsa, həmin şəxs dərhal niyyətini zöhr namazına çevirib namazı tamamlamalıdır. Sonra əsr namazını qılmalıdır. Lakin əgər belə bir çaşqınlıq zöhr namazının xüsusi vaxtında, yəni zöhr namazının vaxtı daxil olduğu andan etibarən dörd rəkət namaz qılmaq qədər vaxt ərzində baş versə, vacib ehtiyata görə niyyəti zöhr namazına çevirib namazı tamamlamaq, sonra hər iki namazı tərtiblə yerinə yetirmək lazımdır. Məğrib və işa namazlarında da qayda belədir.[١]

SUALLAR:

١. Namaz vaxtının daxil olması hansı yollarla sübuta yetir?

٢. Azanın çəkilməsi namaz vaxtının başlanması deməkdir? Yoxsa azan qurtardıqdan sonra namaza başlamaq lazımdır?

---

[١] Şəri suallara cavab, ٣٦١-ci sual

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٥٥-ci məsələ

٣. Əgər iki müxtəlif məntəqədə məsələn, zöhr namazının vaxtı arasında ٢٥ dəqiqə fərq varsa, sübh və məğrib namazlarının vaxtı arasında da ٢٥ dəqiqə fərq olacaqdır?

٤. Namaz vaxtının qurtarmasına nə qədər vaxt qaldıqda, namazı "əda" (vaxtında qılmaq) niyyətilə qılmaq lazımdır?

٥. Hər kim zöhr namazını niyyət edib namaza başlasa və namaz əsnasında zöhr namazını qıldığı yadına düşsə, nə etməlidir?

٦. Əgər namazqılan işa namazini qılarkən məğrib namazını qılmadığı yadına düşsə, nə etməlidir?

---

١ Şəri suallara cavab, ٣٦٤-cü sual, Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٥٦-cı məsələ

OTUZ YEDDİNCİ DƏRS

YOVMİYYƏ NAMAZLARI (٣)

Azan və iqamə

٦. Azan və iqamə

١. Günün vacib namazlarından qabaq azan və iqamə oxumaq müstəhəbdir. Camaatla qılınan sübh və məğrib namazlarınında isə azan və iqamənin oxumasına təkid olunmuşdur.

Lakin yovmiyyə namazlardan qeyri digər vacib namazlarda, məsələn ayət namazında azan və iqamə oxumaq fiqhi mənbələrdə qeydə alınmışdır.[١]

٢. Azan bu ١٨ cümlədən ibarətdir:

١. "Allahu Əkbər": ٤ dəfə
٢. "Əşhədu ənla ilahə illəllah": ٢ dəfə
٣. "Əşhədu ənnə Muhəmmədən rəsulullah": ٢ dəfə
٤. "Həyyə ələs-səlah": ٢ dəfə
٥. "Həyyə ələl-fəlah": ٢ dəfə
٦. "Həyyə əla xəyril əməl": ٢ dəfə
٧. "Allahu Əkbər": ٢ dəfə
٨. "La ilahə illəllah": ٢ dəfə[٢]

٣. İqamə isə ١٧ cümlədən ibarətdir və azandan olan fərqləri bunlardır:

١) Əvvəldə ٤ əvəzinə ٢ dəfə "Allahu Əkbər" deyilir.

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢١٥-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢١٦-cı məsələ

٢) Sonunda ٢ əvəzinə ١ dəfə “La ilahə illəllah” deyilir.

٣) “Həyyə əla xeyril əməl” cümləsindən sonra ٢ dəfə “Qəd qamətis-səlah” cümləsi əlavə olunur.[١]

Azan və iqaməyə aid bir neçə məsələ:

- “Əşhədu ənnə Əliyyən vəliyyullah” (yəni, şəhadət verirəm ki, Əli, Allahın xəlifəsidir) cümləsi azan və iqamənin tərkib hissəsi deyil və bu cümləni azan və iqamədə demək bəyənilir, hətta mühüm sayılır. Bu cümlə isə sırf “qürbətən iləllah” niyyəti ilə deyilməlidir. Yəni, azan və iqamənin tərkib hissəsi niyyətində demək olmaz.[٢]
- “Həyyə ələs-sələti” cümləsində “sələt” sözünü vəqf etdikdə “t” səsi “h” səsi kimi oxunmalıdır, yəni “sələh” (Həyyə ələs-sələh).[٣]
- Günün vacib namazlarının vaxtı daxil olduqda azanın çəkilməsi və bu azanı eşidənlərin onu uca səslə təkrar etməsi şəriətdə təkid olunan müstəhəb əməllərdəndir.[٤]
- Ətrafdakılara çətinlik törətmədiyi təqdirdə camaatın get-gəl etdiyi yollarda toplu halında azan deməyin maneəsi yoxdur.[٥]
- Qonşular etiraz etsələr belə evin damının üstündə adi qaydada azan çəkməyin, xüsusilə də sübh namazının azanını çəkmyin heç bir eybi yoxdur.[٦]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢١٦-cı məsələ

[٢] Şəri suallara cavab, ٤٥٦-cı sual, Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢١٧-ci məsələ

[٣] Şəri suallara cavab, ٤٦٢-ci sual

[٤] Şəri suallara cavab, ٤٥١-ci sual

[٥] Şəri suallara cavab, ٤٥١-ci sual

[٦] Şəri suallara cavab, ٤٥٢-ci sual

- Sübh namazı vaxtı – vaxtın daxil olduğunu elan etmək üçün – səs ucaldıcı vasitəsilə adi qaydada azan sədalarını yayımlamağın heç bir maneəsi yoxdur. Lakin əgər məscidin səsucaldanı vasitəsilə Quranın qiraətinin, duanın və s.-in yayımlanması məscidin qonşuluğunda yaşayan sakinlərin narahatçılığına bais olsa, bu işdən çəkinmək lazımdır.[١]
- Kişinin qadının çəkdiyi azanla kifayətlənməsi işkallıdır. Yəni, əgər kişi, qadının çəkdiyi azanı eşitsə, vacib ehtiyata görə azan onun boynundan götürülmür.[٢]

SUALLAR:

١. Azan və iqamənin hökmü nədir?

٢. Azanın iqamə ilə fərqi nədir?

٣. Azan və iqamədə İmam Əlinin (ə) xəlifəliyinə şəhadət vermək vacibdirmi?

٤. "Həyyə ələs-sələti" cümləsində "sələt" sözünü vəqf etdikdə "t" səsi necə səslənməlidir?

٥. Ətrafdakılara çətinlik törətmədiyi təqdirdə camaatın get-gəl etdiyi yollarda toplu halında azan demək olarmı?

٦. Kişi qadının çəkdiyi azanla kifayətlənə bilərmi?

---

[١] Şəri suallara cavab, ٤٥٤-cü sual

[٢] Şəri suallara cavab, ٤٥٥-ci sual

OTUZ SƏKKİZİNCİ DƏRS

YOVMİYYƏ NAMAZLARI (٤)

Namazın vacib əməlləri (١)

١. Namazın vacib əməlləri

Namazın vacib əməllərinin sayı ١١-dir:

١. Niyyət
٢. Təkbirətul-ehram
٣. Qiyam
٤. Qiraət
٥. Rüku
٦. Səcdə
٧. Zikr
٨. Təşəhhüd
٩. Salam
١٠. Tərtib
١١. Muvalat[١]

Diqqət:

- Namazın vacib əməllərindən beşi "rükn" sayılır. Yəni, əgər bu əməllər namazda yerinə yetirilməsə, yaxud göstərilən miqdardan artıq yerinə yetirilsə, hətta səhvən və unutqanlıq üzündən olsa belə namaz batildir (Lakin namazın qeyri-rükn vacib əməlləri əgər bilərəkdən azaldılıb-çoxaldılsa, namaz batildir, səhvən olarsa, namaz düzdür. Məsələn, namazın qiraəti.).[٢]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢١٨-ci məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢١٩-cu məsələ

- Namazın rüknləri
  - ١. Niyyət
  - ٢. Təkbirətul-ehram
  - ٣.Qiyam (Təkbirətul-ehram deyiləndə və rükuya gedəndə)
  - ٤. Rüku
  - ٥. İki səcdə[١]

١. Niyyət.

١) Niyyətin mənası və hökmü:

Niyyət, namazın vacib əməllərindən olub namazı Allahın əmrinə itaət məqsədilə qilmaqdır.[٢]

Diqqət:

- Namazın vacib əməllərindən sayılan niyyət, namazı Allaha xatir qılmaq məqsədində olmaqdır. Namaza başlayarkən bu məqsədi zehindən keçirmək və ya dilə gətirməyə ehtiyac yoxdur. Məsələn, namazqılan belə desin: dörd rəkət zöhr namazı qılıram qürbətən iləllah.[٣]
- Namazqılan şəxs hansı namazı qıldığını müəyyən etməlidir. Beləliklə, əgər insan niyyətində dörd rəkət namaz qılmağı tutsa, lakin zöhr, yoxsa əsr namazı olduğunu müəyyənləşdirməsə, namazı batildir.[٤]
- İnsan, Aləmlərin Rəbbinin əmrinə itaət məqsədilə namaz qılmalıdır. Odur ki, əgər riyakarlıq etsə, yəni, özünü dindar kimi göstərmək məqsəilə namaz qılsa, namazı batildir.[٥]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢١٩-cu məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢١٨ və ٢٢٠-ci məsələlər
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٢٠-ci məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٢١-ci məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٢٠ və ٢٢٢-ci məsələlər

٢. Niyyəti döndərmək:

Niyyəti döndərmək

- **Vacib olan hallar**
  - Əsr namazından zöhr namazına döndərmək: əgər əsr namazının xüsusi vaxtından öncə namazqılan namaz əsnasında zöhr namazını qılmadığını xatırlasa
  - İşa namazından məğrib namazına döndərmək: işa namazının xüsusi vaxtından qabaq namaz əsnasında məğrib namazını qılmadığını xatırlasa
  - İki qəzaya getmiş namazı qılarkən namazların tərtibinə riayət etmək şərtdir (məsələn, zöhr və əsr namazlarının qəzası) və bu halda birinci namazı qoyub ikinci namazı qılan şəxs namaz əsnasında niyyətini birinci namaza döndərməlidir.
- **Müstəhəb olan hallar**
  - Namazın fəzilətli vaxtını əldən verməmək şərtilə əda namazının (öz vaxtında qılınan namaz) niyyətini vacib qəza namazına döndərmək.
  - Camaat namazının savabını əldə etmək üçün (yəni, namazı camaatla qılmaq üçün) qıldığı vacib namazın niyyətini qəzaya gedən vacib namaza döndərmək.
  - Cümə gününün zöhr namazının niyyətini nafilə namazına döndərmək: Belə ki, namazqılan şəxs unudaraq Həmddən sonra Cümə surəsinin əvəzinə digər bir surəni, yaxud daha çox hissəsini oxumuşdur. Müstəhəbdir ki, bu yarıya qədər, şəxs, vacib namazın niyyətini nafilə namazına döndərsin və sonra Zöhr namazına başlayıb Həmddən sonra Cümə surəsini oxusun.

SUALLAR:

١. ***Namazın vacib əməllərini sadalayın.***

٢. ***Namazın rüknləri ilə qeyri-rüknləri arasında hansı fərq var?***

٣. ***Namazın rüknləri hansılardır?***

٤. ***Niyyəti dilə gətirmək və ya zehindən keçirmək lazımdırmı?***

٥. ***Hansı hallarda namazın niyyətini döndərmək vacibdir?***

٦. ***Hansı hallarda namazın niyyətini döndərmək müstəhəbdir?***

OTUZ DOQQUZUNCU DƏRS

YOVMİYYƏ NAMAZLARI (٥)

Namazın vacib əməlləri (٢)

٢. Təkbirətul-ehram.

١) Təkbirətul-ehramın mənası və hökmü:

Təkbirətul-ehram namazın vacib əməllərindəndir və namazın başlanğıcında deyilən "Allahu Əkbər"dir.[١]

Diqqət:

- Təkbirətul-ehramı səhvən və ya qəsdən deməmək, namazın batil olmasına səbəb olur. Həmçinin əgər insan namaza başlayarkən təkbirətul-ehram niyyətilə düzgün şəkildə "Allahu Əkbər" desə və bir qədər sonra, yaxud fasiləsiz olaraq istər səhvən, istərsə də qəsdən yenidən həmin niyyətlə "Allahu Əkbər" desə, onun namazı batildir.[٢]

٢) Təkbirətul-ehramın vacibatları:

١. Təkbirətul-ehramı "tələffüz etmək" lazımdır. Bu o deməkdir ki, əgər namazqılan şəxsin qulağı ağır eşitmirsə və ətrafda da səs-küy yoxdursa, özü dediyi sözü eşitməlidir.[١]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢١٨ və ٢٢٣-cü məsələlər

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٢٤-cü məsələ

٣) Təkbirətul-ehramda şəkk

Təkbirətul-ehramda şəkk

- İnsan şəkk etsə ki, təkbirətul-ehram deyib, yoxsa deməyib
  - Qiraətə başlayıbsa, şəkkinə etina etməməli və namazını davam etdirməlidir.
  - Qiraətə başlamayıbsa, təkbirətul-ehram deməlidir.
- İnsan təkbirətul-ehramı dedikdən sonra onu düzgün tələffüz edib-etməməsi barədə şəkk etsə, şəkkinə etina etməməlidir.[١]

٣. Qiyam

١) Qiyamın növləri:

Vacib qiyam

- Rükn
  - Təkbirətul-ehram deyilən vaxt
  - Rükuya gedən vaxt
- Qeyri-rükn
  - Qiraət vaxtı
  - Rükudan qalxdıqda

١. Heç bir üzrü olmayan və ayaq üstə namaz qıla bilən şəxs, namazı başlayandan rükuya gedənə qədər ayaq üstə dayanmalıdır. Həmçinin rükudan sonra səcdəyə getməmişdən öncə ayaq üstə dayanmaq vacibdir. Bu hallarda qiyamı bilərəkdən tərk etmək, namazın batil olmasına səbəb olur.[٢]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٢٦-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٢٩-cu məsələ

٢. Təkbirətul-ehram deyilən vaxt və qiraətdən sonra rükuya getməmişdən öncə olan qiyam rükndur. Yəni, hətta səhvən və ya unudularaq yerinə yetirilməsə, namaz batil olur.[١]

Diqqət:

- Əgər namazqılan rükunu yerinə yetirməyi unudub Həmd və Surəni oxuduqdan sonra əyləşsə və bu vaxt rükunu yerinə yetirmədiyi yadına düşsə, ayağa qalxmalı və sonra rükuya getməlidir. Deməli, əgər həmin şəxs, ayağa qalxmadan elə oturduğu yerdən rüku halı alsa, namazı batildir.[٢]

٢) Qiyamın vacibləri:

Namazqılan qiyam halında bədənini hərəkət etdirməməli, heç bir tərəfə əyilməməli və heç yerə söykənməməlidir. Əlbəttə əgər çarəsizlikdən, səhvən və ya unudaraq etsə, maneəsi yoxdur.[٣]

Diqqət:

- Əgər insan namaz halında bir qədər önə və ya geriyə, yaxud sağa və ya sola hərəkət etmək istəsə, hərəkət etdiyi anda zikri deməməlidir (yəni, namazın sözlərini deməyi dayandırmalıdır).[١]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٣٠-cu məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٣١-ci məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٣٢-ci məsələ

٣) Qiyamın müstəhəb əməlləri:

Qiyamın bir sıra müstəhəb əməlləri:

١. Bədəni düz saxlamaq
٢. Çiyinləri sallamaq
٣. Əlləri ayaqların üstünə qoymaq
٤. Əl barmaqları bir-birinə bitişdirmək
٥. Səcdə məkanına baxmaq
٦. Bədənin ağırlığını iki ayağın üstünə bərabər şəkildə salmaq
٧. Xüzu və xüşu halında olmaq
٨. Ayaqların birini irəli, digərini geri qoymamaq[٢]

٤) Qiyamın əhkamı:

١. Əgər insan ayaq üstə dayanıb namaz qılmağa qadir deyilsə, oturan halda namaz qılmalıdır. Lakin əgər bir şeyə söykənib ayaq üstə dayana bilərsə, belə edib ayaq üstə namaz qılmalıdır.[٣]

٢. Əgər insan oturan halda belə namaz qılmağa qadir deyilsə, uzanan halda namaz qılmalıdır. Vacib ehtiyata görə əgər bacarırsa üzü və bədəni qibləyə doğru sağ tərəfi üstə uzanmalıdır. Sağ tərəfi üstə uzana bilməsə, sol tərəfi üstə deyilən qaydada uzanmalıdır. Əgər sol tərəfi üstə də uzana bilməsə, ayaqlarının altı qibləyə doğru arxası üstə uzanmalıdır.[٤]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٣٢-ci məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٤١-ci məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٤١-ci məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٣٥-ci məsələ

٣. Oturan halda namaz qılan şəxs əgər Həmd və Surəni oxuduqdan sonra ayağa qalxıb rükuya gedə bilərsə, qalxmalı və ayaq üstə ikən rükuya getməlidir.[١]

٤. Uzanan halda namaz qılan şəxs əgər namaz əsnasında zəhmətə düşmədən əyləşə və ya ayağa qalxa bilərsə, bacardığı qədər oturan halda və ya ayaq üstə dayanıb namaz qılmalıdır.[٢]

٥. Namazı ayaq üstə qılmağa qadir olan şəxs, əgər ayaq üstə dayanmaq nəticəsində xəstələnəcəyindən və ya başqa bir çətinliyə düşəcəyindən qorxsa, oturan halda namaz qıla bilər. Oturan halda da əgər belə bir qorxu onda yaransa, uzanan halda namaz qıla bilər.[٣]

٦. Namaz vaxtının axırında ayaq üstə namaz qıla biləcəyini güman edən şəxs, vacib ehtiyata görə o vaxtadək səbr etməlidir. Lakin əgər namaz vaxtının əvvəlində müəyyən bir üzrə görə namazını oturan halda qılsa və namaz vaxtının axırınadək üzrü aradan qalxmasa, qıldığı namaz düzdür və yenidən qılmaq lazım deyildir.[٤]

٧. Namaz vaxtının əvvəlində ayaq üstə namaz qılmağa qadir olmayan şəxs, əgər namaz vaxtının axırınadək ayaq üstə namaz qıla bilməyəcəyinə əmin olsa, lakin namaz vaxtı qurtarmamış ayaq üstə namaz qılmağa qadir olsa, namazını ayaq üstə yenidən qılmalıdır.[١]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٣٦-cı məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٣٧-ci məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٣٨-ci məsələ

[٤] Şəri suallara cavab, ٤٥٧-ci sual, Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٣٩-cu məsələ

SUALLAR:

١. Əgər Təkbirətul-ehram ərəbcə düzgün tələffüz edilməsə, namaz düzdürmü?

٢. Əgər namazqılan şəkk etsə ki, təkbirətul-ehramı deyib, yoxsa deməyib, nə etməlidir?

٣. Qiyam neçə qismə ayrılır?

٤. İnsan namazda bir qədər önə və arxaya, sağa və ya sola hərəkət edə bilərmi?

٥. Qiyamın müstəhəb əməllərini sadalayın.

٦. Namaz vaxtının əvvəlində ayaq üstə namaz qılmağa qadir olmayan şəxs namazını oturan halda qıla bilərmi?

---

[١] Şəri suallara cavab, ٤٥٧-ci sual, Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٤٠-cı məsələ

QIRXINCI DƏRS

YOVMİYYƏ NAMAZLARI (٦)

Namazın vacib əməlləri «٣»

٤. Qiraət

١) Qiraət zamanı oxunanlar:

Günün vacib namazlarında qiraət	Birinci və ikinci rəkətdə: Həmd və vacib ehtiyata görə, kamil bir surə. Üçüncü və dördüncü rəkətdə: Təkcə Həmd, ya bir dəfə Təsbihati-ərbəə. Lakin müstəhəb ehtiyata görə, üç dəfə Təsbihati-ərbəəni oxumaq.

١. Günün vacib namazlarının birinci və ikinci rəkətində Təkbirətul-ehramdan sonra Fatihə surəsi və ondan sonra Qurani-Kərimin surələrindən biri vacib ehtiyata görə kamil surətdə oxunmalıdır. Surədən bir və ya bir neçə ayə oxumaq kifayət etmir.[١]

٢. Yovmiyyə namazlarının üçüncü və dördüncü rəkətində ya təkcə Fatihə surəsini, ya da Təsbihati-ərbəəni, yəni "Subhanəllahi vəl-həmdu lillahi və la ilahə illəllahu vallahu əkbər", oxumaq olar.[٢]

٢) Birinci və ikinci rəkətdə qiraətin əhkamı:

١. "Fil" və "İlaf" surələinin ikisi bir surə hökmündədirlər və Həmddən sonra onlardan təkcə birini oxumaq kifayət etmir. Həmçinin "Vəzzuha" və "Ələm nəşrəh" surələri də belədir.[١]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٤٢-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٦٢-ci məsələ

Diqqət:

- Hər kim bu hökmü bilmədən “Fil” və “İnşirah” surələrini Həmddən sonra təklikdə oxusa, əgər hökmü öyrənməkdə səhlənkarlıq göstərmə-yibsə, qıdığı namazlar düzdür.[٢]

٢. Vacib yovmiyyə namazlarında Həmd və Surəni oxuduqdan sonra Quran oxumaq niyyətilə bir sıra ayələri oxumağın eybi yoxdur.[٣]

٣. Əgər namaz vaxtı dar olsa, yaxud namazqılan qorxsa ki, surəni oxuyacağı təqdirdə oğrunun, yırtıcı bir heyvanın və ya başqa bir şeyin ona ziyanı dəyəcəkdir, surəni oxumamalıdır.[٤]

٤. Əgər namazqılan şəxs səhvən Surəni Həmddən qabaq oxusa və rükuya getməmişdən öncə səhvini başa düşsə, Həmddən sonra yeni-dən bir surə oxumalıdır. Əgər surəni oxuyarkən öz səhvini başa düşsə, surəni kəsib Həmdi oxumalı və sonra surəni oxumalıdır.[٥]

٥. Əgər Həmd və Surəni oxumaq, yaxud onlardan birini oxumaq unudulsa və rükuda yada düşsə, namaz düzdür.[٦]

٦. Əgər namazqılan şəxs rükuya getməzdən öncə Həmd və Surəni, yaxud təkcə Surəni oxumadığını xatırlasa, onu oxumalı, sonra rükuya getməlidir.

Əgər Həmdi oxumayıbdırsa, Həmdi oxumalı və yenidən Surəni oxumalıdır. Həmçinin əgər əyilib rükuya çatmazdan öncə Həmd və

---

[١] Şəri suallara cavab, ٤٦٩-cu sual
[٢] Şəri suallara cavab, ٤٦٩-cu sual
[٣] Şəri suallara cavab, ٤٧٥-ci sual
[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٤٣-cü məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٤٤-cü məsələ
[٦] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٤٥-ci məsələ

Surəni, ya onların hər ikisini oxumadığını xatırlasa, qalxmalı və onları oxumalıdır.[١]

٧. Vacib namazlarda vacib səcdəsi olan surələri oxumaq olmaz.

Əgər bilərəkdən və ya səhvən bu surələrdən biri oxunsa, səcdə ayəsini oxuduqda səcdəyə getmək, sonra ayağa qalxıb surəni tamamlamaq və namazı qılmaq lazımdır.

Amma əgər namazqılan şəxs səcdə ayəsini oxumamışdan qabaq səhvini başa düşsə, vacib ehtiyata görə surəni kəsməli, digər bir surəni oxumalı və namazı qılıb qurtardıqdan sonra yenidən qılmalıdır.[٢]

٨. Əgər insan, namaz əsnasında səcdə ayəsini eşitsə, namazı düzdür və ayəni eşitdikdən sonra səcdəyə getmək əvəzinə səcdəni işarə ilə göstərməlidir.[٣]

٩. Əgər namazqılan şəxs Həmddən sonra İxlas və ya Kafirun surəsini oxumağa başlasa, onu kəsib başqa bir surə oxuya bilməz. Lakin əgər Cümə namazında unudaraq Cümə və Munafiqun surələrinin yerinə İxlas və ya Kafirun surələrindən birini oxusa, onları kəsib Cümə və Munafiqun surəsini oxuya bilər.[٤]

١٠. Əgər namazda İxlas və Kafirun surələrindən qeyri bir surə oxunsa, yarıdan çoxu oxunmadığı halda bu surəni kəsib digər bir surəni oxumaq olar.[٥]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٤٦-cı məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٤٧-ci məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٤٨-ci məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٥٠-ci məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٥١-ci məsələ

١١. Əgər namazqılan şəxs oxudğu surənin bir hissəsini untsa, yaxud vaxt darlığına və ya başqa bir səbəbə görə əlacsız qalıb onun tamamlaya bilməsə, o surəni kəsməli və başqa bir surə oxumalıdır. Bu halda surənin yarısının oxunub-oxunmamasının, yaxud İxlas və ya Kafirun surələri olub-olmamasının fərqi yoxdur.[١]

١٢. Müstəhəb namazlarda surəni oxumaq lazım deyildir. Hətta bu müstəhəb namaz nəzr vasitəsilə vacib olsa da. Lakin əgər müstəhəb bir namazda müəyyən bir surəni oxunmaq qeyd olunubsa, məsələn, valideyn üçün qılınan namaz, o namazın qaydasına əməl etmək istəyən şəxs həmin surəni oxumalıdır.[٢]

٣) Üçüncü və dördüncü rəkətdə qiraətin əhkamı:

١. Namazın üçüncü və dördüncü rəkətində Təsbihati-ərbəəni bir dəfə demək kifayətdir. Ehtiyati-müstəhəbə görə üç dəfə deyilə bilər.[٣]

٢. Təsbihati-ərbəəni üç dəfə, yaxud üç dəfədən az və ya çox dediyinə tərəddüd edən şəxsə heç nə vacib olmur. Lakin əgər rükuya getməyib-dirsə, tərəddüd etdiyi sayların ən azını götürə və Təsbihati-ərbəəni təkrarlaya bilər, ta ki, bu zikri üç dəfə dediyinə əmin olsun.[٤]

٣. Namazın üçüncü və dördüncü rəkətində Təsbihati-ərbəəni oxumağa adət edən şəxs, Həmdi oxumağı qərara alsa, lakin qərarını unudub adəti üzrə Təsbihati-ərbəəni oxusa, namazı düzdür. Eynilə Həmdi

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٥٢-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٤٩-cu məsələ

[٣] Şəri suallara cavab, ٤٨٣-cü sual

[٤] Şəri suallara cavab, ٤٨٥-ci sual

oxumağa adət edən və Təsbihati-ərbəəni oxumağı qərara alan şəxsin hökmü belədir.[١]

٤. Əgər insan namazın üçüncü və dördüncü rəkətində qəflət üzündən Surəni də oxusa və namazı qılıb qurtardıqdan sonra səhvini başa düşsə, namazı düzdür və yenidən qılmağa ehtiyac yoxdur.[٢]

٥. Əgər namazqılan şəxs ayaq üstə ikən Həmd və ya Təsbihati-ərbəəni oxuduğuna şəkk etsə, onu oxumalıdır. Lakin əgər müstəhəb olan "istiğfar"ı (yəni, "əstəğfirullahə rəbbi və ətubu iləyh" cümləsi) dediyi zaman şəkk etsə ki, Təsbihati-ərbəəni oxuyub, yoxsa yox, onu oxumaq lazım deyildir.[٣]

٦. Əgər namazqılan üçüncü və dördüncü rəkətin rükusunda Həmdi və ya Təsihati-ərbəəni oxuduğuna şəkk etsə, öz şəkkinə etina etməməlidir. Lakin əgər rükuya əyilərkən rüku səviyyəsinə çatmamış şəkk etsə, vacib ehtiyata görə qalxmalı və Həmdi və ya Təsbihati-ərbəəni deməlidir.[١]

SUALLAR:

١. Günün vacib namazlarının qiraətində nə oxunur?

٢. Hər kim hökmü bilmədiyinə görə "Fil" və "İnşirah" surələrini Həmddən sonra təklikdə oxusa, nə etməlidir?

٣. Vacib namazlarda vacib səcdəsi olan surələri oxumağın hökmü nədir?

---

١ Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٦٤-cü məsələ

٢ Şəri suallara cavab, ٤٧٠-ci sual

٣ Şəri suallara cavab, ٤٦٦-cı sual

٤. Müstəhəb namazlarda Həmddən sonra Surə oxunurmu?

٥. Təsbihati-ərbəəni üç dəfə, yaxud üç dəfədən az və ya çox dediyinə tərəddüd edən şəxsin hökmü nədir?

٦. Əgər insan namazın üçüncü və dördüncü rəkətində qəflət üzündən Surəni də oxusa və namazı qılıb qurtardıqdan sonra səhvini başa düşsə, namazı yenidən qılmalıdır?

---

١ Şəri suallara cavab, ٤٦٧-ci sual

QIRX BİRİNCİ DƏRS

YOVMİYYƏ NAMAZLARI (٧)

Namazın vacib əməlləri «٤»

٤. Ucadan və ya ahəstə qiraət etmək (cəhr və ixfat):

- Cəhr və İxfat
  - Birinci və ikinci rəkətdə Həmd və Surəni oxuyarkən
    - Sübh, məğrib və işa namazlarında
      - Namazqılan kişidirsə, ucadan oxumalıdır.
      - Namazqılan qadındırsa, ucadan və ya ahəstə oxuya bilər. Lakin əgər səsini naməhrəm eşidirsə, ahəstə oxumağı yaxşıdır
    - Zöhr və əsr namazlarında "Bismillahir rəhmanirrəhim"dən başqa ahəstə oxunmalıdır. İstər namazqılan kişi olsun, istər qadın.
  - Üçüncü və dördüncü rəkətlərdə: həm qadın, həm də kişi istər Təsbihati-ərbəəni, istərsə də Həmdi ahəstə oxumalıdır. Namazı tək qıldığı halda "Bismillahir rəhmanir rəhim"i ucadan deyə bilər. Hərçənd ehtiyati- müstəhəbə görə ahəstə deməlidir. Camaat namazında bu ehtuyat vacibdir.

١. Kişilərə sübh, məğrib və işa namazlarının Həmd və Surəsini ucadan oxumaq, zöhr və əsr namazlarının Həmd və Surəsini isə ahəstə oxumaq vacibdir. Qadınlar da zöhr və əsr namazlarının Həmd və Surəsini ahəstə oxumalıdırlar, lakin sübh, məğrib və işa namazlarının Həmd və

Surəsini həm ucadan, həm də ahəstə oxuya bilərlər. Əgər naməhrəm səslərini eşidərsə, ahəstə oxusalar yaxşıdır.[١]

٢. Namazın üçüncü və dördüncü rəkətlərində Təsbihati-ərbəəni və ya Fatihə surəsini ahəstə oxumaq həm qadına, həm də kişiyə vacibdir. Əgər bu rəkətlərdə Fatihə surəsini oxusa, namazı tək qıldığı halda "Bismillahir-rəhmanir-rəhim" ayəsini ucadan deyə bilər, hərçənd müstəhəb ehtiyata görə, ahəstə deməlidir. Camaat namazında isə vacib ehtiyata görə bu ayəni də ahəstə deməlidir.[٢]

Diqqət:

- Göründüyü kimi sübh, məğrib və işa namazlarının birinci və ikinci rəkətlərində Həmd və Surəni ucadan oxumaq, zöhr və əsr namazlarında Həmd və Surəni ahəstə oxumaq, həmçinin üçüncü və dördüncü rəkətlərdə Həmdi və ya Təsbihati-ərbəəni ahəstə oxumaq vacibdir. Lakin namazqılan yovmiyyə namazlarının digər vacib zikrlərini, məsələn, rükunun və səcdənin zikrlərini, təşəhhüdü, salamları və s. həm ucadan, həm də də ahəstə oxuya bilər.[٣]
- Vacib namazlar istər vaxtında qılınsın (əda olsun), istərsə də qəza qılınsın – qəza namazı ehtiyata görə qılınsa belə – qiraətin ucadan və ahəstə oxunmasına riayət olunmalıdır.[٤]
- O yerlərdə ki, namazın qiraəti ucadan oxunmalıdır qəsdən ahəstə oxunsa, yaxud əksinə, ahəstə oxunmalıdır, qəsdən ucadan oxunsa,

---

[١] Şəri suallara cavab, ٤٥٨, ٤٥٩, ٤٦٠, ٤٦١ və ٤٧١-ci -ci suallar, Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٥٣ və ٢٥٤-cü məsələlər

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٦٣-cü məsələ

[٣] Şəri suallara cavab, ٤٥٧-ci sual

[٤] Şəri suallara cavab, ٤٥٩ və ٤٦١-ci sual

namaz batildir. Lakin əgər namazqılan hökmü unutsa və ya bilməsə, namazı düzdür. Həmçinin Həmd və Surəni oxuyarkən səhvini başa düşsə (yəni, ucadan oxumalıdırsa, ahəstə oxumuşdur. Yaxud ahəstə oxumalıdırsa, ucadan oxumuşdur), qaydaya zidd oxuduğu miqdarı yenidən qayda üzrə oxumaq lazım deyildir.[١]

- Hər kim Həmd və Surəni oxuyarkən səsini həddən artıq ucaltsa, sanki fəryad çəkir, namazı batildir.[٢]

٥) Qiraətin vacibatları:

١. Qiraət zamanı sözləri tələffüz etmək vacibdir. Odur ki, sözləri tələffüz etmədən ürəkdə oxumaq, yəni sözləri ürəkdən keçirmək kifayət deyildir. Qiraətdə meyar budur ki, insan, dildə tələffüz etdiyini – əgər qulağı ağır eşitmirsə və ya ətrafda səs-küy yoxdursa – özü eşitsin.[٣]

Diqqət:

- Anadangəlmə danışıq qabiliyyətini itirən lakin digər duyğuları sağlam olan şəxs, namazını əl işarələri ilə qıla bilər və qıldığı namaz düzdür.[٤]

٢. Qiraət, düzgün və səhvsiz olmalıdır. Əgər bir şəxs heç cür onu düzgün şəkildə öyrənə bilmirsə, bacardığı kimi qiraət etməlidir. Ehtiyati-müstəhəbə görə belə şəxs, camaat namazı qılmalıdır.[١]

---

[١] Şəri suallara cavab, ٤٥٨ və ٤٥٩-cu suallar, Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٥٥-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٥٦-cı məsələ

[٣] Şəri suallara cavab, ٤٦٨-ci sual, Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٢٦-cı məsələ

[٤] Şəri suallara cavab, ٤٧٩-cu sual

Diqqət:

- Həmd və Surəni, həmçinin namazın digər sözlərini yaxşı bilməyən, lakin öyrənməyə imkanı olan şəxs, əgər namaz vaxtı genişdirsə, bu sözləri öyrənməlidir. Lakin əgər vaxt dardırsa, vacib ehtiyata görə imkan daxilində camaat namazı qılmalıdır.[٢]
- Düzgün qiraət ərəb dilinin qaydalarına riayət etmək və hərfləri məxrəcindən elə bir şəkildə tələffüz etməkdir ki, ərəblər onu düzgün tələffüz hesab etsinlər.[٣]
- Qiarətdə, təcvid qaydalarına riayət etmək şərt deyildir.[٤]
- Əgər namazqılan şəxs, Həmd və Surənin sözlərindən birini bilməsə, ya bilərəkdən bir sözü deməsə, ya bilərəkdən bir hərfin yerinə digər bir hərf desə, məsələn "zad" hərfinin yerinə "za" hərfini tələffüz etsə, yaxud da hərəkələri dəyişsə, hərfi təşdidli oxumasa, namazı batildir.[٥]
- Həmd və Surəni, həmçinin namazın digər sözlərini səhv oxuyan şəxs, məsələn "yuləd" sözünü "yulid" kimi oxuyan şəxs, əgər bilərəkdən səhv oxuyubdursa və ya cahili-müqəssidirsə (öyrənə bildiyi halda düzgün qiraəti öyrənməyibdir), qıldığı namazlar batildir. Əks təqdirdə, qıldığı namazlar düzdür. Bu şəxs əgər düzgün qiraət etdiyinə əmin

---

[١] Şəri suallara cavab, ٤٦٧ və ٤٦٨-ci suallar, Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٥٧-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٥٨-ci məsələ

[٣] Şəri suallara cavab, ٥٨٩-cu sual

[٤] Şəri suallara cavab, ٥٩١-ci sual

[٥] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٥٩-cu məsələ

olub namaz qılıbsa, qıldığı namazlar düzdür və yenidən qəzasını qılmaq lazım deyil.[١]

- "Maliki yəvmiddin" ayəsində "maliki" sözü "məliki" kimi də qiraət olunmuşdur. Odur ki, ehtiyat ünvanında bu sözün iki şəkildə oxunmasının eybi yoxdur.[٢]
- Əgər namazqılan şəxs, namazda qiraət zamanı bir ayəni digər ayəyə vəsl etmək (bitişdirmək) istəsə, ayənin sonuncu hərəkəsini tələffüz etməsi lazım deyildir. Məsələn, belə deyə bilər: "Maliki yəvmiddin iyyakə nəbudu və iyyakə nəstəin". Buna "sükunla vəsl" deyilir. Həmçinin ayəni təşkil edən sözlərin sonucu hərəkəsi barədə də hökm belədir. Hərçənd burada ehtiyati-müstəhəbə görə "sükunla vəsl" olunmasa yaxşıdır.[٣]
- Əgər namazqılan şəxs "ğəyril məğzubi ələyhim"i deyib dayansa, yəni, vəqf etsə, sonra "vələzzallin"i qiraət etsə, bir halda bu vəqf düzgün sayılar ki, yaranan fasilə cümlənin bütövlüyünə xələl gətirməsin.[٤]
- Əgər namazqılan bir ayəni oxuyub qurtardıqdan sonra onu düzgün oxuduğuna şəkk etsə, öz şəkkinə etina etməməlidir. Həmçinin ayədən bir cümləni oxuduqdan sonra onu düzgün oxuduğuna şəkk etsə, məsələn "iyyakə nəbudu"nu oxuduqdan sonra şəkk etsə, şəkkinə etina etməməlidir. Əlbəttə, bütün bu hallarda oxuduqlarından nəyinsə

---

[١] Şəri suallara cavab, ٤٧٦-cı sual
[٢] Şəri suallara cavab, ٤٦٣-cü sual
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٦١-ci məsələ
[٤] Şəri suallara cavab, ٤٦١-ci sual

düzgünlüyünə şəkk etsə, ehtiyat ünvanında yenidən oxumağının eybi yoxdur.[١]

٣. Həmd və Surə, həmçinin Təsbihati-ərbəə oxunulan zaman bədən hərəkətsiz olmalıdır. Əgər namazqılan bir qədər önə və ya geriyə, yaxud sağa və ya sola hərəkət etmək istəsə, hərəkət etdiyi an oxuduğu sözləri və zikrləri saxlamalıdır.[٢]

٦) Qiraətin bir sıra müstəhəb və məkruh əməlləri:

Qiraətin bir sıra müstəhəb əməlləri

١. Birinci rəkətdə Həmddən qabaq "Əuzu billahi minəş- şəytanir- racim" demək;
٢. Zöhr və əsr namazlarının birnci və ikinci rəkətlərində "Bismillahir-rəhmanir-rahim"i ucadan demək;
٣. Həmd və Surəni aram-aram və tələsmədən oxumaq;
٤. Hər ayənin sonunda vəqf etmək, yəni sonrakı ayəyə bitişdirməmək;
٥. Həmd və Surəni oxuyarkən ayələrin mənalarına diqqət etmək;
٦. Həmdi oxuduqdan sonra "Əlhəmdu lillahi rəbbil aləmin" demək; istər camaat namazında, istər də tək halda (furada) qılınan namazda.
İstər pişnamaz olsun, istərsə də iqtida edən.
٧. "İxlas" surəsini oxuduqdan sonra, ١, ٢ və ya ٣ dəfə "kəzalikə rəbbi" cümləsini demək;
٨. Həm Həmdi, həm də Surəni oxuduqdan sonra bir qədər dayanmaq, sonra namazı davam etdirmək;
٩. Üçüncü və dördüncü rəkətdə Təsbihati-ərbəəni dedikdən sonra Bağışlanma diləmək və demək: "Əs-təğfirullahə rəbbi və ətubu iləyh" Yaxud "Allahummməğfir li".

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٦٨-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٣٢-ci məsələ

Qiraətin bir sıra məkruh əməlləri .....

١. İxlas surəsini yovmiyyə namazlarında bir dəfə belə oxumamaq, məkruhdur.

٢. "İxlas" surəsindən savayı bir surəni hər iki rəkətdə təkrar oxumaq məkruhdur.[١]

SUALLAR:

١. Qadınlar sübh, məğrib və işa namazlarının Həmd və Surəsini ucadan oxuya bilərlərmi?

٢. Sübh namazının qəzasını qılan şəxs namazı ucadan qılmalıdır, yoxsa ahəstə?

٣. Əgər namaz ucadan oxunmalı idisə, lakin ucadan oxunmayıbsa, bu namazın hökmü nədir?

٤. Namazın sözlərini ata-anasının və ya müəlliminin öyrətdiyi kimi tələffüz edən şəxs sonradan bu sözləri səhv tələffüz etdiyini bilsə, qıldığı namazların hökmü nədir?

٥. Düzgün qiraətin meyarı nədir?

٦. "Sükunla vəsl" nə deməkdir və hökmü nədir?

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٧٠-ci məsələ

QIRX İKİNCİ DƏRS

YOVMİYYƏ NAMAZLARI (٨)

Namazın vacib əməlləri «٥»

٥. Rüku

١) Rükunun mənası və əhkamı:

Hər rəkətdə qiraətdən sonra bir rüku yerinə yetirmək vacibdir. Rüku əllər dizlərə çatanadək əyilmək deməkdir.

Diqqət:

- Əgər namazqılan şəxs rüku səviyyəsinə qədər əyilib dayandıqdan sonra qalxıb yenidən rüku niyyətilə əyilsə, namazı batildir (Çünki rüku rükndür və onu artırmaq namazı batil edir).[١]

٢) Rükunun vacibatları:

.....	١. O həddə qədər əyilmək lazımdır ki, əlləri dizlərə qoymaq mümkün olsun.
Rükunun vacibatları	٢. Zikr.
	٣. Rükunun zikrini dedikdə bədən hərəkətsiz olmalıdır.
	٤. Rükudan qalxıb ayaqüstə dayanmaq.
.....	٥. Vacib ehtiyata görə rükuda əlləri dizlərə qoymaq lazımdır.

I. O həddə qədər əyilmək lazımdır ki, əlləri dizlərə qoymaq mümkün olsun:

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٨١-ci məsələ

١) Namazqılan şəxs namazın hər rəkətində qiraətdən sonra o həddə qədər əyilməlidir ki, əllərini dizlərinə qoya bilsin. Əl barmaqlarının ucu belə dizlərinə çatsa, kifayətdir.[١]

٢) Vacib ehtiyata görə rükuda əlləri dizlərə qoymaq lazımdır.[٢]

٣) Əyilmək, rüku niyyətilə olmalıdır. Odur ki, əgər namazqılan şəxs başqa bir niyyətlə əyilsə, məsələn, yerdən bir şeyi götürmək niyyətilə əyilsə, bu əyilmə rüku sayılmır. Həmin şəxs qalxmalı və rüku niyyətilə əyilməlidir. Bu halda namaz batil olmur, çünki namazın rüknu artırılmayıbdır.[٣]

٤) Oturan halda namaz qılan şəxs, rüku zamanı üzü dizlərinin səviyyəsinə çatanadək əyilsə, kifayətdir.[٤]

II. Zikr:

Rükunun vacib zikri ١ dəfə "Subhanə rəbbiyəl əzimi və bihəmdih" və ya ٣ dəfə "Subhanəllah"dır. "Subhanəllah" yerinə ٣ dəfə "Əlhəmdu lillah" və ya "Allahu Əkbər" demək də kifayətdir.[٥]

III. Rükunun zikrini dedikdə bədən hərəkətsiz olmalıdır:

١. Rükunun vacib zikrini deyən zaman bədən hərəkətsiz olmalıdır. Hətta müstəhəb zikrlərini, məsələn "Subhanə rəbiyyəl əzimi və bihəmdih" zikrini təkrar edən və ya digər zikrlər vacib ehtiyata görə bədən hərəkətsiz olmalıdır.[٦]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٧١-ci məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٧٢-ci məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٧٣-cü məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٧٤-cü məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٧٥-ci məsələ
[٦] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٧٦-ci məsələ

٢. Əgər rükunun vacib zikrini dediyi zaman namazqılanın bədəni qeyri-ixtiyari hərəkət etsə və müvazinəti pozulsa, adi hala qayıtdıqdan sonra vacib zikri yenidən deməlidir.[١]

٣. Rükunun zikrini deyərkən bədənin hərəkətsiz olmasının vacib olduğunu bilən şəxs

- Əgər rüku həddinə çatmamışdan və bədən hərəkətsiz olmamışdan öncə rükunun zikrini desə
  - Bilərəkdən olsa, namazı batildir.
  - Səhvən olsa, rüku həddinə çatdıqdan və bədən hərəkətsiz olduqdan sonra vacib zikri yenidən deməlidir.
- Rükunun vacib zikri qurtarmamışdan öncə rükudan qalxsa
  - Bilərəkdən olsa, namazı batildir.
  - Səhvən olsa,
    - Rüku həddindən xaric olmazdan öncə zikri tamamlamadığını anlasa, dayanmalı və rükunun zikrini tamamlamalıdır.
    - Rüku həddindən xaric olduqdan sonra zikri tamamlamadığını bilsə, namazı düzdür.

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٧٧-ci məsələ

٤. Hər kim xəstəlik və bu kimi səbəblərə görə ٣ dəfə “Subhanəllah” deyənə qədər rükuda qala bilmirsə, ١ dəfə “Subhənallah” deməklə kifayətlənə bilər. Əgər ancaq bir an rükuda qala bilirsə, vacib ehtiyata görə rükunun zikrini həmin anda deməyə başlamalı və qalxarkən tamamlamalıdır.[١]

IV. Rükudan qalxıb ayaqüstə dayanmaq:

Namazqılan şəxs rükunun zikrini tamamladıqdan sonra qalxıb düz dayanmalı, sonra səcdəyə getməlidir. Əgər bilərəkdən qalxıb düz daynmasa və səcdəyə getsə, namazı batildir.[٢]

٣) Rükunu unutmaq

Rükunu unudan şəxs:

- Birinci səcdəni yerinə yetirməmişdən öncə yadına düşsə, ayağa qalxmalı, sonra rükuya getməlidir. Tam ayağa qalxmadan əyilmiş halda rükuya getsə, kifayət etmir və belə rüku ilə kifayətlənsə, namazı batildir.
- İkinci səcdəni yerinə yetirərkən yadına düşsə, namazı batildir (Çünki namazın rüknlərindən birini yerinə yetirməmişdir).
- İkinci səcdəni yerinə yetirməmişdən öncə yadına düşsə (yəni, elə birinci səcdəni yerinə yetirərkən və ya birinci səcdədən qalxıb ikinci səcdəyə getməmişdən öncə), ayağa qalxmalı və sonra rükuya getməlidir. Daha sonra iki səcdəni yerinə yetirməlidir. Namazını tamamladıqdan sonra vacib ehtiyata görə yerinə yetirdiyi artıq səcdəyə görə iki səcdeyi-səhv yerinə yetirməlidir.

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٨٠-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٨٢-ci məsələ

٤) Rükunun bir sıra müstəhəb əməlləri

Rükununu bir sıra müstəhəb əməlləri

١. Rükuya getməzdən öncə ayaq üstə ikən təkbir (Allahu Əkbər) demək.

٢. Əgər namazqılan şəxs kişidirsə, dizlərini geriyə versin, əgər qadındırsa, geriyə verməsin.

٣. Başını aşağı salmamaq və bədəni istiqamətində düz saxlamaq.

٤. Əlin içini dizlərin üstünə qoymaq.

٥. İki ayağın arasına baxmaq.

٦. Rükunun zikrindən öncə və ya sonra salavat demək.

٧. Rükudan qalxıb ayaq üstə dayanan vaxt "Səmiəllahu limən həmidəh" demək

٨. Əgər namazqılan şəxs qadındırsa, əllərini dizlərindən yuxarıya qoysun.[١]

SUALLAR:

١. Rükunun vacibatları hansılardır?

٢. Rükuda əlləri dizlərə qoymaq vacibdirmi?

٣.Oturan halda namaz qılan şəxs rüku edərkən nə qədər əyilməlidir?

٤. Əgər rükunun vacib zikrini dediyi zaman namazqılanın bədəni qeyri-ixtiyari hərəkət etsə və müvazinəti pozulsa, nə etməlidir?

٥. Rükunu unudan şəxs ikinci səcdəni yerynə yetirməmişdən öncə rüku etmədiyini xatırlasa, nə etmılidir?

٦. Rükunun müstəhəb əməllərindən beşini sadalayın.

QIRX ÜÇÜNCÜ DƏRS

YOVMİYYƏ NAMAZLARI (٩)

Namazın vacib əməlləri «٦»

٦. Səcdə

١) Səcdənin mənası və əhkamı:

Vacib və müstəhəb namazların hər rəkətində rükudan sonra iki səcdə yerinə yetirmək lazımdır. Səcdə, alnı təvazökarcasına yerə qoymaq deməkdir.[٢]

Diqqət:

- İki səcdə birgə "rükn" sayılır. Yəni, namazqılan şəxs, istər bilərəkdən, istərsə də səhvən səcdənin ikisini də yerinə yetirməsə və ya iki əlavə səcdə yerinə yetirsə, namazı batildir.[٣]
- Əgər namazqılan şəxs bilərəkdən bir səcdəni artıq yerinə yetirsə, namazı batildir. Lakin əgər səhvən etsə, namaz batil deyildir və bunun özünəxas hökmü vardır ki, bir qədər sonra nəzərinizə çatdırılacaq.[١]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٨٥ və ٢٨٦-cı məsələlər
[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٨٧-ci məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٨٩-cu məsələ

٢) Səcdənin vacibatları:

Səcdənin vacibatları

١.Bədənin yeddi üzvü yerə dəyməlidir.

٢.Zikr

٣.Zikri deyərkən bədən hərəkətsiz olmalıdır.

٤.Zikri deyərkən yeddi üzv yerin üzərində olmalıdır.

٥.Birinci səcdədən qalxıb əyləşmək, sonra ikinci səcdəyə getmək lazımdır.

٦.Səcdə üzvləri qoyulan məkanlar biri digərindən dörd bağlı barmaqdan hündür və ya alçaq olmamalıdır, başqa sözlə desək, namazqılanın məkanı hamar olmalıdır.

٧.Alın qoyulan yer pak olmalıdır.

٨.Üzərinə səcdə edilən şeylə alın arasında heç bir maneə olmamalıdır.

٩.Alını, səcdənin düzgün olduğu şeylərin üzərinə qoymaq.

١٠.Vacib ehtiyata görə, təşəhhüd deyilməyən rəkətlərdə ikinci səcdədən sonra əyləşmək.

I. Bədənin yeddi üzvü yerə dəyməlidir:

١. Səcdədə bu yeddi üzvü yerə qoymaq lazımdır

١. Alın;

٢ və ٣: hər iki əlin içi;

٤ və ٥: hər iki ayağın dizləri;

٦ və ٧: hər iki ayağın baş barmaqları.

---

١ Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٩٠ və ٢٩١-ci məsələlər

Diqqət:

- Səcdə edərkən əli xırda dəlikləri olan döşəmə daşlarının üstünə qoymağın heç bir maneəsi yoxdur.[١]
- Səcdədə ayağın baş barmağından əlavə digər barmaqları yerə qoymağın eybi yoxdur.[٢]

٢. Əgər namazqılan şəxs alnını bilərəkdən, yaxud səhvən yerə qoymasa, digər altı üzvünü (iki əlin içi, iki dizlər və iki ayağın baş barmağı) yerə qoysa belə səcdə etməmişdir. Lakin əgər alnını yerə qoysa və səhvən digər üzvünü yerə qoymasa, yaxud səhvən zikri deməsə, səcdəsi düzdür.[٣]

٣. Əyilib alnını yerə qoya bilməyən şəxs, üzərinə səcdə etdiyi əşyanı (möhür və bu kimi digər əşyaları) hündür bir şeyin üstünə qoymalı və bacardığı qədər əyilərək səcdə etməlidir. Belə ki, ətrafdakılar onun səcdə etdiyini təsdiqləsinlər. Eləcə də əllərin içini, dizləri və ayaq barmaqları da mümkün qədər göstərilən qaydada yerə qoymalıdır. Əgər möhrü qoymaq üçün bir vasitə tapmasa, onu əli ilə hündürə qaldırmalı və alnını möhürə qoymalıdır.[٤]

٤. Səcdə yerini nə qədər hündürə qaldırsa da əyilib səcdə edə bilməyən şəxs, başı ilə səcdəyə işarə etməlidir. Başı ilə də mümkün olmasa, gözləri iə işarə etməlidir.[٥]

---

[١] Şəri suallara cavab, ٤٩٠-cı sual
[٢] Şəri suallara cavab, ٤٩٦-cı sual
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٩٢-ci məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٠٥-ci məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٠٦-cı məsələ

Diqqət:

- Əlil arabasından istifadə edən və vəziyyətinə görə ٧ səcdə üzvünü yerə qoya bilməyən şəxs, əgər möhürü arabanın dəstəyinə, yaxud balış və s. bu kimi vasitələrin üzərinə qoyub səcdə edə bilirsə, bu qaydada səcdə etməlidir. Qıldığı namaz da düzdür. Əgər bu qaydada namaz qılmaq mümkün deyilsə, bacardığı şəkildə, hətta işarə ilə olsa da, səcdə və rükunu yerinə yetirsin.[١]

٥. Palçıqlı yerdə namaz qılan şəxs, əgər səcdə edərkən bədəninin və paltarının palçığa bulaşması onu çətinliyə salacaqsa, ayaq üstə başı ilə səcdəyə işarə edə bilər və təşəhhüdü də ayaq üstə oxuya bilər.[٢]

II. Zikr:

Səcdənin vacib zikri bir dəfə "Subhanə rəbbiyyəl ə-əla və bihəmdih" və ya üç dəfə "Subhanəllah"dır. Əgər "Subhanəllah" əvəzinə "Əlhəmdu lillah" və ya "Allahu Əkbər" zikrini üç dəfə desə, kifayət edir.[٣]

III. Səcdənin zikrini deyərkən bədən hərəkətsiz olmalıdır:

١. Səcdənin vacib zikrini deyərkən bədən hərəkətsiz olmalıdır. Hətta müstəhəb zikri deyərkən də, məsələn, "Subhanə rəbbiyəl ə-la və bihəmdih"i təkrar edərkən vacib ehtiyata görə bədən hərəkətsiz olmalıdır.[١]

---

[١] Şəri suallara cavab, ٤٩٤-cü sual

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٠٩-cu məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٩٣-cü məsələ

٢. Səcdənin zikrini deyərkən bədənin hərəkətsiz olmasının vacibliyini bilən şəxs
- Alnını yerə qoymamış və sabit vəziyyət almamış zikr desə
  - Bilərəkdən etsə, namazı batildir.
  - Səhvən etsə
    - Səcdədə ikən səhvini anlasa, sabit vəziyyət alıb zikri yenidən deməlidir.
    - Səcdədən qalxdıqdan sonra səhvini anlasa, namazı düzdür.
- Zikr tamamlanmamış başını səcdədən qaldırsa
  - Bilərəkdən etsə, namazı batildir.
  - Səhvən etsə, namazı düzdür.[١]

٣. Balış və s. bu kimi yumşaq əşyaların üstünə möhür qoyub səcdə etməyin – belə ki, bu halda bədən ilk öncə bir qədər hərəkət edib sonra hərəkətsiz olur – eybi yoxdur.[٢]

IV. Zikri deyərkən yeddi üzv yerin üzərində olmalıdır:

١. Əgər namazqılan şəxs səcdənin zikrini deyərkən yeddi üzvdən birini qəsdən yerdən qaldırarsa, namazı batil olar. Lakin zikr demədiyi anda alından qeyri digər üzvləri yerdən qaldırsa, sonra yenidən qoysa eybi yoxdur.[١]

٢. Əgər səcdənin zikri tamamlanmamışdan qabaq namazqılan şəxs səhvən başını yerdən qaldırarsa, yenidən qoya bilməz və bunu bir

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٩٤-cü məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٠٨-ci məsələ

səcdə hesab etməlidir. Lakin əgər digər üzvləri səhvən yerdən qaldırarsa, yenidən yerə qoyub zikri tamamlamalıdır.[٢]

٣. Əgər səcdəyə gedərkən alın səcdə yerinə dəyib qeyri-ixtiyari yerdən ayrılsa, yenidən alnı yerə qoyub zikri demək və bunu bir səcdə hesab etmək lazımdır.[٣]

V. Birinci səcdədən qalxıb əyləşmək, sonra ikinci səcdəyə getmək:

Namazqılan şəxs birinci səcdənin zikrini deyib qurtardıqdan sonra əyləşməli, bir anlıq dayandıqdan sonra ikinci səcdəyə getməlidir.[٤]

VI. Səcdə üzvləri qoyulan məkanlar biri digərindən ٤ bağlı barmaqdan çox hündür və ya alçaqda olmamalıdır:

Səcdədə alın qoyulan məkan, dizlər və ayağın baş barmaqları qoyulan məkanlarda dörd bağlı barmaqdan çox hündür və ya alçaqda olmamalıdır.[٥]

VII. Alın qoyulan yer pak olmalıdır:

Möhür, ümumiyyətlə üzərinə səcdə edilən hər bir şey pak olmalıdır. Lakin möhürü napak xalçanın üstünə qoyub səcdə etməyin, yaxud əgər möhürün bir tərəfi napakdırsa, pak tərəfinə alın qoyub səcdə etməyin eybi yoxdur.[٦]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٩٨-ci məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٩٩-cu məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٠١-ci məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٠٠-cü məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٠٩ və ٣٠٢-ci məsələlər
[٦] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٠٧ və ٣٠٣-cü məsələlər

VIII. Üzərinə səcdə edilən şeylə alın arasında heç bir maneə olmamalıdır:

Üzərinə səcdə edilən şeylə alın arasında heç bir maneə olmamalıdır. Beləliklə, əgər saç, papaq və ya möhürün üstünü tutan çirk qatı – belə ki, alnın möhürə dəyməsinə həqiqətən maneə yaradır – alınla möhür arasında maneə yaradarsa, səcdə və namaz batildir.[١]

Diqqət:

- Əgər namazqılan şəxs səcdə əsnasında yaylıq, papaq və s. bu kimi əşyaların maneəçiliyi nəticəsində alnının möhürə dəymədiyini başa düşsə, başını yerdən qaldırmadan alnını hərəkət etdirməli və möhürə qoymalıdır. Əgər şəri hökmü bilmədən və ya unudaraq alnını yerdən qaldırarsa və bu əməl, bir rəkətin iki səcdəsindən yalnız birində baş versə, namazı düzdür və yenidən qılmaq lazım deyil.[٢]

IX. Alnı, səcdənin düzgün olduğu şeylərin üzərinə qoymaq lazımdır.[٣]

X. Vacib ehtiyata görə təşəhhüd deyilməyən rəkətlərdə də ikinci səcdədən sonra əyləşmək:

Dörd rəkətli namazların birinci və üçüncü rəkətlərində vacib ehtiyata görə ikinci səcdədən sonra əyləşmək, sonra ayağa qalxmaq lazımdır.[٤]

---

[١] Şəri suallara cavab, ٤٩١-ci sual ,Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٠٤-cü məsələ

[٢] Şəri suallara cavab, ٤٩٢ və ٤٩٣-cü suallar

[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٠٥-ci məsələ

[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣١٠-cu məsələ

SUALLAR:

١. Namazda bir səcdəni artırıb-azaltmağın hökmü nədir?

٢. Səcdədə ayağın baş barmağından əlavə digər barmaqları yerə qoymaq olarmı?

٣. Alnını yerə qoya bilməyən şəxs nə etməlidir?

٤. Balış və s. bu kimi yumşaq əşyaların üstünə möhür qoyub səcdə etmək olarmı?

٥. Üzəri çirk bağlamış möhürə səcdə etmək olarmı?

٦. Təşəhhüd deyilməyən rəkətlərdə ikinci səcdədən sonra əyləşmək vacibdirmi?

QIRX DÖRDÜNCÜ DƏRS

YOVMİYYƏ NAMAZLARI (١٠)

Namazın vacib əməlləri «٧»

٣) Üzərinə səcdənin düzgün olduğu şeylər:

Bunların üzərinə səcdə etmək düzgündür { Yer / Yerdən çıxan } üç şərtlə {
١. Yeyilən olmasın.
٢. Geyilən olmasın.
٣. Torpaq altından çıxarılan bir sıra faydalı qazıntılardan olmasın.

١) Səcdəni yerin və ya yerdən çıxıb yeyilməyən bitkilərin üzərinə etmək olar, məsələn, daş, torpaq, taxta, ağacların yarpaqları və s. Yerdən çıxsa da pambıq və buğda kimi geyinilən və yeyilən şeylərin üzərinə səcdə etmək düzgün deyil. Həmçinin yerin tərkibi ilə eyni olmadığı üçün metal və şüşə kimi faydalı qazıntılar üzərinə səcdə etmək düzgün deyil.[١]

٢) Binaların tikintisində və ya bəzədilməsində istifadə edilən mərmər və s. daşların üzərinə səcdə etmək düzgündür.

Həmçinin əqiq, firuzə, dürr və s. cəvahirat daşları üzərinə səcdə etmək düzgündür. Hərçənd ehtiyati-müstəhəbə görə səcdə edilməsə yaxşıdır.[٢]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣١١-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣١٢-ci məsələ

٣) Ot, yonca və s. yerdən çıxan və təkcə heyvanların yediyi bitkilərin üzərinə səcdə etmək düzgündür.

٤) Vacib ehtiyata görə çayın yaşıl yarpağına səcdə etmək düzgün deyildir. Lakin yeyilmədiyi üçün qəhvə ağacının yarpağı üzərinə səcdə etmək düzgündür.[١]

٥) Yeyilməyən güllərin və müalicəvi bitkilərin – belə ki, bu bitkilər, yalnız müalicə işlərində istifadə olunur – üzərinə səcdə etmək düzgündür. Lakin müalicədən qeyri bir sıra faydalarına görə yeyilən bitkilərn üzərinə səcdə etmək düzgün deyil.[٢]

٦) Bir məntəqədə yeyilən, lakin digər bir məntəqədə yeyilməyən bitkilər "yeyilən bitkilər" sayılır və onların üzərinə səcdə etmək düzgün deyil.[٣]

٧) Kərpic, saxsı, təbaşir, əhəng və sementin üzərinə səcdə etmək düzgündür.[٤]

٨) Pambıqdan başqa digər yeyilməyən bitkilərin və həmçinin taxtadan hazırlanan kağızın üzərinə səcdə etmək düzgündür.[٥]

٩) Əgər namazqılan şəxs, üzərinə səcdənin düzgün olduğu vasitələrdən heç birini əldə edə bilməsə, yaxud əldə edə bilsə də havanın həddən artıq isti və ya soyuq olduğuna görə onların üzərinə səcdə edə bilməsə, pambıq və ya kətan parçadan olan paltarının, ümumiyyətlə pambıq və ya kətan parçadan olan bir əşyanın üzərinə səcdə etməlidir.

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣١٤-cü məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣١٥-ci məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣١٦-cı məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣١٧-ci məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣١٨-ci məsələ

Vacib ehtiyata görə əgər paltarı pambıq və kətan parçadandırsa və onun üzərinə səcdə etmək mümkündürsə, bu parçalardan olan digər əşyalara səcdə etməsin.

Əgər pambıq və kətan parçadan olan heç bir şeyi əldə edə bilməsə, vacib ehtiyata görə əlinin üstünə səcdə etsin.[١]

١٠) Əgər namazqılan namaz əsnasında üzərinə səcdə etdiyi əşyanı itirsə və namazda ikən yaxınlığında üzərinə səcdənin düzgün olduğu heç bir şeyi əldə edə bilməsə, bu halda əgər namaz vaxtı genişdirsə, namazı kəsməlidir. Lakin əgər vaxt dardırsa, əvvəlki məsələdə deyilən ardıcıllığa riayət etməlidir.[٢]

١١) Əgər insan təqiyyə etmək məcburiyyətindədirsə, xalça və s. bu kimi əşyaların üzərinə səcdə edə bilər və namaz üçün xəlvət bir məkan axtarmağa ehtiyac yoxdur.

Lakin əgər həmin məkanda zəhmətə düşmədən həsir, daş və bu kimi əşyaların üzərinə səcdə etmək imkanı varsa, vacib ehtiyata görə bu əşyaların üzərinə səcdə etməlidir.[٣]

١٢) Əgər birinci səcdəni yerinə yetirərkən möhür alına yapışsa, ikinci səcdəyə gedərkən möhürü alından qopardıb, yerə qoymaq lazımdır. Əgər belə etməsə və ikinci səcdəni möhür alnına yapışmış halda yerinə yetirsə, düzgün deyil.[١]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٢٠-ci məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٢٢-ci məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٠٧-ci məsələ

Diqqət:

- Ən yaxşı səcdə, torpaq və yerin üzərinə edilən səcdədir. Bu, Allah-Taala qarşısında xüzu və xüşunun ən yüksək dərəcəsidir. Seyyidüş-şühəda İmam Hüseynin (ə.s) türbəti isə torpaqların ən fəzilətlisidir.[٢]

٤) Səcdənin bəzi müstəhəb əməlləri:

Səcdənin bəzi müstəhəb əməlləri

١.Səcdədən əvvəl və sonra "Təkbir" demək müstəhəbdir. Bir şərtlə ki, təkbir deyərkən bədən hərəkətsiz olmalıdır.

٢.İki səcdə arasında "Əstəğfirullahə rəbbi və ətu-bu iləyh" demək müstəhəbdir. Yenə də bu sözləri deyərkən bədən hərəkətsiz olmalıdır.

٣. Səcdəni uzatmaq, zikrlər demək, dünya və axirət hacətlərini istəmək və salavat göndərmək müstəhəbdir.

٤. Səcdədən qalxıb sol ayaq üzərində əyləşmək və sağ ayağın üstünü sol ayağın altına qoymaq müs-təhəbdir.[١]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٢١-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣١٩-cu məsələ

Diqqət:

- Səcdədə Quran oxumaq məkruhdur (savabı azdır).[٢]

Səcdənin iki hökmü:

I. Allahdan qeyrisinə səcdə etmək haramdır. Məsum İmamların (ə.s) hərəmlərinin qapısı ağzında səcdə etmək, Allaha şükr səcdəsi etmək niyyətilə olsa, eybi yoxdur. Əks təqdirdə haramdır.[٣]

II. Vacib səcdəsi olan surələrdəki səcdə ayəsini oxuduqda və ya eşitdikdə ayə tamamlanan kimi dərhal səcdəyə getmək lazımdır. Əgər insan, səcdə etməyi unutsa, yadına düşən kimi səcdəni yerinə yetirməlidir.

Diqqət:

- Səcdə ayələri
  ١. Səcdə surəsi, ١٥-ci ayə
  ٢. Fussilət surəsi, ٣٧-ci ayə
  ٣. Nəcm surəsi, ٦٢-ci ayə
  ٤. Ələq surəsi, ١٩-cu ayə[٤]

- Səcdə ayəsini radiodan, televiziyadan, maqnitafondan və s. bu kimi vasitələrdən eşitdikdə də səcdə etmək vacibdir.[٥]

Quran ayəsinin vacib səcdəsini yerinə yetirərkən alnı yerə qoymaq kifayətdir və səcdədə zikr deməyə ehtiyac yoxdur. Lakin müəyyən zikrləri, xüsusilə aşağıdakı zikri demək müstəhəbdir:

"La ilahə illəllahu həqqən həqqa.

---

[١] Şəri suallara cavab, ٤٩٨ və ٤٩٩-cu suallar, Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٢٤-cü məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٢٤-cü məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٢٣-cü məsələ

[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٨٩-cu məsələ

[٥] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٢٧-ci məsələ

La ilahə illəllahu imanən və təsdiqa.

La ilahə illəllahu ubudiyyətən və riqqa.

Səcədtu ləkə ya rəbbi təəbbudən və riqqa.

La mustənkifən və la mustəkbirən, bəl ənə əbdun zəlilun zəifun xaifun mustəcir”.[١]

SUALLAR:

١. Üzərinə səcdənin düzgün olduğu şeylər hansılardır və hansı şərtləri vardır?

٢. Kağızın üzərinə səcdə etmək olarmı?

٣. Əgər namazqılan namaz əsnasında üzərinə səcdə etdiyi əşyanı itirsə və namazda ikən yaxınlığında üzərinə səcdənin düzgün olduğu heç bir şeyi əldə edə bilməsə, nə etməlidir?

٤. Ən yaxşı səcdə nəyin üzərinə edilən səcdədir?

٥. Məsum İmamların (ə.s) hərəmlərinin qapısı ağzında səcdə etməyin hökmü nədir?

٦. Səcdə ayəsini radiodan, televiziyadan, maqnitafondan və s. bu kimi vasitələrdən eşitdikdə də səcdə etmək vacibdirmi?

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٢٨-ci məsələ

QIRX BEŞİNCİ DƏRS

YOVMİYYƏ NAMAZLARI (١١)

Namazın vacib əməlləri «٨»

٧. Zikr.

١) Zikr nədir?

Allah-Taalanı xatırladan hər bir ifadə "zikr" sayılır (məsələn, "Allahu Əkbər", "Əlhəmdu lillah" və s.)

Muhəmməd və Ali Muhəmmədə (s.ə.v) salavat ən yaxşı zikrlərdən biridir.[١]

٢) Zikrin vacibatı:

١. Namazın zikrlərini tələffüz etmək lazımdır. Bu o deməkdir ki, əgər namazqılanın qulağı ağır eşitmirsə və ətrafda səs-küy yoxdursa, dediyini özü eşitməlidir.[٢]

٢. Namazın vacib zikrləri ərəbcə düzgün qiraət olunmalıdır. Əgər namazqılan ərəb sözlərini düzgün tələffüz edə bilmirsə, öyrənməyi vacibdir.[٣]

٣. Namazın bütün vacib və müstəhəb zikrlərini deyərkən bədən hərəkətsiz olmalıdır.

Əgər bir qədər önə və ya arxaya, yaxud sağa və ya sola hərəkət etmək istəsə, hərəkət etdiyi zaman dediyi zikri kəsməlidir.

---

[١] Şəri suallara cavab, ٤٨٧-ci sual

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٢٦-cı məsələ

[٣] Şəri suallara cavab, ٤٦٧-ci sual

Əlbəttə hərəkət edə-edə “mütləq zikr” niyyəti ilə - burada namazın zikrini niyyət etmir, sadəcə zikr deməyi niyyət edir – zikr deməyin maneəsi yoxdur.[١]

Zikrə aid bir neçə şəri məsələ:

١) Əgər namazqılan səhvən rükuda səcdənin zikrini desə, maneəsi yoxdur. Lakin bilərəkdən zikrlərin yerini dəyişmək olmaz. Əlbəttə “mütləq zikr” demək niyyəti istisnadır.[٢]

٢) Əgər namazqılan rüku və ya səcdəni yerinə yetirdikdən sonra başa düşsə ki, onların zikrini səhv demişdir, ona heç nə vacib olmur.[٣]

٣) Səcdə və rükunun vacib zikrini dedikdən sonra həmin zikri təkrar etməyin savabı vardır və yaxşı olar ki, tək sayda deyilsin (məsələn, ٣, ٥, ٧ sayda). Səcdədə bundan əlavə salavat demək, dünya və axirət hacətləri üçün dua etmək müstəhəbdir.[٤]

٤) Rükuya getməmişdən öncə və hər səcdədən əvvəl və sonra təkbir demək müstəhəbdir. Bu təkbiri rükuya və ya səcdəyə əyilərkən, yaxud qalxarkən (yəni, hərəkət edərkən) demək olmaz. Lakin ümumiyyətlə “mütləq zikr” niyyəti ilə namazın hər bir halında, o cümlədən rüku və səcdəyə gedərkən və ya qalxarkən, hər bir zikri və eləcə də təkbir demək olar.[٥]

---

[١] Şəri suallara cavab, ٣٤٣-cü sual, Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٣٢ və ٢٣٣-cü məsələlər

[٢] Şəri suallara cavab, ٤٨٠ və ٤٨١-ci suallar

[٣] Şəri suallara cavab, ٤٨٢-ci sual

[٤] Şəri suallara cavab, ٤٩٩-cu sual

[٥] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٢٣٣-cü məsələ

٥) “Bihəvlilləhi və quvvətihi əqumu və əqudu” (Allahın hövl qüvvəsi ilə oturub qalxıram) zikrini növbəti rəkətə ayağa qalxarkən demək müstəhəbdir.[١]

٨. Təşəhhüd

١) Təşəhhüdün mənası və hökmü:

Namazqılan bütün namazların ikinci rəkətində, həmçinin məğrib namazının üçüncü və zöhr, əsr və işa namazlarının dördüncü rəkətində ikinci səcdədən sonra əyləşməli və bədəni hərəkətsiz halda təşəhhüd adlı zikri oxumalıdır. Bu əməl, təşəhhüd adlanır.

٢) Təşəhhüdün sözləri:

Təşəhhüdün vacib zikri belədir:

“Əşhədu ənla ilahə illəllahu vəhdəhu la şərikə ləhu, və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu. Allahummə səlli əla Muhəmmədin və Ali Muhəmməd”.[٢]

Diqqət:

- Təşəhhüdün vacib zikrindən əvvəl “Əlhəmdu lillah” və ya “Bismillahi və billahi vəl-həmdu lillahi və xəyrul-əsmai lillahi” sözlərini demək müstəhəbdir. Həmçinin təşəhhüdün salavatından sonra “və təqəbbəl şəfaətəhu vərfə dərəcətəhu” zikrini demək müstəhəbdir.[٣]
- Təşəhhüdün salavatını oxuyarkən “Allahummə səlli əla Muhəmmədin”ə çatdıqda vəqf edib “Muhəmməd” demək, sonra salavatın ar-

---

[١] Şəri suallara cavab, ٤٨٦-cı sual

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٣٠-cu məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٣٠-cu məsələ

dını "və ali Muhəmmədin"i qiraət etmək, bu halda doğrudur ki, cümləni iki hissəyə ayırmasın.[١]

٣) Təşəhhüdü unudan şəxsin vəzifəsi:

I. Əgər namazqılan üçüncü rəkətə ayağa qalxsa və rükuya getməmişdən öncə təşəhhüdü oxumadığı yadına düşsə, əyləşməli, təşəhhüdü oxumalı və sonra ayağa qalxıb namazı davam etdirməlidir. Namazı qılıb qurtardıqdan sonra bir dəfə artıq ayağa qalxdığı üçün ehtiyati-müstəhəbə görə iki səcdeyi-səhv yerinə yetirməlidir.

II. Əgər üçüncü rəkətin rükusuna getdikdən sonra və ya daha sonra təşəhhüdü oxumadığı yadına düşsə, namazı tamamlamalı və salamlardan sonra unudulmuş təşəhhüdün yerinə iki səcdeyi-səhv yerinə yetirməlidir. Ehtiyati-müstəhəbə görə səcdeyi-səhvdən əvvəl təşəhhüdün qəzasını yerinə yetirməlidir.[٢]

٩. Salam

١) Salamın mənası və hökmü:

Namazın sonucu vacib əməli "salam"dır və salamı deməklə namaz sona yetir. Namazın vacib salamı ya "Əssəlamu ələykum"dur və yaxşı olar ki, "və rəhmətullahi və bərəkatuhu" cümləsi də bu salama artırılsın. Ya da "Əssalamu ələyna və əla ibadillahis-salihin"dir.[٣]

---

[١] Şəri suallara cavab, ٤٦٤-cü sual

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٣١ və ٣٣٢-ci məsələlər

[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٣٣-cü məsələ

Diqqət:

- Bu iki salamdan qabaq "Əssalamu ələykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuhu" demək müstəhəbdir.[١]

٢) Namazın salamını unudan şəxsin vəzifəsi:

Əgər namazqılan şəxs namazın surətini pozan bir işi - məsələn, üzü qiblədən döndərmək- səhvən və ya qəsdən yerinə yetirməmişdən öncə salamı demədiyi yadına düşsə, namazın salamını deməlidir və namazı düzdür.[٢]

SUALLAR:

١. Zikrin mənası nədir? Peyğəmbər və ali peyğəmbərə (s) salavat zikrdirmi?

٢. Bilərəkdən rüku və səcdələrin zikrlərinin yerini dəyişmək olarmı?

٣. Rüku və səcdənin vacib zikrini dedikdən sonra hansı zikri demək daha yaxşıdır?

٤. Bihəvlilləhi və quvvətihi əqumu və əqudu" zikrini ayağa qalxarkən demək olarmı?

٥. Təşəhhüdün salavatını oxuyarkən "Allahummə səlli əla Muhəmmədin"ə çatdıqda vəqf edib "Muhəmməd" demək, sonra salavatın ardını "və ali Muhəmmədin"i qiraət etmək hansı halda doğrudur?

٦. Namazın salamını unudan şəxs nə etməlidir?

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٣٣-cü məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٣٤-cü məsələ

QIRX ALTINCI DƏRS

YOVMİYYƏ NAMAZLARI (١٢)

Namazın vacib əməlləri «٩»

- *Namazın vacib əməlləri*

– *Qunut*

– *Təqibat*

١٠. Tərtib

١) Tərtib və onun hökmü nədir?

Namaz, göstərilən ardıcıllıqla qılınmalıdır və namazın hər bir əməli öz yerində yerinə yetirilməlidir. Hər kim bu ardıcıllığı qəsdən pozsa, məsələn, Surəni Həmddən qabaq oxusa və ya səcdələri rükudan qabaq yerinə yetirsə, namazı batildir.[١]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٣٥-ci məsələ

٢) Səhvən tərtibi pozmaq:

Səhvən namazın tərtibini pozmaq

١. Namazın bir rüknünü qoyub digər bir rüknünə başlamaq, məsələn, səcdələri yerinə yetirməmək və növbəti rəkətin rükusunu yerinə yetirərkən səhvi başa düşmək - ***namaz batildir.***

٢. Namazın bir rüknünü qoyub qeyri-rükn olan bir əməlinə başlamaq, məsələn, səcdələri qoyub təşəhüddü oxumaq - ***unutduğu rüknü yerinə yetirməli və namazı davam etdirməlidir.***

٣. Namazın qeyri-rüknünü qoyub rüknə başlamaq, məsələn, Həmdi qoyub rükuya əyilmək və rükuda ikən Həmdi oxumadığını xatırlamaq - ***namazı düzdür.***

٤. Namazın qeyri-rüknünü qoyub digər bir qeyri-rüknə başlamaq, məsələn, Həmdi unudub Surəni oxumağa başlamaq. ***Bu halda əgər rükuya getməmişdən öncə səhvini başa düşsə, unutduğu qeyri-rüknü yerinə yeirməli və namazı davam etdirməlidir.***

١١. Muvalat.

Namazqılan şəxs namazın əməllərini, məsələn, rükunu, səcdələri, təşəhhüdü və s.-i deyilən tərtiblə fasiləsiz olaraq yerinə yetirəməlidir. Deməli, əgər namazın əməlləri arasında elə bir fasilə yaransa ki, ətrafdakıların nəzərində namazı pozmaq kimi dəyərlənsə, namazı batildir.[١]

Diqqət:

- Əgər namazqılan namazın sözləri və ya sözlərin hərfləri arasında səhvən bir söz işlətsə, lakin namazın surəti pozulmasa, bu halda əgər namazın növbəti rüknünə başladıqdan sonra səhvini başa düşsə, nama-

zı düzdür və sözləri və cümlələri təkrarlamaq lazım deyil. Lakin əgər növbəti rüknə başlamamışdan öncə səhvini başa düşsə, yenidən həmin sözləri səhvə yol vermədən təkrar etməlidir.[٢]

٨. Qunut

١) Qunutun mənası və onun hökmü:

Bütün müstəhəb və vacib namazların ikinci rəkətində Həmd və Surənin qiraətindən sonra və rükudan əvvəl əlləri qaldırıb dua etmək müstəhəbdir. Bu əməl "qunut" adlanır.[٣]

Diqqət:

- Cümə namazında qunut, birinci rəkətdə rükudan qabaq və ikinci rəkətdə rükudan sonra yerinə yetirilir.[٤]
- Fitr və Qurban bayramlarının namazıda birinci rəkətdə beş qunut, ikinci rəkətdə dörd qunut yerinə yetirilir.[٥]

٢) Qunutun zikrləri:

Qunutda istənilən zikrlər, dualar və Quran ayələri oxunula bilər. Hətta bir salavat və ya "Bismillah", "Bismillahir-rəhmanir-rəhim", "Subhanəllah" deməklə də kifayətlənmək olar. Lakin Quranda gələn duaları oxumaq tövsiyə olunur. Məsələn, "Rəbbəna atina fid-dünya həsənətən və fil-axirəti həsənətən və qina əzabənnar" ayəsini oxumaq.

Yaxud məsum imamlardan (ə.s) nəql olunan duaları oxumaq daha yaxşıdır. Məsələn, bu zikri: "La ilahə illəllahul-həlimul-kərim. La ila-

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٤٠-cı məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٤١-ci məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٤٢-ci məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٤٢-ci məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٤٢-ci məsələ

hə illəllahul əliyyul-əzim. Subhanəllahi rəbbisəmavatis-səb və rəbbil-ərəzinəs-səb və ma fihinnə və ma bəynəhunnə. Və rəbbil-ərşil əzim. Vəl-həmdu lillahi rəbbil aləmin”.[١]

٩. Təqibat*

Namazın təqibatını ərəbcə oxumaq şərt deyildir. Lakin məsum imamlardan (ə.s) nəql olunan duaları və zikrləri oxumaq tövsiyə olunur. O cümlədən “Xanım Zəhranın təsbihi” adlı zikrləri deməyin çox böyük savabı vardır. Bu zikrlər belədir: ٣٤ dəfə “Allahu Əkbər”, ٣٣ dəfə “Əlhəmdu lillah” və ٣٣ dəfə “Subhanəllah”.[٢]

Diqqət:

- Dua kitablarında məsum imamlardan (ə.s) ali məzmunu olan çox dəyərli dualar mövcuddur.[٣]
- Namazdan sonra şükr səcdəsi etmək müstəhəbdir. Yəni, bütün nemətlərə görə, həmçinin namazı bizə nəsib etdiyinə görə Allaha şükr etmək niyyəti ilə alnı yerə qoymaq müstəhəbdir. Yaxşı olar ki, bu səcdədə üç dəfə “şukrən lillah” deyilsin.[٤]

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٤٣-cü məsələ

* Namazdan sonra oxunulan zikrlər və dualar.

[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٤٥-ci məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٤٥-ci məsələ

[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٤٦-cı məsələ

SUALLAR:

١. Əgər namazqılan səhvən namazın bir rüknünü qoyub dıgər bir rükrünü yerinə yetirsə, namazın hökmü nədir?

٢. Tərtiblə muvalatın fərqi nədir?

٣. Əgər namazda muvalata riayət olunmasa, namzın hökmü nədir?

٤. Fitir və Qurban bayramları namazının neçə qunutu var?

٥. Qunutda bir salavat deməklə kifayətlənmək olar?

٦. Namazın təqibində hansı dua və zikrləri oxumaq yaxşıdır?

QIRX YEDDİNCİ DƏRS

YOVMİYYƏ NAMAZLARI (١٣)

Namazın tərcüməsi

١٠. Namazın tərcüməsi:

Yaxşı olar ki, namazqılan şəxs, namazın sözlərini və zikirlərini deyərkən onların mənalarına diqqət yetirsin. Xüşu və hüzuri-qəlblə namaz qılıb ruhunu paklaşdırsın və bu yolla mehriban Allaha daha da yaxınlaşsın.

١) Həmd surəsinin tərcüməsi:

١. Rəhmli, mərhəmətli Allahın adı ilə!

٢. Həmd (şükür və tərif) olsun Allaha – aləmlərin Rəbbinə,

٣. (Bu dünyada hamıya) rəhmli, (axirətdə isə ancaq möminlərə) mərhəmətli olana,

٤. Haqq-hesab (Qiyamət) gününün sahibinə!

٥. Biz yalnız Sənə ibaət edirik və yalnız Səndən kömək diləyirik!

٦. Bizi düz yola hidayət et!

٧. Nemət verdiyin kəslərin yoluna,

٨. Qəzəbə düçar olanların yoluna deyil.[١]

٢) Tovhid surəsinin tərcüməsi:

١. (Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan mələklərə) de ki: “(Mənim Rəbbim olan) O Allah birdir (Heç bir şəri-ki yoxdur);

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü

٢. Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır; O əzəli və əbədidir!)

٣. O, nə doğmuş, nə də doğulmuşdur! (Allah özünə heç bir övlad götürməmişdir!)

٤. Onun heç bir tayı-bərabəri, bənzəri də yoxdur!”[١]

٣) Rüku və səcdənin, həmçinin bir sıra müstəhəb zikrlərin tərcüməsi:

١. “Subhənallah”, yəni, Allah pak və münəzzəhdir.

٢. “Subhanə rəbbiyəl əzimi və bihəmdihi”, yəni əzəmətli Allah pak və münəzzəhdir və mən Onu sitayiş edirəm.

٣. “Subhanə rəbbiyəl əla və bihəmdihi”, yəni, uca Allahım pak və münəzzəhdir və mən Ona sitaiş edirəm.

٤. “Səmiəllahu limən həmidəh”, yəni, Allhın lütfü Onu sitayiş edən şəxsə şamil olsun.

٥. “Əstəğfirullahə rəbbi və ətubu iləyhi”, yəni, Rəbbim olan Allahdan bağışlanma diləyirəm və Ona doğru qayıdıram, tövbə edirəm.

٦. “Bihəvlillahi və quvvətihi əqumu və əqudu”, yəni, Allahın iradəsi və qüvvəsi ilə ayağa qalxır və əyləşirəm.

٤) Qunutun zikrlərinin tərcüməsi:

١. “Rəbbəna atina fid-dünya həsənətən və fil axirəti həsənətən və qina əzabənnar”. Yəni, İlahi, bizə dünya və axirət xeyri əta et və bizi atəşin əzabından qoru!

٢. “La ilahə illəllahul həlimul-kərim”, yəni, Həlim (səbirli) və Kərim (bəxş edən) Allahdan başqa məbud yoxdur.

٣. “La ilahə illəllahul əliyyul-əzim”, yəni, uca və əzəmətli Allahdan başqa məbud yoxdur.

٤. “Subhanəllahi rəbbis-səmavatis-səb və rəbbil ərəzinəs-səb”, yəni yeddi asimanın və yeddi yerin Rəbbi pak və münəzzəhdir.

٥. “Və ma fihinnə və ma bəynəhunnə”, yəni, onlarda (yerlərdə və göylərdə) olan və onlar arasında olan hər şeyin Rəbbidir.

٦. “Və rəbbil ərşil əzim”, yəni, O, əzəmətli ərşin Rəbbidir.

٧. “Vəl həmdu lillahi rəbbil aləmin”, yəni, həmd, aləmlərin rəbbi olan Allaha məxsusdur.[٢]

٥) Təsbihati-ərbəənin tərcüməsi:

١. “Subhənallah”: Allah, pak və münəzzəhdir.

٢. “Vəl-həmdu lillah”: Həmd və səna Allaha məxsusdur.

٣. “Və la ilahə illəllah”: Allahdan başqa məbud yoxdur.

٤. “Vəllahu Əkbər”: Allah böyükdür.

٦) Təşəhhüd və salamın tərcüməsi:

١. “Əlhəmdu lillah”: Həmd və səna Allaha məxsusdur.

٢. “Əşhədu ənla ilahə illəllah”: Şəhadət verirəm ki, Allahdan başqa məbud yoxdur.

٣. “Vəhdəhu la şərikə ləhu”: Yeganədir və şəriki yoxdur.

٤. “Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu”: Və şəhadət verirəm ki, Məhəmməd, Onun qulu və elçisidir.

٥. “Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd”: İlahi, Muhəmməd və Ali Məhəmmədə salam göndər.

---

١ Rəhbərdən soruşulan suallar, Namaz bölümü

٢ Rəhbərdən soruşulan suallar, Namaz bölümü

٦. “Və təqəbbəl şəfaətəhu vərfə dərəcətəhu”: Onun (Məhəmmədin (s)) şəfaətini qəbul et və məqamını ucalt!

٧. “Əssəlamu ələykə əyyuhənnəbiyyu və rəhmətullahi və bərəkatuhu”: Ey peyğəmbər, sənə salam olsun! Allahın rəhməti və bərəkəti sənə olsun!

٨. “Əssəlamu ələyna və əla ibadillahis-salihin”: Bizə və Allahın saleh bəndələrinə salam olsun!

٩. “Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuhu”: Salam olsun sizə (möminlərə, mələklərə)! Və Allahın rəhməti və bərəkəti olsun sizə![١]

SUALLAR:

١. ***Həmd surəsinin tərcüməsini deyin.***

٢. ***Tovhid surəsinin tərcüməsini deyin.***

٣. ***“Səmiəllahu limən həmidəhu” zikrinin mənası nədir?***

٤. ***“Bihəvlillahi və quvvətihi əqumu və əq-udu” zikrinin mənası nədir?***

٥. ***“Və təqəbbəl şəfaətəhu vərfə dərəcətəhu”nun mənası nədir?***

٦. ***Namazın salamlarının tərcüməsini deyin.***

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü

QİRS SƏKKİZİNCİ DƏRS

YOVMİYYƏ NAMAZLARI (١٤)

Namazı batil edən işlər.

<u>١١. Namazı batil edən işlər</u>

Namazı batil edən işlər

١. Namazın vacib şərtlərinə riayət etməmək, məsələn, məkan və geyimin şərtlərinə.

٢. Dəstəmazın pozulması.

٣. Qiblədən dönmək.

٤. Danışmaq.

٥. Əli bağlı namaz qılmaq (sünnə əhli qıldığı kimi).

٦. Həmdi oxuduqdan sonra “Amin” demək.

٧. Gülmək.

٨. Ağlamaq.

٩. Namazın surətini pozmaq, məsələn, əl çalmaq, atılıb düşmək.

١٠. Yemək və içmək.

١١. Namazı batil edən şəklər, məsələn, iki rəkətli və üç rəkətli namazlarda şəkk etmək.

١٢. Namazın rüknünü artırıb azaltmaq. Məsələn, rükunu artırıb azaltmaq.

I. Namazın vacib şərtlərini pozmaq

Əgər namazqılan namazın şərtlərindən birinə riayət etməsə, məsələn, namaz əsnasında məkanının qəsbi olduğunu başa düşsə, namazı batildir.[١]

II. Dəstəmazın pozulması

Əgər namaz əsnasında dəstəmaz və ya qüslu pozan işlərdən biri baş versə, məsələn, namaz qılan yuxuya dalsa, yaxud ondan bövl xaric olsa, namaz batildir.[٢]

III. Qiblədən dönmək

Əgər namazqılan bilərəkdən üzünü və bədənini, yaxud onlardan birini qiblədən döndərsə - belə ki, sağ və ya sol tərəfini asanlıqla görə bilsə - namazı batildir.

Əgər bu işi səhvən belə etsə, vacib ehtiyata görə, namazı batildir. Lakin üzü bir qədər sağa və sola döndərmək namazı batil etmir.[٣]

IV. Danışmaq

Əgər namazqılan namaz əsnasında bilərəkdən danışsa, hətta bir söz belə desə, namazı batildir.[٤]

Diqqət:

- Namazın surəti pozulmadığı təqdirdə ətrafdakılara bir şeyi bildirmək üçün qiraət zamanı və zikrləri deyərkən səsi ucaltmağın eybi

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٤٣-ci məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٤٩-cu məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٥٠-ci məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ٣٥٠-ci məsələ

yoxdur. Bir şərtlə ki, namazqılan həmin sözləri qiraət və zikr niyyəti ilə oxusun.[١]

- Əgər bir nəfər bir dəstə insana salam verib "Əssəlamu ələykum cəmiən" desə və onlardan biri salamın cavabını versə, onların arasındakı namazqılan şəxs salamın cavabını verməməlidir.[٢]
- Namaz qılarkən "Salam" ifadəsi ilə deyil, başqa bir ifadə ilə (məsələn, sabahınız xeyir) görüşən şəxsin cavabını vermək olmaz. Lakin namazdan kənar vaxtlarda əgər camaatın nəzərində bu ifadə, görüşmək sayılırsa, vacib ehtiyata görə bu şəxsin cavabını vermək lazımdır.[٣]

Salam barəsində bir neçə şəri hökm:

١) Yaxşı ilə pisi ayıran uşaqların (fiqhdə "müməyyiz" adlanır) istər oğlan olsunlar, istərsə də qız, verdikləri salama cavab vermək böyüklərin salamına cavab vermək qədər vacibdir.[٤]

٢) Əgər bir nəfər ona verilən salamı eşitsə, lakin başı qarışıq olduğu üçün və ya başqa bir səbəbə görə salamın cavabını verməsə, yadına düşdüyü vaxt artıq salamın cavabını vermək çox gec olarsa (yəni, veriləcək cavab artıq həmin salamın cavabı sayılmacaqsa), cavab vermək vacib deyil.[٥]

---

[١] Şəri suallara cavab, ٥٠٤-cü sual
[٢] Şəri suallara cavab, ٥١٣-cü sual
[٣] Şəri suallara cavab, ٥١٠-cu sual
[٤] Şəri suallara cavab, ٥١١-ci sual
[٥] Şəri suallara cavab, ٥١٢-ci sual

٣) Əgər “Səlamun ələykum” ifadəsinin yerinə təkcə “Səlam” sözü deyilərsə və bu, camaatın nəzərində salamlaşmaq sayılarsa, cavab vermək vacibdir.[١]

٤) Əgər bir nəfər eyni anda bir neçə dəfə salam versə, onların hamısına bir cavab vermək kifayətdir. Həmçinin bir neçə nəfər eyni anda salam versələr, onların hamısına cavab vermək məqsədilə ümumi bir cavab vermək (məsələn, “Səlamun ələykum” demək) kifayətdir.[٢]

IV. Həmdi oxuduqdan sonra “Amin” demək

Təqiyyə istisna olmaqla, Həmd surəsini oxuduqdan sonra “Amin” demək olmaz (namaz batil olur).[٣]

VII. Gülmək

Ucadan gülmək (qəhqəhə çəkmək) namazı batil edir.[٤]

IX. Namazın surətini pozmaq, məsələn, əl çalmaq, atılıb düşmək

Əl çalmaq, atılıb düşmək kimi namazın surətini pozan işlər namazı batil edir.[٥]

Diqqət:

- Əgər namazqılan şəxs ətrafdakılara bir şeyi bildirmək üçün və ya verdikləri suala cavab vermək üçün namazın surətini pozmadan cüzi şəkildə əlini, gözünü, qaşını hərəkət etdirsə, namazı batil olmur.[٦]

---

[١] Şəri suallara cavab, ٥١٥-ci sual
[٢] Şəri suallara cavab, ٥١٤-cü sual
[٣] Şəri suallara cavab, ٥٠٣-cü sual
[٤] Şəri suallara cavab, ٥٠٥-ci sual
[٥] Şəri suallara cavab, ٥٠٤-cü sual
[٦] Şəri suallara cavab, ٥٠٤-cü sual

Namazı batil edən işlər barəsində bir neçə şəri hökm:

١) Namazda gözləri yummaq namazı batil etmir, lakin məkruhdur.[١]

٢) Namazda qunutdan sonra əlləri üzə çəkmək məkruhdur, lakin namazı batil etmir.[٢]

٣) Həsəd aparmaq, kin və ədavət bəsləmək olmaz, lakin bu işlər namazın batil olmasına səbəb olmur.[٣]

SUALLAR:

١. Namazı hansı işlər batil edir?

٢. "Səlamun əleykum" ifadəsi ilə görüşməyən şəxsin cavabını vermək vacibdirmi?

٣. Uşaqların verdiyi salama cavab vermək vacibdirmi?

٤. Əgər bir nəfər eyni anda bir neçə dəfə salam versə, onların hamısına bir cavab vermək kifayətdirmi?

٥. Hansı şəkildə gülmək namazı batil edir?

٦. Namazda qunutdan sonra əlləri üzə çəkməyin hökmü nədir?

---

[١] Şəri suallara cavab, ٥٠٧-ci sual

[٢] Şəri suallara cavab, ٥٠٦-cı sual

[٣] Şəri suallara cavab, ٧٢٤-cü sual

QIRX DOQQUZUNCU DƏRS

YOVMİYYƏ NAMAZLARI (١٥)

Namazın şəkkiyatı

١٢. Namazın şəkkiyatı.

Namazda şəkk ٢٣ qismdir:
- ٨ qismi namazı batil edən şəkklərdir.
- ٦ qisminə etina etmək lazım deyil.
- ٩ qismi düzgün şəkklərdir.

١) Namazı batil edən şəkklər:

Namazı batil edən şəkklər:

١. İki rəkətli namazların rəkətlərinin sayında şəkk etmək. Məsələn, sübh və ya müsafir namazlarında rəkətlərin sayında şəkk etmək.
٢. Üç rəkətli namazların rəkətlərinin sayında şəkk etmək (məğrib namazı)
٣. Dörd rəkətli namazlarda şəkk etsə və şəkkin bir tərəfi bir rəkət, digər tərəfi məsələn üç rəkət olsa, (yəni, şəkk etsə ki, namazın ١-ci rəkətidir, yoxsa, ٣-cü rəkəti)
٤. Dörd rəkətli namazlarda ikinci səcdədən əvvəl şəkk etsə və şəkkin bir tərəfi ٢ rəkət olsa. Məsələn, ikinci səcdədən əvvəl şəkk etsə ki, namazın ٢- ci rəkətidir, yoxsa ٣-cü rəkəti.
٥. İki və beş rəkət arasında, yaxud iki və beşdən artıq rəkət arasında şəkk etmək.
٦. İki və altı rəkət arasında, yaxud iki və altıdan artıq rəkət arasında şəkk etmək.
٧. Dörd və altı rəkət arasında, yaxud dörd və altıdan artıq rəkət arasında şəkk etmək.
٨. Namazın rəkətlərinin sayında şəkk etmək, belə ki, namazqılan ümumiyyətlə neçənci rəkətdə olduğunu bilməsə.

٢) Etina olunmayan şəkklər:

Bu şəkklərə etina olunmamalıdır:

١. Yeri keçdikdən sonra şəkk etmək. Məsələn, rükuya getdikdən sonra Həmd və Surənin düzgün qiraət olunduğuna şəkk etmək.
٢. Namazın salamından sonra şəkk etmək.
٣. Namaz vaxtı keçdikdən sonra şəkk etmək.
٤. Çox şəkk edən şəxs (kəsiruş-şəkk) öz şəkkinə etina etməməlidir.
٥. Pişnamaz və iqtida edənin (imam və məmum) şəkki.
٦. Müstəhəb namazlarda şəkk.

Diqqət:

- Əgər namazqılan namazın üçüncü rəkətində qunutu yerinə yetirib-yetirmədiyinə şəkk etsə, öz şəkkinə etina etməməlidir və namazı düzdür.[١]
- Hər kim bir neçə ildən sonra qıldığı namazların düzgün olub-olmadığına şəkk etsə, şəkkinə etina etməməlidir (Çünki yeri keçdikdən sonra edilən şəkkə etina olunmur).[٢]
- Əgər çox şəkk edən şəxs, istər rəkətlərin sayına, istər namazın hərəkətlərinə, istərsə də sözlərinə dair bir işi yerinə yetirib-yetirmədiyinə şəkk etsə, onu yerinə yetirdiyini qəbul etməlidir. Bir şərtlə ki, bu işin yerinə yetirilməsi namazın batil olmasına səbəb olmasın. Əgər bu işin yerinə yetirilməsi namazın batil olmasına səbəb olursa, onu yerinə

---

[١] Şəri suallara cavab, ٥١٦-cı sual
[٢] Şəri suallara cavab, ٥١٩-cu sual

yetirmədiyini qəbul etməlidir (Məsələn, əgər bir nəfər səcdə və ya rükunu yerinə yetirib-yetirmədiyinə şəkk etsə, onu yerinə yetirdiyini qəbul etməlidir. Lakin əgər şəkk etsə ki, sübh namazını iki rəkət qılıb, yoxsa üç rəkət, bu halda iki rəkət qıldığını qəbul etməlidir).[١]

- Şəkkin hökmləri baxımından - istər namazın sözlərində, istərsə də hərəkətlərində - vacib və nafilə namazları arasında fərq yoxdur. Yəni, əgər yeri keçməyibsə, şəkkə etina olunmalı, əks təqdirdə etina olunmamalıdır (məsələn, əgər namazqılan rükunu yerinə yetirib-yetirmədiyinə şəkk etsə, əgər növbəti rüknə keçməyibsə, yerinə yetirməli, əks təqdirdə şəkkinə etina etməməlidir).[٢]

٣) Düzgün şəkklər:

Dörd rəkətli namazların rəkətlərinin sayında şəkk ٩ halda düzdür

١. İkinci səcdədən qalxdıqdan sonra iki və üç rəkət arasında şəkk etmək.
٢. İkinci səcdədən qalxdıqdan sonra iki və dörd rəkət arasında şəkk etmək.
٣. İkinci səcdədən qalxdıqdan sonra iki, üç və dörd rəkət arasında şəkk etmək.
٤. İkinci səcdədən qalxdıqdan sonra dörd və beş rəkət arasında şəkk etmək.
٥. Yerindən asılı olmayaraq üç və dörd rəkət arasında şəkk etmək.
٦. Ayaq üstə ikən dörd və beş rəkət arasında şəkk etmək. etmək.
٧. Ayaq üstə ikən üç və beş rəkət arasında şəkk etmək.
٨. Ayaq üstə ikən üç, dörd və beş rəkət arasında şəkk
٩. Ayaq üstə ikən beş və altı rəkət arasında şəkk etmək.

---

[١] Şəri suallara cavab, ٥١٨-ci sual

[٢] Şəri suallara cavab, ٥١٧-ci sual

Namazın şəkkiyatına aid bir neçə şəri hökm:

١) Ehtiyat namazının neçə rəkət qılınması rəkətlərin sayında edilən şəkkdən asılıdır. Belə ki, əgər namazqılan iki və dörd rəkət arasında şəkk etsə, iki rəkət ehtiyat namazı qılmalıdır. Üç və dörd rəkət arasında şəkk etsə, bir rəkət ayaq üstə və iki rəkət oturan halda ehtiyat namazı qılmalıdır.[١]

٢) Əgər namazın sözlərindən biri – istər Həmd və Surədən olsun, istər zikirlərdən, istərsə də qunutun dualarından – səhv oxunsa, səcdeyi-səhv yerinə yetirmək vacib deyil.[٢]

SUALLAR:

١. Namazı batil edən şəkklərin sayı nə qədərdir və hansılardır?

٢. Hansı şəkklərə etina olunmamalıdır?

٣. Çox şəkk edən şəxs əgər namazda şəkk etsə nə etməlidir?

٤. Əgər namazqılan nafilə namazlarında rəkətlərin sayındankı şəkkdən qeyri bir şəkk etsə, məsələn, şəkk etşə ki, bir səcdə yerinə yetirib, yoxsa iki səcdə, şəkkinə etina etməlidirmi?

٥. Düzgün şəkklər hansılardır?

٦. Mükəlləf neçə rəkət ehtiyat namazı qılacağını necə təyin etmə-lidir?

---

١ Şəri suallara cavab, ٥٢٢-ci sual

٢ Şəri suallara cavab, ٥٢٣-cü sual

ƏLLİNCİ DƏRS

YOVMİYYƏ NAMAZLARI (١٦)

Cümə namazı

١٣. Cümə namazı

١. Cümə namazının hökmü:

١) Hal-hazırkı dövürdə (yəni, İmam Zamanın (ə.f) qeybi dövründə) Cümə günlərində zöhr namazının yerinə qılınan Cümə namazı təxyiri-vacib əməllərdəndir.[١]

Diqqət:

- Təxyiri-vacib əməl o deməkdir ki, cümə günündə zöhr və Cümə namazlarından birini qılmaq mükəlləfin ixtiyarına qoyulub.[٢]
- Qadınların Cümə namazında iştirak etməsinin heç bir maneəsi yoxdur və camaat namazının savabı vardır.[٣]
- Hal-hazırkı dövürdə Cümə namazını tərk etmək və iştirak etməmək şəri baxımdan günah sayılmır. Qeyd etmək lazımdır ki, əgər Cümə namazında iştirak etməməyin səbəbi bu namazı əhəmiyyətsiz hesab etməkdirsə, bu əməl, şəri baxımdan məzəmmət olunur.[٤]

---

[١] Şəri suallara cavab, ٦٠٦ və ٦٠٩-cu suallar, Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٥٧-ci məsələ

[٢] Şəri suallara cavab, ٦٠٧-ci sual

[٣] Şəri suallara cavab, ٥٩٥-ci sual

[٤] Şəri suallara cavab, ٦٠٨ və ٦٠٩-cu suallar

- Cümə namazında iştirak etməyən şəxs zöhr və əsr namazlarını namaz vaxtı başlanan kimi qıla bilər və Cümə namazının qurtarmasını gözləmək vacib deyildir.[١]
- Cümə namazına yaxın bir məkanda zöhr namazını camaat namazı şəklində qılmağın heç bir maneəsi yoxdur. Çünki hal-hazırkı dövrdə Cümə namazı təxyiri-vacib əməldir. Lakin əgər nəzərə alsaq ki, Cümə namazının təşkil olunduğu məkanın yaxınlığında cümə günü zöhr namazının camaat namazı şəklidə qılınması möminlərin vəhdətini pozur və hətta camaatın nəzərində Cümə namazının pişnamazına etinasızlıq və Cümə namazına etinasızlıq kimi dəyərləndirilir, odur ki, cümə günü möminlər zöhr namazını camaat namazı şəklində qılmasalar daha yaxşı olar. Lakin əgər bu əməl (cümə günü zöhr namazını camaatla qılmaq) günah və digər fəsadların törənməsinə səbəb olarsa, mütləq onu yerinə yetirməkdən çəkinməlidirlər.[٢]

٣) Cümə namazı zöhr namazını əvəz edir.[٣]

Diqqət:

- Doğrudur ki, Cümə namazı zöhr namazını əvəz edir, lakin ehtiyat ünvavında Cümə namazında sonra Zöhr namazını qılmağın, hətta əgər Cümə namazının pişnamazı (fiqhdə “imam cümə” adlanır) Cümə namazından sonra Zöhr namazını qılmasa belə eybi yoxdur. Əgər iqtida edən şəxs həm ehtiyata riayət etmək, həm də əsr namazını camaatla

---

[١] Şəri suallara cavab, ٦١٠ və ٦٣١-cü suallar

[٢] Şəri suallara cavab, ٦١٠-cu sual

[٣] Şəri suallara cavab, ٦١١-ci sual

qılmaq istəsə, ehtiyat budur ki, Cümə namazından sonra zöhr namazını qılan şəxsə iqtida etsin.[١]

- Avropa və digər qitələrin ölkələrində Ali məktəb tələbələrinin dini birlikləri tərəfindən təşkil olunan Cümə namazlarında namazqılanların əksəriyyəti, həmçinin imam-cümə sünnə əhlindən olmasına baxmayaraq müsəlmanların vəhdətini qorumaqdan ötrü bu Cümə namazlarında iştirak etməyin eybi yoxdur. Burada da Cümə namazından sonra zöhr namazını qılmaq vacib deyil.[٢]
- Səfərdə olan şəxs Cümə namazı qıla bilər və onun qıldığı Cümə namazı zöhr namazını əvəz edir.[٣]
- Beldən aşağı bədən üzvlərini itirən və bövlünü saxlaya bilməyən müharibə əlilləri Cümə namazında iştirak edə bilərlər. Lakin onların şəri vəzifəsi dəstəmaz alan kimi yubanmadan namaz qılmaq olduğundan Cümə namazının xütbələrindən öncə aldıqları dəstəmaz pozulmadığı təqdirdə bu dəstəmazla namaz qıla bilərlər.[٤]

Cümə namazının şərtləri

١. Camaat namazı şəklində qılınmalıdır.

٢. Ən azı beş nəfər iştirak etməlidir: bir nəfər pişnamaz və dörd nəfər iqtida edən.

٣. Camaat namazının bütün şərtləri, məsələn, cərgələrin bitişik
olmasına riayət olunmalıdır.

٤. Təşkil olunan iki Cümə namazı arasındakı məsafə ən azı bir

---

[١] Şəri suallara cavab, ٦١١ və ٦١٢-ci məsələlər
[٢] Şəri suallara cavab, ٦٢١-ci sual
[٣] Şəri suallara cavab, ٦٢٥-ci sual
[٤] Şəri suallara cavab, ١١٥-ci sual

٢. Cümə namazının şərtləri:

II. Cümə namazı camaat namazı şəklində qılınmalıdır. Hətta Cümə namazını camaat namazı ilə qılanların kənarında dayanıb furada (tək halda) Cümə namazı qılmaq düzgün deyildir.[١]

III. Camaat namazının bütün şərtləri Cümə namazında riayət olunmalıdır.

Diqqət:

- İmam-cümə (Cümə namazının pişnamazı) ədalətli şəxs olmalıdır. Odur ki, əgər məmum, İmam-cüməni ədalətli şəxs kimi tanımasa və ya ədalətli olmasına şəkk etsə, ona iqtida etməsi düzgün deyildir. Lakin vəhdəti qorumaq məqsədilə Cümə namazında iştirak etməyin eybi yoxdur. Hər bir halda – istər Cümə namazında iştirak etsin, istərsə də etməsin – başqalarını Cümə namazından çəkindirməyə heç kimin haqqı yoxdur.[٢]
- Hər kim Cümə namazını qılıb qurtardıqdan sonra İmam-cümənin ədalətinə şəkk etsə və ya ədalətsizliyinə əmin olsa, qıldığı namazlar düzdür və onları yenidən qılmağa ehtiyac yoxdur.[٣]
- Əgər bir fərdin İmam-cüməliyə təyin olunması məmumda (iqtida edən şəxs) onun ədalətinə etimad yaratsa, bu, iqtida etmək üçün yetərlidir.[١]
- İmam-cümənin dediyi sözlərin həqiqətlə üst-üstə düşməməsi onun yalan danışdığına və yalançı bir fərd olduğuna qəti sübut deyil. Çünki

---

[١] Şəri suallara cavab, ٦٢٤-cü sual
[٢] Şəri suallara cavab, ٦١٦-cı sual
[٣] Şəri suallara cavab, ٦٢٠-cı sual

o da yanıla bilər və ya müəyyən səbəblərə görə həqiqəti gizlətməyə çalışar. İmam-cümənin ədalətsiz bir fərd olduğunu güman edib Cümə namazını tərk etmək bəyənilmir.[٢]

- İslam dünyasının hər bir məntəqəsində İmam-cüməni o məntəqənin ədalətli şəri hakimi təyin etməlidir.[٣]
- Məntəqənin İmam-cüməsi özünə müvəqqəti canişin seçə bilər. Lakin İmam-cümənin canişini vəliyyi-fəqih tərəfindən təyin olunan İmam-cümə hökmündə deyildir.[٤]
- İmam-cümənin özünə təyin etdiyi canişininə iqtida edib Cümə namazı qılmasının heç bir maneəsi yoxdur.[٥]

IV. Təşkil olunan iki Cümə namazı arasındakı məsafə ən azı bir fərsəx omalıdır. İki Cümə namazı arasındakı məsafə bir fərsəxdən az olmamalıdır. Əks təqdirdə bu iki namazdan birincisi düz, ikincisi isə batildir. Lap yaxın qılındığı təqdirdə isə ikisi də batildir.[٦]

٣. Cümə namazının vaxtı

Cümə namazının vaxtı zöhr namazının vaxtının başlanması ilə başlanır. Vacib ehtiyata görə vaxtın əvvəlindən etibarən bir-iki saatdan çox təxirə salınmamalıdır.[٧]

---

[١] Şəri suallara cavab, ٦١٨ və ٦١٩-cu suallar
[٢] Şəri suallara cavab, ٦١٧-ci sual
[٣] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٥٨-ci məsələ
[٤] Şəri suallara cavab, ٦٣٢-ci sual
[٥] Şəri suallara cavab, ٦٣٢-ci sual
[٦] Şəri suallara cavab, ٦٢٣-cü sual
[٧] Şəri suallara cavab, ٦٣٠-cu sual, Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٥٩-cu məsələ

٤. Cümə namazının qaydası

١) Cümə namazı sübh namazı kimi iki rəkətdir. Bir fərqlə ki, Cümə namazından qabaq İmam-cümə iki xütbə (nitq) söyləməlidir.

٢) Müstəhəbdir ki, Cümə namazı ucadan qiraət edilsin və birinci rəkətdə Həmddən sonra Cümə surəsi, ikinci rəkətdə Munafiqun surəsi oxunsun. Həmçinin birinci rəkətdə rükudan qabaq, ikinci rəkətdə isə rükudan sonra qunut tutmaq müstəhəbdir.

Diqqət:

- Xütbələri dinləməyə yetişməyib Cümə namazı qılan şəxsin namazı düzdür. Hətta Cümə namazının axırıncı rükusunda namaza qatılsa belə, namazı düzdür.[١]
- Xanım Fatimeyi-Zəhra (s.ə) Cümə namazının ikinci xütbəsində İmam-cümənin salavat göndərdiyi imamlar sırasına daxil deyil və o xanımın adını çəkmək vacib deyildir. Lakin təbərrük ünvanında o xanımın adını çəkməyin eybi yoxdur, hətta böyük savabı vardır.[٢]
- Cümə namazının xütbələrini zöhr namazının vaxtı daxil olmamışdan öncə də söyləmək olar. Lakin ehtiyati-müstəhəbə görə xütbələrin bir qismi zöhr namazının vaxtı söylənilsə yaxşıdır. Əhvət (daha böyük ehtiyat) budur ki, xütbələr, ümumiyyətlə namaz vaxtı daxil olduqdan sonra söylənilsin.[١]

---

[١] Şəri suallara cavab, ٦٢٩-cu sual

[٢] Şəri suallara cavab, ٦٢٦-cı sual

Cümə namazı barədə bir neçə şəri hökm:

١) İslam dini möminlər arasında təfriqə yaradan və onların vəhdətini pozan bir işə əsla yol vermir. Cümə namazı müsəlmanların vəhdətini təmin edən ibadətlərdən biri olduğuna görə bu ibadətin yerinə yetirilməsində vəhdətin qorunmasına daha çox diqqət olunmalıdır.[٢]

٢) Cümə günü əsr namazını İmam-cümədən qeyri bir pişnamaza iqtida etmək olar.[٣]

٣) Cümə namazını qılan İmam-cüməyə başqa bir vacib namazı iqtida edib qılmağın nə dərəcədə düzgün olduğu sual altındadır.[٤]

SUALLAR:

١. Cümə namazının təxyiri-vacib əməl olması nə deməkdir?

٢. Cümə namazına yaxın bir məkanda zöhr namazını camaat namazı ilə qılmaq olarmı?

٣. Hər kim Cümə namazını qılıb qurtardıqdan sonra İmam-cümənin ədalətinə şəkk etsə və ya ədalətsizliyinə əmin olsa, qıldığı namazlar düzdürmü və onları yenidən qılmağa ehtiyac varmı?

٤. Bir fərdin İmam-cüməliyə təyin olunması onun ədalətli olduğunu təsdiq edirmi?

٥. Xütbələri dinləməyə yetişməyib Cümə namazı qılan şəxsin namazı düzdürmü?

٦. Cümə namazının xütbələrini zöhr namazının vaxtı daxil olmamışdan öncə söyləmək olarmı?

---

[١] Şəri suallara cavab, ٦٢٨-ci sual, Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٦٠-cı məsələ

[٢] Şəri suallara cavab, ٦٢٢-ci sual

[٣] Şəri suallara cavab, ٦١١-ci sual

[٤] Şəri suallara cavab, ٦٢٧-ci sual

ƏLLİ BİRİNCİ DƏRS

YOVMİYYƏ NAMAZLARI (١٧)

Müsafir namazı «١»

١٤. Müsafir namazı

١. Səfərdə dörd rəkətli namazların qəsr qılınması.

Səfərdə dörd rəkətli namazlar müəyyən şərtlərlə qəsr yəni, iki rəkət qılınmalıdır.[١]

Diqqət:

- Dörd rəkətli namazlar, yəni, zöhr, əsr və işa namazları səfərdə qəsr qılınır. Sübh və məğrib namazları qəsr qılınmır.[٢]

٢. Müsafir namazının şərtləri.

Səfərə çıxan şəxs, yəni, müsafir ٨ **şərtlə** dörd rəkətli namazları iki rəkət qılmalıdır:

I. Müsafir şəri məsafəni qət etməlidir. Yəni, ya getdiyi, ya qayıtdığı, ya da gedib-qayıtdığı məsafə ən azı ٨ fərsəx olmalıdır.

II. Müsafir səfərə çıxarkən ٨ fərsəx məsafəni qət etmək niyyətində olmalıdır. Deməli, əgər müsafir əvvəlcədən ٨ fərsəx məsafəni qət etmək niyyətində olmasa, başqa sözlə desək, ٨ fərsəxdən az bir məsafəni qət etməyi nəzərdə tutsa və nəzərdə tutduğu məkana çatdıqdan sonra başqa bir yerə səfər etmək qərarına gəlsə, bu halda əgər səfər edəcəyi növbəti məkanla səfər etdiyi məkan arasındakı məsafə şəri məsafədən

---

[١] Rəhbərdən soruşulan suallar, Namaz bölümü, ١٥٢-ci məsələ

[٢] Şəri suallara cavab, ٦٣٩-cu sual

az olsa, hətta öz mənzilindən ora qədər olan məsafə şəri məsafə qədər olsa belə namazını tam şəkildə qılmalıdır.

III. Müsafir yola çıxdıqdan sonra şəri məsafəni qət etmək niyyətindən dönməsin. Beləliklə, əgər yola çıxdıqdan sonra dörd fərsəxi qət etməmiş fikrindən dönsə və ya tərəddüd etsə, müsafir hökmündə deyildir. Hərçənd ki, niyyətindən dönməmişdən öncə qəsr qıldığı namazlar düzdür.

IV. Müsafir vətənindən və ya on gün qalacağı bir yerdən keçməklə məsafəni kəsməməlidir.

V. Səfər, şəri baxımdan halal olmalıdır. Əgər səfər, günah və haram olsa, istər səfərin özü haram olsun, məsələn, cihaddan qaçmaq, istərsə də haram bir iş üçün səfər etsin, məsələn, oğurluğa getmək, belə səfər şəri baxımdan səfər hökmündə deyil və namaz tam qılınmalıdır.

VI. Sabit yaşayış yeri olmayan və köçəri həyat tərzi sürənlərin səfəri şəri baxımdan səfər hökmündə deyildir.

VII. Sürücü, gəmiçi və s. bu kimi daim səfər etmək insanın peşəsi olmasın. İşi səfərdə olan şəxs də bu qəbildəndir.

VIII. “Tərəxxüs həddi”nə çatmalıdır. Tərəxxüs həddi o məkana deyilir ki, orada artıq şəhərdə çəkilən azanın səsi eşidilmir və şəhər divarları da görünmür. Böyük ehtimalla azan səsinin eşidilməməsi tərəxxüs həddini təyin etmək üçün kifayət edir.[۱]

۱. Şəri məsafə

۱) Dörd fərsəx yol getməyən və dörd fərsəx də qayıtmayan şəxs, namazı tam qılmalıdır. Deməli, əgər ezamiyyətə göndərilən şəxsin vətəni

ilə iş yeri arasındakı məsafə şəri məsafə qədər olmasa, müsafir hökmündə deyildir.[٢]

٢) Əgər bir şəxs yaşadığı şəhərdən çıxıb müəyyən bir məkana səfər etsə və orada gəzintiyə çıxsa, bu gəzintidə qət etdiyi məsafə şəri məsafədən hesab olunmayacaqdır.[٣]

٣) Şəri məsafə olan ٨ fərsəx məsafəni şəhərin axırından hesablamaq lazımdır. Şəhərin axırını isə həmin şəhərin camaatı təyin edir. Əgər camaatın nəzərində şəhərin ətrafında yerləşən zavod və fabriklər şəhərin ərazisindən sayılmırsa, şəri məsafəni şəhərin sonuncu evlərindən hesablamaq lazımdır.[٤]

٢. Şəri məsafəni qət etmək niyyəti

١) Üç fərsəklikdə yerləşən bir məkana səfər etmək niyyətində olan şəxs, əgər əvvəlcədən qərara alsa ki, yola çıxdıqdan sonra müəyyən bir işlə əlaqədar başqa bir istiqamətə yönəlib bir fərsəx məsafə qət edəcək və sonra yenidən öz yoluna (yəni, səfər etdiyi məkana doğru gedən yola) dönüb səfərini davam etdirəcəkdir, belə şəxs müsafir hökmündə deyildir. Başqa istiqamətdə qət etdiyi məsafəni şəri məsafənin tamamlanması üçün onun üzərinə əlavə edə bilməz.[٥]

٢) Əgər bir şəxs yaşadığı yerdən uzaqlığı şəri məsafədən az olan bir məkana səfər etsə və həftə ərzində oradan bir neçə dəfə ətraf məntəqələrə getsə, bu halda əgər evdən xaric olduqda şəri məsafəni qət et-

---

[١] Şəri suallara cavab, ٦٤٠-cı sual
[٢] Şəri suallara cavab, ٦٦٢ və ٦٧٢-ci suallar
[٣] Şəri suallara cavab, ٦٦٤-cü sual
[٤] Şəri suallara cavab, ٦٧٨-ci sual
[٥] Şəri suallara cavab, ٦٦١-ci sual

mək niyyətində deyildisə və səfər etdiyi məkanla ətraf məntəqələr arasındakı məsafə də şəri məsafə ölçüsündə olmasa, qət etdiyi ümumi məsafə ٨ fərsəxdən çox olsa belə belə həmin şəxs müsafir hökmündə deyildir.[١]

٥. Haram və günah olan səfər

١) Hər kim günah olmayan bir səfərə çıxsa, lakin səfər əsnasında günah bir iş ardınca getməyi qərara alsa, bu qərara gəldiyi andan etibarən namazlarını tam qılmalıdır. Əgər qəsr qılıbdırsa, yenidən tam qılmalıdır.[٢]

٢) Əgər insan vacib bir əməli tərk etmək və ya haram bir əməli yerinə yetirmək məqsədilə səfərə çıxmırsa, hətta bu səfərdə günaha düşəcəyini bilsə belə, digər müsafirlər kimi namazını qəsr qılmalıdır.[٣]

٣) Hər kim bilsə ki, əgər səfərə çıxsa, namazın vacibatlarından bəzisini tərk etmək məcburiyyətində qalacaq, çətinlik və xəsarətlə üzləşməyəcəyi təqdirdə vacib ehtiyata görə həmin səfərə çıxmamalıdır.[٤]

٧. Peşəsi (yəni, səfərə çıxmaq həmin peşənin ayrılmaz hissəsidir) səfər etmək olan şəxs

١) Səfərə çıxmaq sürücü, təyyarəçi, gəmiçi, çoban və s. bu kimi şəxslərin bir növ peşəsi olduğu üçün onlar artıq üçüncü səfərlərində namazı tam qılmalıdırlar. Lakin birinci və ikinci səfərlərində namazı qəsr qılmalıdırlar.[٥]

---

[١] Şəri suallara cavab, ٦٦٣-cü sual
[٢] Şəri suallara cavab, ٦٨٠-ci sual
[٣] Şəri suallara cavab, ٦٧٩-cu sual
[٤] Şəri suallara cavab, ٦٨١-ci sual
[٥] Şəri suallara cavab, ٦٤١, ٦٤٢ və ٦٤٣-cü suallar

Diqqət:

- Peşəsi səfər etmək olamayan, lakin işinin müqəddiməsi səfər etmək olan şəxs, peşəsi səfər etmək olan şəxs hökmündədir. Məsələn, müəllim, fəhlə, mühəndis, əsgər və s. bu kimi şəxslər on gün tamamlanmamış ən azı bir dəfə iş yerlərinə səfər edirlər.[١]
- Tələbəlik, peşə və iş hesab olunmur. Odur ki, hər gün və ya həftənin bir neçə günü səfər edən tələbələr, namazı qəsr qılmalıdırlar. Əlbəttə, təhsilə göndərilən müəllimlər (müəllimlər və s. peşə sahibləri üçün qoyulan təkmilləşmə kursları) səfər etdikdə, namazlarını tam qılmalıdırlar.[٢]
- Ziyarət, iş hesab olunur. Odur ki, hər həftə məsələn, xanım Məsumənin (ə.s) ziyarətinə gedən və ya Cəmkəran məscidinin əməllərini yerinə yetirmək üçün ora səfər edən şəxs, müsafir hökmündədir və namazı qəsr qılmalıdır.[٣]
- Əgər sürücülük, bir kəsin daimi peşəsi olmayıb lakin qısa bir müddət ərzində sürücülük etməlidirsə, məsələn, hərbi xidmətdə olan əsgərə sürücülük etmək vəzifəsi tapşırılıbsa, bu halda əgər camaatın nəzərində bu qısa müddət ərzində sürücülük həmin şəxsin peşəsi sayılsa, bu şəxs, sürücü hökmündədir.[٤]
- Əgər getmək və qayıtmağın ikisi birgə camaatın nəzərində bir dəfə səfər etmək sayılırsa, məsələn, başqa bir şəhərə tədris üçün gedən

---

[١] Şəri suallara cavab, ٦٤٠, ٦٤٢, ٦٤٢ və ٦٥٢-ci suallar
[٢] Şəri suallara cavab, ٦٥٢ və ٦٥٣-cü suallar
[٣] Şəri suallara cavab, ٦٦٨-ci sual
[٤] Şəri suallara cavab, ٦٥٠-ci sual

müəllim axşam və ya sabah səhər öz şəhərinə dönürsə, şəri baxımdan da həmin şəxsin birinci səfəri sayılacaqdır. Əgər getmək və qayıtmağın ikisi birgə camaatın nəzərində bir dəfə səfər etmək sayılmırsa, məsələn, bir şəhərə yük aparan sürücü, həmin şəhərə çatıb yükü boşaltdıqdan sonra yenidən o şəhərdən başqa bir şəhərə yük aparır və sonra öz şəhərinə dönürsə, bu halda birinci səfər etdiyi şəhərə çatmaqla onun birinci səfəri tamamlanır.[١]

٢) Peşəsi səfər etmək olan şəxs, əgər peşəsi ilə əlaqədar olmayan bir iş üçün səfərə çıxsa, müsafir hökmündədir və namazı qəsr qılmalıdır.

Lakin əgər bu şəxs, peşəsi ilə əlaqədar iş yerinə səfər etsə və səfərdə ikən qohumları, dostları ilə görüşüb hətta bir neçə gün orada qalsa da peşəsi səfər etmək olan şəxs hökmündədir və namazını tam qılmalıdır.

Peşəsi səfər etmək olan şəxsin peşəsi ilə əlaqədar olan işləri görüb qurtardıqdan sonra şəxsi və xüsusi işlərini yerinə yetirməsi, onun hökmünü dəyişdirmir.[٢]

Diqqət:

- Əgər peşəsi sürücülük olan bir şəxsin maşını yol qəzası hadisəsində xəsarət alsa və sürücü öz maşınının təmiri üçün lazım olan maşın hissələrini əldə etməkdən ötrü başqa bir şəhərə səfər etsə, əgər o, bu səfərdə özü sürücülük etməsə və camaatın da nəzərində onun bu səfəri peşəsi səfər etmək olan şəxslərin səfəri ünvanında olmasa, bu sürücü, müsafir hökmündədir.[٣]

---

[١] Şəri suallara cavab, ٦٤٩-cu sual

[٢] Şəri suallara cavab, ٦٤٥ və ٦٤٦-cı suallar

[٣] Şəri suallara cavab, ٦٥١-ci sual

- Əgər camaatın nəzərində “əmr be məruf” və “nəhy əz munkər” etmək, bir sözlə dini yaymaq, bir ilahiyyatçısının peşəsi sayılsa, bu məqsədlə səfər edən ilahiyyatçı, işinin müqəddiməsi səfər etmək olan, başqa sözlə peşəsi ilə əlaqədar səfər edən şəxs hökmündədir. Lakin əgər dini yaymaq məqsədilə deyil, başqa bir şəxsi işi üçün səfər etsə, müsafir hökmündədir və namazı qəsr qılmalıdır.[١]
- Peşəsi səfər etmək olan şəxs, əgər on gün və ya daha artıq bir yerdə qalsa, qaldığı məkan istər öz vətəni olsun, istərsə də qeyri-vətən, on gündən sonra birinci səfərində namazını qəsr qılmalıdır.[٢]

٨. Tərəxxüs həddi

١) Şəhərdə çəkilən azanın eşidilməməsi tərəxxüs həddini təyin etmək üçün kifayətdir. Lakin ehtiyati-müstəhəbə görə hər iki əlamətə riayət etmək (azan səsinin eşidilməməsi və şəhər divarlarının görünməməsi) yaxşıdır.[٣]

٢) Səfərə çıxan şəxs şəhərin hansı tərəfindən çıxırsa, şəhərin həmin çıxacağında çəkilən azan səsi tərəxxüs həddini təyin etmək üçün meyar götürülür (Şəhərin ortasında çəkilən azanın səsi meyar deyildir).[١]

---

[١] Şəri suallara cavab, ٦٥٤-cü sual
[٢] Şəri suallara cavab, ٦٥٢-ci sual
[٣] Şəri suallara cavab, ٦٧٦-cı sual

SUALLAR:

١. Müsafir namazının [١] şərtini bəyan edin.

٢. Haram səfər hansı səfərə deyilir?

٣. Səkkiz fərsəx olan şəri məsafənin hesablanması üçün şəhərin axırı dedikdə hara nəzərdə tutulur?

٤. Peşəsi səfər etmək olan şəxs dedikdə nə nəzərdə tutulur?

٥. Müsafirin birinci səfəri səfər etdiyi yerə çatdıqda tamamlanır, yoxsa vətəndən xaric olub ora geri döndükdə?

٦. Tərəxxüs həddinin iki əlamətindən biri hasil olsa kifayətdirmi?

---

[١] Şəri suallara cavab, ٦٧٧-ci sual

ƏLLİ İKİNCİ DƏRS

YOVMİYYƏ NAMAZLARI (١٨)

Müsafir namazı «٢»

٣. Aşağıdakı səbəblər nəticəsində səfər və müsafir hökmü ortadan qalxır:

I. Vətənə yetişmək.

II. On gün müəyyən bir yerdə qalmağı qarşıya məqsəd qoymaq.

III. Getdiyi yerdə neçə gün qalacağını bilməyən müsafir, əgər həmin yerdə bir ay qalarsa.[١]

Diqqət:

- Əgər müsafir vətənindən çıxsa və elə bir yol ilə hərəkət etsə ki, həmin yolda vətənində çəkilən azan səsi eşidilir və ya evlərin divarları görünür, öz vətənindən keçməyənədək onun qət etdiyi məsafə şəri məsafədən hesab olunur. Lakin o, vətəni ilə tərəxxüs həddi arasındakı məsafədə müsafir hökmündə deyildir.[٢]

٤. Vətən

١) Vətənin qisimləri:

Vətən, bir cəhətdən iki qismə bölünür:

I. Əsil vətən, başqa sözlə doğma vətən: İnsanın dünyaya gəldiyi və bir müddət orada qalıb boya-başa çatdığı yer.

II. İnsanın seçdiyi vətən (ikinci vətən): İnsanın özünə seçdiyi daimi yaşayış yeridir, hətta ilin bir neçə ayını orada qalsa belə.

---

[١] Şəri suallara cavab, ٦٤٠ və ٦٧٣-cü suallar

[٢] Şəri suallara cavab, ٦٥٨-ci sual

Diqqət:

- İnsanın doğulduğu şəhər bir şərtlə onun doğma vətəni sayılır ki, orada bir müddət qalıb boya-başa çatsın. Məsələn, əgər bir nəfər Bakı şəhərində doğulsa, lakin orada boya-başa çatmasa, Bakı onun doğma vətəni sayılmır. Onun vətəni, ata-anasının vətənidir (doğulduqdan sonra ata-anası tərəfindən aparıldığı və orada boya-başa çatdığı yer).
- Şübhəsiz, əgər uşağın dünyaya gəldiyi doğum evi ata-ananın yaşadığı vətəndə yerləşərsə, ora uşağın da vətəni olur.[١]

٢) İnsanın seçdiyi vətənin şərtləri.

İnsanın seçdiyi vətənin üç şərti var:

I. İnsan özünə ikinci vətən seçərkən qərarı qəti olmalıdır. Deməli, əgər insan müəyyən bir yerdə uzun müddət məskunlaşmağı qəti surətdə qərara almasa, həmin yer onun vətəni sayılmır. Əlbəttə, əgər insan uzun müddət müəyyən bir yerdə yaşasa, belə ki, artıq camaatın nəzərində həmin yer onun vətəni hesab olunsa, onun özü həmin yeri vətən seçmək niyyətində olması belə, o yer onun vətəni sayılır. Camaatın nəzərini öyrənmək isə mükəlləfin öz öhdəsindədir.

Deməli müəyyən olmayan bir müddət üçün ezamiyyətə göndərilən rəsmi işçilərin işlədikləri şəhər və ya təhsil almaq üçün başqa şəhərlərə gedən tələbələrin təhsil aldıqları şəhər onların vətəni sayılmır. Lakin əgər (uzun müddət orada yaşadıqları üçün) camaatın nəzərində artıq həmin yer onların vətəni hesab olunsa, şəri baxımdan da vətən hökmündədir. Uzun müddət vətənindən ayrı düşən və vətənə geri dönməsi hal-hazırda qadağan olan fərdlər, əgər bir gün vətənlərinə

dönəcəklərinə əmindirlərsə, müsafir hökmündədirlər. Bir şərtlə ki, camaatın nəzərində o məntəqənin sakini sayılmasınlar, başqa sözlə desək, həmin yer onların vətəni hesab olunmasın.

II. İnsan müəyyən bir şəhəri, kəndi, qəsəbəni özünə ikinci vətən seçə bilər, lakin bütün bir ölkəni, məsələn, İranı, ikinci vətən kimi seçmək olmaz.

III. İkinci vətəndə bir müddət yaşamalıdır ki, camaatın nəzərində həmin yer onun vətəni (o yerin əhlindən) hesab olunsun. Əlbəttə ٦ ay ardıcıl olaraq orada qalmaq şərt deyildir. Belə ki, əgər insan müəyyən bir yeri ikinci vətən seçdikdən sonra bu niyyətlə bir müddət (təkcə gecələr olsa belə) orada yaşasa, onun vətəni sayılır.[٢]

Diqqət:

- Yeni vətəndə ev, mülk sahibi olmaq şərt deyildir.[١]

٣) Vətənin sayı

İnsanın iki, hətta üç vətəni ola bilər. Fəsillərə görə daim yaylaqdan qışlağa, qışlaqdan da yaylağa köçən və hər iki məkanı özlərinə daimi yaşayış yeri seçən qəbilələr üçün həm yaylaq, həm də qışlaq vətən sayılır. Əgər yaylaq və qışalq arasındakı məsafə şəri məsafə qədər olsa, birindən digərinə köçərkən yol boyu müsafir hökmündədirlər.

Həmçinin əgər bir nəfər doğulduğu kənddə bir müddət yaşadıqdan sonra bir şəhərə köçsə və orada da bir neçə il yaşayıb başqa bir şəhərə köçsə, bu halda əgər doğulduğu kəndi tərk etməyibsə, vətən

---

[١] Şəri suallara cavab, ٦٨٨ və ٦٩٦-cı suallar

[٢] Şəri suallara cavab, ٦٨٥ və ٦٩٠-cı suallar, Rəhbərdən soruşulan suallar, Namaz bölümü

hökmündədir. Eləcə də əgər bir neçə il yaşadığı şəhəri özünə vətən seçmişdisə, oranı tərk etməyənədək vətəni sayılır. Hal-hazırda yaşadığı şəhəri də əgər özünə vətən seçibsə və camaatın nəzərində artıq o şəhər onun vətəni sayılırsa, vətən hökmündədir.[٢]

٤) Vətəni tərk etmək

١. Vətəndən çıxıb bir daha orada yaşamamağı qərara almaq, vətəni tərk etmək deməkdir.[٣]

٢. İnsan vətənini tərk etməyənədək orada namazı tam qılmalıdır. Vətəni tərk etdikdən sonra artıq ora vətən hökmündən xaric olur. Lakin əgər insan yenidən orada yaşamaq qərarına gəlsə və bir müddət bu məqsədlə orada yaşasa, yenidən həmin yer onun vətəni sayılacaqdır.

Beləliklə, əgər bir şəxs işi ilə əlaqədar kənddən şəhərə köçsə və bir daha kəndə geri dönmək niyyətində olmasa, ata-anası orada yaşasalar və vaxtaşırı onların görüşünə getsə də həmin kənd onun vətəni sayılmır.[٤]

٥) Qadın özünə vətən seçmək və ya tərk etmək mövzusunda ərinə tabe deyildir. Ərin vətəni hökmən qadının vətəni demək deyildir. Beləliklə, qadın öz ərinin vətəninə onunla birgə səfər etdikdə - belə ki, hal-hazırda əri orada yaşamır və bəzən ora səfər edir – orada namazı qəsr qılmalıdır. Həmçinin qızın ailə qurub başqa şəhərə köçməsi vətənin tərk etmək mənasında deyildir. Əgər qız başqa şəhərə gəlin köçsə də

---

١ Şəri suallara cavab, ٦٩٠-cı sual

٢ Şəri suallara cavab, ٦٤٤, ٦٨٧ və ٧٠٣-cü suallar

٣ Şəri suallara cavab, ٦٩٤-cü sual

٤ Şəri suallara cavab, ٦٨٦, ٦٩٧, ٦٩٨ və ٧٠٠-ci suallar

vətənini tərk etmək niyyətində olmayanadək atası evinə getdikdə namazı tam qılmalıdır.

Əlbəttə əgər qadın özünə vətən seçmək və ya tərk etmək mövzusunda ərinə tabe olmaq istəsə, ərinin qərarı onun üçün də kifayət edir və ərinin daimi yaşayış üçün seçdiyi şəhər onun da vətəni hesab olunur. Yaxud əri onunla müştərək olan vətənlərini tərk etsə, qadın da vətənini tərk etmiş hökmündədir.[١]

٢. Hər bir kəs həyatda müstəqil yaşamağa və müstəqil qərar verməyə qadir olmayanadək, başqa sözlə desək atasının ixtiyarında olanadək, vətən seçmək və ya vətəni tərk etmək mövzusunda atasına tabedir. Məsələn, atanın öz vətənini tərk edib daimi yaşayış üçün seçdiyi başqa bir məkan onun da vətəni sayılır. Lakin əgər atasının ixtiyarında deyildirsə, bu mövzuda da atasına tabe deyildir.

Deməli, hər kim büluğ həddinə çatmamışdan qabaq doğulduğu yerdən başqa bir şəhərə köçsə (təbii ki, ailəsi ilə birgə) və atası bir daha o şəhərdə yaşamaq niyyətində olmasa, doğulduğu yer artıq o uşağın vətəni sayılmır və onun vətəni atasının yeni seçdiyi məkandır.[٢]

---

[١] Şəri suallara cavab, ٦٩٢, ٦٩٤, ٧٠٤ və ٧٠٥-ci suallar

[٢] Şəri suallara cavab, ٦٨٢, ٦٨٦, ٦٨٧ və ٧٠٦-cı suallar

SUALLAR:

١. Hansı səbəblər nəticəsində səfər və müsafir hökmü ortadan qalxır?

٢. Əsil vətən və insanın seçdiyi vətən (ikinci vətən) nə deməkdir?

٣. İnsanın seçdiyi vətənin şərtləri hansılardır?

٤. İnsanın birdən artıq vətəni ola bilərmi?

٥. Vətəni tərk etmək nə deməkdir?

Ailə qurub başqa şəhərə gəlin köçən qız atası evinə getdikdə namazını qəsr qılmalıdır, yoxsa tam?

ƏLLİ ÜÇÜNCÜ DƏRS

YOVMİYYƏ NAMAZLARI (١٩)

Müsafir namazı «٣»

٥. Müəyyən bir yerdə on gün qalmaq niyyəti

١. Əgər müsafir on gün ardıcıl olaraq bir yerdə qalmaq niyyətində olsa və ya ixtiyarsız olaraq orada on gün qalacağını bilsə, namazı tam qılmalıdır. Əks təqdirdə, müsafir hökmündədir. Hərbi xidmətdə olanlar və ya hərbiçilər də bu hökümdən müstəsna deyildirlər[١].

Diqqət:

• Hər kim bilsə ki, bir yerdə on gün qalmayacaq, on gün qalmağı niyyət etmək mənasızdır. Məsələn, əgər imam Rzanın (ə) ziyarətinə gedən şəxs Məşhəddə on gündən az qalacağını bilsə, lakin namazını tam qılsın deyə on gün qalmağı niyyət etməsı mənasızdır və namazını qəsr qılmalıdır[٢].

٢. Müsafir yalnız bir yerdə (məsələn, bir şəhərdə, bir kənddə və s.) on gün qalmağı niyyət edə bilər. Deməli, camaatın nəzərində iki müxtəlif məntəqə sayılan yerlərə ezamiyyətə göndərilən şəxs, onların birində on gün qalma niyyətini edə bilər. Əgər heç birində ardıcıl olaraq on gün qalmayacağını bilsə, hər iki yerdə namazı qəsr qılmalıdır[٣].

---

[١] Şəri cavab, ٦٤٢, ٦٤٨ və ٦٨٣-cü suallar.

[٢] Şəri suallara cavab, ٦٧١-ci sual.

[٣] Şəri suallara cavab, ٦٧٤-cü sual.

Diqqət:

• Şəhərin bir məhəlləsində on gün qalmaq niyyətində olan müsafir, əgər həmin məhəllədən şəhərin digər bir məhəlləsinə getsə, hətta bu məhəllə arasındakı məsafə şəri məsafə qədər olsa belə namazı tam qılmalıdır[١].

٣. Müəyyən bir yerdə on gün qalmaq niyyətində olan şəxs, on gün əsnasında o yerin ətrafındakı bağlara, əkin sahələrinə və s. yerlərə gedəcəyini nəzərdə tutarsa, heç bir maneəsi yoxdur və namazı tam qılmalıdır.

Həmçinin əgər müsafir on gün qalmaq niyyətində olduğu yerdən şəri məsafədən az olaraq uzaqlaşacağını əvvəlcədən bilsə, bu şərtlə onun on gün qalma niyyətinə xələl gəlməz və namazını tam qıla bilər ki, gündüz və ya gecə bir-iki dəfə bir neçə saatlıq oradan uzaqlaşsın. Belə ki, o yerdən uzaqlaşacağı müddət cəmisi gündüz və ya gecənin üçdə birindən çox olmamalıdır. [٢]

٤. Əgər müsafir on gün qalmağı niyyət etdiyi yerdən ٤ fərsəx məsafə qədər - hətta bir dəfə bir neçə dəqiqəliyə - uzaqlaşmağı əvvəlcədən qərara alsa, bu onun on gün qalma niyyətinə xələl gətirir və namazı qəsr qılmalıdır.[٣]

٥. Əgər müsafir on gün qalmağı qərara aldığı yerdə bir dörd rəkətli namaz (zöhr, əsr və ya işa) qılmamışdan öncə qərarından dönsə və ya tərəddüd etsə, orada olduğu müddətdə namazı qəsr qılmalıdır. Lakin

---

[١] Şəri suallara cavab, ٦٥٧-ci sual.

[٢] Şəri suallara cavab, ٦٥٦, ٦٥٩, və ٦٦٥-ci suallar.

[٣] Şəri suallara cavab, ٦٥٦, ٦٥٩ və ٦٦٥-ci suallar.

əgər bir dörd rəkətli namazı qıldıqdan sonra qərarından dönsə və ya tərəddüd etsə, artıq başqa bir yerə səfər etməyənədək orada olduğu müddətdə namazı tam qılmalıdır (hətta bir gün qalsa belə).[١]

٦. Müəyyən bir yerdə qalma niyyəti (qəsdi-iqamət) bu iki şərtdən biri ilə baş tutur:

I. Müsafir qalmağı qərara aldığı yerdə bir dört rəkətli namaz qılsın

II. On gün qalmağı qərara aldıqdan sonra on gün ardıcıl olaraq həmin yerdə qalsın[٢].

٧. Bir yerdə qalma niyyəti baş tuduqdan sonra şəri məsafədən az olaraq oradan uzaqlaşmağın - hətta bir neçə dəfə və nisbətən çox bir müddət üçün – maneəsi yoxdur və namaz tam qılınmalıdır. Lakin əgər şəri məsafə qədər uzaqlaşsa, müsafir hökmündədir.

Deməli, əgər müsafir on gün qalmağı niyyət etdiyi şəhərdən aralarındakı məsafə şəri məsafə qədər olan başqa bir şəhərə səfər etsə, şəhərə döndükdə yenidən on gün qalma niyyəti etməlidir[٣].

٨. Zövcə və övladların vətən seçmə və ya tərk etmə mövzusunda deyilən hökmlər müəyyən bir yerdə on gün qalma mövzusuna da aiddir[١].

٦. Müsafir gedəcəyini ya qalacağını bilmədən bir ay bir yerdə qalsa

Əgər şəri məsafəni qət edən müsafir çatdığı yerdə nə qədər qalacağını bilmirsə, qərara gəlməyənədək qəsr qılmalıdır. Lakin otuz gün tamam olan kimi, hətta bir neçə gün qalsa belə namazı tam qılmalıdır[٢].

---

[١] Şəri suallara cavab, ٦٥٧, ٦٥٩ və ٦٨٩-cu suallar.
[٢] Şəri suallara cavab, ٦٥٧, ٦٥٩ və ٦٨٩-cu suallar.
[٣] Şəri suallara cavab, ٦٥٧, ٦٥٩ və ٦٨٩-cu suallar.

٧. Böyük şəhər

Vətən seçmək və müsafirin hökmlərinin böyük şəhərlə kiçik şəhərlər arasında fərqi yoxdur. Məsələn, böyük bir şəhəri vətən seçib bir müddət orada yaşadıqdan sonra həmin şəhər bütünlüklə o şəxsin vətəni sayılır. Həmçinin böyük bir şəhərdə on gün qalmağı qərara alan müsafir, təkcə qaldığı məhəllədə deyil, şəhərin digər məhəllələrində də namazı tam qılmalıdır.[٣]

SUALLAR:

١. Əgər müəyyən bir yerdə ixtiyarsız olaraq on gün qalacağını bilən əsgərin namazının hökmü nədir?

٢. Əgər imam Rzanın (ə) ziyarətinə gedən şəxs Məşhəddə on gündən az qalacağını bilsə, lakin namazını tam qılsın deyə on gün qalmağı niyyət etsə, bunun hökmü nədir?

٣. Bir yerdə on gün qalmağı niyyət edərkən oradan dörd fərsəxdən az məsafə qədər uzaqlaşmağı nəzərdə tutmaq olarmı?

٤. Bir yerdə qalma niyyəti hansı surətdə baş tutur?

٥. Müsafir getdiyi yerdə nə qədər qalacağını, yəni on gün, yoxsa daha az qalacağını bilməsə, namazını necə qılmalıdır?

٦. Müsafirin hökmlərinin böyük şəhərlə kiçik şəhərlər arasında hansı fərqləri vardır?

---

١ Şəri suallara cavab, ٤٠٤ və ٤٠٦-cı suallar.

٢ Şəri suallara cavab, ٦٧٣-cü sual.

٣ Şəri suallara cavab,٧٠٧-ci sual.

ƏLLİ DÖRDÜNCÜ DƏRS

YOVMİYYƏ NAMAZLARI (٢٠)

- *Qəza namazı*

– *İsticari namaz*

– *Ata və ananın qəza namazları*

١. Qəza namazı

١) Hər kim vacib namazı müəyyən bir səbəbə görə - istər yatıb qalsın, istər məst halda olsun, istərsə də müəyyən bir xəstəliyə görə - öz vaxtında qılmasa, qəzasını qılmalıdır. Lakin əgər bir şəxs namaz vaxtı boyu huşunu itirmiş olsa, namazın qəzası ona vacib olmur. Həmçinin müsəlman olan kafirin kafir olduğu müddətdə və qadının heyz və nifas halında qılmadığı namazların qəzası yoxdur.[١]

٢) Hər kim namaz vaxtı keçdikdən sonra qıldığı namazın düz olmadığını bilsə, onun qəzasını qılmalıdır. Məsələn, bir şəxs qüslün əhkamını bilmədıyınə görə şəriətdə göstərilən qaydada qüsl vermədiyibdirsə, batil və düz olmayan qüsl ilə qıldığı namazların qəzasını qılmalıdır.[٢]

٣) O namazların qəzasını qılmaq vacibdir ki, insan onları tərk etdiyinə və ya düzgün qılmadığına əmin olsun. Lakin əgər insan ehtimal versə və ya şəkk etsə ki, keçmişdə namazlarının bəzisini tərk etmiş və ya düzgün qılmamışdır, onların qəzasını qılmaq vacib deyildir.[٣]

---

[١] Şəri suallara cavab, ٥٢٥, ٥٢٧, ٥٣٢, ٥٣٥, ٥٣٦, ٥٣٧ və ٥٣٩-cu suallar.

[٢] Şəri suallara cavab, ٥٢٤, ٥٢٥ və ٥٢٩-cu suallar.

[٣] Şəri suallara cavab, ٥٢٥, ٥٢٧,٥٣٣ və ٥٣٨-ci suallar

٤) Yovmiyyə vacib namazların qəzasını qıldıqda namazların tərtibinə riayət etmək vacib deyildir. Əlbəttə bir günün zöhr və əsr, yaxud məğrib və işa namazlarının qəzasını eyni vaxtda qılıdıqda tərtibə riyayət olunmalıdır.

Deməli, məsələn bir ilin qəza namazını həm bu qaydada qılmaq olar: Otuz sübh namazını, otuz zöhr və əsr namazlarını və otuz məğrıb və işa namazlarını qılıb yenidən hər bir namazı bu sayda qılaraq ilin qəza namazlarını tamamlamaq.

Həm də yovmiyyə namazlarının ardıcıllığı ilə qılmaq olar[١].

٥) Qəza namazlarının sayını bilməyən şəxs, məsələn, iki, yoxsa üç namazının qəza olduğunu bilməyən şəxs əgər ehtimal verdiyi sayların azı qədər (başqa sözlə desək, əmin olduğu say qədər) qəza namazı qılsa kifayətdir[٢].

٦) Ardıcıl olaraq üç cənabət qüslü verən şəxs (məsələn, ayın ٢١-i, ٢٥-i və ٢٧-si qüsl vermişdir), əgər sonradan onların birinin batil olduğuna əmin olsa, vacib ehtiyata görə batil qüsllə qıldığı namazların qəzasını qılmalıdır[٣].

٧) Nafilələr və müstəhəb namazlar qəza namazını əvəz etmir və boynunda qəza namazı olan şəxs, onları qəza namazı niyyəti ilə qılmamalıdır[٤].

---

[١] Şəri suallara cavab, ٥٣٠, ٥٣١, ٥٣٣ və ٧١٠-cu suallar.

[٢] Şəri suallara cavab, ٥٢٥, ٥٢٧ və ٥٣٣-cü suallar.

[٣] Şəri suallara cavab,٥٢٨-ci sual.

[٤] Şəri suallara cavab, ٥٢٦-cı sual.

٨) Qəza etdikləri namazların hamısını hal-hazırda qılmağa qadir olmayan şəxslərə vacibdir ki, bacardıqlarını qılsınlar və qıla bilmədiklərini vəssiyyət etsinlər[١].

٢. İsticari namaz[٢]

١) Heç kim baqaşının qəza namazını o sağ ikən qıla bilməz, hətta həmin şəxs qəza namazlarını qılmağa aciz olsa belə. Hər kəs öz vacib namazlarını bacardığı tərzdə özü qılmalıdır və başqasının onun yerinə qıldığı namaz - istər zəhmət haqqı alsın, istərsə də almasın - kifayət etmir[٣].

٢) İsticari namazı qılarkən mərhumun xüsusiyyətlərini demək lazım deyildir və təkcə zöhr və əsr namazlarının, eləcə də məğrib və işa namazlarının tərtibinə riayət etmək şərtdir. Əgər müqavilə və razılaşma zamanı isticari namaz üçün heç bir şərt qeyd olunmasa (məsələn, filan məsciddə və ya filan vaxtda qılınsın), namaz qılana vacıbdir ki, namazın adətən riayət olunan bir sira müstəhəb işlərinə bu namazda da riayət etsin. Lakin hər namaz üçün azan demək vacib deyildir.[٤]

٣.Ata və ananın qəza namazları

١) Ata və ana vəfat etdikdən sonra onların qəza namazlarını qılmaq böyük oğula vacibdir. Bu şərtlə ki, ata və ana, namazlarını Allaha itaətsizlik məqsədilə qəza etməsinlər. Hətta əgər itaətsizlik məqsədilə

---

[١] Şəri suallara cavab, ٥٣٦-cı sual.

[٢]Muzd alıb mərhumun qəza namazlarını qılmaq

[٣] Şəri suallara cavab, ٥٥٠, ٧٠٩ və ٧١٠-cu suallar.

[٤] Şəri suallara cavab, ٧١٠-cu sual.

olsa belə, ehtiyati-müstəhəbə görə yenə də böyük oğul valideynlərinin qəza namazını qılmalıdır[١].

٢) Əgər ata və ana ömür boyu əsla namaz qılmayıblarsa, vacib ehtiyata görə yenə də onların qəza namazları böyük oğula vacibdir.[٢]

٣) Böyük oğul dedikdə, ata və ana vəfat etdikdən sonra həyatda olan böyük oğul övladı nəzərdə tutulur. Deməli, əgər ailənin böyük oğlu ata və anadan qabaq vəfat etsə, istər büluğ həddinə yetişmiş olsun, istərsə də yetişməmiş, ata və ananın qəza namazları onlar vəfat etdikdən sonra həyatda olan böyük oğula vacib olur[٣].

٤) Böyük oğul dedikdə, mərhumun oğlan övladları arasında ən böyüyü nəzərdə tutulur. Deməli, əgər mərhumun böyük övladı qız və ikinci övladı oğlandırsa, valideynlərin qəza namazı ailənin ikinci övladı, ey-ni zamanda böyük oğul sayılan oğlana vacibdir[٤].

٥) Ata və ananın qəza namazları böyük oğula vacib olsa da başqası qıldığı halda böyük oğlun boynundan götürülür[٥].

٦) Böyük oğula vacibdir ki, bildiyi və əmin olduğu qədər ata-anasının qəza namazlarını qılsın. Əgər o, ata-anasının qəza namazı olub-olmadığını bilməsə, ona heç nə vacib olmur və maraqlanmaq və təhqiqat aparmaq da lazım deyildir[٦].

---

[١] Şri suallara cavab, ٥٤٢, və ٥٤٨-ci suallar.
[٢] Şəri suallara cavab, ٥٤٧-ci sual.
[٣] Şəri suallara cavab, ٥٤٣-cü sual.
[٤] Şəri suallara cavab, ٥٤٢-ci sual.
[٥] Şəri suallara cavab, ٥٤١ və ٥٤٥-ci suallar.
[٦] Şəri suallara cavab, ٥٤١ və ٥٤٤-cü suallar.

٧) Böyük oğula vacibdir ki, ata və anasının qəza namazlarını mümkün olduğu hər bir şəkildə yerinə yetirsin.

Əgər özü yerinə yetirməyə qadir olmasa və başqasına da pul ilə qıldırmağa imkanı olmasa, üzrlü sayılır[١].

٨) Həm özünün qəza namazları olan, həm də ata-anasının qəza namazları ona vacib olan şəxs, hansını istəsə qıla bilər. Yəni, hansı birini qılsa, düzdür[٢].

٩) Əgər böyük oğul ata və anası vəfat etdikdən sonra vəfat etsə, digər övladların boynuna məsulyyət düşmür.

Deməli, ata-ananın qəza namazları böyük oğlun oğluna (nəvəyə) və ya qardaşına vacıb olmur[٣].

SUALLAR:

١. Müsəlman olan kafirə kafir olduğu müddətdə qılmadığı namazların qəzasını qılmaq vacibdirmi?

٢. Qəza namazı olan şəxs əgər müstəhəb bir namaz qılsa, qəza namazını əvəz edirmi?

٣. İsticari namazda mərhumun xüsusiyyətlərini demək şərtdirmi?

٤. Ömür boyu namaz qılmayan atanın qəza namazı böyük oğula vacibdirmi?

٥. Böyük oğul kimə deyilir?

Əgər böyük oğulun özünün qəza namazı olsa və ata-ananın da qəza namazı ona vacib olsa, hansını birinci qılmalıdır?

---

١ Şəri suallara cavab, ٥٤١-ci sual.

٢ Şəri suallara cavab, ٥٤٩-cu sual.

٣ Şəri suallara cavab, ٥٤٦-cı sual.

ƏLLİ BEŞİNCİ DƏRS

AYƏT NAMAZI

FİTR VƏ QURBAN BAYRAMLARININ NAMAZI

١. Ayət namazı

١) Ayət namazını vacib edən şəri səbəblər

Ayət namazı ٤ **halda** vacib olur:

I. Günəş tutulduqda (küsuf), hətta çox az hissəsi tutulsa belə;

II. Ay tutulduqda (xüsuf), hətta çox az hissəsi tutulsa belə;

III. Zəlzələ baş verdikdə;

IV. Camaatın çoxunun qorxuya düşməsinə bais olan bir təbiət hadisəsi baş verdikdə; məsələn, güclü qara küləyin əsməsi, zülmət qaranlığın çökməsi, torpaq sürüşməsinin baş verməsi, güclü ildırım və şimşəyin çaxması və s. [١]

Diqqət:

- Küsuf, xüsuf və zəlzələdən başqa digər təbiət hadisələri camaatın əksəriyyətinin qorxmasına bais olduqda Ayət namazı vacib olur. Əks təqdirdə, yəni, az adam qorxsa və ya heç kim qorxmasa, Ayət namazı vacib olmur.
- Ayət namazı hadisə baş verən şəhərin, məntəqənin əhalisinə vacib olur. Əgər iki şəhər bir-birinə bitişik olduğu üçün bir şəhər kimi tanınsa, Ayət namazı hər iki şəhərin əhalisinə vacib olur.[٢]
- Əgər seysmoloji mərkəz müəyyən bir məntəqədə yeraltı təkanların baş verdiyi, eləcə də onun gücü barədə məlumat versə, lakin həmin

---

[١] Şəri suallara cavab, ٧١١-ci sual

[٢] Şəri suallara cavab, ٧١٣-cü sual

məntəqənin əhalisi zəlzələ baş verdiyi anlarda heç nə hiss etməyib-dirlərsə, Ayət namazı vacib olmur.[١]

- Ardıcıl baş verən bir neçə zəlzələ üçün, istər güclü olsun, istərsə də zəif, ayrıca Ayət namazı qılmaq lazımdır.[٢]

٢) Ayət namazının qaydası.

Ayət namazı iki rəkətdir və hər rəkətində beş rüku və iki səcdə vardır. Ayət namazını bir neçə qaydada qılmaq olar:

I. Niyyət edib Təkbirətul-ehramı dedikdən sonra Həmd və Surə oxunur və rüku yerinə yetirilir. Daha sonra rükudan qalxıb yenidən Həmd və Surə oxunulur və rüku yerinə yetirilir. Bu qaydada beş rüku yerinə yetirilir və səcdələri yerinə yetirdikdən sonra birinci rəkət tamamlanır.

İkinci rəkət də eynilə bu qaydada qılınır. Namazın sonunda təşəhhüd və salamlar oxunur.

II. Niyyət edib Təkbirətul-ehramı dedikdən sonra Həmd və müəyyən bir surənin bir ayəsi və ya ayənin bir hissəsi oxunulur, sonra rüku yerinə yetirilir. Sonra rükudan qalxıb surənin növbəti ayəsi və ya ardı oxunulur və rüku yerinə yetirilir. Bu qayda ilə beş rüku yerinə yetirilir. Belə ki, sonuncu rükudan qabaq oxunan surə tamamlanmalıdır. Sonra səcdələr yerinə yetirilir.

İkinci rəkət də eynilə bu qaydada qılınır və namazın sonunda təşəhhüd və salamlar oxunur. Əgər hər rükudan əvvəl surənin bir ayəsi oxunsa, Həmd surəsi rəkətin əvvəlində bir dəfədən artıq oxunmamalıdır.

---

[١] Şəri suallara cavab, ٧١٦-cı sual

[٢] Şəri suallara cavab, ٧١٥-ci sual

Diqqət:

- Vacib ehtiyata görə "Bismillahir-rəhmanir-rəhim" surənin bir ayəsi hesab edilməməli və namazqılan təkcə bu ayəni deyib rükuya əyilməməlidir.

III. Birinci rəkəti yuxarıda izah olunan iki qaydadan biri şəklində, ikinci rəkəti isə digər qayda üzrə qılmaq olar.

IV. Birinci rükudan əvvəl bir ayəsi oxunan surə, ikinci, üçüncü və ya dördüncü rükudan əvvəl tamamlanır. Surə tamamlandıqdan sonra növbəti qiyamda Həmd surəsi yenidən oxunulur və yeni bir surə, oxunmağa başlanır, belə ki, beşinci rükudan əvvəl bu surə tamamlanmalıdır.[١]

<u>٢. Fitr və Qurban bayramlarının namazları</u>

١) Hal-hazırkı dövrdə (İmam Zamanın (ə) qeybdə olduğu üçün) Fitr və Qurban bayramlarının namazı vacib deyil, yəni müstəhəbdir.[٢]

٢) Fitr və Qurban bayramlarının namazı iki rəkətdir. Birinci rəkətdə Həmd və Surəni oxuduqdan sonra beş təkbir (Allahu Əkbər) deyilir və hər təkbirdən sonra bir qünut tutulur. Beşinci qünutdan sonra daha bir təkbir deyilir və rüku yerinə yetirilir. Səcdələri yerinə yetirdikdən sonra birinci rəkət tamamlanır. İkinci rəkətdə dörd təkbir deyilir və hər təkbirdən sonra bir qünut tutulur. Dördüncü qünutdan sonra daha

---

[١] Şəri suallara cavab, ٧١٢-ci sual
Rəhbərdən soruşulan suallar

[٢] Şəri suallara cavab, ٦٣٣-cü sual

bir təkbir deyilir və rüku və səcdələr yerinə yetirilir. Namazın sonunda təşəhhüd və salamlar oxunur.[١]

٣) Bayram namazının qünutunda uzun və ya qısa bir dua oxumağın heç bir fərqi yoxdur və namazı batil etmir. Lakin qünutları artırıb-azaltmaq olmaz.

٤) Bayram namazında iqamə yoxdur. Əgər pişnamaz bayram namazında iqamə oxusa, onun və ona iqtida edənlərin namazına heç bir xələl gətirməz.[٢]

٥) Bayram namazı qılmaq səlahiyyətinə malik olan Vəliyyi-fəqihin nümayəndələri və Vəliyyi-fəqihin təyin etdiyi İmam-cümələr hal-hazırkı dövrdə (İmam-Zamanın qeybdə olduğu zamanda) bayram namazını camaat namazı halında qıla bilərlər. Lakin ehtiyati-vacib budur ki, onlardan qeyrisi bayram namazını furada (tək halda) qılsın və "be qəsde rica, nə be qəsde vurud" niyyətilə bayram namazını camaat namazı halında qılmağın eybi yoxdur. Əgər bir şəhərdə bayram namazı qılınarsa, yaxşı olar ki, Vəliyyi-fəqih tərəfindən təyin olunan İmam-Cümədən qeyrisi pişnamaz dayanmasın.[٣]

٦) Bayram namazının qəzası yoxdur.[٤]

٧) Bayram namazına yetişməyən namazqılanların istəyi ilə bu namazı ikinci dəfə camaat namazı halında qılmağın eybi yoxdur.[٥]

---

[١] Şəri suallara cavab, ٦٣٤-cü sual
[٢] Şəri suallara cavab, ٦٣٧ və ٦٣٨-ci suallar
[٣] Şəri suallara cavab, ٦٣٥-ci sual
[٤] Şəri suallara cavab, ٦٣٦-cı sual
[٥] Şəri suallara cavab, ٥٦٩-cu sual

SUALLAR:

١. Ayət namazı neçə halda vacib olur? İzah edin.

٢. Adətən bir məntəqədə baş verən zəlzələnin ardınca bir neçə nisbətən zəif yeraltı təkanlar baş verir. Bu yeraltı təkanlar baş verdikdə Ayət namazı vacib olurmu?

٣. Ayət namazının qaydası necədir?

٤. İmam zamanın (ə.f.) qeybi dövründə Fitir və Qurban bayramlarının hökmü nədir?

٥. Hal-hazırkı dövrdə camaat namazının pişnamazları Fitir və Qurban bayramlarının namazını camaat namazı halında qıla bilərlərmi?

٦. Fitir bayramı nmazının qəzası varmı?

ƏLLİ ALTINCI DƏRS

CAMAAT NAMAZI (١)

Camaat namazının əhəmiyyəti

١.Camaat namazının əhəmiyyəti

١) Camaat namazı müstəhəb ibadətlər arasında ən mühüm ibadətdir və ən azı iki nəfərlə (biri pişnamaz, digəri iqtida edən) qılına bilər.[١]

٢) Əgər pişnamaz (imam-camaat) pişnamazlıq niyyəti etmədən namaza başlasa, namazqılanlar ona iqtida edə bilərlər. Başqa sözlə desək, əgər təkcə iqtida edənlər iqtida niyyəti etsələr, camaat namazının hasil olması üçün kifayətdir və pişnamazın niyyəti şərt deyildir. Əlbəttə əgər pişnamaz camaat namazının fəzilətini əldə etmək istəyirsə, pişnamazlıq niyyəti etməlidir.[٢]

٣) Pişnamazın ehtiyat qəza namazı niyyəti edib pişnamaz dayanması düz deyildir. Beləliklə, bir namaz üçün müxtəlif yerlərdə pişnamaz dayanan şəxs, ehtiyat qəza namazı niyyəti edə bilməz.[٣]

٤) İqtida etməyin düzgünlüyü üçün pişnamazın razılığı şərt deyildir. Beləliklə, ona iqtida edilməsinə razı olmayan bir kəsə iqtida etməyin heç bir maneəçiliyi yoxdur.[٤]

٥) Özü iqtida edən bir nəfərə iqtida etmək düz deyil. Lakin əgər insan bilmədən iqtida edən bir kəsə iqtida etsə, rüku və səcdələr baxımından namazqılan şəxsin vəzifəsinə əməl edibdirsə, yəni, bilərəkdən və ya

---

[١] Şəri suallara cavab, ٥٥٣ və ٥٦٤-cü suallar

[٢] Şəri suallara cavab, ٥٥١-ci sual

[٣] Şəri suallara cavab, ٥٨٠-cı sual

[٤] Şəri suallara cavab, ٥٧٣-cü sual

səhvən namazın rüknünü azaldıb və ya çoxaltmayıbsa, namazı düzdür.[١]

٦) Əgər bir yovmiyyə namazı digər bir dəstə namazqılanlar üçün ikinci dəfə camaat namazı halında qılınsa, birinci dəfə dayanan pişnamaz ikinci dəfə də pişnamaz dayana bilər, hətta bu əməl, müstəhəbdir. Beləliklə, bir pişnamaz, eyni bir namaz üçün iki məsciddə pişnamaz dayana bilər.[٢]

٧) Yovmiyyə namazlarında pişnamazla iqtida edənin eyni namazı qılmaları şərt deyildir. Məsələn, məğrib namazı qılan pişnamaza işa namazını iqtida etmək olar.[٣]

٨) Qadınlar camaat namazında iştirak edə bilərlər və camaat namazının da savabını əldə edirlər.[٤]

٩) Məscidə yaxın bir məkanda təşkil olunan camaat namazında iştirak etməyin, hətta məsciddə camaat namazı təşkil olunsa belə, maneəsi yoxdur.

Əlbəttə yaxşı olar ki, möminlər bir yerə cəm olub camaat namazına əzəmət bəxş etsinlər. Həmçinin camaat namazı möminlər arasında təfriqə deyil, ülfət və ünsiyyət yaratmalıdır. Əgər məscidə yaxın bir məkanda camaat namazının təşkil olunması möminlər arasında təfriqə yaradırsa, bu camaat namazının təşkilinə icazə verilmir.[٥]

---

[١] Şəri suallara cavab, ٥٧٣ və ٥٧٤-cü suallar
[٢] Şəri suallara cavab, ٥٦٩-cu sual
[٣] Şəri suallara cavab, ٥٧٥-ci sual
[٤] Şəri suallara cavab, ٥٩٥ və ٥٩٧-ci suallar
[٥] Şəri suallara cavab, ٥٥٤, ٥٥٦ və ٥٨١-ci suallar

١٠) Əgər namazqılan pişnamaz namazın axırındakı təşəhhüdü oxuyarkən camaat namazına yetişsə və camaat namazının savabını qazanmaq istəsə, niyyət edib Təkbirətul-ehramı deməli, sonra əyləşib puşnamazla birgə təşəhhüdü oxumalıdır. Pişnamaz namazın salamını deyib qurtaranadək oturan halda gözləməli, sonra ayağa qalxıb namazını davam etdirməlidir. Yəni, Həmd və Surəni oxumalı və bunu namazının birinci rəkəti hesab etməlidir. (Bu yalnız camaat namazının savabını qazanmaq üçün namazın axırında oxunan təşəhhüdə aiddir. Üç və dörd rəkətli namazların ikinci rəkətində oxunan təşəhhüddə belə etmək olmaz.)[١]

١١) Pişnamazın və iqtida edənin müxtəlif mərcəyi-təqlidlərə təqlid etmələri iqtidanın düzgünlüyünə xələl gətirmir. Lakin əgər müsafirin hökmlərində pişnamazın mərcəyi-təqlidi bir namazın müəyən şəraitdə tam qılınmasına hökm verdiyi halda iqtida edənin mərcəyi-təqlidi onun qəsr qılınmasına hökm verirsə, yaxud əksinə, bu halda iqtida düzgün deyil.[٢]

Diqqət:

- Camaat namazı qılınan məkanda furada namaz qılmaq əgər camaat namazına əhəmiyyət verməmək və camaatın nəzərində ədalətli bir pişnamaza qarşı ehtiramsızlıq sayılsa, olmaz.
- Məntiqi bir səbəbə görə, məsələn, töhmətə məruz qalmamaq üçün zahirdə camaat namazına qatılmağın eybi yoxdur. Lakin məğrib və işa

---

[١] Şəri suallara cavab, ٥٦٧-ci sual

[٢] Şəri suallara cavab, ٥٨٣-cü sual

namazları kimi Həmd və Surənin ucadan oxunulması vacib olan namazlarda namazqılan iqtida etdiyini izhar etmək üçün onları ahəstə oxuya bilməz və düzgün deyil.[١]

- Dövlət idarələrinin namazxanalarında qılınan camaat namazından əvvəl, sonra və ya iki namaz arasında müstəhəb ibadətlərin yerinə yetirilməsi -məsələn, müstəhəb namazların qılınması, Təvəssül duası və s. uzun duaların oxunması - əgər camaat namazının özündən daha çox vaxt tələb etsə və iş saatı vaxtında olub vacib idarə işlərinin təxirə salınmasına səbəb olsa, maneəsi (işkalı) vardır.[٢]
- Pişnamaz camaat namazı qıldığına görə zəhmət haqqı ala bilməz. Lakin camaat namazına gəlmək üçün tələb olunan zəruri xərcləri ala bilər.[٣]
- Camaat namazının salamından sonra Quran ayələri qiraət etməyin və Peyğəmbər və Ali-peyğəmbərə (s.ə.s.) salavat göndərməyin nəinki maneəsi yoxdur, hətta müstəhəb və bəyənilən bir işdir.[٤]
- Yaxşı olar ki, dövlət idarələri və digər müəssisələrdə iş saatı elə bir şəkildə tənzimlənsin ki, çox mühüm ibadət olan yovmiyyə namazını camaat namazı halında, həmçinin namaz vaxtının əvvəlində qılmaq imkanı yaransın.[٥]

---

[١] Şəri suallara cavab, ٥٨٨ və ٥٩١-ci suallar
[٢] Şəri suallara cavab, ٥٥٣-cü sual
[٣] Şəri suallara cavab, ٥٦٨-ci sual
[٤] Şəri suallara cavab, ٥٧١-ci sual
[٥] Şəri suallara cavab, ٥٥٢-ci sual

SUALLAR:

١. Camaat namazı ən azı neçə nəfərlə təşkil olunur?

٢. Pişmanaz eyni bir namazı iki məsciddə iki dəfə qıla bilərmi?

٣. İşa namazını qılan şəxs məğrib namazını qılan pişnamaza iqtida edə bilərmi?

٤. Camaat namazı qılınan məkanda furada namaz qılmağın hökmü nədir?

٥. Pişnamaz camaat namazı qıldığına görə zəhmət haqqı ala bilərmi?

ƏLLİ YEDDİNCİ DƏRS

CAMAAT NAMAZI (٢)

NAMAZIN MÜXTƏLİF MƏSƏLƏLƏRİ

٢.Camaat namazının şərtləri:

I. Camaat namazında namazqılanların cərgələri arasında sədd və maneə[١] olmamalıdır.

II. Pişnamazın dayandığı yer iqtida edənin dayandığı məkandan hündürdə olmamalıdır.

III. Pişnamaz və iqtida edən arasında fasilə yaranmamalıdırdır.

IV. İqtida edən (yəni məmum) pişnamazdan öndə dayanmamalıdır.

١) Camaat namazında namazqılanların cərgələri arasında sədd və maneə olmamalıdır.

١. Əgər camaat namazının cərgələrinin birində bütün namazqılanların namazı qəsr və onların arxasındakı cərgələrdə dayananların namazı isə tam olsa, vacib ehtiyata görə namazlarını qəsr qılan cərgə namazın salamını deyərkən onun arxasındakı bütün cərgələr namazlarını furada şəklində davam etdirməlidirlər. İstər onların önündə olan o cərgə iki rəkət namazı tamamlayıb dərhal sonrakı namazı niyyət edib iqtida etsinlər, istərsə də etməsinlər.[٢]

٢. Əgər camaat namazının üçüncü və dördüncü cərgəsindən sonrakı cərgədə bir neçə nəfər həddi-büluğa çatmayan namazqılan dayansa və

---

[١] Sədd və maneənin fiqhdə özünəxas mənası vardır.

[٢] Şəri suallara cavab, ٥٧٧-ci sual .

onların arxasında mükəlləf namazqılanlar dayansa, sonrakı cərgələrdəki namazqılanların namazı düzdür.[١]

Diqqət:

- Əgər camaat namazında qadınlar kişilərin arxasında dayansalar, hətta arada məsafə olmasa belə pərdə çəkilməsinə ehtiyac yoxdur. Lakin əgər kişilərlə yanaşı dayansalar, qadınla kişinin namazda yanaşı dayanması məkruh olduğu üçün bu məkruhluq aradan qalxsın deyə, ortadan pərdə çəkilsə yaxşıdır. Namazda qadınlarla kişilərin arasından pərdə çəkilməsini, qadınların şəxsiyyətinə və şəninə təhqir güman edənlərin heç bir əsasları yoxdur.[٢]

٢) Pişnamazın dayandığı yer iqtida edənin məkanından hündürdə olmamalıdır.

Əgər pişnamazın dayandığı məkan iqtida edənlərin məkanından şəriətdə icazə verilən həddən artıq hündürdə olsa, namaz batildir.[٣]

٣) Pişnamaz və iqtida edənlər arasında fasilə yaranmamalıdır.

Birinci cərgənin axırında dayanan məmum, əgər pişnamaz namaza başlayarkən onunla pişnamaz arasında dayanan namazqılanlar kamil surətdə iqtidaya hazırdırlarsa, o da niyyət edib camaat namazına qoşula bilər.[١]

---

[١] Şəri suallara cavab, ٥٨٥-ci sual
[٢] Şəri suallara cavab,٥٩٧-ci sual
[٣] Şəri suallara cavab, ٥٧٦-cı sual

٣.Camaat namazının hökmləri

١. İqtida edən zöhr və əsr namazlarında hətta fikrini cəmləmək üçün belə Həmd və Surəni qiraət edə bilməz.[١]

٢.Əgər pişnamaz işa namazının üçüncü və ya dördüncü rəkətində, məmum isə ikinci rəkətində olsa, Həmd və Surəni ahəstə oxumaq məmum üçün vacibdir.[٣]

٣. Hər kim camaat namazının ikinci rəkətində namaza qoşulsa və camaat namazının hökmlərini bilmədiyi üçün öz namazının ikinci rəkətində (belə ki, camaat namazının üçüncü rəkəti olacaqdır) qünutu və təşəhhüdü oxumasa, namazı düzdür. Lakin ehtiyata görə təşəhhüdün qəzasını və səcdeyi-səhv yerinə yetirmək ona vacib olur.[٤]

٤. Hər kim camaat namazının üçüncü rəkətində namaza qoşulsa, lakin namazın birinci rəkəti olduğunu güman edib heç nə qiraət etməsə, bu halda əgər rükudan öncə səhvini başa düşsə, Həmd və Surəni qiraət etməlidir. Lakin rükuda ikən başa düşsə, namazı düzdür və heç nə ona vacib olmur. Lakin qiraəti səhvən tərk etdiyi üçün ehtiyati-müstəhəbə görə iki səcdeyi-səhv yerinə yetirməlidir.[٥]

٥. Əgər pişnamaz Təkbirətul-ehramı dedikdən sonra səhvən rükuya getsə (yəni Həmd və Surəni qiraət etmədən), bu halda əgər məmum camaat namazına və rükuya getməmişdən qabaq pişnamazın səhvini

---

[١] Şəri suallara cavab, ٥٧٨-ci sual
[٢] Şəri suallara cavab, ٥٦٥-ci sual
[٣] Şəri suallara cavab, ٥٧٠-ci sual
[٤] Şəri suallara cavab, ٥٧٢-ci sual (Rəhbərdən soruşulan suallar)
[٥] Şəri suallara cavab, ٥٧٩-cu sual

başa düşsə, niyyətini furada niyyətinə döndərməli və Həmd və Surəni qiraət etməlidir.[١]

٦. Əgər pişnamaz qiraət edərkən bir sözü düzgün tələffüz edib-etmədiyinə elə namaz əsnasında şəkk etsə və namazdan sonra bilsə ki, həmin sözü səhv tələffüz etmişdir, həm özünün, həm də ona iqtida edənlərin namazı düzdür.[٢]

٧. Müsəlmanların vəhdətini qorumaqdan ötrü sünnə əhlindən olan pişnamaza iqtida etmək olar. Hətta əgər xalçanın üzərinə səcdə etmək vəhdətin qorunmasına bais olacaqsa, xalça üzərinə səcdə etmək olar və namaz düzdür. Lakin zəruri olmayanadək (məsələn, təqiyyə üçün) əli bağlı namaz qılmaq olmaz.[١]

٤.Pişnamazın şərtləri:

١) Həddi-büluğa yetişən bir fərd olmalıdır.

٢) Ağıllı olmalıdır.

٣) Ədalətli olmalıdır.

٤) Halalzadə olmalıdır.

٥) On iki imam şiəsi olmalıdır.

٦) Namazı düzgün qılmalıdır.

٧) Əgər iqtida edənlər kişidirsə, pişnamaz kişi olmalıdır.

---

[١] Şəri suallara cavab, ٥٨٤-cü sual

[٢] Şəri suallara cavab, ٥٩٠-cı sual

٣) Ədalətli olmalıdır

١. Əgər pişnamaz din aliminə yaraşmayan xoşagəlməz bir söz desə və ya bir zarafat etsə, əgər onun bu sözü din çərçivəsindən xaric deyilsə (şəriətə və əxlaqa zidd deyilsə), ədalətinə xələl gətirmir.[٢]

٢. Əmr be məruf və nəhy əz münkər edən, lakin dediklərinə özü əməl etməyən bir pişnamaza iqtida etməyin heç bir maneəsi yoxdur. Çünki mümkündür ki, onlara əməl etməməkdə hansısa bir məntiqi üzrü olmuş olsun və bu, onun ədalətinə xələl gətirmir.[٣]

٣. Əgər pişnamaz camaat namazına velisopedlə getsə və yol qaydalarına riayət etsə, bu onun ədalətinə və pişnamazlığına xələl gətirmir.[٤]

٤. Bəzən bir şəxs pişnamazın ədalətli olduğuna inansa da bəzi hallarda ona qarşı zülm və haqsızlıq etdiyini düşünür. Əgər bu şəxsə aydın olmasa ki, onun zülm və haqsızlıq hesab etdiyi həmin əməli pişnamaz bilərəkdən və ixtiyari olaraq, habelə heç bir şəri üzrü olmadan yerinə yetirmişdir, o şəxs pişnamazın ədalətsizliyinə hökm verə bilməz.[٥]

Diqqət:

- İqtida etmək üçün pişnamazı yaxından tanımaq şərt deyildir. Əgər pişnamazın ədalətli olduğu hər hansı bir yolla məmum üçün sübuta yetsə, ona iqtida edə bilər və namazı düzdür.[٦]

---

[١] Şəri suallara cavab, ٥٩٩, ٦٠٠, ٦٠١, ٦٠٣ və ٦٠٥-ci suallar
[٢] Şəri sullara cavab, ٥٥٨-ci sual
[٣] Şəri suallara cavab, ٥٦١-ci sual
[٤] Şəri suallara cavab, ٥٦٦-ci sual.
[٥] Şəri sullara cavab,٥٦٠-cı sual
[٦] Şəri suallara cavab, ٥٥٩-cu sual

٦***) Namazı düzgün qılmalıdır.***

١. Əgər mükəlləf namazın sözlərini düzgün qiraət edə bilmirsə və düzgün qiraəti öyrənməyə də qadir deyildirsə, namazı düzdür. Lakin başqaları ona iqtida edə bilməzlər.

٢. Əgər məmum pişnamazın qiraətini düzgün qiraət hesab etməsə və nəticədə onun namazının düzgün olmadığını qəbul etsə, ona iqtida edə bilməz. Əgər iqtida etsə, namazı düz deyil və yenidən qılmalıdır.[١]

٧***) Əgər iqtida edənlər kişidirsə, pişnamaz kişi olmalıdır.***

Qadın yalnız qadın namazqılanlar üçün pişnamaz dayana bilər.[٢]

Pişnamazın şərtləri barədə bir neçə məsələ:

١) Əgər dini alimə iqtida etmək mümkündürsə, dini alimi olmayan pişnamaza iqtida edilməsin.[٣]

٢) Əgər bir şəxs namazın qiyamında ayaq üstə adi vəziyyətdə dayanıb Həmd və Surəni qiraət edə bilirsə, namazın zikrlərini və namazın hərəkətlərini adi qaydada yerinə yetirə bilirsə, həmçinin rüku və səcdələri yerinə yetirməyə qadirdirsə və düzgün dəstəmaz ala bilirsə, pişnamazın digər şərtlərinə malik olduğu aydın olduqdan sonra başqalarının ona iqtida etməsi düzdür.

Əgər bir şəxsin əli və ya ayağı dibdən kəsilibsə, yaxud əli və ya ayağı tamamilə iflic olubdursa, ona iqtida etməyin maneəsi vardır. Lakin ayağının baş barmağı kəsilən şəxsə iqtida etmək düzdür.[١]

---

[١] Şəri suallara cavab,٥٨٨,٥٨٩ və ٥٩١-ci suallar

[٢] Şəri suallara cavab, ٥٩٦-cı sual

[٣] Şəri suallara cavab, ٥٦٣-cü sual

٣) Əgər bir şəxs şəri üzrü olduğuna görə qüsl verə bilməsə, qüsl əvəzinə təyəmmüm edib pişnamaz dayana bilər və ona iqtida etməyin maneəsi yoxdur.[٢]

٤) Hər kim şəri məsələləri bilmədiyinə görə elə bir şəxsə iqtida etsə ki, ona iqtida etmək şəri baxımından düzgün sayılmır -məsələn, sağ əli olmayan bir əlilə iqtida etmişdir - qıldığı namazlar düzdür və onları yenidən qılmaq lazım deyildir.[٣]

Namazın müxtəlif məsələləri

١. Ailə üzvlərini sübh namazına oyatmaq barədə dini qaynaqlarda xüsusi bir qayda və üslub təqdim olunmamışdır.[٤]

٢. Müstəhəbdir ki, valideynlər yaxşı ilə pisi bir-birindən ayırd edən uşaqlarına şəriət hökmlərini öyrətsinlər.[٥]

٣. Hədisdə qeyd olunub ki, şərab içənin namazı qırx gün qəbul olunmaz. Lakin bu o demək deyildir ki, şərabı içənin üzərindən qırx gün namaz götürülür və sonra namazların qəzasını qılmalıdır. Yaxud həm bu qırx gün ərzində namazlarını qılmalı, həm də sonradan onların qəzasını qılmalıdır.[٦]

٤. Namazdan sonra əl-ələ görüşməyin maneəsi yoxdur. Ümumiyyətlə möminlərin əl-ələ görüşməsi müstəhəbdir.

---

[١] Şəri suallara cavab, ٥٩٢-ci sual
[٢] Şəri suallara cavab, ٥٨٦-cı sual
[٣] Şəri sullara cavab, ٥٩٣-cü sual
[٤] Şəri suallara cavab, ٧٢٣-cü sual
[٥] Şəri suallara cavab, ٧٢٦-cı sual
[٦] Şəri suallara cavab, ٧٢٨-ci sual

٥. Namazın hərəkətlərini səhv yerinə yetirən şəxsi müşahidə edənin üzərinə heç bir məsuliyyət düşmür. Lakin əgər həmin şəxs namazın hökmlərini bilmədiyinə görə namazı səhv qılırsa, bu halda vacib ehtiyata görə ona səhvini başa salmaq lazımdır.[١]

SUALLAR:

١. Əgər camaat namazında qadınlar kişilərin arxasında dayansalar, hətta arada məsafə olmasa belə pərdə çəkilməsinə ehtiyac varmı?

٢. İqtida edən zöhr və əsr namazlarında fikrini cəmləmək üçün Həmd və Surəni qiraət edə bilərmi?

٣. Əgər pişnamaz Təkbirətul-ehramı dedikdən sonra səhvən rükuya getsə (yəni Həmd və Surəni qiraət etmədən), bu halda məmumun vəzifəsi nədir?

٤. Əgər pişnamaz din aliminə yaraşmayan xoşagəlməz bir söz desə və ya bir zarafat etsə onun ədalətinə xələl gəlirmi?

٥. Əgər mükəlləf namazın sözlərini düzgün qiraət edə bilmirsə və düzgün qiraəti öyrənməyə də qadir deyildirsə, namazının hökmü nədir? Bu halda başqaları ona iqtida edə bilərlərmi?

٦. Bir qadın qadın namazqılanlar üçün pişnamaz dayana bilərmi?

---

[١] Şəri sullara cavab, ٧٢٩-cu sual

IV fəsil

ORUC

ƏLLİ SƏKKİZİNCİ DƏRS

ORUC (١)

- *Oruc nədir?*
- *Orucun növləri*
-*Vacib oruclar*
-*Oruc hansı şərtlərlə vacib olur?*
-*Oruc hansı şərtlərlə düzdür?*

١. Oruc nədir?

Müqəddəs İslam şəriətində mühüm ibadətlərdən biri olan oruc, Allah-Taalanın əmrinə itaət niyyətilə sübh azanından məğrib azanına qədər orucu batil edən işlərdən çəkinməkdir.[١]

Diqqət:

- Sadiq-fəcrin doğması (belə ki, bu vaxt artıq orucun imsak vaxtı başlanır) baxımından aylı və aysız gecələr arasında fərq yoxdur.[٢]
- Orucun imsak vaxtı baxımından ehtiyata riayət etmək üçün möhtərəm möminlər televiziya və radioda sübh azanı çəkilən kimi oruc üçün imsak etsinlər.[٣]
- Əgər oruc tutan əmin olsa ki, azan çəkilən kimi artıq namaz vaxtı daxil olmuşdur, elə azan başlanan kimi iftar edə bilər və azanın qurtarmasını gözləmək lazım deyildir.[١]

---

[١] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ١-ci məsələ
[٢] Şəri suallara cavab, ٣٥٤-cü sual
[٣] Şəri suallara cavab, ٣٦٢-ci sual

٢. Orucun növləri:

I. Vacib oruc; mübarək Ramazan ayının orucu;

II. Müstəhəb oruc; məsələn, Rəcəb və Şaban aylarının orucu;

III. Məkruh oruc; məsələn, Aşura günü tutulan oruc;

IV. Haram oruc; Fitir bayramı və Qurban bayramı günü tutulan oruc[٢]

Diqqət:

- Hər kim bilsə ki, oruc tutmağın ona zərəri vardır və ya zərəri olacağından qorxsa, oruc tutmamalıdır. Əgər oruc tutsa, orucu düz deyil, hətta oruc tutmaq ona haramdır. Onun bu yəqinliyi və ya qorxusu istər öz təcrübəsi sayəsində hasil olsun, istər etibarlı bir həkimin sözləri əsasında, istərsə də digər bir məntiqi əsasa görə.[٣]
- Əgər oruc tutarsa xəstələnəcəyini, yaxud əgər xəstədirsə, xəstəliyinin daha da güclənəcəyini, bir sözlə oruc tutmağa qadir olmadığını oruc tutanın özü təyin etməlidir. Deməli, əgər həkim oruc tutmağın zərəri olduğunu desə, lakin oruc tutan şəxs təcrübəsinə əsaslanaraq orucun ona zərəri olmadığını bilsə, oruc tutmalıdır. Həmçinin əgər həkim oruc tutmağın zərəri olmadığını desə, lakin oruc tutan şəxs orucun ona zərəri olduğunu bilsə və ya zərəri olacağından qorxsa, oruc tutmamalıdır.[٤]

---

[١] Şəri suallara cavab, ٣٦٠-cı sual

[٢] Şəri suallara cavab, ٧٣١, ٧٥١, ٧٥٥, ٧٥٧-ci suallar

[٣] Şəri suallara cavab, ٧٥١, ٧٥٥, ٧٥٣-cü suallar

[٤] Şəri suallara cavab, ٧٥٣-cü sual

- Hər kim oruc tutmağın ona zərəri olmadığını bilib oruc tutsa, lakin sonra zərəri olduğunu başa düşsə, tutduğu orucların qəzasını tutmalıdır.[١]
- Bəzən həkimlər oruc tutmağı xəstələrinə qadağan edir və orucun onlara zərəri olduğunu bildirirlər. Əgər həkimin orucun zərəri barədə dedikləri xəstədə əminlik və ya qorxu yaratsa, onun sözünə əsaslanmaq olar (başqa sözlə desək, qadağasına riayət etmək olar). Əks təqdirdə, əsaslanmaq olmaz.[٢]

٣.Vacib oruclar:

I. Mübarək Ramazan ayının orucu;

II. Qəza orucu;

III. Kəffarə oruc;

IV. Ata və ananın qəza orucu;

V. Nəzir, and və əhd nəticəsində vacib olan oruc;

VI. Etikafın üçüncü gününün orucu;

VII. Təmättu həccində qurbanlığın əvəzi olan oruc.[٣]

٤. Orucun vacib olma şərtləri:

١) Həddi-büluğ;

٢) Əql;

٣) Oruc tutmağa qadir olmaq;

---

[١] Şəri suallara cavab, ٧٥١-ci sual

[٢] Şəri suallar cavab, ٧٤٨, ٧٥٤, ٧٥٥ və ٨٢٣-cü suallar

[٣] Şəri sullara cavab, ٧٣١, ٧٣٢, ٧٣٣, ٧٣٤, ٧٥٠, ٧٥٤ və ٨٣٣-cü suallar

٤) Ayıqlıqda olmaq (yəni bihuş halda olmamaq);

٥) Müsafir olmamaq;

٦) Qadının heyz və nifas halında olmaması;

٧) Orucun zərəri olmasın;

٨) Oruc insanı məşəqqətə salmasın.

Diqqət:

- Oruc, yuxarıdakı şərtlərə malik olan şəxsə vacib olur. Odur ki, həddi-büluğa çatmayan uşağa, dəliyə, bihuş halda olan insana, oruc tutmağa qadir olmayana, müsafirə, heyz və nifas halında olan qadına, oruc tutmağın zərəri və məşəqqəti olan kəsə oruc vacib deyildir.[١]
- İnsan zəiflədiyinə görə orucunu aça bilməz. Lakin əgər çox zəiflədiyinə görə artıq tab gətirə bilməsə, orucu aça bilər. Həmçinin orucun zərəri və ya zərər qorxusu olsa, orucu açmaq olar. Beləliklə, həddi-büluğa çatan qızlara -yəni, hicri-qəməri ili ilə ٩ yaşına çatan qızlar - oruc tutmaq vacibdir və orucun çətin və zəifliyə səbəb olduğunu əsas götürüb orucu tərk edə bilməzlər. Əlbəttə əgər orucun onlara zərəri olsa, orucu aça bilərlər.[٢]

<u>٥.Orucun düz olmasının şərtləri:</u>

١) İslam;

٢) İman;

---

[١] Şəri suallara cavab, ٣٥٧, ٧٣٢, ٧٣٥, ٧٣٦, ٧٣٩, ٧٤٢, ٧٤٥, ٧٤٧, ٧٤٨, ٧٤٩, ٧٥١, ٧٥٢, ٧٥٣, ٧٥٤, ٧٥٥, ٧٥٦ və ٧٥٧-ci suallar

[٢] Şəri suallara cavab, ٧٣١ və ٧٣٢-ci suallar

٣) Əql;

٤) Bihuş halda olmamaq;

٥) Müsafir olmamaq;

٦) Qadının nifas və heyz halında olmaması;

٧) Orucun zərəri olmasın;

٨) Niyyət;

٩) Orucu batil edən işlərdən çəkinmək;

١٠) Müstəhəb oruc tutmaq istəyənin boynunda vacib orucu olmasın.

Diqqət:

- Yuxarıdakı şərtlərə malik olan şəxsin orucu düzdür. Deməli, kafirin, on iki imam şiəsi olmayanın (məşhur nəzərə görə), dəlinin, bihuş halda olan şəxsin, müsafirin, heyz və nifas halında olan qadının, zərəri olduğu halda oruc tutan insanın, oruc niyyəti etmədən oruc tutanın və bilərəkdən orucu batil edən işlərdən birini yetirən şəxsin orucu düz deyil.[١]

Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٢٤-cü məsələ

[١] Şəri suallara cavab, ٧٣٨, ٧٤٠, ٧٤٢, ٧٤٣, ٧٤٦, ٧٥١, ٧٥٢, ٧٥٣, ٧٥٧, ٧٥٨, ٧٧٢, ٧٧٣, ٧٧٤, ٨٢٤ və ٨٣٣-cü suallar

SUALLAR:

١. ***Oruc nədir?***

٢. ***Vacib oruclar hansılardır?***

٣. ***Əgər həkim oruc tutmağı xəstəsinə qadağan etsə, onun dediyinə əməl etmək vacibdirmi?***

٤. ***Oruc hansı şərtlərlə vacib olur?***

٥. ***Əgər həddi-büluğa çatan qızlara, yəni, hicri-qəməri ili ilə ٩ yaşına çatan qızlara, oruc tutmaq çətindirsə və zəifləmələrinə səbəb olursa, orucu tərk edə bilərlərmi?***

٦. ***Orucun düz olmasının şərtləri hansılardır?***

ƏLLİ DOQQUZUNCU DƏRS

ORUC (٢)

Orucun niyyəti

<u>٦. Orucun niyyəti</u>

١. Niyyət nədir?

Digər ibadətlərdə olduğu kimi orucda da niyyət etmək şərtdir. Yəni, insan orucu batil edən işlərdən sırf Allah-Taalanın əmrinə itaət məqsədilə çəkinməlidir. Əgər insan bu niyyətdədirsə, onu dilə gətirməyə ehtiyac yoxdur.[١]

٢. Niyyətin zamanı

- Niyyətin zamanı
  - Müstəhəb oruclarda gecənin əvvəlində məğrib azanına niyyət etmək qədər vaxt qalanadək
  - Vacib oruclarda
    - Müəyyən vacib oruclarda
      - Fəcr doğmamışdan qabaq niyyət düzdür
      - Günorta azanından qabaq
        - Bilərəkdən olsa: niyyət düz deyil
        - Unutsa və ya bilməsə: ehtiyyat vacibə görə oruc niyyəti edib oruc tutmalı və sonra qəzasını tutmalıdır
      - Günorta azanından sonra: kifayət etmir
    - Qeri-müəyyən vacib oruclarda
      - Günorta azanından qabaq düzdür
      - Günorta azanından sonra düz deyil

١) Orucun vaxtı fəcr doğandan etibarən başlandığına görə orucun niyyəti də bu andan ötüb keçməməlidir. Yaxşı olar ki, fəcr doğmamışdan öncə oruc niyyəti edilsin.[٢]

٢) Əgər bir nəfər gecənin əvvəlində sabah oruc tutacağını niyyət etsə və gecə yatıb sübh namazının vaxtı daxil olduqdan sonra yuxudan oyansa, yəni, sübh vaxtı oyana bilməsə, onun orucu düzdür.[٣]

٣) Hər kim Ramazan ayında sübh namazına yaxın qəsdən oruc niyyəti etməsə, gün ərzində niyyət etsə belə orucu batildir. Eyni zamanda məğrib azanına qədər orucu batil edən işlərdən çəkinməlidir və Ramazan ayından sonra həmin günün orucunun qəzasını tutmalıdır.[٤]

٤) Hər kim Ramazan ayında hökmü bilmədiyi və ya unutduğu üçün oruc niyyəti etməsə və gün ərzində niyyət etmədiyi yadına düşsə, əgər orucunu batil edən işlərdən birini yerinə yetiribsə, həmin günün orucu batildir. Lakin eyni zamanda məğrib azanına qədər orucu batil edən işlərdən çəkinməlidir. Amma əgər oruc niyyəti etmədiyi yadına düşdüyü zaman orucu batil edən işlərdən heç birini yerinə yetirməyibsə, günorta azanından sonraya təsadüf etsə, orucu batildir. Günorta azanından qabaq yadına düşsə, vacib ehtiyata görə oruc niyyəti edib oruc tutmalı və sonra həmin günün orucunun qəzasını yerinə yetirməlidir.[٥]

---

[١] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٣-cü məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٤-cü məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٥-ci məsələ
[٤] Rəhbərdən soruşulan suallar, ٦-cı məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٧-ci məsələ

٥) Hər kim Ramazan ayının orucundan başqa digər vacib oruclarda - məsələn, qəza və ya kəffarə orcu kimi - niyyət etməsə, orucu batil edən işlərdən heç birini yerinə yetirmədiyi təqdirdə niyyət edib oruc tuta bilər və orucu düzdür.[١]

٦) Müstəhəb orucun niyyətini günün hər çağında etmək olar və oruc düzdür. Bir şərtlə ki, oruc tutmaq istəyən şəxs o anadək orucu batil edən bir işi yerinə yetirməmişdir.[٢]

٧) Boynunda Ramazan ayı orucunun qəzası olan şəxs müstəhəb oruc tuta bilməz. Hətta əgər vacib orucu niyyət etmə zamanı ötsə belə (yəni, zöhr azanından sonra), müstəhəb orucun niyyətini etsə, düz deyil. Hər kim boynunda vacib oruc olduğunu unudub müstəhəb oruc tutsa və gün ərzində (istər zöhr azanından qabaq, istərsə də sonra) yadına düşsə, müstəhəb orucu batildir. Lakin zöhr azanından qabaq səhvini xatırladığı zaman niyyətini Ramazan ayının vacib oruca döndərə bilər və orucu düzdür.[٣]

Diqqət:

- Boynunda Ramazan ayı orucunun qəzası olan şəxs əgər müstəhəb oruc tutsa, bu müstəhəb oruc, onun qəza orucunun yerinə sayılmır.[٤]
- Boynunda qəza orucu olub-olmadığını bilməyən şəxs əgər bu niyyətlə oruc tutsa ki, qəza orucum varsa, qəza orucu, yoxdursa müstəhəb

---

[١] Rəhbərdən soruşulan suallar, ٨-ci məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٩-cu məsələ
[٣] Şəri suallara cavab, ٧٤٣-cü sual
Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ١٠-cu məsələ
[٤] Şəri suallara cavab, ٨١٦-cı sual

oruc sayılsın, bu halda əgər boynunda həqiqətən qəza orucu olsa, tutduğu oruc qəza orucu sayılacaqdır.[١]

٨) Əgər xəstə Ramazan ayında gündüz ərzində sağalsa və yaxşılaşsa, o gün oruc niyyəti edib oruc tutmaq ona vacib deyildir. Lakin əgər orucu batil edən işlərdən heç birini yerinə yetirməyibsə, müstəhəb ehtiyata görə, zöhr azanından qabaq oruc niyyəti edib oruc tuta bilər. Ramazan ayından sonra həmin günün orucunun qəzasını tutmalıdır.[٢]

٣. "Yovmuş-şəkk"də (şəkk günündə) niyyət:

Əgər insan şəkk etsə ki, Şaban ayının axırıncı günüdür, yoxsa Ramazan ayının birinci günü, həmin gün oruc tutmaq ona vacib deyildir. Əgər oruc tutsa, Ramazan ayının orucunun niyyətini edə bilməz. Müstəhəb oruc, qəza və s. bu kimi orucların niyyətini edib oruc tuta bilər. Əgər sonradan məlum olsa ki, o gün Ramazan ayı daxil olub, həmin gündə tutduğu oruc Ramazan ayının orucu sayılır və qəzasını yerinə yetirmək lazım deyildir. Əgər həmin gün məlum olsa ki, Ramazan ayının birinci günüdür, bunu bildiyi andan Ramazan ayı orucunu niyyət etməlidir.[٣]

٤. Oruc niyyətində qalmaq

١) Oruc tutan şəxs günün sonunadək oruc niyyətində qalmalıdır.

٢) Əgər oruc tutan şəxs gün ərzində oruc tutmaq niyyətindən dönsə, orucu batildir və yenidən oruc niyyətinə qayıtmağının heç bir faydası yoxdur.

---

[١] Şəri suallara cavab, ٨١٥-ci sual

[٢] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ١١-ci məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ١٢ və ١٣-cü məsələlər

٣) Hər kim tərəddüd etsə ki, orucunu davam etdirsin yoxsa etdirməsin, yəni orucu batil etmək barədə hələ qəti qərara gəlməyibsə, yaxud orucu batil edən işlərdən birini hələ görməsə də, onu görmək barədə qəti qərara gəlibsə, bu iki halda vacib ehtiyata görə orucunu tutmalı və sonra qəzasını yerinə yetirməlidir.[١]

Diqqət:

- Yuxarıda deyilənlər Ramazan ayının orucu, günü müəyyən edilmiş nəzir orucu və s. bu kimi "müəyyən vacib oruclar"a aiddir. Odur ki, qeyri-müəyyən vacib oruclarda və müstəhəb oruclarda əgər oruc tutan şəxs oruc niyyətindən dönsə və hələ orucu batil edən işlərdən birini görməsə, zöhr azanından qabaq yenidən oruc niyyəti etsə - müstəhəb oruclarda isə məğrib azanına qədər oruc niyyəti etmək olar - orucu düzdür.[٢]

---

[١] Şəri suallara cavab, ٧٥٨-ci sual
Rəhbərdən soruşulan suallar, Oruc bolümü, ١٤-cü məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ١٤ və ١٥-ci məsələlər

SUALLAR:

١. Əgər bir nəfər gecənin əvvəlində sabah oruc tutacağını niyyət etsə və gecə yatıb sübh namazının vaxtı daxil olduqdan sonra yuxudan oyansa, həmin günün orucu düzdürmü?

٢. Müstəhəb orucun niyyətinin zamanı nə vaxtdır?

٣. Boynunda qəza orucu olub-olmadığını bilməyən şəxs, əgər müstəhəb oruc tutsa, bu müstəhəb oruc, onun qəza orucunun yerinə sayılırmı?

٤. Yovmuş-şəkkin hökmünü bəyan edin.

٥. Əgər bir şəxs Ramazan ayında orucunu batil etmək qərarına gəlsə, orucu batil edən bir işi görmədiyi bir halda öz qərarından dönsə, orucunun hökmü nədir?

ALTMIŞINCI DƏRS

ORUC (٣)

Orucu batil edən işlər «١»

٧. Orucu batil edən işlər aşağıdakılardır:

١) Yemək və içmək;

٢) Cima (cinsi əlaqədə olmaq);

٣) İstimna;

٤) (Vacib ehtiyata görə) Allahın, peyğəmbərlərin və məsum imamların (ə) adından yalan demək (onların sözlərini təhrif etmək);

٥) (Vacib ehtiyata görə) qatı tozun boğaza yetişməsi;

٦) (Vacib ehtiyata görə) başı bütünlüklə suya salmaq;

٧) Sübh azanına qədər cənabət, heyz və nifas halında qalmaq;

٨) Maye ilə imalə etmək;

٩) Qəsdən qaytarmaq (qusmaq).

١. Yemək və içmək

١) Əgər oruc tutan şəxs qəsdən və bilərəkdən bir şey yeyib içsə, orucu batil olur. Onun yeyib-içdiyi şey, istər adi yeylib-içilən şeylər olsun, istərsə də kağız, torpaq və s. bu kimi adətən yeyilib-içilməyən şeylər. Həmçinin istər çox, istərsə də bir damla su və ya kiçik bir çörək ovuntusu qədər az bir şey olsun.[١]

٢) Əgər oruc tutan şəxs dişinin dibində qalan yemək qalığını bilərəkdən udsa, orucu batil olur. Lakin əgər dişinin dibində yemək qalığının

---

[١] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ١٧-ci məsələ

qaldığını və ya suyun boğazına getdiyini bilməsə, yaxud bunları bilsə də bilərəkdən udmasa, orucu batil olmur.[١]

٣) Bilmədən bir şey yeyib-içmək istər vacib orucu, istərsə də müstəhəb orucu batil etmir.[٢]

٤) Ağız suyunu udmaq orucu batil etmir.[٣]

٥) Vacib ehtiyata görə oruc tutan şəxs vitaminlər kimi bədəni qüvvətləndirən iynələri vurdurmamalıdır. Həmçinin damara vurulan iynələrdən və sistemlərdən çəkinməlidir. Lakin əzələyə vurulan iynələrin (əlbəttə, vitaminlər kimi bdəni qüvvətləndirən iynələrdən qeyri), yaxud bədəni hissiyatsız edən iynələrin, həmçinin yaraya dərman qoymağın maneəsi yoxdur.[٤]

٦) Vacib ehtiyata görə oruc tutan şəxs burun yolu ilə çəkilən və ya dilin altına qoyulan narkotik maddələri istifadə etməməlidir.[٥]

٧) Əgər oruc tutan şəxs yemək yeyərkən sübh namazının vaxtı olduğu-nu bilsə, ağzındakı tikəni çıxartmalıdır. Əgər bu tikəni bilərəkdən ud-sa, orucu batildir.[٦]

---

[١] Şəri suallara cavab, ٧٦٤-cü sual
Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ١٨-ci məsələ
[٢] Şəri suallara cavab, ٧٦٤ və ٧٩٧-ci suallar
Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٢٣-cü məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ١٩-cu məsələ
[٤] Şəri suallara cavab, ٧٦٧-ci sual
Rəhbərdən soruşulan suallar, oruc bölümü, ٢٠-ci məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٢١-ci məsələ
[٦] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٢٢-ci məsələ

٨) Başdan və sinədən gələn bəlğəmi ağız boşluğuna gəlməmiş udmaq orucu batil etmir. Lakin əgər ağız boşluğuna gəlsə, vacib ehtiyata görə onu udmaq olmaz.[١]

٩) Əgər oruc ikən təzyiqi salmaq üçün dərman içmək zəruridirsə, dərman içməyin maneəsi yoxdur. Lakin oruc batil olur.[٢]

١٠) Əgər oruc tutan şəxs damağından gələn qanı udmasa, orucu batil olmur. Əgər bu qan ağız suyuna qarışıb itsə, ağız suyu pakdır və onu udmağın da maneəsi yoxdur, oruc da batil olmur.

Həmçinin ağız suyunun qanlı olduğuna şəkk edən şəxs, əgər onu udsa, maneəsi yoxdur və orucu düzdür.[٣]

Diqqət:

- Ağız boşluğundan qanın gəlməsi orucu batil etmir. Lakin bu qanın boğaza yetişməsinin qarşısını almaq vacibdir.[٤]

٢. *Cima (cinsi əlaqədə olmaq)*

١) Cinsi əlaqədə olmaq, hətta məni xaric olmasa belə, orucu batil edir.[٥]

٢) Əgər bir şəxs oruc olduğunu unudub cinsi əlaqədə olsa, orucu batil olmur. Bir şərtlə ki, yadına düşən anda cinsi əlaqədən uzaqlaşmalıdır.[٦] uzaqlaşmalıdır.[٦]

---

[١] Şəri sullara cavab, ٧٩٩-cu sual

[٢] Şəri suallara cavab, ٧٦٨ və ٧٦٩-cu suallar

[٣] Şəri suallara cavab, ٧٦٣ və ٧٦٥-ci suallar

[٤] Şəri suallara cavab, ٧٥٩-cu sual

[٥] Rəhbərdən soruşulan suallar, ٢٥-ci məsələ

[٦] Rəhbərdən soruşulan suallar, oruc bölümü, ٢٦-cı məsələ

٣. *İstimna*

١) Əgər oruc tutan şəxs istimna etsə, yəni özü ilə elə bir iş görsə ki, ondan məni xaric olsun, orucu batildir.[١]

٢) Oruc ikən möhtəlim olmaq (yuxuda ikən məninin xaric olması) orucu batil etmir. Hətta əgər oruc tutan şəxs gündüz yatıb möhtəlim olacağını bilsə belə, yata bilər.[٢]

٣) Əgər oruc tutan şəxs məni xaric olan anda yuxudan oyansa, məninin xaric olmasının qarşısını almaq vacib deyil.[٣]

٤. *Allahın, peyğəmbərlərin və məsum imamların (ə) adından danışmaq*

١) Vacib ehtiyata görə Allahın, peyğəmbərlərin və məsum imamların (ə) adından yalan danışmaq hətta sonradan tövbə edib yalan danışdığını etiraf etsə belə, orucu batil edir.[١]

٢) Əgər bir şəxs hədis kitablarında yazılan bəzi hədislərin saxta və yalan olduğuna əmin olmasa, onu nəql edə bilər. Lakin müstəhəb ehtiyata görə nəql edərkən o hədislərin hansı kitabdan olduğunu vurğulasın. (məsələn belə desin: filan kitabda yazılıb ki, peyğəmbər (s) buyurub...)

٥. *Qatı tozun boğaza yetişməsi*

١) Vacib ehtiyata görə, oruc tutan şəxs qatı tozu, məsələn, torpaqlı yeri süpürərkən qalxan bir tozu udmamalıdır. Lakin tozun ağız və burun

---

[١] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٢٧-cı məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٢٨-ci məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٢٩-cu məsələ

boşluğuna daxil olması- bir şərtlə ki, boğaza çatmamalıdır - orucu batil etmir. Vacib ehtiyata görə siqaret tüstüsünün boğaza yetişməsi ilə oruc batil olur.[٢]

٢) Əgər ağciyər xəstəliyinə tutulan şəxs təngnəfəs olduğu vaxt qaz halında olan dərmanlardan isitfadə etmək məcburiyyətində qalsa, orucunun düz olduğu şübhəlidir. Əgər bu dərmanlardan istifadə etməmək mümkün deyilsə və ya həddən artıq çətindirsə, oruc tutan şəxs ondan istifadə edə bilər. Lakin vacib ehtiyata görə orucu batil edən digər işləri yerinə yetirməsin və oruc tutmaq qüdrəti (bu dərmanlardan istifadə etmədən) bərpa olunduğu vaxt oruclarının qəzasını tutsun.[١]

SUALLAR:

١. Orucu batil edən işləri sadalayın.

٢. Oruc halında iynə vurdurmağın hökmü nədir?

٣. Oruc ikən qan təzyiqi üşün dərman qəbul etmək olarmı və bu halda orucun hökmü nədir?

٤. Gündüz vaxtı möhtəlim olmaq orucu batil edirmi?

٥. Əgər bir şəxs hədis kitablarında yazılan bəzi hədislərin saxta və yalan olduğuna əmin olmasa, onu nəql edə bilərmi?

٦. Oruc tutan siqaret çəksə, orucunun hökmü nədir?

---

[١] Rəhəbərdən soruşulan suallar, Oruc bölümü, ٣٠-cu məsələ

[٢] Şəri suallara cavab, ٨٠٠-cü sual

Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٣٢-ci məsələ

ALTMIŞ BİRİNCİ DƏRS

ORUC (٢)

Orucu batil edən işlər «٢»

٦. ***Başı bütünlüklə suya salmaq***

١) Əgər oruc tutan şəxs başını bütünlüklə suya salsa, vacib ehtiyata görə, orucu batildir və qəzasını tutmalıdır.[٢]

٢) Oruc tutan şəxs istər bədənini suya salsın, istərsə də salmasın və təkcə başını suya salsın, əgər başını bütünlüklə suya salsa, orucu batildir.[٣]

٣) Əgər oruc tutan şəxs başının yarısını suya salıb çıxarsa, sonra digər yarısını salsa, orucu batil olmur.[٤]

٤) Əgər baş bütünlükdə suya daxil olsa, saçların bir hissəsi suya daxil olmasa da oruc batil olur.[٥]

٥) Əgər insan şəkk etsə ki, başı bütünlüklə suya daxil oldu - ya yox, orucu düzdür.[٦]

٦) Əgər oruc tutan şəxs qeyri-ixtiyari suya yıxılsa və başı bütünlüklə suya daxil olsa, orucu batil olmur. Lakin dərhal başını sudan çıxartmalıdır. Həmçinin əgər oruc tutduğunu unudan bir şəxs başını suya salsa,

---

[١] Şəri suallara cavab, ٧٦٢-ci sual
[٢] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٣٣-cü məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٣٤-cü məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٣٥-ci məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٣٦-cı məsələ
[٦] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٣٧-ci məsələ

orucu batil olmur. Lakin oruc olduğu yadına düşən kimi dərhal başını sudan çıxartmalıdır.[١]

٧) Əgər oruc tutan şəxs su keçirməyən bir paltar geyinsə (məsələn, su altında üzən üzgüçülərin geyimi kimi ki, suya daxil olduqda bədəni əsla islanmır) və bu geyimlə suya daxil olsa, bu halda əgər bu geyim onun başına tamamilə yapışıbsa, orucunun düz olduğu şübhəlidir. Vacib ehtiyata görə orucun qəzasını tutmalıdır.[٢]

٨) Qab və ya başqa vasitələrlə başa su tökmək orucu batil etmir.[٣]

٧. *Sübh azanına qədər cənabətli, heyzli və nifaslı halda qalmaq*

١) Ramazan ayının gecəsində boynuna cənabət qüslü gələn şəxs sübh azanından qabaq qüsl verməlidir. Əgər sübh azanına qədər qəsdən qüsl verməsə, orucu batildir. Bu hökm, Ramazan orucunun qəzasına da aiddir.[٤]

Diqqət:

- Əgər Ramazan ayının gecəsində bir nəfərin boynuna cənabət qüslü gəlsə və heç bir qəsdi olmadan sübh azanına qədər qüslü verməsə, məsələn, yuxuda ikən boynuna cənabət qüslü gəlsə və sübh azanından sonra yuxudan oyansa, orucu düzdür.[٥]

---

[١] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٣٨-ci məsələ
[٢] Şəri suallara cavab, ٧٤١-ci sual
[٣] Şəri suallara cavab, ٧٦٥-ci sual
[٤] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٣٩-cu məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٤٠-cı məsələ

- Sübh azanına qədər cənabətli halda qalmaq Ramazan ayının və onun qəza orucunu batil edir. Digər oruclar isə, xüsusilə müstəhəb oruclar bu səbəblə batil olmur.[١]

٢) Hər kim Ramazan ayında gecədən sübhə qədər boynunda cənabət qüslü olduğunu unutsa və beləcə sübh namazının vaxtı daxil olsa, orucu batildir. Vacib ehtiyata görə Ramazan ayının orucunun qəzası da bu hökmdədir. Digər oruclar batil olmur.[٢]

٣) Əgər boynunda cənabət qüslü olan şəxs bu halda bir neçə gün oruc tutsa və biləmsə ki, oruc tutmaq üçün cənabətdən paklanmaq şərtdir, tutduğu oruclar batildir və qəzasını yerinə yetirməlidir.[٣]

٤) Əgər bir nəfər mübarək Ramazan ayında napak su ilə qüsl versə və bir neçə gündən sonra o suyun napak olduğunu bilsə, tutduğu oruclar düzdür.[٤]

٥) Hər kim Ramazan ayının gecəsində vaxtın darlığı, suyun zərəri olduğu və s. bu kimi səbəblər üzündən qüsl verə bilməsə, qüsl əvəzinə təyəmmüm etməlidir.[٥]

Diqqət:

- Şəri üzrü olduğuna görə qüsl əvəzinə təyəmmüm edən şəxs, Ramazan ayının gecəsində ixtiyari olaraq cənabət qüslünə bais olan bir

---

[١] Şəri suallara cavab, ٧٧٤-cü sual
[٢] Şəri suallara cavab, ٧٨٣-cü sual
[٣] Şəri suallara cavab, ٧٧٣-cü sual
[٤] Şəri suallara cavab, ٧٨٠-cı sual
[٥] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٤٢-cı məsələ

işi görə bilər. Bu şərtlə ki, cənabət qüslü boynuna gəldikdən sonra təyəmmüm etmək üçün kifayət qədər vaxtı olmalıdır.[١]

- Hər kim sübh azanından qabaq boynunda olan cənabət qüslünü versə və ya qüsl əvəzinə təymmüm etsə - sübh azanından sonra ondan qeyri-ixtiyari məni xaric olsa da - tutduğu oruc düzdür.[٢]

٦) Əgər yuxuda ikən oruc tutan şəxsdən məni xaric olsa, orucu batil olmur. Deməli, əgər bir nəfər sübh azanından qabaq və ya sonra yatıb yuxuda ikən boynuna cənabət qüslü gəlsə və sübh namazından sonra oyansa, həmin günün orucu düzdür. Əlbəttə namaz üçün qüsl verməlidir və namaz vaxtına qədər qüslü təxirə sala bilər.[٣]

Diqqət:

- Əgər oruc tutan şəxs Ramazan ayında və ya digər aylarda gündüz vaxtı yatsa və yuxuda ikən boynuna cənabət qüslü gəlsə, yuxudan oyanan kimi dərhal qüsl verməsi vacib deyil.[٤]

٧) Oyaq ikən boynuna cənabət qüslü gələn şəxs və ya oyanıb yuxuda ikən boynuna cənabət qüslü gəldiyini görən şəxs əgər bilsə ki, yatarsa, sübh azanından qabaq qüsl vermək üçün oyana bilməyəcəkdir, qüsl verməmiş yata bilməz. Əgər bu şəxs yatsa və sübh azanından qabaq qüsl verə bilməsə, orucu batildir. Lakin əgər ehtimal versə ki, qüsl vermək üçün sübh azanından qabaq oyanacaq və hökmən qüsl verəcəkdir, oyanmasa orucu düzdür. Lakin əgər oyanıb yenidən yatsa və

---

[١] Şəri suallara cavab, ٧٧٦-cı sual
[٢] Şəri suallara cavab, ٧٨١-ci sual
[٣] Şəri suallara cavab, ٧٨٢-ci sual
Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٤٣-cü sual
[٤] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٤٤-cü məsələ

sübh azanına qədər oyanmasa, orucu batildir. O, orucunun qəzasını yerinə yetirməli və ehtiyati-müstəhəbə görə kəffarə də verməlidir.[١]

Diqqət:

- Əgər bir nəfər Ramazan ayında gecə yuxudan oyanıb şəkk etsə ki, möhtəlim olub, yoxsa olmayıb, lakin öz şəkkinə etina etməyib yenidən yatsa və sübh azanından sonra oyansa və başa düşsə ki, sübh azanından qabaq möhtəlim olmuşdur, bu halda əgər birinci dəfə yuxudan oyananda möhtəlim olma nişanəsini özündə müşahidə etməmişdirsə və sadəcə bunu ehtimal vermişdirsə, sübh azanından sonra oyansa da orucu düzdür. Həmçinin əgər sübh azanından qabaq oyansa və möhtəlim olduğunu başa düşməyib yatsa, sübh azanından sonra oyanıb sübh azanından qabaq möhtəlim olduğunu bilsə, orucu düzdür.[٢]

٨) Heyzdən və nifasdan paklanan qadın əgər Ramazan ayında sübh azanına qədər qüsl verməyib onu təxirə salsa, orucu batildir.[٣]

٩) Günü müəyyən olan nəzir orucu tutan qadın əgər oruc ikən heyz olsa, orucu batildir və paklandıqdan sonra onun qəzasını tutmalıdır.[٤]

٨. *Maye ilə imalə etmək*

١) Maye ilə imalə etmək, hətta çarəsizlikdən və müalicə məqsədilə olsa da orucu batil edir.[٥]

---

[١] Şəri suallara cavab, ٧٧٨-ci sual
Rəhəbərdən soruşulan suallar, Oruc bölümü, ٤١-ci məsələ
[٢] Şəri suallara cavab, ٧٧٧və ٧٧٩-cu suallar
[٣] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٤٥-ci məsələ
[٤] Şəri suallara cavab, ٨٢٤-cü sual
[٥] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٤٧-ci məsələ

٢) Qadın xəstəliklərinin müalicəsində uşaqlıq yoluna qoyulan şamlardan istifadə etmək orucu batil etmir.[١]

٩. ***Qusmaq***

١) Əgər oruc tutan şəxs özünü qusdursa, hətta xəstəliyi ilə əlaqədar bu işi görmək məcburiyyətində qalsa belə orucu batil olur. Lakin əgər bilmədən və qeyri-ixtiyari qussa, orucu düzdür.[٢]

٢) Əgər oruc tutan şəxs gəyirərkən (qida borusundan) ağzına yemək-içmək qırıntısı gəlsə, onu udmamalı və ağzından çıxartmalıdır. Əgər qeyri-ixtiyari udsa, orucu düzdür.[٣]

Orucu batil edən işlər barədə bir neçə məsələ:

١) Hər kim qəsdən və ixtiyari olaraq orucu batil edən işlərdən birini görsə, orucu batil olur. Lakin əgər qəsdən etməsə, məsələn ayağı sürüşüb çaya düşsə və başı bütünlüklə suya daxil olsa, yaxud oruc olduğunu unudub yemək yesə, ya da zorla onun boğazına yemək-içmək töksələr, orucu batil olmur. Bu hökm orucun bütün qismlərinə, yəni, həm vacib, ham də müstəhəb, həm Ramazan ayının, həm də Ramazandan qeyri aylarda tutulan oruca aiddir.[٤]

Diqqət:

- Əgər oruc tutan şəxsi orucunu batil etməyə vadar etsələr, məsələn, onu hədələsələr ki, əgər yemək yeməsə canına və malına zərər vura-

---

[١] Şəri suallar cavab, ٧٦٦-cı sual

[٢] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٤٨-ci məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٤٩-cu məsələ

[٤] Şəri suallara cavab, ٧٣٥, ٧٩٧ və ٨٢٢-ci suallar
Rəhbərdən soruşulan sualar, Oruc bölümü, ٥٠-ci məsələ

caqlar və o, bu zərərin qarşısını almaq üçün yemək yesə, orucu batil olur.[۱]

۲) Əgər oruc tutan şəxs səhvən orucu batil edən işlərdən birini yerinə yetirsə və sonra orucunun batil olduğunu düşünüb orucu batil edən bir işi bir daha yerinə yetirsə, orucu batil olur.[۲]

۳) Hər kim şəkk etsə ki, orucu batil edən bir işi yerinə yetirib, yoxsa yetirməyib, məsələn, şəkk etsə ki, ağzına daxil olan qatı tozu udub, yoxsa udmayıb, yaxud ağzına aldığı suyu udub, yoxsa udmayıb, orucu düzdür.[۳]

---

[۱] Şəri suallara cavab, ۷۹۷-ci sual

[۲] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ۵۲-ci məsələ

[۳] Şəri suallara cavab, ۸۲۸-ci sual

SUALLAR:

١. Əgər oruc tutan şəxs su altında üzən üzgüçülərin geyimi kimi su keçirməyən bir paltar geyinsə və bu geyimlə suya daxil olsa, orucunun hökmü nədir?

٢. Duş almaq və ya qabla başa su tökmək orucu batil edirmi?

٣. Günəş doğduqdan sonra cənabət qüslü verib qəza və ya müstəhəb oruc tutmaq olarmı?

٤. Hər kim Ramazan ayında gecədən sübhə qədər boynunda cənabət qüslü olduğunu unutsa və gündüz yadına düşsə, orucunun hökmü nədir?

٥. Əgər oruc tutan şəxs Ramazan ayında gecə vaxtı oyansa və möhtəlim olduğunu görsə, qüsl vermək üçün oyanacağını ehtimal verib yatsa, lakin sübh namazının vaxtı daxil olduqdan sonra oyansa, orucunun hökmü nədir?

٦. Əgər oruc tutan şəxs gəyirərkən (qida borusundan) ağzına yemək-içmək qırıntısı gəlsə, nə etməlidir?

ALTMIŞ İKİNCVİ DƏRS

ORUC (٥)

Ramazan ayı orucunun qəsdən batil etməyin kəffarəsi

٨. Ramazan ayı orucunun qəsdən batil etməyin kəffarəsi

١) Hansı hallarda kəffarə vermək vacibdir.

Hər kim mübarək Ramazan ayında heç bir şəri üzrü olmadan qəsdən və ixtiyari olaraq orucu batil edən işlərdən birini yerinə yetirsə, həm orucu batil olur, həm də orucun qəzasından əlavə kəffarə də verməlidir. İstər orucu batil edərkən kəffarə verməyin vacib olduğunu bilsin, istərsə də bilməsin, fərqi yoxdur.[١]

Diqqət:

- Əgər bir şəxs Ramazan ayında müəyyən bir üzrü olduğuna görə ehtimal versə ki, oruc ona vacib deyil və ehtimalı əsasında oruc tutmasa, lakin sonradan orucun ona vacib olduğu məlum olsa, orucun qəzasından əlavə kəffarə də verməlidir. (Ramazan ayında orucun vacib olmadığını təkcə ehtimal verib orucu tərk etmək olmaz). Lakin əgər orucun zərəri olacağından qorxsa və bu qorxunun məntiqi bir əsası olsa, təkcə orucun qəzası vacib olur, kəffarəsi yoxdur.[٢]
- Hər kim şəri hökmü bilmədiyinə görə orucu batil edən bir iş görsə, məsələn, başı bütünlüklə suya salmağın orucu batil etdiyini bilməyib

---

[١] Şəri suallara cavab, ٧٥٠ və ٨٢٢-ci suallar
Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٥٣-cü məsələ
[٢] Şəri suallara cavab, ٧٣٥-ci sual

bu işi görsə, orucu batildir və həmin günün qəzasını tutmalıdır. Lakin kəffarə vermək vacib olmur.[١]

- Hər kim bir işin haram olduğunu bilsə, lakin orucu batil etdiyini bilməsə və onu yerinə yetirsə, orucun qəzasından əlavə vacib ehtiyata görə kəffarəsini də verməlidir.[٢]
- Əgər hansısa bir səbəbə görə orucu batil etmək bir nəfərə vacib və ya şəriətdə icazə verilsə, məsələn, onu orucu batil edən bir işi görməyə vadar etsələr, yaxud suda boğulan bir nəfəri xilas etmək üçün suya atılsa, bu halda təkcə orucun qəzası ona vacib olur və kəffarəsi yoxdur.[٣]

٢) Əgər oruc tutan şəxsin mədəsindən və ya qida borusundan bir şey ağzına gəlsə, onu udmamalıdır. Əgər bilərəkdən onu udsa, orucun həm qəzasını tutmalı, həm də kəffarə verməlidir.[٤]

٣) Əgər oruc tutan şəxs sözünə etibar etmədiyi bir nəfərdən məğrib namazının vaxtı olduğunu eşitsə və orucunu açsa, sonradan məğrib namazının vaxtı olmadığı məlum olsa, orucun həm qəzası, həm də kəffarəsi vardır.[٥]

٤) Əgər Ramazan ayında oruc olan bir kişi öz zövcəsi ilə cinsi əlaqədə olsa və qadın da bu işə razı olsa, hər ikisi orucu qəsdən batil edən şəxs

---

[١] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٥٥-ci məsələ
[٢] Şəri suallara cavab, ٧٩٢-ci sual
[٣] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٥٦-cı məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٦٥-ci məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٦٧-ci məsələ

hökmündədirlər və orucun qəzasından əlavə kəffarə də onlara vacib olur.[١]

٢. ***Orucun kəffarəsi hansılardır?***

١) Müqəddəs islam şəriəti baxımından Ramazan ayının orucunu qəsdən batil etməyin kəffarəsi bu üç şeydən biridir:

١. Bir qul azad etmək;

٢. ٦٠ gün (iki ay) oruc tutmaq;

٣. ٦٠ yoxsula təam vermək.[٢]

Diqqət:

- İndiki zəmanədə qul və quldarlıq mövcud olmadığına görə, mükəlləf yerdə qalan iki kəffarədən birini verməlidir.[٣]
- Oruc tutan şəxs istər orucunu halal bir şeylə batil etsin, istərsə də haram bir şeylə, məsələn, zina etsin və ya haram bir şey yesin, kəffarənin miqdarı dəyişmir. Hərçənd ki, ehtiyati-müstəhəbə görə haram bir şeylə orucunu batil etsə, hər üç kəffarəni birgə verməlidir.[٤]
- Boynuna kəffarə gələn şəxs bu üç kəffarədəndən heç birini verə bilməsə, neçə yoxsulu yedizdirməyə imkanı çatırsa, onları yedizdirsin və vacib ehtiyata görə bağışlanma da diləsin. Əgər yoxsula təam verməyə

---

[١] Şəri suallara cavab, ٧٧٠-ci sual

[٢] Şəri suallara cavab, ٧٨٤ və ٨١٤-cü suallar
Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٥٧-ci məsələ

[٣] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٥٧-ci məsələ

[٤] Şəri suallara cavab, ٧٨٤ və ٧٨٥-ci suallar
Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٦٣-cü məsələ

əsla imkanı yoxdursa, təkcə bağışlanma diləsə kifayət edir. Yəni, qəlbən dilində "Əstəğfirullahə" desin.[١]

- Əgər oruc tutmağa və yoxsula təam verməyə imkanı olmayan və şəri vəzifəsi bağışlanma diləmək olan bir şəxs sonralar oruc tutmaq və yoxsula yemək vermək imkanına malik olsa, bu işləri görməsi lazım deyildir. Hərçənd ki, bu işləri görmək ehtiyati-müstəhəbdir.[٢]

٢) Ramazan ayı orucunun kəffarəsi olaraq iki ay oruc tutmaq istəyən şəxs, bir ay ardıcıl olaraq oruc tutmalı və ikinci aydan ən azı bir günü birinci ayın ardınca tutmalıdır. İkinci ayı isə (başqa sözlə desək, ikinci ٣٠ günü) ardıcıl oruc tutmasa da olar.[٣]

٣) ٦٠ gün kəffarə orucu tutan qadın əgər bu ərəfədə heyz və ya nifas olsa, onlardan paklandıqdan sonra orucunu davam etdirməlidir və əvvəldən başlamaq lazım deyildir.[٤]

٤) ٦٠ yoxsula iki şəkildə təam vermək olar:

١. Yemək hazırlayıb onları doyuzdurmaq.

٢. Hər birinə bir müdd (٧٥٠ qram) buğda, arpa, çörək və ya bu qəbildən digər qida məhsulları vermək.

٥) Kəffarə olaraq ٦٠ yoxsula təam verən şəxs əgər ٦٠ yoxsul insan tanıyırsa və təamı onlara çatdırmaq imkanı varsa, iki və ya daha artıq payı bir yoxsula verə bilməz. Hər bir yoxsula ona düşən pay qədər

---

[١] Şəri suallara cavab, ٨١١ və ٨١٢-ci suallar
Rəhbərdən soruşulan suallar, Oruc bölümü , ٥٩-cu məsələ
[٢] Şəri suallara cavab, ٨١٢-ci sual
Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٦٠-cı məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٦١-ci məsələ
[٤] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٦٢-ci sual

təam verməlidir. Əlbəttə ailə başçısına ailə üzvlərinin sayı qədər pay verə bilər və o da onu öz ailəsinə yedizdirə bilər.[١]

Diqqət:

- Burada nəzərdə tutulan yoxsul həm uşaq, həm də böyük, həm qadın, həm də kişi ola bilər.

٣. *Kəffarənin hökmləri*

١) Əgər oruc tutan şəxs gün ərzində bir dəfədən artıq orucu batil edən bir iş yerinə yetirsə, yalnız bir kəffarə ona vacib olur. Əlbəttə əgər orucu batil edən həmin iş cinsi əlaqədə olmaq və ya istimna etmək olarsa, vacib ehtiyata görə onların sayı qədər kəffarə verməlidir.[٢]

٢) Orucunu qəsdən batil edən şəxs əgər həmin gün səfərə çıxsa belə kəffarə onun boynundan götürülmür.

Deməli, hər kim yuxudan oyanıb möhtəlim olduğunu görsə, lakin sübh namazının vaxtı daxil olmamışdan qabaq bilərəkdən qüsl və ya təyəmmüm etməsə və orucu pozmaq niyyətilə sübh namazı daxil olduqdan sonra səfərə çıxmağı qərara alsa, qərara aldığı kimi etsə də kəffarə onun boynundan götürülmür. Yəni, gecə səfərə çıxmağı qərara alıb səhər də səfərə çıxmaq kəffarənin aradan qalxmasına bais olmur.[٣]

---

[١] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٧١-ci məsələ

[٢] Şəri suallara cavab, ٧٩٤-cü sual

Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٧١-ci məsələ

[٣] Şəri suallara cavab, ٧٧٥-ci sual

Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٦٨-ci məsələ

٣) Boynuna kəffarə gələn şəxsə onu dərhal yerinə yetirmək vacib deyil. Lakin kəffarəni o qədər təxirə salmamalıdır ki, vacib əmələ qarşı səhlənkarlıq sayılsın.[١]

٤) Üstündən bir neçə il ötsə də vacib kəffarənin üzərinə heç nə əlavə olunmur və miqdarı artmır.[٢]

٥) Qəza və kəffarə orucu arasında tərtibə riayət etmək vacib deyil.[٣]

SUALLAR:

١. Hər kim bir işin haram olduğunu bilsə, lakin orucu batil etdiyini bilməsə və onu yerinə yetirsə, təkcə orucun qəzasını tutmalıdır, yoxsa kəffarə də verməlidir?

٢. Əgər Ramazan ayında oruc olan bir kişi öz zövcəsi ilə cinsi əlaqədə olsa və qadın da bu işə razı olsa, onların hökmü nədir?

٣. Ramazan ayı orucunu qəsdən batil etməyin kəffarələri hansılardır?

٤. Əgər bir şəxs orucunu haram bir işlə (zina, istimna kimi) və ya haram bir şeyi yemək-içməklə batil etsə, hökmü nədir?

٥. Əgər oruc tutan şəxs gün ərzində bir dəfədən artıq orucu batil edən bir iş yerinə yetirsə, öhdəsinə düşən şəri vəzifə nədir?

٦. Əgər vacib kəffarənin üstündən bir neçə il ötsə, onun üzərinə bir şey əlavə olunurmu?

---

[١] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٦٩-cu məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٧٠-ci məsələ

[٣] Şəri suallara cavab, ٨٠٧-ci sual

ALTMIŞ ÜÇÜNCÜ DƏRS

ORUC (٦)

٩. Ramazan ayı orucunun qəzasını bilərəkdən batil etmək

١) Hansı halda bu kəffarə vacib olur.

Ramazan ayı orucunun qəzasını tutan şəxs zöhr azanından sonra orucunu batil edə bilməz və əgər qəsdən orucunu batil etsə kəffarə verməlidir.[١]

Diqqət:

- Ramazan ayı orucunun qəzasını tutan şəxs zöhr azanından qabaq orucunu aça bilər. Bu şərtlə ki, qəza orucunu tutmaq üçün vaxt dar olmasın. Lakin əgər vaxt dar olsa, məsələn, bir nəfərin boynunda ٥ gün qəza orucu varsa və irəlidə gələn Ramazan ayına da beş gündən çox vaxt qalmayıbsa, vacib ehtiyata görə bu şəxs zöhrdən öncə də orucunu aça bilməz. Lakin orucunu açsa, kəffarəsi yoxdur.[٢]
- Ramazan ayı orucunun qəzasını tutmağa əcir olan (isticari oruc tutan) şəxs əgər zöhr namazının vaxtı daxil olduqdan sonra orucu açsa, kəffarə ona vacib olmur.[٣]

---

[١] Şəri suallara cavab, ٨٠٥-ci məsələ

[٢] Şəri suallara cavab, ٨٠٥-ci sual

Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٨٧-ci məsələ

[٣] Şəri suallara cavab, ٨٠٩-cu sual

٢) Kəffarənin miqdarı

Ramazan ayı orucunun qəzasını tutan şəxs əgər zöhrdən sonra orucunu açsa, ١٠ yoxsula yemək verməlidir. Əgər buna imkanı olmasa, ٣ gün oruc tutmalıdır.[١]

١٠. Təxirə salınan qəza orucunun kəffarəsi

١) Hansı halda bu kəffarə vacib olur.

Hər kim şəri üzrü olduğuna görə Ramazan ayında oruc tutmasa və gələn ilin Ramazan ayınadək heç bir üzrü olmadan səhlənkarlıq üzündən onun qəzasını yerinə yetirməsə, sonradan həm orucun qəzasını tutmalı, həm də qəza orucunu təxirə saldığına görə kəffarə verməlidir. Lakin əgər gələn ilin Ramazan ayına qədər mövcud şəri üzrü davam etsə, məsələn, il boyu səfərdə olsa, təkcə orucun qəzasını tutmalıdır və kəffarə ona vacib olmur. Hərçənd ki, ehtiyati-müstəhəbə görə həm orucun qəzasını tutmalı, həm də kəffarə verməlidir.[٢]

Diqqət:

- Hər kim bilməsə ki, əgər qəza orucunu gələn ilin Ramazan ayınadək tutmasa, boynuna kəffarə gələcəkdir, hökmü bilmədiyinə görə kəffarə onun boynundan götürülmür. Beləliklə əgər bir şəxs bilməsə ki, Ramazan ayında tutmadığı orucların qəzasını tutmalıdır və gələn

---

[١] Şəri suallara cavab, ٨٠٥-ci sual
Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٧٢-ci məsələ
[٢] Şəri suallara cavab, ٧٣٦, ٨٠٣ və ٨١٠-cu suallar
Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٨٩ və ٩٠-cı məsələlər

ilin Ramazan ayına qədər də orucların qəzasını tutmasa, hər gün üçün kəffarə verməlidir.[١]

- Ramazan ayı orucunun qəzası əgər gələn ilin Ramazan ayına qədər yerinə yetirilməsə, kəffarəsi vardır. Lakin bu kəffarə qəza orucu bir neçə il təxirə salınsa belə bir dəfə vacib olur.[٢]

٢) Kəffarənın miqdarı

Təxirə salınan qəza orucunun kaffarəsi hər gün üçün bir müdd təamdan ibatərdir və bu təam yoxsula verilməlidir.[٣]

Diqqət:

- Hər gün bir müdd təam kəffarə verən şəxs bir neçə günün kəffarəsinin bir yoxsula verə bilər.[٤]

١١.Fidyə

١) Aşağıdakı hallarda fidyə verilir:

I. Əgər oruc tutmaq qoca qadına və ya kişiyə həddən artıq çətin olarsa, orucun qəzasından əlavə fidyə də verilməlidirlər;

II. Əgər ağzı tez-tez quruyan bir şəxsə oruc tutmaq həddən artıq çətindirsə;

III. Doğumuna az bir müddət qalan hamilə qadına oruc tutmağın zərəri varsa;

---

[١] Şəri suallara cavab, ٨١٣-cü sual

[٢] Şəri suallara cavab, ٨٠٣-cü sual

Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٩١-ci məsələ

[٣] Şəri suallara cavab, ٨٠٣ və ٨١٠-cu suallar

[٤] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٩٢-ci məsələ

IV. Əgər süd verən qadının südü azdırsa və oruc tutarsa, uşağa süd çatdıra bilməyəcəksə;

V. Əgər oruc tutmağın bir xəstəyə zəzəri varsa və onun xəstəliyi gələn ilin Ramazan ayına qədər davam edərsə.

١) Əgər hamilə qadın orucun bətnindəki uşağa zərəri olacağından qorxsa, oruc tutmamalı və hər gün üçün fidyə verməlidir. Sonralar orucun qəzasını tutmalıdır.[١]

٢) Əgər süd verən qadın oruc tutduqda südü azalırsa və ya quruyursa, buna görə də körpə uşağa zərəri olacağından qorxsa, oruc tutmamalıdır. O, hər gün üçün fidyə verməli və sonralar orucun qəzasını tutmalıdır.[٢]

٣) Xəstə olduğu üçün Ramazan ayının orucunu tuta bilməyən bir nəfərin xəstəliyi əgər gələn ilin Ramazan ayınadək davam etsə, tutmadığı orucların qəzası yoxdur, lakin hər gün üçün fidyə verməlidir.[٣]

Diqqət:

- Əgər qadın xəstə olduğu üçün oruc tuta bilməsə və gələn ilin Ramazan ayınadək orucun qəzasını da tuta bilməsə, onun özünə fidyə vermək vacib olur və ərinin üzərinə isə heç bir məsuliyyət düşmür.[٤]

---

[١] Şəri suallara cavab, ٨٠٣ və ٨٠٦-cı suallar
[٢] Şəri suallara cavab, ٧٤٧-ci sual
[٣] Şəri suallara cavab, ٧٤٩ və ٧٥٢-ci suallar
Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٨٨-ci məsələ
[٤] Şəri suallara cavab, ٨٠٤-cü sual

- İki il ardıcıl hamilə qalan qadın əgər şəri üzrü olduğuna görə oruc tuta bilməsə, təkcə orucun qəzası ona vacib olur. Əlbəttə əgər onun şəri üzrü orucun bətnindəki körpəyə və ya dünyaya gələn körpəsinə zərəri olacağından irəli gələn qorxudursa, orucun qəzasından əlavə hər gün üçün fidyə də verməlidir. Habelə, əgər orucun qəzasını şəri üzrü olmadan gələn ilin Ramazan ayınadək tutmasa, qəza və fidyədən əlavə qəza orucunu təxirə salma kəffarəsi də ona vacib olur.[١]

٢) Fidyənin miqdarı

Fidyə, bir müdd təamdan ibarətdir və yoxsula verilməlidir.[٢]

Kəffarə barədə bir şəri məsələ:

- Hər kim müəyyən bir günü oruc tutacağını nəzir etsə və həmin gün bilərəkdən oruc tutmasa və ya orucunu batil etsə, kəffarə verməlidir.[٣]

Diqqət:

- Nəzir orucunun kəffarəsi andı pozmağın kəffarəsi ilə eynidir.

---

[١] Şəri suallara cavab, ٨٠٦-cı sual

[٢] Şəri suallara cavab, ٧٤٧, ٧٥٢ və ٨٠٦-cı suallar

[٣] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٦٦-cı məsələ

SUALLAR:

١. Ramazan ayı orucunun qəzasını bilərəkdən batil etməyin kəffarəsi nədir?

٢. Ramazan ayı orucunun qəzasını təxirə salmağın kəffarəsi nədir?

٣. Hər kim bilməsə ki, əgər qəza orucunu gələn ilin Ramazan ayınadək tutmasa, boynuna kəffarə gələcəkdir, hökmü bilmədiyinə görə kəffarə onun boynundan götürülürmü?

٤. Hansı hallarda fidyə verilir?

٥. Əgər qadın xəstə olduğu üçün oruc tuta bilməsə və gələn ilin Ramazan ayınadək orucun qəzasını da tuta bilməsə, onun özünə fidyə vermək vacib olur, yoxsa ərinə?

٦. İki il ardıcıl hamilə qalan qadın əgər şəri üzrü olduğuna görə oruc tuta bilməsə, hökmü nədir?

ALTMIŞ DÖRDÜNCÜ DƏRS

ORUC (٧)

١٢. Hansı hallarda təkcə orucun qəzası vacib olur və kəffarə vacib olmur?

١) Hər kim Ramazan ayının orucunu niyyət etməsə və ya riyakarlıq edib oruc tutsa, eyni halda orucu batil edən işlərdən heç birini yerinə yetirməsə, təkcə orucun qəzası ona vacib olur və ona kəffarə düşmür.[١]

٢) Hər kim Ramazan ayında boynunda cənabət qüslü olduğunu unudub cənabətli halda bir və ya bir neçə gün oruc tutsa, həmin günlərin təkcə qəzası ona vacib olur.[٢]

٣) Əgər bir şəxs Ramazan ayında sübh namazının vaxtı olub-olmadığını araşdırmadan orucu batil edən işlərdən birini etsə, sonra məlum olsa ki, həmin işi yerinə yetirərkən sübh namazının vaxtı olmuşdur, həmin günün orucunun qəzasını tutmalıdır.

Lakin əgər araşdırdıqdan sonra sübhün daxil olmadığını bilsə və bir şey yesə, sonra məlum olsa ki, həmin anda sübh namazının vaxtı olmuşdur orucu düzdür və qəzası yoxdur.[٣]

٤) Əgər Ramazan ayında bir nəfər havanın qaraldığını görüb məğrib vaxtı olduğuna əmin olsa və ya şəri baxımdan etibarlı bir şəxs məğrib vaxtı olduğunu xəbər versə buna görə də orucunu açsa, lakin orucunu

---

[١] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٧٣-cü məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٧٤-cü məsələ

[٣] Rəhbərdən soru.ulan suallar, Oruc bölümü, ٧٥-ci məsələ

aşdıqdan sonra məlum olsa ki, hələ məğrib vaxtı olmamışdır, həmin günün orucunun qəzasını tutmalıdır.[١]

٥) Hər kim buludlu havada məğrib namazının vaxtı olduğunu güman edib iftar etsə, sonra məlum olsa ki, məğrib vaxtı olmamışdır, orucu batil deyil və o günün qəzası ona vacib deyildir.[٢]

٦) Oruc tutan şəxs Ramazan ayında sübh namazının vaxtı olduğuna əmin olmayanadək orucu batil edən bir işi yerinə yetirə bilər. Lakin əgər sonra məlum olsa ki, bu işi yerinə yetirərkən sübh vaxtı daxil olmuşdur, bunun hökmü ٣-cü məsələdə göstərilən hökmlə eynidir.[٣]

٧) Oruc tutan şəxs Ramazan ayında məğrib namazının vaxtı olduğuna əmin olmayanadək iftar edə bilməz. Əgər iftar etsə və sonra məlum olsa ki, hələ məğrib vaxtı olmamışdır, bunun hökmü ٤ və ٥-ci məsələlərdəki hökmlə eynidir.[٤]

٨) Əgər oruc bir şəxs dəstəmaz alarkən ağzını yaxalasa və su, qeyri-ixtiyari onun boğazına getsə, orucu düzdür və qəzası yoxdur. Lakin əgər dəstəmazdan qeyri hallarda, məsələn, ağzı quruduğu üçün ağzını yaxalasa və su qeyri-ixtiyari onun boğazına getsə, həmin günün qəzası ona vacib olur.[٥]

---

[١] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٧٦-cı məsələ
[٢] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٧٧-ci məsələ
[٣] Rəhbərdən soruşulan suallar, Oruc bğlümü, ٧٨-ci məsələ
[٤] Rəhbərdən soruşulam suallar, Oruc bölümü, ٧٩-cu məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٨٠-cı məsələ

١٣. Qəza orucunun hökmləri

١) Əgər bir neçə gün huşsuz halda olan şəxs vacib orucu tuta bilməsə, həmin günlərin orucunun qəzası yoxdur.[١]

٢) Məst olduğu üçün oruc niyyəti etməyən şəxs gün ərzində orucu batil edən bir işi yerinə yetirməsə belə orucun qəzası ona vacib olur.[٢]

٣) Əgər bir şəxs oruc niyyətini etdikdən sonra məst olsa və gün ərzində və ya günün bir hissəsində məst halında olsa, vacib ehtiyata görə həmin günün orucunun qəzası ona vacib olur. Xüsusilə də əgər onun məstliyi ağlın itməsinə bais olacaq həddə güclü olsa.[٣]

Diqqət:

- ٢ və ٣-cü məsələlərdə istər məstedici şey həmin şəxsə haram olsun, istərsə də xəstəliyi ilə əlaqədar halal olsun, həmçinin istər məstedicinin haram olduğunu bilsin, istərsə də bilməsin, höküm dəyişilmir.[٤]

٤) Heyz və nifas halında olan qadın oruc tutmadığı günlərin qəzasını Ramazan ayından sonra tutmalıdır.[٥]

٥) Əgər bir şəxs Ramazan ayında şəri üzrü olduğuna görə oruc tutmasa və oruc tutmadığı günlərin sayını dəqiq bilməsə, ehtimal verdiyi sayların ən azını götürüb həmin sayda qəza orucu tuta bilər. Məsələn, əgər bir nəfər Ramazan ayının ٢٥-ci və ya ٢٦-cı günü səfərə çıxdığını,

---

[١] Rəhbərdən soruşulan suallar, ٨١-ci məsələ
[٢] Rəhbərdən soruşulan suallar, ٨٢-ci məsələ
[٣] Rəhbərdən soruşulan suallar, ٨٣-cü məsələ

[٤] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٨٣-cü məsələ
[٥] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٨٤-cü məsələ

nəticədə ٥ və ya ٤ gün qəza orucu tutacağını bilməsə, ٤ gün qəza orucu tuta bilər. Lakin əgər şəri üzrünün hansı gündən etibarən başlandığını bilsə, məsələn, Ramazan ayının ٥-ci günü səfərə çıxdığını bilsə, lakin səfərdə on gün və ya on bir gün olduğunu, nəticədə ٥ və ya ٦ gün qəza orucu tutacağını bilməsə, bu halda vacib ehtiyata görə ehtimal verdiyi sayların çoxunu götürməlidir.[١]

٦) Əgər bir nəfərin boynunda ötən bir neçə ilin qəza orucu varsa, hansı ilin qəza orucunu birinci tutmaq istəsə, maneəsi yoxdur. Lakin əgər axırıncı Ramazan ayından beş gün qəza orucu varsa və qarşıda gələn Ramazan ayına da beş gün qalıbsa, vacib ehtiyata görə axırıncı Ramazan ayının qəza oruclarını tutmalıdır.[٢]

٧) Ramazan ayı orucunun qəzasını yerinə yetirən şəxs zöhr namazının vaxtı olmamışdan qabaq orucunu açа bilər. Bu şərtlə ki, qəza orucunu tutmaq üçün vaxt dar olmamalıdır. Zöhr vaxtı olduqdan sonra isə qəza orucunu açmaq olmaz.[٣]

٨) Əgər bir nəfər xəstə olduğu üçün Ramazan ayında oruc tuta bilməsə və onun xəstəliyi gələn Ramazan ayınadək davam etsə, tutmadığı orucların qəzası yoxdur.

Lakin hər kim xəstəlikdən qeyri bir üzrü olduğuna görə (məsələn, səfərdə olduğu üçün) oruc tutmasa və gələn Ramazan ayınadək üzrü davam etsə, tutmadığı orucların qəzasını tutmalıdır. Həmçinin əgər bir şəxs şəri üzrü xəstəlik olduğu üçün oruc tutmasa, sonra sağalsa və

---

[١] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٨٥-ci məsələ

[٢] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٨٦-cı məsələ

[٣] Şəri suallara cavab, ٨٠٥-ci sual

ortalığa çıxan başqa bir üzrü gələn Ramazan ayına qədər davam etsə, tutmadığı orucların qəzası ona vacib olur.[١]

Qəza orucu barədə bir şəri məsələ:

- Əgər insanın vacib orucu və ya qəza orucu tutmağa taqəti çatmırsa, bu səbəblə tutmadığı orucların qəzası onun boynundan götürülmür. Deməli, əgər həddi-büluğa yenicə yetişən bir qızın oruc tutmağa taqəti çatmasa və gələn Ramazan ayına qədər elə bu səbəblə orucun qəzasını yerinə yetirə bilməsə, tutmadığı orucların qəzasını tutmaq ona vacibdir. Həmçinin bir neçə il oruc tutmayıb sonra tövbə edən şəxs tutmadığı orucların qəzasını tutmalıdır və əgər tuta bilmirsə, orucların qəzası onun boynundadır.[٢]

١٤. Ata-ananın qəza oruclarının hökmləri

١) Hər kimin ata və vacib ehtiyata görə anası səfərdən qeyri bir şəri üzrü olduğuna görə oruc tutmayıbdırsa və həyatda ikən tutmadığı orucların qəzasını tuta bildiyi halda tutmayıbdırsa, ata-anası vəfat etdikdən sonra böyük oğula vacibdir ki, onların qəza oruclarını, ya özü tutsun, ya da bir nəfəri əcir edib orucların qəzasını tutdursun.

Lakin əgər valideynlərinin şəri üzrü səfər olmuşdursa və hətta həyatda ikən orucun qəzasını tutmaq imkanları da olmamışdırsa, həmin qəza oruclarını tutmaq böyük oğula vacibdir.[٣]

---

[١] Şəri suallara cavab, ٧٣٦, ٧٤٩, ٧٥٢ və ٨١٠-cu suallar

[٢] Şəri suallara cavab, ٧٣٦, ٧٤٩, ٧٥٢, ٨١٠ və ٨١١-ci sual

[٣] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٩٣-cü məsələ

٢) Əgər ata və ana heç bir şəri üzrləri olmadan qəsdən oruc tutmayıbdırsa, vacib ehtiyata görə böyük oğul, ata-anasının qəza oruclarını ya şəxsən özü tutmalı, ya da bu iş üçün bir nəfəri əcir tutmalıdır.[١]

٣) Əgər böyük oğulun boynunda ata və ananın həm qəza namazı, həm də qəza orucu varsa, onlardan istədiyini birinci yerinə yetirə bilər.[٢]

١٥.Müsafir orucunun hökmləri

١) Əgər Ramazan ayında səfərə çıxan şəxs həmin səfərdə namazını tam qılmalıdırsa, oruc da tuta bilər. Məsələn, müsafir on gün bir məkanda qalmaq niyyətindədirsə, yaxud səfərə çıxmaq bir şəxsin peşəsi sayılırsa, belə müsafir namazı tam qılmalı və oruc da tutmalıdır. Lakin əgər müsafir həmin səfərdə namazını qəsr qılmalıdırsa, oruc da tuta bilməz.[٣]

٢) Əgər oruc tutan şəxs zöhr namazının vaxtı daxil olduqdan sonra səfərə çıxsa, orucunu tutmalıdır. Lakin əgər zöhrdən qabaq səfərə çıxsa, orucu batildir. Amma tərəxxüs həddini keçməmiş orucunu aça bilməz. Əgər tərəxxüs həddini keçməmişdən qabaq orucunu açsa, ehtiyata görə kəffarə ona vacib olur.[٤]

٣) Əgər müsafir zöhrdən qabaq vətəninə və ya on gün qalmaq niyyətində olduğu məkana çatsa, orucu batil edən işlərdən heç birini yerinə yetirməyibsə, oruc tutmalıdır. Lakin əgər orucu batil edən işlərdən

---

[١] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٩٤-cü məsələ
[٢] Şəri suallara cavab, ٥٣٧-ci sual
[٣] Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٩٥-ci məsələ
[٤] Şəri suallara cavab, ٧٩٨-ci sual
Rəhbərdən soruşulan suallar

birini yerinə yetiribsə, həmin günün orucu batildir və qəzasını tutmalıdır. Lakin əgər həmin yerlərə zöhrdən sonra çatsa, oruc tuta bilməz.[١]

٤) Ramazan ayında səfərə çıxmaq, hətta orucu batil etmək, necə deyərlər orucdan qaçmaq niyyətilə də olsa, olar. Əlbəttə yaxşı olar ki, əgər səfərə çıxmaq zəruri deyilsə, oruc tutan şəxs səfərə çıxmasın.[٢]

Müsafir orucu barədə bir şəri məsələ:

- Məscidul-həramda etikaf etmək niyyətində olan müsafir əgər Məkkə şəhərində on gün qalmaq niyyətində olsa və ya səfərdə oruc tutmağı nəzir etsə, etikafda ikən iki gün oruc tutduqdan sonra üçüncü gün də oruc tutub etikafını başa çatdırmalıdır. Lakin əgər Məkkə şəhərində on gün qalma niyyəti etməsə və ya səfərdə oruc tutmağı nəzir etməsə, səfərdə oruc tutmağı düzgün deyil və əgər oruc düz olmasa, etikaf da düz olmayacaqdır.[١]

---

[١] Şəri suallara cavab, ٧٣٨-ci sual

[٢] Şəri suallara cavab, ٧٤٢-ci sual

Rəhbərdən soruşulan suallar, Oruc bölümü, ٩٦-cı məsələ

SUALLAR:

١. Əgər oruc bir şəxs ağzını yaxalasa və su, qeyri-ixtiyari onun boğazına getsə, orucu batil olurmu?

٢. Əgər bir nəfərin boynunda ötən bir neçə ilin qəza orucu varsa, hansı ilin qəza orucunu birinci tutmalıdır?

٣. Əgər həddi-büluğa yenicə yetişən bir qız oruc tutmağa taqəti çatmadığı üçün orucunu açsa, orcun qəzası ona vacibdirmi?

٤. Ata-ananın qəza orucunun hökmünü bəyan edin.

٥. Əgər bir nəfər zöhrdın qabaq vətəninə çatmaq niyyətində olsa, lakin yolda müəyyən səbəblərə görə ləngisə və zöhrdən qabaq çata bilməsə, orucu düzdürmü?

٦. Ramazan ayında orucu batil etmək, necə deyərlər orucdan qaçmaq niyyətilə səfərə çıxmaq olarmı?

---

١ Şəri suallara cavab, ٨٣٣-cü sual

ALTMIŞ BEŞİNCİ DƏRS

ORUC (٨)

AYIN ƏVVƏLI, YƏNI ILK GÜNÜ OLDUĞU HANSI YOLLARLA SÜBUT OLUNUR?

ORUCUN MÜXTƏLIF MƏSƏLƏLƏRI

١٦. Ayın əvvəli aşağıdakı yollarla sübut olunur:

I. Mükəlləf şəxsən özü ayı görür;

II. İki ədalətli şəxs ayın əvvəli olduğuna şəhadət verir;

III. Müəyyən vasitələrlə ayın əvvəli olduğuna yəqinlik hasil olur;

IV. Əvvəlki ayın otuz günü tamamlanır;

V. Şəri hakim hökm verir.[١]

١) Ayın əvvəlini təyin etməkdə günəş batandan sonra görünən ayın hilalı meyar götürülür, belə ki, günəş batmazdan öncə də onu görmək mümkündür. Odur ki, günəş batmamışdan qabaq və ya günəş batarkən görünən hilal, ayın əvvəli olduğuna hökm vermək üçün kifayət etmir.[٢]

Diqqət:

• Ayı hər hansı bir vasitə ilə görməklə adi gözlə görmək arasında heç bir fərq yoxdur. Yəni, əsas şərt görməkdir (ya vasitə ilə, ya da heç bir vasitə olmadan). Deməli, ayı gözlə, yaxud eynək və teleskop vasitəsilə görmək eyni hökmdədir. Əlbəttə teleskopla çəkilən və kompüterdə göstərilən ayın təsvirini görmək sözün həqiqi mənasında görmək olub-

---

[١] Şəri suallara cavab, ٨٤٨-ci sual

[٢] Şəri suallara cavab, ٨٣٤-cü sual

olmadığı məlum olmadığı üçün (bu təsviri görməklə kifayətlənmək) bu məsələ sual altındadır.[١]

• Ayın hilalını şəxsən görmək şəri baxımdan mükəlləfə vacib deyil.[٢]

• Hilalın üfüqə yaxın və kiçik olması, yaxud hündürdə və böyük olması, yaxud da nazik və qalın olması kimi halları ayın birinci və ya ikinci gecəsi olduğuna şəri dəlil deyildir. Lakin əgər mükəlləfdə bu kimi müşahidələr nəticəsində müəyyən bir yəqinlik hasil olursa, o, oz yəqinliyi üzrə rəftar etməlidir.[٣]

• Astroloqların hesablamaları və tərtib etdikləri təqvim ayın əvvəlinin sübut olunması yollarından deyildir. Əlbəttə əgər onların sözləri mükəlləfdə yəqinlik hasil etsə, bu təqvimə əməl edə bilər.[٤]

٢) Əgər bir şəhərdə ayın əvvəli olduğu sübut olunsa, ona yaxın olan digər şəhərlər üçün də kifayət edir. Bundan əlavə əgər sərqdə yerləşən bir şəhərdə ay görünsə, bu şəhərdən qərbdə yerləşən şəhərin sakinləri üçün də kifayətdir (yəni, ayın əvvəli olduğu sübuta yetir). Lakin bunun əksi, yəni qərbdə yerləşən bir şəhərdə ay görünsə, ondan şərqdə yerləşən şəhərin sakinləri üçün kifayət etmir.[٥]

Diqqət:

• Eyni üfüq dedikdə, iki şəhərin eyni meridian üzrə yerləşməsi nəzərdə tutulur. Deməli, əgər iki şəhərin üfüqü o həddə qədər fərqli olsa ki,

---

[١] Şəri suallara cavab, ٨٣٥-ci sual

[٢] Şəri suallara cavab, ٨٤٧-ci sual

[٣] Şəri suallara cavab, ٨٤٥ və ٨٤٦-cı suallar

[٤] Şəri suallara cavab, ٨٣٤ və ٨٤٨-ci suallar

[٥] Şəri suallara cavab, ٨٣٧, ٨٣٨ və ٨٤٠-cı suallar

onların birində hilal göründüyü zaman digərində görünmür, bu halda əgər qərb tərəfdə yerləşən şəhərlərin sakinləri ayı görsələr, şərqdə yerləşən şəhərlərin – belə ki, bu şəhərlərdə günəş, qərbdən tez batır – sakinləri üçün kifayət etmir. Məsələn, əgər Yaponiyadan qərb istiqamətdə yerləşən Azərbaycanda ay görünsə, Yaponiya sakinləri üçün kifayət etmir.[١]

٣) Şəri hakim hilalın göründüyünə hökm verməyənədək – hətta özü ayı görsə belə - mükəlləflər üçün kifayət etmir (yəni, ayın göründüyü onlar üçün sübut olunmur). Əlbəttə əgər mükəlləflər başqa yolla ayın göründüyünə əmin olsalar, kifayətdir.[٢]

Diqqət:

• Ayin hilalını görən bir şəxs əgər bilsə ki, müəyyən səbəblərə görə ayı görmək onun şəhərinin şəri hakimi üçun mümkün olmayacaqdır, ayı gördüyünü şəri hakimə xəbər verməsinə - əlbəttə əgər xəbər vermədiyi təqdirdə ortalığa böyük çətinliklər çıxmayacaqsa - ehtiyac yoxdur.[٣]

• Əgər şəri hakim sabah bayram olduğuna hökm versə və bu hökm, bütün ölkəyə aid olsa, onun hökmü şəri baxımdan bütün şəhərlər üçün mötəbərdir.[١]

• Əgər bir dövlətdə ayın göründüyü rəsmi şəkildə elan olunsa, o dövlətin islami dövlət olması şərt deyidir. Burada əgər mükəlləf, yaşadığı məntəqədə ayın göründüyünə əmin olsa, kifayətdir.[٢]

---

[١] Şəri suallara cavab, ٨٣٧, ٨٣٩ və ٨٤٠-cı suallar

[٢] Şəri suallara cavab, ٨٤٣-cü sual

[٣] Şəri suallara cavab, ٨٤٢-ci sual

• Əgər bir şəhərdə ayın hilalı görünməsə, lakin televiziya və radioda ayın göründüyü elan olunsa, əgər bu elan, Vəliyyi-fəqihin hökmü olsa və ya mükəlləfdə yəqinlik hasil etsə, kifayətdir və araşdırma aparmağa ehtiyac yoxdur.[٣]

٤) Ayın əvvəli olduğu şəri yolların biri ilə sübut olunmayanadək, yəni, eyni üfüqü olan şəhərlərdə ay görünməsə, ya iki adil şəxs şəhadət verməsə, ya da şəri hakim hökm verməsə, ehtiyata əməl etmək lazımdır.[٤]

٥) Əgər Ramazan ayının əvvəli olduğu sübut olunmasa, oruc tutmaq vacib deyil. Lakin əgər sonradan mükəlləfə məlum olsa ki, oruc tutmadığı həmin gün Ramazan ayının birinci günü olmuşdur, həmin günün qəzasını tutmalıdır.[٥]

٦) Əgər insan Ramazan ayının axırıncı günü, yoxsa Şəvval ayının birinci günü olduğuna şəkk etsə, oruc tutmalıdır. Lakin əgər gün ərzində məlum olsa ki, Şəvval ayının əvvəlidir, hətta məğribə az qalsa belə orucunu açmalıdır.[٦]

١٧. Orucun müxtəlif məsələləri

١. Əgər bir məntəqədə əhalinin əksəriyyəti Ramazan ayının gecələrində Quran və dua oxumaq, dini mərasimlər keçirmək üçün oyaq qalırlarsa, sübhə yaxın hamının eşitməsi üçün məsciddən səsucaldanlar

---

١ Şəri suallara cavab, ٨٤٤-cü sual
٢Şəri suallara cavab, ٨٤٩-cu sual
٣Şəri suallara cavab, ٨٣٦-cı sual
٤ Şəri suallara cavab, ٨٣٧-ci sual
٥ Şəri suallara cavab, ٨٤٦-cı sual
٦ Şəri suallara cavab, ٨٤٦-cı sual

vasitəsilə səhər dualarını yayımlamağın maneəsi yoxdur. Lakin əgər bu duaların yayımlanması məscidin qonşuluğunda yaşayan sakinlərə əziyyət versə, olmaz.[١]

٢. Müstəhəb oruc tutan şəxs istədiyi vaxt orucunu aça bilər. Əgər mömin qardaşı onu qonaq çağırsa, müstəhəbdir ki, onun dəvətini qəbul etsin və orucunu açsın. Bu halda orucu batil olsa da orucun savabından məhrum olmur.[٢]

٣. Əgər oruc bir şəxs bir ölkədə iftar etsə, sonra başqa bir ölkəyə səfər etsə ki, orada günəş hələ batmamışdır, orucu düzdür və orada da yeyib içə bilər.[٣]

٤. Əgər bir nəfər öz vətənində Ramazan ayının əvvəlindən iyirmi yeddisinə kimi oruc tutsa, iyirmi səkkizinci gün səhər üfüqü öz şəhəri ilə eyni olan başqa bir şəhərə səfər etsə, iyirmi doqquzuncu gün ora çatıb görsə ki, o şəhərdə bayram elan olunubdur və bayramın elan olunması üşün də şəri sübut vardır, bayram olduğu üçün həmin günün qəzası yoxdur. Lakin buradan anlaşılır ki, bu şəxs Ramazan ayının əvvəlindən bir gün oruc tutmayıbdır və qəza etdiyinə əmin olduğu orucun qəzasını tutmalıdır.[١]

---

[١] Şəri suallara cavab, ٨٥٣-cü sual
[٢] Şəri suallara cavab, ٨٣٠-cu sual
[٣] Şəri suallara cavab, ٨٢٦-cı sual

SUALLAR:

١. Ayın əvvəli olduğu hansı yollarla sübut olunur?

٢. İki şəhərin üfüqlərinin eyni olması nə deməkdir?

٣. Əgər şəri hakim ayı görsə, lakin elan etməsə, mükəlləflər üçün kifayət edirmi?

٤. Əgər oruc bir şəxs bir ölkədə iftar etsə, sonra başqa bir ölkəyə səfər etsə ki, orada günəş hələ batmamışdır, orucunun hökmü nədi?

٥. Əgər insan Ramazan ayının axırıncı günü, yoxsa Şəvval ayının birinci günü olduğuna şəkk etsə, vəzifəsi nədir?

---

١ Şəri suallara cavab, ٨٢٥-ci sual

V fəsil

XÜMS

ALTMIŞ ALTINCI DƏRS

XÜMS

- *Xümsün mənası*
- *Xümsün vacibliyi*
– *Hansı şeylərə xüms düşür?*
– *Xüms verməməyin fasadları*

١. Xümsün mənası

Xüms sözünün lüğətdəki mənası “beşdə bir” deməkdir. İslam fiqhində isə vacib əməllərdən biridir və həddi-büluğa çatmış hər bir kəs xüsusi qaydalar üzrə malının beşdə birini şəri hakimə verməlidir.

Diqqət:

- İslam dövlətlərində müəyyən qanunlar əsasında təyin olunan vergilər (məsələn, dövlət işlərində işləyənlərin aylıq əmək haqqlarından tutulan vergi) xüms sayılmır və mükəlləf, illik dolanışıq xərclərindən artıq qalan malının beşdə birini xüms ünvanında verməlidir.[١]

٢. Xümsün vacibliyi

Xüms, İslam dininin vacibatlarından biridir və əgər onu inkar etmək nübüvvətin və İslam peyğəmbərinin (s) inkarı, yaxud şəriətin təhrifi ilə nəticələnsə, küfrə səbəb olar.[٢]

---

[١] Səri suallara cavab, ١٠٣١-ci sual
[٢] Səri suallara cavab, ٣٣٦-cı sual

Diqqət:

- Xümsü ödəməyin çətinliyi şəri vəzifəni insanın üzərindən götürmür. Buna görə də əgər bir mükəlləf xüms verməlidirsə, lakin bu vaxta qədər onu verməyibsə və hal-hazırda da onu verməyə imkanı yoxdursa, yaxud vermək ona çətindirsə, imkanı olan zaman onu verməlidir. Onlar, şəri hakim və ya onun vəkilinin icazəsi ilə xüms ünvanında ödəyəcəkləri məbləği hissə-hissə imkanları çatdığı miqdarda ödəməlidirlər.[١]
- Xümsü bir ildən o biri ilə saxlamaq olmaz. Lakin mükəlləf hər vaxt onu ödəsə, borcdan çıxmışdır.[٢]
- Əgər həddi büluğa çatmayan bir uşağın malına xüms düşərsə (məsələn, halal malına haram qarışarsa), onun qəyyumuna həmin malın xümsünü vermək vacibdir. Əlbəttə malının gəliri bu hökmdən istisnadır. Yəni, əgər onun malı ilə ticarət edilsə və qazanc əldə olunsa, bu qazancın xümsünü vermək onun qəyyumuna vacib deyil. Vacib ehtiyata görə, əldə edilən qazancın xümsünü uşaq özü həddi-büluğa çatandan sonra verməlidir.[٣]
- Xüms, şəxslərə (insanlara) vacib olur, bir dövlətə, müəssisəyə, banka və s. xüms vacib olmur. Deməli, əldə etdiyi mənfəətindən illik xərclərini çıxıb yerdə qalan malının xümsünü vermək müəssisələrə

---

[١] Səri suallara cavab, ٩٢٥ və ١٠٣٥-ci suallar

[٢] Səri suallara cavab, ٩٧٦-cı sual

[٣] Səri suallara cavab, ٩٧١ və ١٠٣٧-ci suallar

vacib deyil. Əlbəttə əgər müəssisə bir və ya bir neçə şəxsin mülkiyyəti olarsa, onun gəlirinə xüms düşür.[١]

٣. Yeddi şeyə xüms düşür:

١. Qazanc;

٢. Mədən;

٣. Xəzinə;

٤. Harama qarışmış halal mal;

٥. Dənizin dibindən tapılan cəvahirat;

٦. Müharibə qənimətləri;

٧. Zimmi kafirin müsəlmandan aldığı torpaq;

٤. Xüms verməməyin fəsadları

١) Xümsü verilməyən mal, qəsbi mal hökmündədir, yəni ondan istifadə etmək haramdır. Amma əgər xüms işlərinə baxan şəri hakim və ya onun vəkili icazə verərsə, ondan istifadə etmək olar. Buna görə də:

I. Mükəlləf malının xümsünü verməyənədək ondan istifadə edə bilməz. Əgər xümsü verməmişdən əvvəl ondan istifadə etsə, xümsünə zamindir. Buna görə də əgər xümsü verilməmiş pul ilə torpaq, mal və s. bu kimi şeylər alsa, xüms işlərinə baxan şəri hakimin və ya onun vəkilinin icazəsi ilə olmalı və malın və ya torpağın xümsünü hal-hazırkı qiymətlə hesablayıb verməlidir.[٢]

---

[١] Səri suallara cavab, ٨٩٢, ٩٤٤ və ١٠٣٣-cü suallar

[٢] Səri suallara cavab, ٩٣٧, ٩٧٦ və ٩٨٤-cü suallar

II. Hər kim xüms verməyən fərdlərlə alış-veriş etsə, evlərində yemək yesə və ya müəyyən bir şəkildə malından istifadə etsə, əgər onlardan aldığı malın və ya süfrəsində yediyi yeməyə çəkilən xərcin xümsü verilməyən puldan olduğuna əmin olsa, onlardan istifadə edə bilməz. Lakin əgər onlarla alış-veriş etməmək və ya süfrəsində yemək yeməmək onu böyük çətinliyə salırsa, onlardan istifadə edə bilər, lakin istifadə etdiyi malın xümsünə zamindir.[١]

III. Əgər məscidin rəhbərliyi bilsə ki, bir şəxsin məscidə bağışlamaq istədiyi mala xüms düşüb və xümsünü verməyib, onu götürmək olmaz. Əgər onu götürsə, gərək onun xümsü barədə xüms işlərinə baxan şəri hakimə və ya onun vəkilinə müraciət etsin.[٢]

IV. Əgər bir nəfər sərmayəsinə xüms düşən, amma onu ödəməyən bir şəxslə şərikli iş görmək istəsə, onun malının xümsü barədə xüms işlərinə baxan şəri hakimə müraciət etməlidir.[٣]

V. Əgər bir şəxs vəsiyyət etsə ki, onun malının müəyyən miqdarı xüms ünvanında verilsin və ya varisi əmin olsa ki, o, bir miqdar xüms borcludur, varis onun vəsiyyətini yerinə yetirməyincə və ya onun öhdəsində olan xümsü ödəməyincə ondan istifadə edə bilməz. Varisin mərhumun vəsiyyətinə əməl etməzdən əvvəl və ya onun borcunu (xümsünü) verməzdən əvvəl mirasdan istifadə etməsi qəsbi maldan istifadə etmək hökmündədir və istifadə etdiklərinə zamindir.[٤]

---

[١] Səri suallara cavab, ٩٣١-ci sual

[٢] Səri suallara cavab, ٩٣٢-ci sual

[٣] Səri suallara cavab, ٩٤٠-cı sual

[٤] Səri suallara cavab, ٨٦٤-cü sual

٢) Xümsü verilməyən bir şeydən istifadə edərək ibadət etmək ibadəti batil edir. Buna görə də əgər bir şəxs xümsü verilməyən səccadənin üstündə və ya xümsü verilməyən paltarla namaz qılsa, namazları batildir. Amma əgər onlara xüms düşdüyünü bilməsə və ya ibadət edərkən xümsü verilməyən bir şeydən istifadə etməyin ibadəti batil etdiyini bilməsə, ibadəti düzdür.[١]

SUALLAR:

١. İslam dövlətlərində müəyyən qanunlar əsasında təyin olunan vergilər (məsələn, dövlət işlərində işləyənlərin aylıq əmək haqqlarından tutulan vergi) xüms sayılırmı?

٢. Bəzi fərdlər var ki, xüms vermək onlara vacibdir, amma indiyə qədər onu ödəməyiblər və hal-hazırda da onu ödəməyə imkanları yoxdur. Bu cür fərdlərin hökmü nədir?

٣. Hansı şeylərə xüms düşür?

٤. Əgər bir nəfər xümsünü vermədiyi pul ilə torpaq, mal və s. bu kimi şeylər alsa, hökmü nədir?

٥. Əgər bir nəfər xümsü verilməyən bir şeyi məscidə bağışlamaq istəsə, onu götürmək olarmı?

---

[١]Səri suallara cavab, ٣٧٣-cü sual

ALTMIŞ YEDDİNCİ DƏRS

QAZANCIN XÜMSÜ (١)

- *Qazanc nədir*
- *Qazancın növləri*

Diqqət:

- Hər bir mükəlləfə illik xərclərindən artıq qalan qazancının xümsünü ödəmək vacibdir.

١.Qazanc nədir.

Qazanc dedikdə işləmək və iqtisadi fəaliyyət göstərməklə əldə edilən pul və mal-dövlət nəzərdə tutulur.

٢.Qazancın növləri aşağıdakılardır:

I. Əkinçiliklə məşğul olanların əldə etdikləri qazanc;

II. Ticarətlə məşğul olanların əldə etdikləri qazanc;

III. Müəyyən bir vasitə (məsələn, maşın) və ya mülk (məsələn, ev, dükan) kirayələyib işlətməklə və ya istehsalla məşğul olmaqla əldə edilən qazanc;

IV. Zəhmət haqqı olaraq əldə olunan məbləğ (məsələn, fəhlənin, müəllimin, həkimin və s. peşə sahiblərinin aldıqları əmək haqqı)

٣.Hansı şeylərə xüms düşmür?

١. Miras

١) Miras və ya onu satmaqla əldə olunan pula - hətta mirasın qiyməti artmış olsa belə - xüms düşmür. Amma əgər varis ona çatan mirası

qiyməti artdıqdan sonra satmaq niyyətində olsa, mirasın öz dəyərindən artığına xüms düşür.[١]

٢) Həddi-büluğa çatmayan uşaqlara yetişən mirasa xüms düşmür. Amma əgər həmin mirasla qazanc əldə olunsa, vacib ehtiyata görə uşaqlar özləri həddi-büluğa çatdıqdan sonra o vaxtadək mirasın üstünə gələn mənfəətin xümsünü verməlidirlər.[٢]

٢. Mehriyyə

Mehriyyəyə xüms düşmür, istər müddətli, istərsə də müddətsiz olsun. İstər nəqd pul, istərsə də mal şəklində olsun.[٣]

٣. Hədiyyə

١) İnsana verilən hədiyyə və bəxşişə xüms düşmür. Hərçənd əgər illik xərclərdən artıq olaraq qalsa, onun xümsünü vermək ehtiyati-mütəhəbdir.[٤]

٢) Bir şeyin hədiyyə və bəxşiş hesab olunması onu verənin niyyətinə bağlıdır. Əgər bir şəxsə qardaşı, atası və ya başqa bir qohumu xərclik versə, bu o vaxt hədiyyə hesab olunur ki, onlar onu hədiyyə niyyətilə versinlər.[٥]

٣) Ata, ana və başqaları tərəfindən insana verilən hədiyyəyə, hətta əgər onun bu hədiyyəyə ehtiyacı olmasa və ya camaatın nəzərində (ürfdə) onun şəninə görə olmasa belə, xüms düşmür. Əgər ata-ananın verdiyi hədiyyə ürfdə onların şəninə görə olmasa, onların illik

---

[١] Səri suallara cavab, ٨٥٩-cu sual
[٢] Səri suallara cavab, ٩٥٠-ci sual
[٣] Səri suallara cavab, ٨٦٢-ci sual
[٤] Səri suallara cavab, ٨٥٢-ci sual
[٥] Səri suallara cavab, ٨٥٣-cü sual

xərclərindən hesab olunmur və onlar həmin hədiyyənin xümsünü verməlidirlər.[١]

٤) Əgər ata öz qızına cehiz ünvanında mənzil hədiyyə versə, bu halda əgər onun bu hədiyyəsi camaatın nəzərində atanın şəninə görə olsa və xümsün vaxtı çatmamış bu hədiyyəni versə, onun xümsünü vermək vacib deyil.[٢]

٥) Əgər əlaqədar təşkilatlar tərəfindən şəhid ailəsinə bir şey bağışlansa, ona xüms düşmür. Amma əgər onunla qazanc əldə edilsə və ailənin illik xərclərindən artıq qalsa, ona xüms düşür. Həmçinin həmin təşkilatlar tərəfindən şəhid uşaqlarına verilən hədiyyəyə xüms düşmür. Amma əgər onunla qazanc əldə edilsə, vacib ehtiyata görə onlar həddi-büluğa çatandan sonra qazancın – bu hədiyyə ilə hər nə qədər qazanc əldə olunubsa - xümsünü verməlidirlər.[٣]

٦) Xümsün vaxtı çatmamışdan qabaq insan pulunu (malını) öz həyat yoldaşına hədiyyə verə bilər, hətta bilsə ki, o, həmin pulu gələcəkdə ev almaq və ya ailənin zəruri xərcləri üçün saxlayacaqdır. Əgər insanın öz həyat yoldaşına bağışladığı bu pul camaatın nəzərində onun şəninə görə olsa və xümsdən qaçmaq hesab olunmasa, ona xüms düşmür.[١]

٧) Xümsdən qaçmaq niyyətilə verilən hədiyyəyə xüms düşür. Buna görə də qadın və ya kişi xümsün vaxtı çatmamışdan qabaq xümsdən qaçmaq məqsədilə, başqa sözlə desək mallarına xüms düşməsin deyə

---

[١] Səri suallara cavab, ٩٠٠-cü sual

[٢] Səri suallara cavab, ٨٥٥-ci sual

[٣] Səri suallara cavab, ٨٥٣ və ٩٥٠-ci suallar

bir-birlərinə hədiyyə versələr, bu hədiyyələrin xümsünü verməlidirlər (yəni, bu hədiyyələrə xüms düşür).[٢]

٨) Əgər hədiyyə satılsa, hətta onun qiyməti əvvəlkindən baha olsa belə, əldə olunan pula xüms düşmür. Amma əgər hədiyyənin qiyməti artdıqdan sonra onu satmaq niyyətində olsa, hədiyyənin əvvəlki qiymətindən artıq olan məbləğə xüms düşür.[٣]

٩) Dövlət müəssisələrində bayram münasibətilə işçilərə verilən pul və ərzaqa, hətta ilin sonuna qədər qalsa belə, xüms düşmür. Əlbəttə əgər dövlət müəssisələrində işçilərə dəyərindən aşağı qiymətə ərzaq verilsə - belə ki, onun bir hissəsi dövlət tərəfindən pulsuz və bir hissəsi pulla verilərsə - və xümsün vaxtı çatdıqda həmin ərzaqdan qalsa, hal-hazırkı qiymətlə hesablayaraq təkcə pul ödədiyi hissənin xümsünü verməlidir.[٤]

٤. Vəqf

Ümumiyyətlə vəqf olunan şeylərə, hətta "xas vəqf" olsa belə, xüms düşmür. Onun səmərəsinə də xüms düşmür.[٥]

٥. Xüms və zəkat

Müctəhidlərin xüms və zəkatdan dini elmlərin təhsili ilə məşğul olan tələbələrə verdikləri təqaüdə xüms düşmür.[٦]

---

[١] Səri suallara cavab, ٨٥٦-cı sual
[٢] Səri suallara cavab, ٨٥٧-ci sual
[٣] Səri suallara cavab, ٨٥٩-cu sual
[٤] Səri suallara cavab, ٨٦٣-cü sual
[٥] Səri suallara cavab, ٩٧٠-ci sual
[٦] Səri suallara cavab, ١٠٢٧-ci sual

٦. Gəlir əldə etmək üçün çəkilən xərclər

Ticarət və ya başqa yollarla gəlir əldə etmək üçün çəkilən xərclər, məsələn, nəqliyyat haqqı, malın anbarda saxlanılması haqqı, vasitəçilərin haqqı və s., həmin qəlirdən çıxılır və xüms düşmür.

٧. Xümsü verilmiş mal

Bir dəfə xümsü verilmiş mala ikinci dəfə xüms düşmür. Yəni, bu mal işlənməyib qalsa və xümsün vaxtı çatsa, ikinci dəfə ona xüms düşmür.[١]

٨. Sığorta

Sığorta şirkətlərinin müəyyən ünvanlarda (məsələn, yanğında evə dəyən xəsarət və s.) ödədikləri məbləğə xüms düşmür.[٢]

٩. Təhsil xərclərinin qarşılanmasına göstərilən maddi kömək

Dövlət tərəfindən tələbələrin təhsil xərclərinin qarşılanmasına göstərdiyi maddi köməkliyə xüms düşmür. [٣]

١٠. Borc

Borc pula xüms düşmür.

---

[١] Səri suallara cavab, ٩٥٥, ٩٥٩ və ١٠٢٦-cı suallar

[٢] Səri suallara cavab, ٨٦٠-cı sual

[٣] Səri suallara cavab, ٩٧٥-ci sual

SUALLAR:

١.Qazanc dedikdə nə nəzərdə tutulur?

٢. Mirasa hansı halda xüms düşdüyünü bəyan edin.

٣. Hədiyyəyə xüms düşürmü?

٤. Əgər ər və arvad xümsün vaxtı çatmamışdan qabaq xümsdən yayınmaq niyyəti ilə bir-birlərinə hədiyyə versələr, həmin hədiyyəyə xüms düşürmü?

٥. Sığorta şirkətlərinin müqavilə əsasında ödədikləri məbləğə xüms düşürmü?

ALTMIŞ SƏKKİZİNCİ DƏRS

QAZANCIN XÜMSÜ (٢)

- *İllik xərcin' mənası*

– *İllik xərcin şərtləri*

– *İllik xərclərə daxil olan bir şeyin satılması*

Diqqət:

- Əvvəldə qeyd etdiyimiz kimi insanın illik dolanışıq xərci onun qazancından çıxılır və xümsü yoxdur.

٤. İllik xərcin mənası

İllik xərc, il ərzində insanın özü və ailəsinin dolanışığı üçün məsələn, yemək-içmək və geyim almaq, ev kirayəsi vermək, ev əşyaları almaq, yol pulu vermək, sədəqə vermək, cehiz almaq, nəzir və kəffarə vermək, qonaq qəbul etmək və s. bu kimi məqsədlərlə çəkdiyi xərclərdir.

٥. İllik xərcin şərtləri aşağıdakılardır:

١. Çəkilən xərcə ehtiyac duyulsun;

٢. Bir ilin xərci;

٣. İllik xərcin həmin ilin gəlirindən çıxılması;

٤. Xərclərində insan ifrata varmamalıdır;

٥. İl ərzində xərclənilən məbləğ illik xərc sayılır.

١) Çəkilən xərcə ehtiyac duyulsun

Hər cür xərcə məunə deyilməz, yalnız ehtiyacı olduğu ev və məişət əşyalarının xərci məunədir. Buna görə də ehtiyacı olmayan əşya və ya malın xərci məunəyə daxil deyil. Bu növdən də haram şeylərin, məsə-

lən, kişinin qızıl üzük almasına, haram alətlər, qumar və s. kimi haram şeylərin xərci məunə deyil.

٢) Bir ilin xərci

Məunə dedikdə bir şəxsin gündəlik və aylıq xərcləri deyil, illik xərci nəzərdə tutulur. Çünki gəlirin xümsü illik ehtiyaclardan artıq olana düşür.

٣) İllik xərcin həmin ilin gəlirindən çıxılması

Məunədə ölçü o xərclərə deyilir ki, həmin ilin gəlirindən saxlanılıb məsrəf həddinə çatsın, sonrakı və əvvəlki ilin yox, buna görə də əgər bir ilin gəlirindən məunə yığılmayıbsa, onu əvvəlki və sonrakı illərin gəlirindən kəsr etmək olmaz.

٤) Xərclərində insan ifrata varmamalıdır

Məunə dedikdə meyar normal xərcdir ki, hər bir fərd öz şərtlərinə nisbətən bunu təyin edir. Buna görə də "məunə" bir tərəfdən zəruri ləvazimatlar və ilkin ehtiyaclarla məhdudlaşmır, digər tərəfdən isə toy və s. məclislərdə xərclənən əlavə xərclər və bu kimi artıq xərc və israflara şamil edilmir.

٥) İl ərzində xərclənilən məbləğ illik xərc sayılır

Məunə dedikdə məqsəd insanın özü və öhdəsində olduğu insanlar üçün sərf etdiyi miqdar nəzərdə tutulur. Sərf etmədiyi miqdara isə məunə deyilməz. Hətta sərf edəcəyi təqdirdə camaat arasında ona israf deyilməsə də hal-hazırda sərf olunmadığına görə məunə sayılmaz. Buna əsasən, xəsislik edib özü və ailəsi üçün lazımi miqdarı sərf

---

١ Fiqhdəki termini "məunə"dir.

etməyən insan əlində qalan artıq pulun məunə olduğunu iddia edə bilməz.

Diqqət:

- Ərin öz arvadı üçün aldığı qızıl əgər mütəarif miqdarına çatsa və şəninə uyğun olsa (ərinin) məunə hesab olunur və xümsü düşmür.[١]
- Bir şəxs övladları üçün özü ١-ci mərtəbədə yaşamaqla ٢-ci mərtəbəsini tikmək istəsə, əgər ٢-ci mərtəbəni övladlarının gələcəyinə tikmək hal-hazırda onun şəninə uyğun olub məsrəf həddinə çatsa, xümsü yoxdur və əgər belə olmasa və hal-hazırda da nə özünün nə də övladlarının ona ehtiyacı olmasa onun xümsünü vermək vacibdir.[٢]
- Əgər bir şəxs yüksək qiymətə bir mülk alarsa və çox miqdarda pul da onun təmirinə sərf etsə və sonra onu həddi büluğa çatan uşağına bağışlasa və ya rəsmi şəkildə onun adına keçirsə, mülkü aldığı və təmir etdirdiyi pul ilin gəlirindən olarsa və o mülkün övladına bağışlanması həmən ildə olub olmasa xümsü vermək vacibdir.[٣]
- Xeyriyyə işləri üçün məsələn, mədrəsələrə kömək, seldən ziyan çəkənlərə və s. kimi işlərə ehsan etmək ilin infaq xərcləri hesab olunur və xümsü yoxdur.[١]

---

[١] Şəri suallara cavab, ٩٠١
[٢] Şəri suallara cavab, ٩١٥
[٣] Şəri suallara cavab, ١٠٠٨

Diqqət:

- Bir nəfərin şəxsi kitabxanası var və bir müddətdir ondan istifadə edib və indi bir neçə ildir ki, istifadə etmir, amma ehtimal verir ki, gələcəkdə ondan faydalansın (istifadə etsin). Əgər kitablar alınan zaman onun onları oxuyub mütaliə etməsinə ehtiyacı var idisə və bir miqdarının onun şəninə uyğun olubsa xüms düşmür. Hətta əgər birinci ildən sonra ondan istifadə etməsə də, həmçinin əgər kitablar ona irs olaraq çatıbsa və ya ata-anası və başqaları tərəfindən bağışlanıbsa ona xüms düşmür.[٢]

٦. İllik xərclərə daxil olan bir şeyin satılması

"Ehtiyacdan artıq qalan məunə" bəhsində deyilənlər "məunənin satışı" bəhsinə aiddir. Buna görə də maşın və insanın ehtiyacı olduğu şeylər ki, il arasındakı gəlirdən və ya xümsü verilmiş ya xüms düşməyən puldan hazırlanarsa, alınarsa və zərurət üzündən və ya hər hansı səbəb üzündən dəyişdirilib ya satılarsa, onun satışının pulu və həmçinin onun qiymətinin artan xeyrinə xüms düşmür. Əgər xüms aid olan amma verilməyən puldan hazırlanarsa, onda onun hazırlanmasına yığılan pulun xümsü verilməlidir. O ləvazimatı satmasa və həmin gəlirin eyni ilə hazırlansa gərək satışın bütün pulunun xümsünü versin.[٣]

---

[١] Şəri suallara cavab, ٩١٩

[٢] Şəri suallara cavab, ٩٠٠

[٣] Şəri suallara cavab, ٨٨٠, ٨٨١, ٨٨٢, ٨٨٥, ٨٨٩, ٨٩٠, ٩٨٧, ٩٠٠

SUALLAR:

١.İllik xərc (məunə) nədir?

٢. Məunənin şərtləri hansılardır?

٣. Ər arvadı üçün qızıl alarsa, ona xüms düşürmü?

٤.Ehtiyacdan artıq qalan məunənin hökmü nədir?

٥. Əgər bir şəxs öz evini satıb ondan mənfəət əldə etmək üçün banka qoyarsa, sonra xüms ili çatsa o pulun hökmü nədir? Əgər bu pulu ev almaq üçün saxlasa, hökmü nədir?

٦. Əgər yaşayış üçün ehtiyac olan şeyləri, məsələn, maşın, motor, xalça və sairə kimi xümsü verilməmiş şeyləri satsa, satan kimi onun xümsünü ödəməlidirmi?

ALTMIŞ DOQQUZUNCU DƏRS

QAZANCIN XÜMSÜ (٣)

<u>٨. Bunlar illik xərcə (məunəyə) daxil olmur:</u>

١) Sərmayə

١. İşləməklə (istər maaş istər başqa yolla) ələ gələn sərmayənin xümsü var. Buna görə də müzaribə etmək üçün pulu sərmayə kimi başqasına verərsə onun xümsünü verməsi vacibdir. Həmçinin bu sərmayə ilə olunan ticarətdən ələ gələn xeyrin yaşayış müavinəsinə sərf olunub xüms düşmür və illik xərclərdən artıq qalana xüms düşür.[١]

Diqqət:

- Əgər bir nəfər öz illik gəlirindən torpaq alsa ki, onu satıb pulunu ev tikməyə xərcləsin xümsünü verməsi vacibdir.[٢]
- Bir nəfər bir neçə mərtəbəli ev tiksə ki, onun bəzi mərtəbələrini icarə versin və icarədən gələn pulu yaşayış xəzinəsinə sərf etsin evdən gələn gəlirin miqdarının xümsünü verməlidir (bu miqdar sərmayə hökmündədir).[٣]
- Ölmüş torpağı meyvə bağına çevirmək məqsədilə dirildərlərsə, onun dirildilməsinə xərclənən xərci azaltdıqdan sonra xümsü var. Torpağın xümsünü onun eynindən və ya hazırkı qiymətilə verməkdə insan ixtiyar sahibidir. Həmçinin quyu, su kranları və s. xümsü ədalətlə olmalıdır və əgər xümsü bir dəfəyə vermək qüdrəti yoxdursa,

---

[١] Şəri suallara cavab, ٨٩٠, ٩٥٢

[٢] Şəri suallara cavab, ٩١٦

[٣] Şəri suallara cavab, ٩٦١

vilayət fəqih və ya onun vəkilinin vasitəsilə xümsü tədricən və miqdarı və müddəti ona mümkün olan halda ödəsin. Əgər sərmayə yaşayışı üçün kifayət həddədirsə ki, onun xümsünü verməklə yaşayışının ehtiyacını ödəməz, onda xümsü yoxdur.[١]

Şəriklikdə

١.Hər bir şərik öz səhminin xümsünü verməlidr. Buna əsasən, xüsusi məktəb təsis etmək istəyən kəslərə vacibdir ki, hər kəs şərikliyin sərmayəsi adıyla müəyyən etdikləri pulun xümsünü versinlər. Həmçinin, vacibdir ki, müştərək sərmayədən əldə olunan gəlirdən xüms ilinin başında hər kəs öz səhminə müvafiq xüms versin.

٢.Xüms tamamilə ödənmədən müştərək sərmayədən istifadə etmək caiz deyil. Əgər şəriklər xüms vermək istəməsələr, zərər olmadığı təqdirdə şəxs şəriklikdən ayrılmalıdır. Əks təqdirdə, şəriliyi davam etdirə bilər.

٣.Şirkətin sərmayə və gəlirinin xümsünü ödəmək hər kəsə öz səhminə görə bir vəzifədir. Bu işi isə şəriklərdən icazə və vəkalət almış idarə heyətinin məsul şəxsi icra edəcək.

٤.Şəriklərin hər biri öz səhminin xümsünü verəndən sonra daha ümumi sərmayəyə xüms düşməz.

---

[١] Şəri suallara cavab, ٩٦٨

Qərzul-həsənə qutusunda

١.Əgər onun səhmdarlarından hər biri qutunun təşkil olunması üçün ilkin kapitaldan əlavə hər ay məbləğin artımı üçün ora vəsait əlavə edirlərsə və hər biri mənfəətdən, ya öz haqqından xüms ili bitəndən sonra öz şirkət səhmindən ödəyirlərsə, onun xümsünü verməlidirlər. Amma əgər il əsnasında versələr, bir halda ki, onu ələ gətirmək xüms ili bitəndən sonra mümkün olacaq, onun xümsünü ilin sonunda verməlidirlər. Qalan surətlərdə onu ələ gətirdiyi vaxt xümsünü verməlidir.

٢.Əgər onun sərmayəsi bir neçə nəfərin şərikli olaraq şəxsi mülküdürsə, onun qazancı hər üzvün səhminə nisbətən onun şəxsi mülkü sayılır və hər şəxs öz illik xərcindən artıq qalan miqdarın xümsünü verməlidir. Əgər qutunun sərmayəsi bir və ya bir neçə şəxsin mülkü deyilsə, məsələn ümumi vəqf və bu kimi maldan olsa, ondan hasil olna qazancın xümsü yoxdur.

٢. Ticarət yeri sərmayənin bir hissəsidir və onun xümsünü vermək vacibdir. Əgər onu ödəmək qüdrəti yoxdursa, onda vəliyyi fəqihin və ya onun vəkilinin razılığı ilə tədricən ödəməlidir.[١]

٣. Sərqəfli sərmayənin bir hissəsidir, xümsü verilməsi vacibdir.[٢]

٢) İş alətləri

İş alətlərinin hökmü sərmayə hökmündədir. Əgər bunlar gəlirdən əldə olunubsa, xümsü verilməlidir. Buna görə də qazanc əldə etmək məq-sədilə hazırlanan maşının xümsünü vermək vacibdir.[٣]

---

[١] Şəri suallara cavab, ٩٤٤

[٢] Şəri suallara cavab, ٩٦٧

[٣] Şəri suallara cavab, ٩٢٤,٨٨٧, ٩٧٢

Diqqət:

- Bir nəfər özünün şəxsi mülkü olan həcc karvanının ehtiyacı olduğu bütün ləvazimatları həcc təşkilatçısına satarsa, (bu vasitələrdən həcc karvanının müdiriyyətinin öhdədarlıq günlərində, hacıların idarə olunması cəhətindən istifadə edir) və bu vasitələr xümsü verilmiş pulla alınıbsa, onun satışının puluna xüms düşmür. Əks təqdirdə, xümsünü verməlidir.[١]

٣) Sərmayənin artımı

١. Malın qiyməti artarsa və bir kəs onu alıb daha çox gəlir əldə etmək üçün onu satmasa, xüms ilinin çatması ilə artımın xümsünü ödəməlidir. Amma bir mal ilin başına qədər satılmasa və onu almağa müştəri tapılmasa, hal-hazırda onun artmış qiymətinin xümsünü vermək vacib deyil, gələcəkdə onun satışından ələ gələn xeyir satış ilinin xeyri hesab olunur.[٢]

٢. Əgər bir malı xümsü verilmiş pulla satmaq niyyətilə alarsa və bir müddətdən sonra onu satsa, satdığı qiymətdən artıq miqdarı mənfəət hesab olunur və ilin məunəsindən artıq xümsünü ödəməlidir.[٣]

٤) Ehtiyat pul yığmaq

١. Yığılan gəlir hətta yaşayışı təmin etmək üçün olsa da, xüms ilinin əvvəlində xümsü verilməlidir. Amma əgər yaşayışın zəruri vasitələrini hazırlamaq və ya təmin etmək bir şəxsin gəlirini yığmağıyla

---

[١] Şəri suallara cavab, ٩٥٩

[٢] Şəri suallara cavab, ٩٦٠

[٣] Şəri suallara cavab, ٩٦٤

mümkündürsə, onda yığılan pulu yaxın gələcəkdə, məsələn, xüms ilindən ٢-٣ ay sonra deyilənlərə sərf etsə, bu halda xüms düşməz.[١]

Diqqət:

- Bir kəs gələsəkdə evlənmək qərarı ilə aylıq orta əmək haqqını yığarsa, ilin əvvəlində xümsünü verməlidir. Amma əgər xüms ilindən iki-üç ay müddətində yığdığı pulu izdivac xərclərinə sərf etsə və xümsü verməklə qalan pulla istədiklərini təmin edə bilməsə, bu halda xüms düşmür.[٢]
- Bir nəfər özünü və ailəsini sıxıntıya salaraq bir az pul yığıb onunla gələcəkdə yaşayış ehtiyatlarını ödəmək üçün sərf etməyi qərara alsa və yaxın gələcəkdə məsələn, ٢-٣ ay xüms ilinin sonunda onu xərcləməyə başlasa, xümsünü ödəmək vacib deyil. Başqa hallarda isə xümsü verməlidir.[٣]
- Bir kəsin məsələn, soyuducu kimi bir şeyi almağa ehtiyacı olarsa və onu bir dəfə almaq qüdrəti olmadığı üçün aylıq pulunu yığıb lazım olan həddə çatanda onu almaq istəsə və yaxın gələcəkdə (məsələn, xüms ilindən ٢-٣ ay sonra) ehtiyacı olduğu şeyi almaq üçün yığdığı pulun xümsünü versə, yaşayış ləvazimatını ala bilməyəcəksə, onun xümsü yoxdur. Əks halda, xümsü verilməlidir.[١]
- Bir kəs ehtiyacı olduğu evi tikmək üçün bir hissə torpaq alıb ev tikmək üçün gündəlik xərclərindən olan pulu yığırsa və illik gəlirdən

---

[١] Şəri suallara cavab, ٨٨٦, ٩٠٩, ٩٧٨
[٢] Şəri suallara cavab, ٨٨٦, ٩٠٩, ٩٧٨
[٣] Şəri suallara cavab, ٩٥٦

yığdığı pulu xüms ilindən ٢-٣ ay sonra yaşayış evi tikməyə sərf etmək istəsə, xümsü yoxdur. Əks halda, xümsünü verməyi vacibdir.[١]

٢. Qazancdan yığılan istənilən miqdarda pula bir dəfə xüms düşür və bu pulun bankda borc kimi yığılması xümsü saqit etmir.[٣]

٣. Məişət işlərini yerinə yetirmək üçün çoxlu vəsaitə ehtiyacı olan və bu vəsaiti bir dəfəyə ələ gətirə bilməyən kəslər bu məqsədlə qutu yaradıb hər ay ora bir qədər məbləğ əmanət qoyub bu vasitə ilə ehtiyac duyduqları məbləği toplayırsa, bu surətdə hər şəxs tərəfindən ora əlavə edilən pul onun illik qazancindan olsa və o pulu ehtiyaclarına ödəyənə qədər onların mülkiyyətində qalarsa, oradan xümsü ayırıb vermək mümkün olduğu təqdirdə xümsü verilməlidir.[٤]

٣. Bir kəs bankda işləmək istəsə və işə başlamaq üçün öz adına və ya bir hesaba hər ay faizini götürməklə uzun müddətə pul qoymağa məcbur olsa və bu pulu geri almaq onun üçün hal-hazırda mümkün olmasa onun xümsünü vermək vacib deyil. Amma onun illik xeyrinin (faizinin) ilin məunəsinin artığına xüms düşür.[٥]

---

[١] Şəri suallara cavab, ٩٨٨
[٢] Şəri suallara cavab, ٩٥٧
[٣] Şəri suallara cavab, ٩٥٥
[٤] Şəri suallara cavab, ٩٤٧
[٥] Şəri suallara cavab, ٨٩٦

SUALLAR:

١. Əgər şəxsi şəriklərin xüms ilinin hesabı yoxdursa, onun vəzifəsi nədir?

٢. Borc sandığına xüms aid olurmu? Bəs ondan ələ gələn xeyrə necə?

٣. Gəlir gətirmək üçün istifadə olunan alətlərə xüms düşürmü?

٤. Ev və başqa ehtiyacları olan şeyləri almaq üçün yığılan pula xüms düşürmü?

٥. Əgər işçi maaşını xüms ili çatandan sonra alarsa, ona xüms düşürmü?

٦. Əgər bir kəs xüms ilindən əvvəl bir miqdar pulu bir kəsə borc verərsə və bir neçə ay xüms ilindən keçəndən sonra borc əlinə gəlsə bu pulun hökmü nədir?

YETMİŞİNCİ DƏRS

QAZANCIN XÜMSÜ(٤)

٩. Bunlar illik xərcə, yəni məunəyə daxil olur:

١) Davamlı və davamsız mallar.

Davamsız (xarab olan) mallar o cümlədən qənd, şəkər, düyü, yağ və bu kimi şeylər gündəlik illik məsrəfdən alınsa və işlənsə, məunə hesab olunur və xüms düşmür. Ondan ilin sonuna qədər istifadə olunmayan miqdar məunə deyil və ona xüms düşür. Davamlı mallar, o cümlədən ev, ev əşyaları, şəxsi avtomobil, qadınların zinət əşyaları və bu kimi şeylərdən istifadə olunduqda eyni qalır (və başqa sözlə onların faydası bəhrəsi müddətlidir) və yaşayış ehtiyacı kimi gəlirdən alınıb istifadə olunur ki, bu da məunə hesab olunur və xümsü yoxdur.

Diqqət:

- Davamlı- şeylərə xüms düşməməsinin meyarı onlara olan ehtiyacın insanların şəninə münasib olması ilə uyğun olmalıdır, hətta il uzunu onlardan istifadə olunmasa da. Buna görə də əgər xalça və ya qab-qaşıq təsadüfən il uzunu istifadə olunmasa, amma qonaq üçün istifadə olunarsa, xümsü yoxdur, amma davamsız mallar məsrəf olunandır və illik nə qədər artıq qalsa, xümsü var.[١]
- Bir neçə cilddən təşkil olunmuş kitabın bütün cildlərinə və ya alınan cildə ehtiyac olarsa, xüms düşmür və əgər hal-hazırda ehtiyac

---

[١] Şəri suallara cavab, ٩٠٤, ٩٠٥, ٩٢٣

olmayan cildlərə xüms düşür və hər cilddən bir səhifə oxumaq xümsü ödəməməyə kifayət deyil (xümsü saqit etmir).[١]

- Ehtiyac duyulan ev - yuxarıda qeyd etdiyimiz kimi- məunədir, buna görə də hər mərtəbəsinin ٢ otağı olan ٣ mərtəbəli evdə sahibi bir mərtəbədə, o biri ٢ mərtəbələrdə isə övladları yaşayarsa, xüms düşmür.[٢]
- İl arasındakı gəlirdən şəxsi və yaşayış ehtiyacları ödəmək üçün maşın alınarsa və bu da onun ürfən şəninə münasib olarsa, məunədir və xümsü yoxdur. Əgər qazanc ələ gətirmək üçün olarsa, məsələn, taksi, avtobus və s. məqsədlərlə olarsa, onda iş aləti hökmündədir və xümsü vacibdir.[٣]
- İlin ortasında gəlirdən alınan və xüms ili çatana qədər qalan dərmanlara ehtiyac varsa və xəstəliyə istifadə olunacaqsa, məunədir və xümsü yoxdur.[٤]

٢. Gəlirdən tədricən alınan (hazırlanan) ehtiyaclar.

Ehtiyac olunan şeyləri o cümlədən ev ləvazimatları, cehiz, yaşayış evi və bu kimi şeyləri əgər ehtiyacı olduğu zaman bir dəfəyə ala bilmirsə, yalnız bir neçə ilin gəlirindən yavaş-yavaş alıb ehtiyacı olduğu vaxta saxlayarsa, hər il öz şəninə münasib olan miqdar məunədir və xümsü yoxdur.[٥]

---

[١] Şəri suallara cavab, ٩٠٧
[٢] Şəri suallara cavab, ٩١١
[٣] Şəri suallara cavab, ٩٢٤
[٤] Şəri suallara cavab, ٩٠٨
[٥] Şəri suallara cavab, ٩٠٦, ٩١٨

Diqqət:

- Əgər bir məntəqədə kürəkən üçün ev ləvazimatları almaq adət olarsa və zaman keçdikcə yavaş-yavaş bu ləvazimatları aldıqları təqdirdə bir il keçərsə və bu ləvazimatlar gələcəkdə məunə hesab olunarsa, xümsü yoxdur.[١]
- Əgər bir şəxsin yaşayış evi olmadığı halda bir hissə torpağı olsa və onun üstündən bir il ya çox keçsə də ev tikə bilməsə, əgər torpağı ehtiyac olduğu evi tikmək üçün ilin ortasında almış olsa, onun hazırki xərci hesab olunur və xüms vacib deyil. Amma əgər onu ilin gəlirindən satmaq və pulunu da ev tikmək qəsdi ilə alsa, xümsünü vermək vacibdir.[٢]
- Bir kəsin yaşamaq üçün evi yoxdursa və ilin ortasında torpaq alıb özü üçün tikmək istəsə, evi tikməyə başlayıb amma tamamlamamışdan əvvəl xüms ili çatarsa, tikilişə sərf etdiyi pula xüms düşmür.[٣]

٣. Borcun xümsünün ödənilməsi.

Ödənilməmiş borc – istər müddətli olsun, istər müddətsiz, istər borc almaqla olsun, istər nisyə mal almaqla - illik gəlirdən istisna deyil, amma əgər gəlir ilinin xərcini təmin etmək üçün olarsa ki, ilin gəlirindən bir miqdarı borca sərf etsin, istisnadır və onun bərabərində illik gəlirə xüms aid olunur. Amma əgər əvvəlki illərin borcları üçün olarsa, illik gəlir onu ödəməyə sərf etmək caizdir, amma əgər ilin sonuna qədər ödənməsə, illik gəlirdən istisna olunur.

---

[١] Şəri suallara cavab, ٩٠٦

[٢] Şəri suallara cavab, ٩١٣, ٩١٦

[٣] Şəri suallara cavab, ٩٠٣

Öncədən alınan icarə pulu və s.

١) İcarə (kirayə) götürənin icarəçiyə öncədən verdiyi pul əgər qazancından olubsa, bir il keçəndən sonra xüms düşür və icarə götürən onu istədiyi vaxt icarə verəndən götürsə, xümsünü ödəməlidir.[١]

٢) Həcc ya ümrə ziyarətinə gedənlər hal-hazırda əllərində olan pulu müzaribə kontraktı əsasında banka qoymalıdırlarsa və ona da üzərinə faiz gəlir (mənfəət artır) və ٣ ildən sonra onların növləri çatanda pulun özünü və ondan gələn xeyri həcc təşkilatçılarına (kompaniyalarına) verib həccə və ya ümrəyə gedirlərsə, tapşırdıqları xüms ilində həccə getsələr, xümsü yoxdur, amma əgər onların həcc növbəsi xümslü ildən sonra olarsa, pulun əsli xümsü ödənilməyən puldan olarsa, xüms düşür, amma pulun gəlirini (faizinə) əgər həcc səfərinə getməzdən əvvəl ala bilməzsə, illik gəlirin bir hissəsi hesab olunur ki, o xərclərin xümsü yoxdur.[٢]

٣) Əgər Tehranda beynəlmiləl kitab sərgisində kitab almaq üçün olan pulu kitabları təhvil almamışdan əvvəl ödəyibsə, lakin kitablar ona gəlib çatmayıbsa, xümsü yoxdur. Bir şərtlə ki, qeyd olunan kitablara ehtiyacı malı və ürfən şəninə münasib olmalıdır və onun hazırlanması öncədən ödənilmiş qiymətinə əsaslanmalıdır.[٣]

---

[١] Şəri suallara cavab, ٨٧٩, ٨٩٨, ٩٤٦

[٢] Şəri suallara cavab, ٩٧٣

[٣] Şəri suallara cavab, ٩٠٢

SUALLAR:

١. Xümsün vacib olmaması üçün bir əmtəəni il uzunu istifadə etmək lazımdır, yoxsa ilboyu ona ehtiyac ehtimalı kifayətdir, hətta il uzunu istifadə olunmasa da.

٢. İl ortasında alınan dərmanlar əgər xüms ilinin başına qədər işlən-məmiş qalarsa, ona xüms düşürmü?

٣. Bir kəsin yaşamağa evi yoxdur, buna görə də torpaq alır ki, özü üçün ev tiksin, amma evi tikmək üçün kifayət qədər pulu olmadığın-dan bir il keçir və onu satmağa da çatdırmır, ona xüms düşürmü?

٤. İllik xərclərindən bəzən artıq qalan işçilərin puluna-əgər nəqd və ya hissəli ödəməklə borcları olarsa xüms düşürmü?

٥. Adətən ev icarə etmək üçün əvvəlcədən bir miqdar pul verirlər, əgər bu pul qazancdan olarsa və bir neçə il ev sahibində qalarsa ondan geri alandan sonra o dəqiqə onun xümsünü verməlidirmi? Həmin pulla başqa yerdə ev icarəyə götürə bilərmi?

٦. Həccə getməyə ad yazdırmağa ödənilən pulun üstündən bir neçə il keçərsə xüms düşürmü?

YETMİŞ BİRİNCİ DƏRS

QAZANCIN XÜMSÜ (٥)

Qazancın xümsünün hesablanması və ödənilməsi "٢"

١٠.Qazancın xümsünün hesablanması və ödənilməsi

١. Gəlirin eyninə xümsün aid olması.

Gəlirin eyninə xüms düşür və xüms sahibləri eynin tamam hissələrində sahiblə (maliklə) şərikdirlər. Buna görə də malik (sahib) vəliyyi-əmrin (fəqihin) icazəsi olmadan xümsü ödəməmişdən əvvəl bütün eyndən istifadə edə bilməz (istər həqiqi və xarici istifadə olsun, məsələn, yemək, içmək, geyinmək,oturmaq, istərsə də etibari, məsələn, satmaq, bağışlamaq, icarə vermək, razılığa gəlmək). Əgər onu əmanət götürsə və özünü xümsün sahiblərinə borclu bilsə və eyni istifadə etsə və tələf etsə, zamindir. Həmçinin eynin xümsünü verməmişdən əvvəl bir hissəsindən də istifadə edə bilməz. Hətta eyndən qalan onun xümsü qədər və ya çox olarsa və o da qalanının xümsünü ödəmək qərarında olsa da.[١]

٢. Xümsün aid olduğu zaman.

Gəlirin xümsünün aid olduğu zaman gəlirin ələ gəldiyi vaxtdır, xümsü ödəməyə bir il vaxt olsa da. Buna görə də pulun sahibi il başa çatmazdan əvvəl xümsü verməsi caizdır. Həmçinin öz xüms ilini geri və ya irəli sala bilər, bir şərtlə ki, keçən müddəti hesablasın ki, bununla xüms sahiblərinə zərər vurmasın.[٢]

---

[١] Şəri suallara cavab, ٨٦٤, ٩٣١, ٩٣٢, ٩٣٧, ٩٤٠, ٩٧٩, ٩٨٤

[٢] Şəri suallara cavab, ٩٦٥, ٩٨٦, ١٠٠١

٣. Eyni və ya qiymətini ödəməkdə gecikməsi.

Sahib pulun xümsünü həmin pulun eynindən və ya onun qiymətinin bərabərində ödəməkdə azaddır. Bir sözlə, əgər onun qiymətinin bərabərində pul vermək istəsə, gərək pulun xümsünü də versin, məsələn, bir kəsin xüms aid olan mülkü varsa (ev və ya torpaq) və onun xümsünü illik gəlirdən versə, onda gəlirin də xümsünü verməsi vacibdir.[١]

Diqqət:

- Qiyməti daim dəyişən sikkə şəklində olan qızılın xümsünü əgər onların öz qiyməti ilə vermək qəsdi olsa, bu günkü qiymətlə verməlidir.[٢]

٤. Gəlirin xərcinin kəsri.

Gəlirdən mənfəət ələ gətirmək və iqtisadi fəaliyyətdə xərclənən hissəyə o cümlədən gediş-gəliş xərcləri, dəyən ziyana ödənilən xərc, mağaza kirayəsinə, dəllal və ya işçinin haqqına və s. kimi xərclənən hissə o ilin gəlirindən istisna olur və xümsü yoxdur.[٣]

٥. Gəlir xümsünün məunəyə aid olmaması (illik xərc).

Gəlirin xümsü məunəyə aid olmur, yəni ehtiyaclara və yaşayış ləvazimatlarına il arasinda işlənən hissəyə xüms düşmür və yalnız ilin sonunda artıq qalan hissəyə xüms düşür və hesablanmalıdır.[١]

٦. Həmin ilin gəlirindən ilin məunəsinin kəsri hər ilin məunəsi həmin ilin gəlirindən kəsr olur, əvvəlki və sonrakı illərin yox. Buna görə də

---

[١] Şəri suallara cavab, ٨٦٣, ٩٤٩, ٩٩٢

[٢] Şəri suallara cavab, ٩٩٢

[٣] Şəri suallara cavab, ٩٥١

əgər bir ildə onun gəliri olmasa, o ilin məunəsini əvvəlki və sonrakı illərdən ələ gələn gəlirdən vermək olmaz.[٢]

٧. Başqa malın olmamasına görə məunənin qazancdan sərf olunmasının şərtlənməməsi

Gəlirin məunəsini sərf etməkdə gəlirdən başqa pulun olması şərt deyil, əksinə əgər gəlirdən başqa xüms aid olmayan və ya xümsü ödənilən pul olarsa, gəlirdən məunəsini götürüb sərf edə bilər. Əgər ilin gəliri pulun beşdə biri ilə müştərək şəkildə məunədə məsrəf olarsa, ilin sonunda xümsün qalanını qeyri müxəmməs nisbətində ödəməlidir və ilin gəlirini sərf etdiyi beşdə bir malın əvəzinə istisna etməyi caiz deyil. Məsələn, əgər xümsü verilmiş düyünü işlətsə, təzə düyüdən onun bərabərini xümsündən istisna edə bilməz, buna görə də təzə düyüdən öz ilinin məunəsinin etdiyi məsrəfə xüms düşmür və xüms ilinin əvvəlinə ondan qalanına xüms düşür.[٣]

٨. Xüms ilinin olması

Hər bir gəliri olan insanın - hətta az da olsa - istər subay olsun istər evli-xüms ili olması vacibdir və öz xüms ilini hesablamalıdır ki, ilin sonuna gəlirindən artıq qalan hissəyə xüms versin. Əlbəttə, xüms ilinin əvvəlini və illik gəliri hesablamaq vacib deyil, xümsün miqdarını necə tanımaq yolunu bilməsi vacibdir və insan xümsünü ona aid olduğunu bilir, amma miqdarını bilmirsə, onun miqdarını hesablamağı bacarması vacibdir. Amma əgər onun qazancından bir şey qalmasa və

---

[١] Şəri suallara cavab, ٩٠١, ٩٠٦, ٩١٨

[٢] Şəri suallara cavab, ٩٧٤, ٩٧٩

[٣] Şəri suallara cavab, ٩٦٤, ٩٨٠, ١٠٢٦, ١٠٢٨

hamısını yaşayış məunəsinə sərf olunsa, xüms ona aid olmur və artıq onu hesablamaq lazım deyil.[١]

Diqqət:

- Ər və arvad öz maaşlarını müştərək şəkildə ev işləri üçün xərcləyirlərsə, hər biri öz gəlirlərinin müstəqil xüms ili hesablamalı və hər biri öz maaşlarının və illik gəlirlərinin xümsünü verməlidirlər. Həmçinin xüms ili olan evdar qadının əri öz pulunun xümsünü verməsindən başqa, onun da bəzən gəliri olarsa, əlinə ilk gəlir gələn günü xüms ilinin əvvəli qərar verməlidir və il uzunu (bir il müddətində) öz gəlirindən şəxsi xərclərə, məsələn ziyarət, hədiyyə və bu kimi şeylərə xərclədiyinə xüms düşmür. Amma xüms ilinin əvvəlinə artıq qalan hissəyə xüms düşür.[٢]
- İnsan özü öz pulunun xümsünü hesablayıb vəliyyi əmrə (müctəhidə) və ya١ onun nümayəndəsinə verə bilər.

٩. Xüms ilinin əvvəlini təyin etmək.

Xüms ilinin başlanğıcının mükəlləf tərəfindən təyin olmasına ehtiyac yoxdur (və başqa sözlə xüms ilinin əvvəlinin təyin olması mükəlləf tərəfindən aydın olsun). Bu iş illik gəlirin necə ələ gəlməsilə təyin olunur. Buna görə də xüms ilinin əvvəli, məsələn, fəhlə və işçilər kimi ilk gəliri əllərinə aldıqları gündəndir və tacir və mağaza sahiblərinin xüms ili isə al-ver etdikləri gündən, əkinçilərin xüms ili ilk məhsulu götürdükləri gündən hesablanır.

---

[١] Şəri suallara cavab, ٩٦٩, ٩٩٤, ٩٩٧

[٢] Şəri suallara cavab, ٩٩٨, ٩٩٩

Diqqət:

- Yuxarıda qeyd etdiyimz kimi maaş alanların xüms ili fəhlə, işçi və s. fərqli olaraq əməkhaqqı, ya maaş aldıqları gündür.

١٠. Xüms ilinin seçilməsində azad olmaq.

Xüms ili həm qəməri, həm də şəmsi təqvimi ilə seçmək olar. Mükəlləf onu seçməkdə azaddır.

SUALLAR:

١. Xüms ilini gecikdirmək və ya qabağa çəkmək olarmı?

٢. Bir kəsin xüms aid olan bir mülkü varsa (ev ya torpaq), onun xümsünü illik gəlirdən verə bilərmi? Və ilin gəlirinin xümsünü də verməlidirmi?

٣. Bir nəfərin xüms ilinin sonunda məsələn xümsünü verdiyi ١٠٠٠٠٠ tümən artıq qalıb. Əgər o biri ildə onun miqdar ١٥٠٠٠٠ manata ça-tarsa təzə ildə ٥٠٠٠٠-in xümsünü verməlidir. Yoxsa yenidən ١٥٠٠٠٠-ninin xümsünü verəcək?

٤. Ata-anası ilə yaşayan subay cavanlara xüms vermək vacibdirmi?

٥. İnsan öz xümsünü hesablayıb sonra onu müctəhidə, ya onun vəkilinə verə bilərmi?

٦. Xümsü ödəmək üçün ilin əvvəli necə təyin olur?

YETMİŞ İKİNCİ DƏRS

QAZANCIN XÜMSÜ (٦)

Qazancın xümsünün hesablanması və ödənilməsi “٢”

١١. Sərmayənin xümsünün hesablanması və ödənilməsi

Sərmayənin xümsünü ödəmək üçün əvvəlcə nəqd pul və malı xüms ilinin əvvəlində hesablamalı və ona qiymət qoyulubsa xümsü verilməlidir, sonra o biri ildə onun cəmini sərmayənin əsli ilə ölçürlər, əgər sərmayədən artıq qalarsa mənfəət hesablanır və xüms ona aid olur və əgər birinci sərmayəyə bir şey əlavə olunmasa, xümsünü ödəmək vacib deyil. Məsələn bir nəfərin xümsünü ödədiyi ٩٨ qoyunu və bir miqdar nəqd pulu varsa, əgər xüms ilinin əvvəlində qoyunların qiymətinin cəmi əlində olan nəqd pulla ٩٨ qoyunun qiymətinin cəmindən nəqd pulla çox olarsa, bir halda ki, əvvəlcə onun xümsünü ödəmişdi, artıq qalanına xüms düşmür.

Diqqət:

- Sərmayənin xümsünün hesablanmasında mal və cinsləri (nəqd olmayan sərmayə) hər bir formada təxminlə, qiymət təyin etməklə və müşkül səbəbindən bu işi tərk etməklə-caizdir.
- Xüms düşməyən mal o cümlədən cehiz və s. sərmayə ilə qarışarsa, xüms ilinin sonunda onu sərmayədən istisna etmək və sonra malların qalanının xümsünü vermək caizdir. Bir şərtlə ki, onun sərmayəsi elə olsun ki, ondan öz müavinəsini götürsün, məsələn mağaza sahibi kimi, müavinəsini götürsün, məsələn mağaza sahibi kimi, bu halda öz xərc-

ləri üçün sərmayədən götürdüyü hər miqdar beşdə bir malla beşdə bir olmayan mal arasında bölünməlidir.

- Xüms sərmayəsinin istisnasında meyar, həmən əsli sərmayədir, buna görə də iş görülən əsli sərmayə əgər qızıl növü olarsa, ilin başında beşdə bir sikkələrin pulu istisna olur, baxmayaraq ki, onların qiyməti keçən ilə nisbətən bir vahid riyal artıb. Amma əgər onun sərmayəsi nəqd pul, ya mal olarsa ki, xüms ilinin əvvəlində qızıl sikkələrlə müqayisə olunub xümsü verilmiş olsun, gərək gələn xüms ilinin əvvəlində yalnız qızıl sikkələrin qiymətli ki, keçən il onları hesablamışdı istisna etsin, qızılların sayını yox. Buna görə də əgər sikkələrin qiyməti gələcəkdə artarsa, qiymətin artmış miqdarı istisna olmur, əksinə xeyri hesablayıb xümsünü vermək vacibdir.

١٢. Gəlirin xümsünü hesablamaqda şəkk etmək bir kəs keçən illərin gəlirinin xümsünü hesablamaqda şəkk edərsə, öz şəkkinə etina etməməlidir və təzədən xümsü ödəmək ona vacib deyil. Əgər gəlirində şəkk edərsə ki, bu xümsünü verdiyi əvvəlki illərin gəlirindən olandır, ya xümsünü vermədiyi illərin gəlirindən, onda ehtiyata görə onun xümsünü verməsi vacibdir. Yalnız əvvəlcədən onun xümsünü verdiyini bilməyi istisnadır.

١٣. Xümsü ödəməkdə şəkk

Bir kəs bir şeyin xümsünü verib-verməməkdə şəkk edərsə, əgər şəkk olunan xüms aid olan şeylərdən olarsa, xümsünü ödəməyinə yəqin əldə etməyi vacibdir.

١٤. Razılaşma

Bir kəs onun gəlirinə xüms aid olub olmadığını bilməsə, məsələn, yəqin bilir ki, yaşadığı evi qazancı ilə alıb, amma gəlirini il arasında onu almağa sərf etdiyini, ya xümsü ödəyəndən sonra ilin sonunda aldığını bilmirsə, onda müctəhid və ya onun vəkili ilə bu yöndə razılaşmalıdır.[١]

Diqqət:

- Qəti halda xümsün vacib olduğu məqamda razılaşma mümkün deyil. Razılaşma yalnız şəkk olan məqamlarda icra olunur.[٢]

١٥. Öhdəsinə xüms vacib olduğu halda hazırda onu ödəyə bilməyən kəs xümsün veriləcəyi şəxsin vəlisi, ya vəkilini bundan xəbərdar etməli və öz şəraitinə uyğun olaraq tədricən xümsü ödəməyə səy göstərməlidir.[٣]

Diqqət:

- Bir nəfər atası sağ olarkən xümsünü kamil şəkildə vermədiyinə ehtimal etsə və torpaqlarından xəstəxana tikmək üçün bağışlasa, əgər torpağı ölənin malının xümsündən hesablamaq istəsə, həmin torpaq xüms kimi hesab olunmur.[١]
- Xümsü və başqa şəri maaşları bank yolu ilə təhvil verməyin işkalı yoxdur. Buna görə də vəliyi əmr və ya onun vəkilinə xümsün eynini çatdırmaq çətin olan kəslər bank yolu ilə edə bilərlər. Baxmayaraq ki, bankdan götürülən pul banka ödənilən pulun eyni deyil.

---

[١] Şəri suallara cavab, ٩٢٨, ٩٣٥

[٢] Şəri suallara cavab, ٩٥٨

[٣] Şəri suallara cavab, ٩٢٥, ٩٢٧, ١٠٣٥

SUALLAR:

١. Sərmayənin xümsünün hesablanmasını və ödənilməsinin qaydasını deyin.

٢. Əgər hədiyyə və bu kimi xümsü olmayan mal sərmayə ilə qarışsa, xüms ilinin sonunda onu sərmayədən istisna edib qalan malın xümsünü ödəmək olarmi?

٣. Keçmiş mallarının xümsünün hesablanmasının doğru olub-olmadığında şəkk edən kəsin vəzifəsi nədir?

٤. Razılaşma nə vaxt mümkün hesab olunur?

٥. Hansı hallarda xüms verilən şəxslə xəbərləşib razılaşmaq lazımdır?

---

[١] Şəri suallara cavab, ١٠٢٤

YETMIŞ ÜÇÜNCÜ DƏRS

MƏDƏNIN XÜMSÜ, XƏZINƏ, HARAMA QARIŞMIŞ HALAL MAL, XÜMSÜN SƏRF OLUNMASI VƏ MÜXTƏLIF MƏSƏLƏLƏR

١. Mədənin xümsü

Bir və ya bir neçə şəxslər tərəfindən tapılan mədənlərə xüms düşür, bir şərtlə ki, o şəxsin mədəndən çıxardığı şey və ya bir neçə nəfərin iştirakı ilə çıxaranların payı mədən işlərinə sərf olunan xərcdən çıxdıqdan sonra ٢٠ dinar qızıl, ya ٢٠٠ dirhəm gümüş və ya bu ikisinin qiyməti bərabərində olsun.[١]

Diqqət:

- Mədənlərə xümsün vacib olma şərtləri budur ki, bir şəxs və ya bir neçə şəxs birlikdə onu çıxarsınlar, bir şərtlə ki, hər birinin payı nisab həddinə çatsın və çıxarılan şey onların mülkü olsun. Bir və ya bir neçə nəfər şəxsin mülkü hesab olunmayan və dövlət tərəfindən çıxarılan mədənlərdə xüms şərti yoxdur, nəticədə hökümət və dövlətə bu mədənlər üçün xüms vacib deyil.

٢. Xəzinə

İnsanların yerdən tapıb sahib olduqları xəzinənin ölçüsünün islam respublikasının nizamnaməsinin qanunlarında mövcuddur. Buna görə də ١٠٠ il bundan əvvələ aid olan gümüş sikkə bir şəxsin şəxsi mülkü-

nün torpağından tapılarsa, gərək bu haqda islam respublikasının qanunlarına müraciət olunsun.[٢]

٣. Harama qarışan halal mal

Bir nəfər pulunda haram mal olduğuna yəqin edər və onun dəqiq miqdarını bilsə də sahibini tanımasa, o pulun halal olmasının yolu budur ki, onun xümsünü versin. Əgər şəkk etsə ki, haram mal onun halal malına qarışıb, ya yox, heç nə öhdəsində yoxdur.[٣]

Diqqət:

- Bir kəs xüms və zəkat əhli olmayan və malı ribaya qarışan bir ailədə yaşayırsa, bu malın haramlığına yəqin etməyincə ondan istifadə edə bilər.

Əlbəttə istifadə etdiyi malın haramlığına yəqini olsa, ondan istifadə etmək caiz deyil, əgər ailədən ayrılmaq və əlaqəni kəsmək onun üçün çətin olarsa, bu halda onların halala qarışmış haram malından istifadə etməyin işkalı yoxdur. Amma onun istifadə etdiyi malda xüms, zəkat və başqalarının malı olduğuna zamindir.[٤]

٤. Xümsün sərf olunması

١. *İmamın (ə) və seyidlərin payı*

١) Xüms ٢ bərabər yerə bölünməlidir: onun bir hissəsi İmamın (ə), o bir hissəsi isə seyidlərindir.

---

[١] Şəri suallara cavab, ٨٩٣

[٢] Şəri suallara cavab, ٨٩١, ٨٩٢

[٣] Şəri suallara cavab, ٨٩٢

[٤] Şəri suallara cavab, ٩٢٩

٢) İmam dedikdə hər dövrün məsum imamı nəzərdə tutulur ki, bizim zamanımızda bu, İmam Məhdidir (ə.f). Seyidlərdən məqsəd isə ata tərəfdən onun nəslinin peyğəmbərin (s) babası Haşimə çatmasıdır.

٣) Bizim zəmanəmizdə məsum imama əlimiz çatmadığından onun payı bütünlüklə müsəlmanların vəliyyi əmrinə veriliir ki, imamın razılığına səbəb olan yerlərə, məxsusən elmi hövzələrə və s. sərf olunur. Seyidlərin də payının ixtiyarı imamın payı kimi müsəlmanların vəliyyi əmrinə aiddir. Buna görə də hər kəsin öhdəsində və ya malında imamın, ya seyidlərin haqqı varsa, gərək onu vəliyyi əmrə və ya onun vəkilinə təhvil versin. Əgər onu müəyyən hallarda, o cümlədən dinə faydalı və lazım olan kitabları almağa, ehtiyacı olan kasıb seyidlərin evlənməsinə, onların su və işıq pullarına xərcləmək istəsə, əvvəl bu barədə icazə almalıdır.[١]

٤) Mərcəye təqlidlərin hər birinin müqəllidləri əgər bu ٢ səhmi ödəməkdə öz mərceyi təqlidlərinin fətvalarına əməl etsələr, xümsü vermiş hesab olunurlar.[٢]

Diqqət:

- İmamın və seyidlərin payı bağışlana (hədiyyə oluna) bilməz.[٣]
- Öz şəri maaşını vəliyyi əmrin vəkillərinə və başqa şəxslərə və vəliyyi əmrin dəftərxanasına çatdırmaq məqsədilə verən şəxs onlardan üstündə vəliyyi əmrin möhürü olan qəbz tələb edə bilər.[١]

---

[١] Şəri suallara cavab, ١٠٠٤, ١٠٠٥, ١٠١٣, ١٠١٤, ١٠١٨, ١٠١٩, ١٠٢٠, ١٠٢٣

[٢] Şəri suallara cavab, ١٠٠٣

[٣] Şəri suallara cavab, ١٠٢٤

- Bir kəs icazəsi olduğunu (vəliyyi əmrdən icazəsi olduğunu) iddia edən şəxsə şəkk edərsə, hörmətlə ondan xəttini ona göstərməsini və ya ondan vəliyyi əmrin möhrü vurulan qəbzi tələb edə bilər. Belə ki, qəbz vəliyyi əmrin tərəfindən icazəsi olduğunu təyin edir.[٢]
- İmamın və seyidlərin payını götürmək şərən müstəhəq olmayan şəxslərə və hövzə qanunları şamil olmayan şəxslərə caiz deyil.[٣]

٢. *Seyid payı kimlərə verilməlidir?*

Seyidlərin payını bu şərtlərə malik olan şəxslərə vermək olar:

١.Seyid olsun;
٢.İmanlı (on iki imam şiəsi) olsun;
٣.Fəqir olsun;
٤.Vacibun-nəfəqə olmasın;
٥.Günah yerlərə sərf etməsin;
٦.Aşkar günah əhli olmasın.

١. Seyidlik

١) Seyidlərin payından o seyid istifadə edə bilər ki, nəsli ata tərəfindən peyğəmbərin (s) babası cənab Haşimə yetişsin. Buna görə də haşimi olan bütün ələvi, əqili və əbbasilərin haşimi seyidlərinin imtiyazlarından istifadə etmək haqqları var.[٤]

---

[١] Şəri suallara cavab, ١٠٠٦
[٢] Şəri suallara cavab, ١٠٠٧
[٣] Şəri suallara cavab, ١٠١٦
[٤] Şəri suallara cavab, ١٠١٠

٢) Ata tərəfdən nəsli Abbas ibni Əli ibni Əbu Talibə çatan hər kəs ələvi seyiddir.[١]

٣) Ana tərəfdən də peyğəmbərə nəslin yetişməsi peyğəmbər övladı hesab olunmasına baxmayaraq, şəri seyidlik hökmləri ata tərəfdən peyğəmbərə yetişənlərə şamil olur.[٢]

٤) Övladlığa götürülənlərə şəri hökmlər aid olunmur. Bir kəsin əsil atası seyyid deyilsə, seyidlərə aid olan hökm onlara şamil deyil.[٣]

٣. Fəqir

١) İşi və qazancı olan seyidlərin gəlirləri yaşayışlarına və ürfən şənlərinə kifayət qədər münasib olarsa, onlara xüms düşmür.[٤]

٢) Seyid ailəsinin atası nəfəqələrini verməkdə səhlənkarlıq edirsə və onlar öz nəfəqələrini atalarından ala bilmirlərsə, seyyid payından nəfəqə miqdarında onlara verilə bilər.[٥]

٣) Ehtiyaclı seyyidlərə yemək və geyimdən başqa vəziyyətlərinə münasib olan ehtiyacları olduğu başqa şeyə görə seyidlərin payından ehtiyaclarını dəf etmək üçün pay vermək olar.[٦]

٤) Seyyid arvadın əri fəqirlik üzündən onun nəfəqəsini verə bilmirsə və o da şərən fəqir olarsa, öz ehtiyacını ödəmək üçün seyyidlərin payından götürə bilər, onu həm özü və övladları, həm də əri üçün sərf edə bilər.

---

[١] Şəri suallara cavab, ١٠١٠
[٢] Şəri suallara cavab, ١٠٠٩
[٣] Şəri suallara cavab, ١٠١٢
[٤] Şəri suallara cavab, ١٠٢١
[٥] Şəri suallara cavab, ١٠١٧
[٦] Şəri suallara cavab, ١٠١٧

٤. Vacibi nəfəqə olmamaq

Vacibi nəfəqə olanlara xüms vermək olmaz. Məsələn, insan öz fəqir ata-anasına, özünün kömək etmək qüdrəti olan halda xümsünü verə bilməz.[١] (ə.i.m. ١٠٢٢).

٥. Xümsün müxtəlif məsələləri

١) Xümsün aid olub-olmamasını şəkk olunan maldan istifadə etməyin işkalı yoxdur. Amma əvvəldən yəqin etsə ki, xüms o mala aid olub, buna görə də:

a) Xüms əhli olmayan yeməyi o yeməyə xümsün aid olduğunu bilənə qədər yeməyin işkalı yoxdur.

b) Əgər mağazanın sahibi malının xümsünü verib-vermədiyini bilməyən alıcı ilə ticarət edərsə və əgər alıcının ona verdiyi pula xüms düşdüyünü bilməsə, onun öhdəsinə bir şey vacib deyil və araşdırmaq da vacib deyil.[٢]

٢) İslami-dini işlərlə, xüsusilə namaz, oruc, xüms kimi işlərlə məşğul olmayan müsəlmanlarla əlaqə yaratmaq, əgər dini işlərə iltizamsızlıq olmasa, işkalı yoxdur, əgər onlarla əlaqəni kəsmək dini işlərin ehtiramına təsir etsə, bu halda nəhy əz münkər olaraq onlarla əlaqəni müəyyən vaxta qədər kəsmək vacibdir. Əlbəttə, onların malından istifadə etmək, o cümlədən yemək və s. xümsün ona aid olduğunu bilməyənə qədər, caizdir.

---

[١] Şəri suallara cavab, ١٠٢٢

[٢] Şəri suallara cavab, ٩٣٣, ٩٣٤, ٩٣٩

SUALLAR:

١. Mədənin nisabı nə qədərdir?

٢. Xüms və zəkat verməyən, eləcə də halal malı harama qarışan ailədə yaşayan adamın vəzifəsi nədir?

٣. İmam və seyyid dedikdə nə nəzərdə tutulur?

٤. Bəzi şəxslər özləri seyidlərin işıq və su pullarını ödəmək istəyirlər, onları xümsdən hesab edib ödəmək olarmı?

٥. İş və qazancı olan seyidlərə xüms vermək olarmı?

٦. Seyidin payını ailə quran və övladları olan fəqir amma əri seyid olmayan və fəqir olan seyidə vermək olarmı? O, bu pulu övladlarına və ərinə sərf edə bilərmi?

VI fəsil

ƏNFAL

YETMİŞ DÖRDÜNCÜ DƏRS

ƏNFAL

١. Ənfalın mənası

Ənfal- peyğəmbər və onun məsum canişinlərinin ixtiyarında olan maldır, qeybət zamanında o vəliyyi əmrin ixtiyarına keçir (islam hökumətinin təsərrüfü altındadır) və ondan ümumi camaatın işlərində və hamının xeyrinə olan işlərdə istifadə etmək olar.[١] (ə.i.m.).

٢. Ənfalın mənbələri

Ənfalın mənbələri

١.Fey. (Müharibə olmadan müsəlmanların əlinə keçən torpaqlar və s.);

٢.Abadlaşdırmadan istifadəsi mümkün olmayan ölü yerlər;

٣.Əhalisi tərəfindən tərk olunan şəhər və kəndlər;

٤.Dənizlərin və böyük çayların sahilləri;

٥.Meşələr, təbii qamışlıqlar, dərələr və dağların zirvələri;

٦.Müharibələrdə müsəlmanların əlinə keçən qiymətli saraylara məxsus mallar;

٧.Cins atlar və bahalı libaslar kimi dəyərli qənimətlər;

٨.Müsəlmanların rəhbərinin izni olmadan baş verən müharibələrdə əldə olunan qənimətlər;

٩.Varisi olmadan dünyadan gedənlərin malları;

١٠.Mədənlər.

Diqqət:

- Çayların səthində olan qum gillərdən şəhər və başqa şeyləri yenidən qurmaq üçün şəhər icra hakimlərinin istifadə etməsi caizdir və ayrı-ayrı şəxslərin böyük çayların səthində malik olmaq iddiaları məqbul deyil.[٢]
- Xüsusi malikiyyəti olmayan təbii otlaqlar ümumi ənfal və əmvaldır ki, onun ixtiyarı müsəlmanların vəliyyi əmrindədir və onu alıb-satmaq heç vəchlə düzgün deyil. Həmçinin orada tayfa və ya hansısa insanların öncədən olması oranın maliki olmağa səbəb olmur.[٣]
- Heç kəsin xüsusi sahibliyi olmayan təbii otlaqların, çəmənlərin otlarının satılması da heç kəs tərərfindən caiz deyil, amma dövlət tərəfindən bir nəfər, ya kənd işləri məsulu orada heyvanları otarmağa icazə almış adamdan kəndin abadlıq işləri üçün pul ala bilər.[٤]
- Şəxslərin əmlakının qonşuluğunda yerləşən otlaqlardan heyvanlarını otarmaq üçün icazə almaqla başqasının mülkünə girib onun suyundan istifadə etməyə icazəsi yoxdur və bu iş mülk sahibinin icazəsi olmadan caiz deyil.[٥]

---

[١] Şəri suallara cavab ١٠٤٢, ١٠٤٥, ١٠٤٦,
[٢] Şəri suallara cavab, ١٠٤١
[٣] Şəri suallara cavab, ١٠٤٤
[٤] Şəri suallara cavab, ١٠٤٣
[٥] Şəri suallara cavab, ١٠٤٧

SUALLAR:

١) Ənfal nədir?

٢) Ənfalın mənbələri hansılardır?

٣) Şəhər icra hakiminin şəhər və başqa yerləri abad etmək üçün çay səthindən qum və gillərdən istifadə etmək haqqı varmı? Əgər onun bu haqqı varsa, başqa bir şəxs onun sahibi olduğunu iddia edə bilər-mi və əgər edərsə onun iddiasını dinləmək lazımdırmı (düzgün iddia edirmi)?

٤) Otlaqların alınıb-satılması nə zaman düzgündür?

٥) Heyvanlarını otarmaq icazəsi olan heyvandarların bu otlaqların kənarında olan xüsusi tarlalara girib onun suyundan həm özlərinin həm də heyvanlarının sahibinin icaəsi olmadan istifadə etmələri caizdirmi?

VII fəsil

CİHAD

YETMİŞ BEŞİNCİ DƏRS

CIHAD

Cihadın mənası, vacibliyi, növləri

۱. Cihadın mənası

Cihad burada islama dəvət etmək, onu yayıb genişləndirmək üçün və düşmənin təcavüzünün qarşısını almaqdan ötrü- çalışmaq və mübarizə aparmaqdır.

۲. Cihadın vacibliyi

Cihad dinin ən mühüm işlərindən biridir və onun vacibliyi islam dininin zəruriyyətlərindən hesab olunur.

۳. Cihadın növləri

Cihad ۲ növdür:

۱) İbtidai- odur ki, islama dəvətdə qarşıda olan maneələri götürmək üçün yerinə yetirilir və islam ordusu düşmən tərəfdən hücum olmamışdan islamın təbliğinə qarşı olan maneələri aradan qaldırmaq məqsədilə, başqa torpaqların müsəlman olmağında olan maneələri aradan qaldırmaq və islamın yayılması, həqq kəlməsinin ucalması dini şüarların bərpa olması, kafirlərin və müşkirlərin hidayət olması, şirkin və bütpərəstlərin kökünün kəsilməsi uğrunda müharibə etməkdir. (Əslində ibtidai cihaddan məqsəd ölkənin ərazisini genişləndirmək deyil, küfr şirk qüdrətləri vasitəsilə Allaha pərəstişdən tovhiddən və ədalətdən məhrum olan millətlərim fitri hüquqlarını müdafiə etməkdir.

۲) Müdafiə olunan- bu cihad isə düşmənin təcavüzünün qarşısını alıb müdafiə olunmaq üçün yerinə yetirilir və bu o zamandır ki, düşmən

müsəlman torpaqlarına, şəhər və evlərinə hücum edib onlara həm siyasi və iqtisadi, həm də mədəni cəhətdən hakim olmaq niyyətilə yiyələnmək istəsin.

١. İbtidai cihad

İbtidai cihad yalnız peyğəmbər və məsum imamların zamanına aid deyil və müsəlmanların vilayət fəqihi məsləhət bilərsə, ibtidai cihad hökmünü verə bilər.

٢. İslam dövlətinin qayda-qanunlarına tabe olan və onun himayəsində yaşayan kitab əhli (məsələn, yəhudilər, məsihilər və zərdüşlər) müxalif işlər görməsələr, əhd bağlayanlar hökmündədirlər (yəni gərək onların canı, malı və abrı qorunsun, şəri hüquq və qanunlarına riayət olunsun.[١]

٣. Əgər kafirlər islam ölkəsinə hücum edərlərsə və onlardan kimsə müsəlmanlara əsir düşərsə, onların taleyi islam hakiminin əlindədir və heç bir müsəlmanın əsirlərin taleyini həll etməyə haqqı yoxdur. Buna görə də heç bir müsəlmanın icazəsi yoxdur ki, kitab əhli olan, ya kitab əhli olmayan kafiri, istər kişi olsun, istər qadın kafir və ya müsəlman ölkəsində öz mülkünə keçirsin.[٢]

٢. Müdafiəli cihad

١) İslam və müsəlmanları müdafiə etmək vacibdir və bundan ötrü valideynlərin icazəsi vacib deyil, amma eyni halda onların razılığını cəlb etmək bəyənilir.

---

[١] Şəri suallara cavab, ١٠٥٠

[٢] Şəri suallara cavab, ١٠٥١

SUALLAR:

١.Cihad nədir?

٢.Cihadın qismlərini bəyan edin.

٣.İbtidai cihaddan məqsəd nədir?

٤.Məsum İmamın qeyb dövründə ibtidai cihadın hökmü nədir? Camiuş-şərait fəqih (vəliyyi-əmr) buna hökm edə bilərmi?

٥. Müsəlmanın icazəsi varmı ki, kitab əhli olan, ya kitab əhli olmayan kafiri, istər kişi olsun, istər qadın, kafir və ya müsəlman ölkəsində öz mülkünə keçirsin?

٦. İslam və müsəlmanları müdafiə etməkdən ötrü valideynlərin razılığı şərtdirmi?